ALATORAN

Fərhad Cabbarov

# HƏDƏF – BAKI: “QARA QIZIL” UĞRUNDA MÜBARİZƏ. 1917-1922

Fərhad Cabbarov

Hədəf – Bakı:
“Qara qızıl” Uğrunda Mübarizə.
1917-1922

Dizayner:
Turqut Qaraca

Çap tarixi:
15.08.2021

242 səh.

© Alatoran 2021
www.alatoran.com
E-mail: rasim.karaca@gmail.com
Telefon: (012)4953416

*Müzəffər Azərbaycan Ordusuna*
*ithaf olunur.*

# MÜNDƏRİCAT

Ön söz ....................................................................................9
I. Təlatümlü illər ərəfəsində ..............................................13
II. "Rusiyanın taleyi Bakıdan göndərilən
neftin həcmindən asılıdır..." ..............................................21
III. Azərbaycanın müstəqilliyinin elan olunması və
Bakı nefti uğrunda mübarizənin kəskinləşməsi .................59
IV. Neft və aprel işğalı ..........................................................77
V. Bakı neftinin yeni sahibi ................................................113
VI. Sovet Rusiyasının Cənubi Qafqaz siyasətində
Bakı nefti amili ..................................................................145
VII. Bakı nefti yenidən dünya bazarlarına çıxarılır ..........159
VIII. Bakı neft sənayesində konsessiya siyasəti ...............177
IX. Genuya və Haaqa beynəlxalq konfranslarında
Bakı nefti uğrunda mübarizə ............................................195
Sözardı ..................................................................................223
Biblioqrafiya ........................................................................227
Adlar göstəricisi ...................................................................235

# ÖN SÖZ

Azərbaycanın əsas təbii sərvəti olan neft əsrlər boyu təsərrüfatda, hərbi işdə, təbabətdə istifadə edilsə də, XIX yüzilin ikinci yarısına qədər iqtisadiyyatda və siyasətdə hələ əhəmiyyətli rol oynamırdı. Dünyanın qabaqcıl ölkələrində sənayenin coşğun inkişafı, dəmir yolu tikintisinin genişlənməsi, yeni texniki kəşflərin tətbiqi ilə vəziyyət köklü şəkildə dəyişməyə başladı. Məhz həmin dövrdə dünya neft sənayesinin əsas mərkəzlərindən biri olan Bakıda yaşanan "neft bumu" şəhərin simasını tamamilə dəyişərək, onu dünyanın ən sürətlə artan, yüzlərlə iş adamını özünə cəlb edən, minlərlə fəhləyə iş yeri verən şəhərlərindən birinə çevirdi. XIX əsrin sonu-XX əsrin əvvəllərində Bakı dünyada çıxarılan neftin 50, Rusiya imperiyasında hasil olunan neftin isə 95 %-ni verirdi. XX əsrin əvvəllərinədək neft hasilatına görə Bakı dünyada birinci yeri tuturdu. "Əgər neft kraliçadırsa, Bakı onun taxt-tacıdır" ifadəsinin məhz o dövrdə yaranması təsadüfi deyildi.

XX əsrin əvvəllərində neft artıq uğrunda müharibələrin aparıldığı və rəqabətin gücləndiyi mühüm strateji resursa çevrildi. Böyük dövlətlər dünyanın əsas neft mənbələri – Bakı, Latın Amerikası, Yaxın və Orta Şərq uğrunda kəskin mübarizəyə başlayaraq, özlərini neft yataqları və satış bazarları ilə təmin etməyə çalışırdılar. Duru yanacağın hərbi-iqtisadi əhəmiyyətini artıran Birinci Dünya müharibəsi həmin mübarizənin tarixində yeni səhifəni açmış oldu. 100 ildən artıq müddət ərzində Bakı neftinin mütləq sahibi olmuş Rusiya imperiyasının dağılması, Cənubi Qafqaz regionunda cərəyan edən siyasi hadisələr Bakıya diqqəti artırdı. Özünün təbii sərvətinə görə Bakı Sovet Rusiyasının, Böyük Britaniyanın, Osmanlı dövlətinin, Almaniyanın xarici siyasətinin obyektinə çevrildi. Bakını nəyin bahasına olursa-olsun tutmaq və onu əldə saxlamaq, düşmənin əlinə keçməsin deyə, hətta neft mədənlərini yandırmaq – bunların hamısı "neft taxt-tacı" uğrunda aparılan mübarizənin tərkib hissələri idi. Bakı neftinə görə aşkar və gizli sövdələşmələr baş tutur, keçmiş müttəfiqlər barışmaz rəqiblərə çevrilirdi...

1918-ci ildə müstəqil Azərbaycan Cümhuriyyətinin qurulması ilə Azərbaycan xalqı yenidən öz təbii sərvətinin sahibi oldu. Lakin Bakı nefti uğrunda mübarizə səngimədi –müstəqil dövləti tanımayan Sovet Rusiyası Azərbaycan ərazisindən gizli şəkildə neft məhsullarını daşıyır, əvəzində isə yerli bolşeviklərin milli hökumətə qarşı mübarizə aparması üçün onlara silah-sursat, pul, inqilabi ədəbiyyat göndərirdi. Azərbaycan Cümhuriyyətinin bütün cəhdlərinə rəğmən Sovet Rusiyasının ikitərəfli iqtisadi və siyasi münasibətlərin qurulmasından imtina etməsinin əsas səbəblərindən biri də neft amili idi. Cümhuriyyəti bərabərhüquqlu tərəfdaş kimi qəbul etmək istəməyən Rusiya 1920-ci ilin aprelində Bakını işğal etdi və Azərbaycan neftinə yiyələndi.

Aprel işğalından sonra da Bakı nefti beynəlxalq münasibətlərdə mühüm yer tuturdu. İlkin mərhələdə Bakı nefti Cə-

nubi Qafqazda sovet hakimiyyətinin qurulmasında və Cənubi Qafqaz respublikaları federasiyasının iqtisadi təməlinin formalaşdırılmasında istifadə olunurdu. Eyni zamanda, Sovet Rusiyası dünya bazarlarına çıxmaq, neft ixracını genişləndirmək, Qərbi Avropanın və ABŞ-ın beynəlxalq neft bazarlarında inhisarına son qoymaq üçün də Bakı neftindən istifadə edirdi.

Beləliklə, çoxsaylı faktlar sübut edir ki, Birinci Dünya müharibəsinin sonlarından etibarən 1922-ci ildə Sovet İttifaqının təşkil olunmasınadək Bakı nefti beynəlxalq münasibətlərdə böyük rol oynayırdı. Əminəm ki, hadisələrlə zəngin olan bu dramatik dövrün tədqiqi Azərbaycan tarixi üçün yeni və maraqlı səhifələrin açılmasında kömək edəcək.

# I.

# TƏLATÜMLÜ İLLƏR ƏRƏFƏSİNDƏ

1872-ci ildə iltizam sisteminin ləğvi Bakıda "neft bumu"-nun başlanğıcı hesab olunur. Bundan sonra neftli torpaqların sərbəst satışı, yeni quyuların qazılması başlandı, mədənlər salındı, firmalar təsis olundu, neft emalı zavodları, neft kəmərləri inşa edildi. Neft öz xüsusiyyətlərinə görə yanacağın digər növlərindən daha üstün olduğu üçün onları tədricən sıxışdırır, əsas enerji mənbələrindən birinə çevrilir, nəqliyyatda və hərbi işdə yanacaq, kimya sənayesinin bir çox sahələrində isə xammal kimi istifadə edilirdi. XX əsrin etibarən neft həqiqətən də "əsrin yanacağı" oldu. Bunu aşağıdakı rəqəmlər əyani şəkildə nümayiş etdirir: 1900-cü ildən 1904-cü ilədək dünyada neft hasilatı 126 dəfə, "qara qızıl"ın əsas rəqibi olan kömürün hasilatı isə cəmi 3 dəfə artmışdır.[1]

---

[1] Əliyev İ.H. Azərbaycan nefti dünya siyasətində: II cild. Bakı, 1997, s. 42.

Bakıda neft sənayesinin coşğun inkişafı başlayandan sonra xarici şirkətlərin, xüsusilə iri inhisarların bu sərvətə yiyələnmək cəhdləri artdı. İnhisarlar öz milli hökumətləri ilə sıx bağlı olduğundan iqtisadi rəqabət böyük dövlətlərin nüfuz dairələri, bölgədə strateji mövqelər uğrunda mübarizəsi ilə bərabər aparılırdı. XIX əsrin sonlarından etibarən neft dünya siyasətində güclü amilə çevrildi. Rusiya alimi İvan Qubkinin təbirincə desək, "...neft bütün məhsullar içərisində "ən siyasi" məhsul"[2] oldu. Bu günədək öz aktuallığını itirməyən sözlər...

Neft mənbələri, nüfuz dairələri, neftin nəqli marşrutları uğrunda mübarizə dünyanın böyük dövlətlərinin xarici siyasətinin tərkib hissəsi idi. Bu cəhətdən öz ərazisində neft mənbələrinə malik olan ölkələrin vəziyyəti daha əlverişli idi, çünki onlar dünyanın neft rayonlarına müdaxilə etmək üçün yollar və vasitələr axtarmaq məcburiyyəti ilə üzləşmirdilər. Buna görə də Bakı neft rayonunun Rusiya imperiyası üçün əhəmiyyətini təsəvvürə gətirmək çətin deyil. Dövlətə xeyli gəlir gətirən Bakı Rusiyanın dünya hasilatında və ixracatında sabit mövqeyini təmin etməklə, onu xarici asılılıqdan azad edirdi. Yüzlərlə yerli və xarici firmalar Bakı neft sənayesinə sərmayə yatıraraq, qısa vaxt ərzində böyük mənfəət qazanırdılar. Ümumrusiya neft hasilatının 95 %-nin Bakının payına düşməsi "qara qızıl"ın əhəmiyyətini daha da yüksəldir və Rusiya imperiyasının dünya miqyasında xüsusi çəkisinin artmasına səbəb olurdu. Belə ki, əgər 1890-cı ildə dünya neft hasilatında Rusiyanın payı 38 %, Amerika Birləşmiş Ştatlarının payı 60 %-ə bərabər idisə, 1900-cü ildə həmin göstərici müvafiq olaraq 51 % və 43 % təşkil edirdi.[3] Bakıda neft

---

[2] Гофман К. Нефтяная политика и англо-саксонский империализм. Ленинград, 1930, с. 2.

[3] Ахундов Б.Ю. Монополистический капитал в дореволюционной нефтяной промышленности. Москва, 1959, с. 13.

hasilatı ABŞ ilə eyni səviyyəyə çatdı, XIX əsrin sonunda isə Bakı dünyada birinci yeri yerə çıxdı. Neft sənayesinin coşğun inkişafı Bakının Rusiya imperiyasının sənaye potensialında xüsusi çəkisinin də dəyişməsinə səbəb oldu. XIX əsrin sonunda Bakı şəhəri Rusiyanın aparıcı sənaye regionlarından biri olan Uralı ötüb keçdi və yalnız Mərkəzi sənaye regionundan, həmçinin Rusiyanın cənub regionundan geridə qalaraq, ölkə miqyasında üçüncü yerə çıxdı.[4]

Bakı neft sənayesinin tarixinə nəzər salarkən, xarici kapitalın iştirakı məsələsinə toxunmaq zərurəti ortaya çıxır. 1894-1901-ci illər ərzində Rusiyanın neft sənayesinə yatırılan xarici sərmayələr 30 dəfə – 2,6 mlrd. rubldan 83,4 mlrd. rubla qədər artmışdır.[5] Rusiya tarixçisi Aleksandr Fursenko xarici kapital qoyuluşunun artmasını üç amil ilə izah edirdi. Həmin amillər 1917-1922-ci illərdə xarici dövlətlərin Bakı uğrunda mübarizəsinin səbəblərini və gedişini izləmək üçün olduqca böyük əhəmiyyətə malikdir. Xarici kapitalı ilk növbədə istehsal prosesinə və işçilərin əməkhaqqının ödənilməsinə sərf edilən xərclərin azlığı, həmçinin Bakı neftinin maya dəyərinin aşağı olması fonunda Rusiyada neft işinin böyük gəlirlər gətirməsi cəlb edirdi. İkincisi, beynəlxalq rəqabət, Rusiyanın xarici siyasət prioritetləri uğrunda mübarizə dünyanın aparıcı dövlətlərini Bakının neft resurslarına yiyələnmək meyllərini şərtləndirirdi. Nəhayət, Rusiyanın özünün iqtisadi zəifliyi daim xaricdən borcların alınmasını və sənayeyə xarici sərmayələrin cəlb olunmasını zəruri edirdi. Məhz sonuncu səbəbə görə çar hökuməti xarici kapitalın sənayeyə, o cümlədən, neft sənayesinə axınını təşviq edirdi.

---

[4] Новейшая история Отечества. XX век. Москва, 1999, с. 39.

[5] Фурсенко А.А. Нефтяные войны (конец XIX-начало XX вв.). Ленинград, 1985, с. 46.

Bakı neft sənayesinin ilk baxışdan rəvan görünən inkişafı XX əsrin əvvəllərində baş verən dünya iqtisadi böhranının, daha sonra başlanan durğunluq dövrünün, 1905-1907-ci illər inqilabının ağır nəticələri səbəbindən pozulmuşdur. Araşdırılan mövzu ilə əlaqədar olaraq XX əsrin əvvəllərində Bakı neft sənayesində yaranan vəziyyət üzərində daha ətraflı dayanmaq zərurəti var. Bu, bir tərəfdən öyrənilən dövrdə Bakıda mövcud olan şəraiti qiymətləndirməyə, digər tərəfdən isə neft sənayesindəki böhranın daxili səbəblərini üzə çıxarmağa imkan verir. İkinci məqam xüsusilə aktualdır, çünki bəzi əsərlərdə həmin dövrün hadisələri müxtəlif cür və çox vaxt birtərəfli işıqlandırılır. Məsələn, sovet tarixşünaslığı neft sənayesindəki böhrana görə bütün günahı xarici müdaxiləçilərin və Cümhuriyyət hökumətinin üzərinə yıxırdı. Xarici və bəzi müasir Azərbaycan müəllifləri əsas səbəbi bolşeviklərin Bakıda hökmranlığında görürlər. Lakin hər iki amili inkar etmədən vurğulamaq lazımdır ki, onların neft sənayesinə yalnız müəyyən dövrdə, konkret olaraq, 1917-1920-ci illərdə təsir göstərməsi haqqında danışmaq olar. Problemə daha geniş yanaşma isə söyləməyə əsas verir ki, Bakıdakı böhranlı durumun kökləri 1917-ci ildən daha əvvələ gedib çıxır. 1917-1920-ci illərdə, qismən isə 1921-1922-ci illərdə cərəyan edən bütün hadisələr birbaşa və ya dolayısı ilə XX əsrin əvvəllində baş vermiş proseslərlə bağlı idi.

Beləliklə, XX yüzilin başlanğıcında Rusiyada böyük iqtisadi və siyasi sarsıntılar yaşanırdı və bu proseslər təbii ki, Bakıya da təsirsiz ötüşməmişdir. 1900-1903-cü illər böhranından, həmçinin 1905-1907-ci illərin inqilabi hadisələrindən sonra neft hasilatı və emalı durmadan aşağı düşürdü. Neft istehsalının azalması Bakının ümumrusiya hasilatında payına da mənfi təsir göstərmişdir: 1910-cu ildə bu göstərici 84,7 %-ə, 1913-ci ildə isə 79,6 %-ə bərabər idi. 1901-ci ildən 1903-cü

ilədək Bakıda neft hasilatı 33,2 % aşağı düşmüşdür.[6] Hasilat və emalın aşağı düşməsi ilə yanaşı, ixracat da azalmışdır. Mövcud vəziyyətdən istifadə edən ABŞ-ın "Standart oyl" tresti 1904-cü ildə Rusiya ixracatçılarını beynəlxalq bazarların bölüşdürülməsi haqqında sazişi imzalamağa məcbur etmişdir. Həmin saziş Bakıda fəaliyyət göstərən Rotşild və Nobel firmalarının mövqeyinə ciddi zərbə vuraraq, onları Qərbi Avropa ölkələri üçün zəruri olan neft məhsullarının yalnız cüzi hissəsinin təchizatçısına çevirirdi.[7] Bakıda neft hasilatının azalması nəticəsində Rusiyanın neft ölkəsi kimi rolu zəifləmiş, ABŞ-ın mövqeyi isə artmışdır.

1914-cü ildə başlayan Birinci Dünya müharibəsi neft sənayesi üçün yeni sınaq oldu. Dəmir yolları müharibənin ehtiyacları üçün yükləndiyindən, Rusiyanın özündə texniki materialların qıtlığı, həmçinin xarici bazarların bağlanması səbəbindən Bakıya texniki materialların gətirilməsi xeyli çətinləşmişdi. Maliyyə vəsaitlərinin çatışmazlığı, neft məhsullarının ixracının dayandırılması, texniki materialların qiymətində artım və işçi qüvvəsinə sərf olunan xərclərin çoxalması əlavə çətinliklər yaradırdı. Yeni quyuların qazılması azalmış və ya tamamilə dayandırılmışdır ki, bu da gələcəkdə neft hasilatına daha ağır təsir göstərəcəkdi.

Statistik məlumatlardan görünür ki, 1913-cü ildən 1917-ci ilə qədər dörd əsas neftçıxarma rayonunda – Balaxanıda, Sabunçuda, Ramanada və Bibi-Heybətdə hasilat durmadan aşağı düşürdü (cüzi artım yalnız 1915-ci ildə müşahidə edilirdi). 1913-cü il ilə müqayisədə 1917-ci ildə hasilat 2 dəfəyədək azalmışdır.[8]

---

[6] Ибрагимов М.Дж. Нефтяная промышленность Азербайджана в период империализма. Баку, 1984, с. 54.

[7] Ахундов Б.Ю. Göst. əsəri, s. 172.

[8] Нефтяное дело, 1918, №17-20, стлб. 6.

Neft sənayesində böhran ixracatın azalmasına da təsir göstərmişdir. Bunun nəticəsində Bakıda xeyli miqdarda satılmamış neft məhsulları yığılıb qalmışdır. Anbarlarda yığılan neft ehtiyatı 1913-cü ildəki 1,3 mln. tondan 1917-ci ildə 1,5 mln. tona qədər artmışdır.[9] Həmin ehtiyatların böyük hissəsi 1918-ci ildə Bakı bolşevikləri tərəfindən Sovet Rusiyasına daşınırdı. Yüksək keyfiyyətli məhsullar sayılan və əsasən ixraca gedən ağ neftin, benzinin və sürtkü yağlarının ehtiyatları daha çox artmışdır. Daxili bazar isə əsasən neft qalıqlarını (xüsusilə mazutu) istehlak edirdi ki, müharibə illərində bu məhsulların istehsalı azalmamışdır. Beləliklə, neft ixracının kəskin aşağı düşməsi istehsal edilən məhsulun strukturunda da dəyişikliklərə gətirib çıxarmışdı. Xroniki yanacaq çatışmazlığı ilə üzləşən çar hökuməti neft ixracının genişləndirilməsinə ciddi maraq göstərmirdi. Bununla belə, ölkə daxilində yanacağa tələbat həddindən artıq çox olsa da, yerli bazar neft məhsullarının texniki baxımdan ən qiymətli hissəsinin ixrac olunduğu xarici bazarın itirilməsini kompensasiya etmək iqtidarında deyildi.

İxracatın azalması nəticəsində neft emalı zavodları mazut istehsalına daha çox üstünlük verməyə başladılar. Bakıdan Rusiyaya daha çox mazut daşınırdı: ümumi daşımada onun payı 1913-cü ildə 69,4 %-dən 1915-ci ildə 81,7 %-dək artmışdır. Digər neft məhsullarının payı isə əhəmiyyətli dərəcədə azalmışdır: ağ neft – 22,4 %-dən 14,7%-dək, sürtkü yağları – 5,1 %-dən 1,7 %-dək, benzin – 1 %-dən 0,3%-dək.[10] 1914-cü ilin oktyabrında Bakıdan neft məhsullarının əsasən ixrac olunduğu Bosfor və Dardanel boğazlarının Osmanlı hökuməti tərəfindən bağlanması isə həm Qərbi Avropa, həm

[9] Ахундов Б.Ю. Göst. əsəri, s. 183.

[10] Мурадалиева Э.Б. Кровь земная – нефть Азербайджана и история. Баку, 2005, с. 89.

də Yaxın Şərq bazarlarının tamamilə itirilməsi demək idi. ABŞ Bakı neft məhsullarının ixrac olunduğu ənənəvi bazarlarda hökmranlıq etməyə başladı.[11]

İxracatda yaranan çətinliklərə baxmayaraq, Bakı neftinin əsas istehlakçısı yenə də Rusiya bazarı idi. Statistik göstəricilərdən göründüyü kimi, şimal istiqamətində daşımalar ümumi daşımanın 80-90 %-ni təşkil edirdi.[12] Rusiya bazarı Bakı neft sənayesi üçün həmişə xüsusi önəm kəsb etmiş və buna görə irəlidə bəhs olunduğu kimi, 1918-1920-ci illərdə həmin bazarın itirilməsi Bakıdakı vəziyyətə olduqca mənfi təsir göstərmişdir.

Beləliklə, neft sənayesinin XIX əsrin sonuncu rübündə başlanan coşğun yüksəlişi 1900-cü ildə böhranla əvəz olundu. Rusiya sənayesinin aparıcı sahələrindən biri iqtisadi və siyasi təlatümlər dövrünə qədəm qoydu. Bakı nefti dünya bazarlarında aparıcı mövqelərini itirdi. Neft mədənləri fəhlə tətillərinin və millətlərarası toqquşmaların meydanına çevrildi. Məhz bu göstəricilərlə Bakı neft sənayesi 1917-ci ilə daxil olurdu. Hasilatın və emalın azalması, texniki materialların çatışmazlığı, ixracatın dayanması, həmçinin bir sıra ictimai-siyasi amillər neft sənayesini fəlakət həddinə çatdırdı, sonrakı hadisələr isə bu faciəni qaçılmaz etdi.

[11] Алияров С.С. Нефтяные монополии в Азербайджане в период первой мировой войны. Баку, 1974, с. 20.

[12] Нефтяное дело, 1919, №15-16, стлб. 4-5; Вывоз бакинских нефтепродуктов в 1920-1923 гг. / Азербайджанское нефтяное хозяйство, 1924, №3, с. 61.

# II.

# "RUSİYANIN TALEYİ BAKIDAN GÖNDƏRİLƏN NEFTİN HƏCMİNDƏN ASILIDIR..."

Əgər XIX əsrin sonu-XX əsrin əvvəllərində neft uğrunda rəqabət aşkar iqtisasi xarakter daşıyırdısa, sonrakı dövrdə bu rəqabət siyasi müstəvidə də aparılmağa başladı. Neft uğrunda gedən mübarizə tədricən dünya münaqişələrinin tərkib hissəsinə çevrilir, neft məsələsi isə beynəlxalq münasibətlərdə, böyük dövlətlərin xarici siyasətində önəmli yer tuturdu.[13]

XX əsrin 20-ci illərində ABŞ müəllifi Pec Arnot yazırdı: "1914-1918-ci illərin hadisələri sübut etdi ki, neft hərbi təchizatın ən mühüm növüdür. Aeroplanları, sualtı qayıqları neftsiz təsəvvür etmək mümkün deyil, neftin hərbi və ticarət donanmasında və yerüstü nəqliyyatda istifadəsi haqqında isə danış-

[13] Мурадалиева Э.Б. Göst. əsəri, s. 81.

maq artıqdır. Neftin hərbi işdə əhəmiyyəti aydın olandan sonra böyük dövlətlərin hamısı özlərini neftlə lazımi qədər və fasiləsiz təmin etməyə tələsdilər. Bunun üçün hər dövlət qiymətli neft yataqlarına yiyələnmək naminə hətta müharibə riskinə gedib başqası ilə münaqişəyə girməyə hazır idi."[14]

Birinci Dünya müharibəsi illərində Bakı dünyada çıxarılan neftin 15,7 %-ni verirdi.[15] Bu amil vuruşan dövlətlərin diqqətini Bakı neftinə cəlb edirdi. Müharibədə iştirak edən ölkələr hərbi-strateji planlarını hazırlayarkən mövcud neft ehtiyatlarının öyrənilməsinə xüsusi diqqət verirdilər. Nəticədə məlum olmuşdur ki, Bakıda çox zəngin neft ehtiyatları var. Birinci Dünya müharibəsindən sonra ABŞ-ın Geologiya komitəsinin dərc etdirdiyi məlumata görə, dünya neft ehtiyatları aşağıdakı kimi bölünürdü: Cənubi Amerika ölkələri – 21,5 %, ABŞ – 16,3 %, Rusiya – 15,7 %, İran və İraq – 13,5 %, Çin və Yaponiya – 9,9 %, Hollandiya və Britaniya Hindistanı – 9,3 % və s.[16]

Göründüyü kimi, əsas neft rayonları müharibədə müttəfiq olan Rusiya, Böyük Britaniya, Fransa və ABŞ-ın əlində cəmləşmişdi və bu göstəriciyə görə onlar rəqiblərindən – Almaniya və onun müttəfiqlərindən xeyli üstün idilər. Birinci Dünya müharibəsi zamanı Rusiyaya qarşı vuruşan Almaniya düşməninin hərbi və iqtisadi cəhətdən zəiflədilməsi üçün Bakı neft mədənlərinin məhv edilməsinə xüsusi önəm verirdi. Bu məqsədlə mütəxəssislər ayrılmış və onlara xüsusi tapşırıqlar verilmişdi. Bakı neft mədənlərini, kommunikasiya vasitələrini məhv etməyi planlaşdıran almanların məqsədi bölgədə dağıdıcı fəaliyyət təşkil etmək, sabotaj yolu ilə körpü və dəmir yolla-

[14] Арнот П. Мировая политика нефти. Москва-Ленинград, 1925, с. 7.

[15] Алияров С.С. Göst. əsəri, s. 20.

[16] Алиев А.П. История борьбы против капиталистических нефтяных монополий и выхода советской нефти на мировой рынок (1920-1937) / Автореферат диссертации доктора исторических наук. Баку, 1960, с. 7.

rının istifadəsini çətinləşdirmək, Bakıdan Tiflisə, Batumiyə və Qara dənizə uzanan boru xəttini sıradan çıxarmaq idi.[17]

Müharibənin sonuna doğru Dördlər ittifaqına (Almaniya, Avstriya-Macarıstan, Osmanlı və Bolqarıstan) qarşı vuruşan Antanta ölkələri (Böyük Britaniya, Fransa, Rusiya) qələbəyə nail olmaq üçün ənənəvi neft bölgələrini nəzarət altında saxlamağa ciddi əhəmiyyət verirdilər. Böyük Britaniyanın Baş naziri Devid Lloyd-Corc deyirdi: "Əgər Mərkəz dövlətləri [Almaniya və müttəfiqləri – *F.C.*] müharibəni davam etdirmək üçün çox zəruri olan rus taxılının və neftinin zəngin ehtiyatlarını keçirə bilsəydilər, onda müharibə bir neçə ilə uzanardı. Biz başa düşürdük ki, Almaniya və Avstriya üçün bu həyati əhəmiyyət daşıyan məsələdir, Almaniyanın uğuru və ya məğlubiyyəti əslində bundan asılı idi və biz əmin idik ki, düşməni adıçəkilən ehtiyatlardan istifadə etmək imkanlarından məhrum etmək üçün bütün tədbirləri görmək lazımdır."[18]

1917-ci ildə Rusiyada baş verən siyasi hadisələr Cənubi Qafqazda vəziyyəti köklü şəkildə dəyişdirdi. İmperiyanın süqutu, 1917-ci ilin oktyabrında baş vermiş bolşevik çevrilişi faktiki olaraq Rusiyanı Bakı neftinin mütləq sahibi statusundan məhrum etdi. Belə bir şəraitdə həm Antanta, həm də Dördlər İttifaqı ölkələri Bakının "qara qızıl"ını ələ keçirmək uğrunda açıq mübarizəyə başladılar. Lakin Rusiyada hakimiyyətə gələn bolşeviklər də bu sərvəti əldən buraxmaq niyyətində deyil idilər. Sovetlərin Bakıdakı maraqları bir sıra amillərlə bağlı idi. Cənubi Qafqazın digər hissəsi Petroqraddakı oktyabr çevrilişini tanımadığı halda Bakı bir növ qırmız inqilabın "adası", sovet hakimiyyətinin regionda yeganə strateji istinadgahı rolunu oynayırdı. Sovet Rusiyasının Bakıda əsas

[17] Qafarov V.V. Azərbaycan Türkiyə-Rusiya münasibətlərində (1918-1922). Bakı, 2020, s. 53.

[18] Ллойд-Джордж Д. Военные мемуары: Т. 5. Москва, 1938, с. 88.

dayağı Stepan Şaumyan başda olmaqla yerli bolşeviklər idi. Onlar 1917-ci ilin noyabrında şəhərdə real hakimiyyətin Bakı Fəhlə, Əsgər və Matros Deputatları Sovetinin əlinə keçməsinə və bu qurumda öz nüfuzlarının möhkəmlənməsinə nail oldular. Bolşeviklər Tiflisdə fəaliyyət göstərən və Azərbaycan, gürcü, erməni nümayəndələrinin təmsil olunduğu Zaqafqaziya Seyminin Sovet Rusiyasını tanımamaq mövqeyindən ciddi narahat idilər. Bakı Sovetinin 1918-ci il martın 3-də qəbul etdiyi qətnamədə seymin Cənubi Qafqazın Rusiyadan ayrılması haqqında bəyanatına etiraz bildirilmiş və bu qərar bölgədə "türk hökmranlığının" bərqərar edilməsi yolunda atılan "ilk və qətiyyətli addım" kimi qiymətləndirilmişdi.[19]

Bütün bunlarla yanaşı, Rusiyanın yeni hökumətinin Bakıdakı maraqları neft amili ilə əhəmiyyətli dərəcədə bağlı idi. Qeyd etmək lazımdır ki, bu zaman bütün başqa bölgələr bolşeviklərin nəzarətindən kənarda qaldığından Bakı Sovet Rusiyasının yeganə yanacaq bazası idi. Digər tərəfdən, bolşeviklər Bakı neftinə özlərinin bir çox daxili və xarici siyasi planlarının həyata keçirilməsində mühüm vasitə kimi baxırdılar.

Bolşeviklərin Bakıda hökmranlıq dövrü neft sənayesi üçün əsl fəlakətlə nəticələnmişdir. Sovetlərin bu sahədə həyata keçirdiyi bütün tədbirlər göstərdi ki, siyasi maraqlar iqtisadi qanunlardan üstün tutulurdu. Neft sənayesi hər zaman öz strukturunun mürəkkəbliyi ilə seçilir, problemlərə dəqiq, düşünülmüş yanaşma, özünəməxsus xüsusiyyətlərin nəzərə alınmasını tələb edirdi. Bolşeviklərin siyasətində bunların heç biri yox idi. Yeni hökumətin iqtisadiyyatda özəl sektorun ləğvinə, sənayenin milliləşdirilməsinə yönəlmiş tədbirləri Bakıda eyniliklə təkrarlanırdı.

---

[19] Azərbaycan tarixi arxiv sənədlərində (1917-1920-ci illər): I cild. Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivinin sənədləri. Tərtibçi İ.Niftəliyev. Bakı, 2010, s. 49.

Burada haşiyə çıxaraq, iri sənayenin milliləşdirilməsi məsələsinin nəzəri aspektləri üzərində qısaca dayanmaq məqsədəuyğun olardı. İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi ideyası XX əsrin birinci yarısında bir çox ölkələrin iqtisadi fikir tarixində mərkəzi yeri tuturdu. Sərbəst bazar iqtisadiyyatının sürətli inkişafı bəzi sahələrin öz miqyasına görə özəl mülkiyyət çərçivələrini aşması ilə nəticələndi, bu isə bir sıra ölkələrdə iqtisadi, siyasi (hərbi-strateji) məqsədlər naminə dəmir yollarının, rabitənin milliləşdirilməsinə gətirib çıxardı. İlk növbədə hərbi sənaye sahələri, həmçinin uzunmüddətli iri kapital qoyuluşu tələb edən sahələr (o cümlədən, yanacaq-energetika sektoru) milliləşdirilirdi. Bir qayda olaraq, müəssisələrin keçmiş sahiblərinə böyük həcmdə, bəzən milliləşdirilmiş mülkiyyətin dəyərindən xeyli artıq kompensasiya ödənilirdi.

Rusiyanın özündə milliləşdirmə məsələsinə iki baxış mövcud idi. Sağ yönümlü siyasətçilər və iqtisadçılar dövlətin sənayenin strateji sahələri (o cümlədən, neft sənayesi), istehsal prosesi və qiymətlər üzərində birbaşa nəzarətinin tətbiq olunmasını, gələcəkdə isə texniki imkanlar yarandıqca ticarətin və hətta ayrı-ayrı malların istehsalının dövlət inhisarına götürülməsini təklif edirdilər. Onlar bu tədbirlərə sahibkarlar tərəfindən əsassız qiymət artımlarına (1900-1903-cü illər böhranı zamanı neft məhsullarının qiymətlərinin artımı kimi) qarşı effektiv mübarizə vasitəsi kimi baxırdılar.

Neft sənayesində dövlətin rolunun artırılması tərəfdarlarının digər qrupu – bolşeviklər isə hesab edirdilər ki, xarici inhisarların fəaliyyəti ölkəni iqtisadi asılılığa gətirib çıxarır və geniş xalq kütlələrinin maraqlarına cavab vermir. Bakıda 1903-1905-ci illərdə fəhlə tətilləri zamanı bu qrupun tərəfdarlarının sayı artmışdır. Həmin tətillər vaxtı müəssisələrdə fəhlə nəzarətinin tətbiqi, həmçinin fəhlələrin neft sənayesinin idarə olunmasında iştirakı haqqında tələblər irəli sürən həmkarlar

ittiffaqları 1904-cü ilin dekabrında Rusiya tarixində ilk müştərək müqavilənin imzalanmasına nail oldular.

Neft sənayesinin dövlət inhisarına alınması tərəfdarlarının hər iki qrupunun proqramlarına nəzər saldıqda onlar arasında prinsipial fərqlər diqqəti çəkir. Əgər sağçılar dövlətin iqtisadiyyata müdaxiləsinin zəruriliyini əsaslandıraraq bunun kapitalizm sisteminin təkmilləşdirilməsinə xidmət edəcəyini düşünürdülərsə, bolşeviklər dövlətin iqtisadi fəaliyyətini sosializmə aparan tədbir kimi dəyərləndirirdilər. Buna görə də Bakıda neft sənayesinin milliləşdirilməsi haqqında danışarkən onu bolşevik interpretasiyasında başa düşmək lazımdır. Sovet Rusiyasının rəhbəri Vladimir Lenin bu siyasətin vacibliyini belə izah edirdi: "Neft sənayesinin dərhal milliləşdirilməsi mümkündür və xüsusən inqilabi-demokratik dövlət üçün böyük bir böhran keçirdiyi, xalq əməyinə necə olursa-olsun qənaət etmək və yanacaq istehsalını artırmaq lazım gəldiyi bir zamanda həmin dövlət üçün məcburidir… Ciddi bir iş görmək üçün bürokratiyadan demokratiyaya keçmək, həm də həqiqətən inqilabi yolla keçmək, yəni neft krallarına və səhmdarlarına müharibə elan etmək lazımdır, neft işinin milliləşdirilməsini ləngitməyə, gəlirləri və ya hesabatı gizlətməyə, istehsala qarşı sabotajçılıq, istehsalı yüksəltmək üçün tədbir görməməyə görə onların əmlakının müsadirə ediləcəyi və onlara həbs cəzası veriləcəyi haqqında dekret vermək lazımdır..."[20]

Milliləşdirmənin gedişinə baxanda görürük ki, Bakı bolşevikləri məhz V.Leninin bəyan etdiyi "dərhal", "inqilabi yolla", "müharibə elan etmək", "müsadirə", "həbs" prinsiplərini rəhbər tuturdular. Bu üsullarla aparılan siyasət neft sənayesində daha böyük çətinliklər yaradırdı. Təbii ki, bolşeviklərin milliləşdirmənin fəhlə özünüidarəçiliyinə, demok-

[20] V.İ.Lenin Azərbaycan haqqında. Bakı, 1970, s. 117.

ratiyaya aparan yol olduğu barədə dedikləri deklarativ xarakter daşıyırdı. Bakı neft sənayesi üzərində dövlət inhisarının tətbiqi zərurəti iki səbəblə izah olunurdu: 1) iqtisadi böhran, vətəndaş müharibəsi və xarici müdaxilə dövrünü yaşayan Rusiyanı neftlə təmin etmək; 2) bolşeviklərə loyal olmayan burjuaziyanı neft sənayesi üzərindəki hökmranlıqdan məhrum etmək, onun nüfuzuna zərbə vurmaq.

Neft sənayesinin milliləşdirilməsi haqqında məsələ hələ 1917-ci ilin payızında, ölkədə yanacaq böhranı kəskinləşdiyi vaxtda Rusiya bolşeviklər partiyası Bakı komitəsinin təşəbbüsü ilə irəli sürülmüşdür.[21] Müəssisələrdə fəhlə nəzarətinin tətbiqi milliləşdirməyə doğru ilk addım olmalı idi. 1917-ci il noyabrın 15-də RSFSR Xalq Komissarları Soveti fəhlə nəzarəti haqqında dekret qəbul etdi. Dekabrın 11-də Bakı Sovetinin iclasında neft sənayesinin milliləşdirilməsi haqqında məsələ müzakirə olunarkən bolşevik liderlərindən biri Prokofiy Caparidze məsələ ilə bağlı demişdir: "...mədənləri öz nəzarətimiz altına almaq məsələsi istənilən halda qarşımızda dayanacaq və hal-hazırda müştərək müqavilələrin həyata keçirilməsi ilə əlaqədar bu məsələni həll etmək lazımdır."[22] İclasda fəhlə nəzarəti orqanlarının yaradılması, həmçinin neft sənayesinin milliləşdirilməsi məsələsinin təxirə salınmadan Sovet Rusiyasının hökuməti qarşısında qaldırılması haqqında qərar təsdiq olunmuşdur.[23] Göründüyü kimi, Bakı bolşevikləri milliləşdirmənin tezliklə həyata keçirilməsini arzulasalar da, son qərarın Rusiyadan gəlməsini gözləyirdilər. Bu, yerli sovet hakimiyyətinin kimə arxalandığını bir daha sübut edir.

.......................................................................................

[21] Гулиев Г.Б. Национализация промышленности Азербайджана (октябрь 1917-весна 1922 гг.) / Автореферат диссертации кандидата исторических наук. Баку, 1990, с. 18.

[22] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (bundan sonra – ARPİİSSA): f. 1, siy. 38, iş 221, v. 1.

[23] ARPİİSSA: f. 1, siy. 38, iş 221, v. 1.

1917-ci ilin sonundan 1918-ci ilin martınadək Bakının bütün müəssisələrində fəhlə nəzarəti tətbiq olundu.[24] Fəhlə komitələrinə müəssisə administrasiyalarının sərəncamverici və təsərrüfat fəaliyyətinə, fəhlələrin işə qəbulu və işdən azad olunması prosesinə, müəssisələrin xammal, yanacaq, pul vəsaitləri və s. ilə təminatı məsələlərinə qarışmaq ixtiyarı verilirdi. Müəssisələrdə kommersiya sirri ləğv olunurdu. Belə geniş səlahiyyətləri öz üzərinə götürən fəhlə nəzarəti orqanları əslində onları həyata keçirmək iqtidarında deyildilər. "Neftyanoye delo" qəzetində fabrik-zavod komitələrinin müəssisələrdəki rolu haqqında deyilirdi: "Komitələr yerli xarakter daşıdıqları üçün onlar, əlbəttə ki, öz müəssisələrinin şəraitinə və ehtiyaclarına, fəhlələrin maraqlarına bələddirlər… Bu komitə mütləq öz zavodunun istehsalının güclənməsinə, xammalın və yanacağın daha artıq miqdarda alınmasına, məhsulların qiymətinin artırılması hesabına belə əməkhaqqlarının yüksəldilməsinə çalışacaq. Dövlət və ya ictimai maraqlar naminə vacib olan əks fikirlər, məsələn, istehsalın azaldılması, digər müəssisənin xeyrinə yanacaqdan və xammaldan imtina olunması yerli komitə tərəfindən həmişə böyük çətinliklə qarşılanacaq və çətinliklə həyata keçiriləcək..."[25]

Fəhlə nəzarətinin tətbiqindən sonra müəssisələrin idarə olunması hüququ uğrunda fəhlələrlə sahibkarlar arasında kəskin mübarizə başladı. Birincilər fəhlə nəzarətini fəhlə idarəçiliyi kimi qələmə verirdilərsə, sahibkarlar bunu ənənəvi təsərrüfat fəaliyyətinin əsaslarını sarsıdan addım kimi dəyərləndirirdilər. Neft sənayeçiləri fəhlə nəzarətini sabotaj edir, qazma işlərini azaldırdılar. Bununla da hasilat aşağı düşür, neftin daşınması dayanırdı.

---

[24] Азимов Г.С. Бакинская коммуна. Баку, 1982, с. 75.
[25] Нефтяное дело, 1918, №11-12, стлб. 12.

Bakıda fəhlə nəzarətinin tətbiqi metodları haqqında bolşevik liderlərindən biri Saak Ter-Qabrielyan belə yazırdı: "İşlər müdirinin rolunu hər vəchlə məhdudlaşdırmağa çalışır, onları çox vaxt quyuların içinə salır, çörək və su verirdilər... Fəhlələr arasında böyük hərəkət müşahidə edilirdi, fəhlələrin çoxu işdən azad olunmuşdu. Onda biz müştərək müqavilələri həyata keçirdik və həmin müqavilələrlə müəyyən vəziyyəti dekretləşdirdik. Bu 1917-ci ilin oktyabrında və ya noyabrında idi. Həmin məqamda biz "milliləşdirmə" şüarını irəli sürə bilməzdik. Bunun əvəzində "məcburi trestləşdirmə" şüarı irəli sürülmüşdür..."[26] Göründüyü kimi, bolşevik hökuməti neft sənayesinin dərhal dövlət nəzarətinə götürülməsi tezisindən hələlik imtina etməyə məcbur oldu. Bolşeviklərin siyasətindəki dəyişikliyin səbəbi bu idi ki, xarici firmaların mülkiyyətinin milliləşdirilməsi hələ də möhkəm dayağı olmayan sovet hakimiyyətinin mürəkkəb durumunu daha da çətinləşdirə bilərdi. Milliləşdirmə ilk növbədə Rusiyanın neft sənayesində maraqları olan İngiltərəyə və Fransaya münasibətdə düşmənçilik addımı kimi dəyərləndiriləcəkdi. 1918-ci il yanvarın 28-də xarici borcların ləğv edilməsi haqqında bolşevik dekretinə Qərb dövlətlərinin reaksiyası bu narahatlığın əsassız olmadığını təsdiqlədi. Xarici dövlətlərin diplomatik nümayəndələrinin notasında bildirilirdi ki, onlar bu cür dekretləri qəbul etmir və təmsil olunduqları hökumətlər öz təbəələrinə dəyən zərərin ödənilməsini tələb etmək hüququnu özlərində saxlayırlar.[27]

Bu zaman isə Bakıdan kənarda siyasi vəziyyət sürətlə dəyişirdi. Rusiyadan ayrılan Cənubi Qafqazda xarici dövlətlərin, ilk növbədə, Almaniyanın və Osmanlı dövlətinin fəallığı ar-

---

[26] Косторниченко В.Н. К вопросу о национализации отечественной нефтяной промышленности в 1918 г. / Экономическая история. Обозрение. Выпуск 10. Москва, 2005, с. 86.

[27] Документы внешней политики СССР: Т.1, Москва, 1957, с. 98.

tırdı. Hər iki dövlət regionda özünə dayaq yaratmağa, həmçinin Bakının neft yataqlarını ələ keçirməyə çalışırdı. Qafqaz cəbhəsində Rusiya ilə müharibə aparan Osmanlı dövləti buna daha çox can atırdı. Osmanlıların Cənubi Qafqaz hökuməti ilə münasibətləri də mürəkkəb idi. Bölgədə strateji məntəqələri tutmaq niyyətində olan türklər Zaqafqaziya Seyminə güclü təzyiq göstərirdilər. Bəzi hallarda vəziyyət kəskin xarakter alır və hərbi münaqişə ilə nəticələnirdi. Həmin dövrdə Osmanlı dövləti Bakını antiazərbaycan bolşevik rejimindən xilas etmək işində Azərbaycan milli qüvvələrinin arxalana biləcəyi yeganə ölkə idi. Buna görə Rusiya Bakı kimi mühüm yanacaq bazasının, həmçinin özünün Cənubi Qafqazda yeganə bolşevik forpostunun itirilməsindən ciddi narahatlıq keçirirdi. RSFSR-in millətlər məsələləri üzrə xalq komissarı İosif Stalinin 1918-ci il martın 19-da Bakı Sovetinin sədri S.Şaumyana və P.Caparidzeyə göndərdiyi məktubda deyilirdi: "Bakı – bütün Cənub üçün mühüm olan bu məntəqə hər tərəfdən mühasirəyə alınıb... Bir şey şübhəsizdir: Bakını hərbi və maliyyə cəhətdən möhkəmləndirmək lazımdır... Sizə iki tərəfdən – Daşkənd tərəfdən və Şimaldan kömək gəlir."[28]

Cənubi Qafqaz uğrunda beynəlxalq mübarizənin kəskinləşdiyi bir vaxtda Bakının özündə ciddi hadisələr baş verdi. Erməni daşnakları ilə ittifaqa girən bolşeviklər 1918-ci ilin martında Azərbaycan xalqına qarşı soyqırımı törətdilər. On minlərlə azərbaycanlını qətlə yetirən bolşeviklər məqsədlərinə nail oldular və Bakıda tam hakimiyyətə yiyələndilər. 1918-ci il aprelin 25-də yaradılan Bakı Xalq Komissarları Sovetinin (XKS) əsas məqsədlərindən biri neftin Rusiyaya daşınması idi. Bolşevik mətbuatı bu barədə yazırdı: "Rusiyanın taleyi Bakıdan göndərilən neftin həcmindən asılıdır. Bizim yana-

[28] Братья навеки. Документы и материалы об исторической дружбе русского и азербайджанского народов: Т.1. Баку, 1987, с. 292.

cağımız, mazutumuz, sürtkü yağlarımız olmasa, Moskva və Novokuznetsk fabriklərini, Piter və Volqaboyu zavodlarını işə salmaq, kəndləri çit, mismar və kənd təsərrüfatı alətləri ilə təchiz etmək mümkün deyil... Bizim inqilabi Qırmızı Ordumuzu respublikanın müdafiəsi naminə vaxtında və lazımi sürətlə hərəkətə gətirmək mümkün deyil."[29]

Bakıda hakimiyyətə gələn bolşeviklərin digər məqsədi neft sənayesini milliləşdirilmək idi. Bakı Xalq Komissarları Sovetinin sədri S.Şaumyan bu barədə hələ aprelin 13-də V.Leninə yazırdı: "Bakıda qazandığımız qələbədən sonra Sovet tam möhkəmlənmişdir və bizim ciddi tədbirləri həyata keçirmək üçün imkanlarımız var. Çoxdan qərarlaşdırılan neft sənayesinin milliləşdirilməsini həyata keçirmək niyyətindəyik. Nefti bizim nümayəndəmiz Saak Ter-Qabrielyanla (Stalin onu tanıyır) artıq Həştərxana göndərmişik. O, Həştərxanda yaşayacaq. Sovetə ünvanladığınız tələbnamələrlə ona müraciət edin."[30]

S.Şaumyanın məktubundakı nikbinlik tam anlaşılandır – mart soyqırımına qədər bolşeviklərin neft sənayesini sahibkarların nəzarətindən çıxarmağa və nefti sərbəst şəkildə şimala daşımağa gücləri və imkanları yox idi. Bunu təsdiq edən faktlardan birini misal gətirək. 1918-ci il martın 17-də yanacaq üzrə Qafqaz rayon müvəkkili D.Şamoninin imzaladığı sərəncama əsasən, onun icazəsi olmadan Bakıdan dəniz və dəmir yolu vasitəsilə neftin və neft məhsullarının daşınması qadağan edilirdi.[31] 1918-ci il mart soyqırımından sonra isə və-

---

[29] Василенко А.Б. Каспийская нефть в геополитической стратегии руководства Советской России (1917-1922 гг.) / Нефть страны Советов. Проблемы нефтяной промышленности СССР (1917-1991 гг.) Под общей редакцией В.Ю.Алекперова. Москва, 2005, с. 16.

[30] ARPİİSSA: f. 5, siy. 1, iş 21, v. 7.

[31] Azərbaycan Respublikasının Dövlət Arxivi (bundan sonra – ARDA): f. 11, siy. 1, iş 1, v. 87.

ziyyət tamamilə fərqli idi. Hakimiyyəti qəsb edən Bakı XKS-i bütün, o cümlədən, repressiv tədbirlərdən istifadə edərək, neft sənayesini tam nəzarətə almışdır və artıq milliləşdirməni həyata keçirə bilərdi. 1918-ci ilin aprelində Bakıdan Həştərxana neftlə dolu ilk gəmilər, Port-Petrovska (indiki Mahaçqala) mazutla dolu paroxodlar yola salındı.[32] Bakı nefti Rusiyaya hava kimi lazım idi. Buna görə Sovetlər onun daşınması üçün hər şey edirdilər. 1918-ci il mayın 22-də RSFSR XKS-i V.Leninin imzası ilə Bakıdan neftin daşınması və fəhlələrə əməkhaqqının ödənilməsi üçün 100 mln. rublun ayrılması haqqında qərar çıxarmışdır.[33] Lakin həmin pullar heç də daşınan neftin əvəzini yox, nəqliyyat xərclərini ödəmək üçün ayrılırdı. Neft isə Rusiyaya tamamilə pulsuz göndərilirdi. Vəziyyətin ən faciəli tərəfi bundan ibarət idi ki, bolşeviklər daşıdıqları neftin əvəzinə Bakıya sonradan Azərbaycan xalqına qarşı çevrilən silah göndərirdilər və həmin silah sonradan Azərbaycan xalqına qarşı çevrilirdi. Mərkəzi hökumətin Bakı Xalq Təsərrüfatı Şurasında nümayəndəsi Zinovi Dosserin teleqramında bu barədə deyilirdi: "Saratov neft məhsullarına kəskin ehtiyac duyur. 100 min neft, 100 min ağ neft, 50 min yağ, 50 min mazut [pudla. 1 pud 16,38 kq-a bərabərdir – *F.C.*] xahiş edir. Xalq Komissarları Soveti göndərilən silahın əvəzi olaraq bu xahişi dəstəkləyir."[34]

Moskvadan gələn telefonoqramlarda xəbər verilirdi ki, "ilk növbədə daha çox neftin daşınmasını təmin etmək məqsədilə" Bakıya 1638 ton çörək göndərilir.[35] İyunun 5-də RSFSR XKS-i neft sənayesinin vəziyyətini yaxşılaşdırmaq məqsədilə

[32] Азизбекова П.А., Мнацаканян А.Н., Трускунов М.Б. Советская Россия и борьба за установление и упрочение власти Советов в Закавказье. Баку, 1969, с. 65.
[33] ARDA: f. 11, siy. 1, iş 228, v. 176.
[34] ARDA: f. 11, siy. 1, iş 228, v. 104.
[35] ARPİİSSA: f. 276, siy. 3, iş 32, v. 50.

Bakıya 50 mln. rublun ayrılması haqqında qərar qəbul etdi. Qərarla bağlı V.Leninin yazdığı qeyddə deyilirdi: “Vəsaitin xərclənməsi Şaumyana həvalə edilsin və ona neft məsələsini diqqətdə saxlamaq tapşırılsın.”[36] Bakıdan neftin daşınması işinə S.Şaumyanın yuxarıda adı çəkilən məktubunda xatırlanan S.Ter-Qabrielyan rəhbərlik etməli idi (o, Bakı XKS-də Fövqəladə Komissiyanın sədri vəzifəsini tuturdu). Bakı Sovetinin İcraiyyə Komitəsinin S.Ter-Qabrielyana verdiyi vəsiqədə ona nefti və neft məhsullarını yerli və mərkəzi sovet hakimiyyəti vasitəsilə paylaşdırmaq və satmaq, satışdan əldə olunan vəsaiti qəbul etmək həvalə olunurdu.[37] O, həm də Bakı Sovetinin üzvü kimi RSFSR Baş Neft Komitəsinin (BNK) tərkibinə daxil idi. S.Ter-Qabrielyan daha bir missiyanı, xoşbəxtlikdən baş tutmayan bir işi icra etməli idi. İrəlidə ətraflı bəhs olunacağı kimi, V.Lenin 1918-ci ilin yayında Bakı neft mədənlərinin yandırılmasını məhz ona həvalə etmişdir.

Bakı XKS-i neft sənayesini özünə tabe etmək üçün bütün vasitələrdən istifadə edirdi. Məsələn, 50 mindən artıq fəhlə və qulluqçunun əməkhaqqlarını ödəmək, neftin hasilatı və daşınması üçün vəsait əldə etmək məqsədilə XKS 1918-ci ilin aprelində neft sənayeçiləri üzərinə 50 mln. rubl təzminat qoydu. Sahibkarların imtina cavabından sonra bolşeviklər onları saxlamış və 24 saat ərzində tələb olunan vəsaiti ödəmədikləri təqdirdə altı aylıq həbs cəzası ilə hədələmişlər.[38] S.Şaumyanın oğlu Surenin yazdığına görə, XKS-in iclasında bolşevik liderlərindən biri Anastas Mikoyanın adına altı mandat yazılmışdı və həmin mandatlara uyğun olaraq bəzi firmaların işlər müdirləri və sahibləri həbs edilmədi idi.

[36] Азизбекова П. А., Мнацаканян А. Н., Трускунов М. Б. Göst. əsəri, s. 74.

[37] ARPİİSSA: f. 276, siy. 3, iş 68, vv. 7-8.

[38] ARPİİSSA: f. 1, siy. 38, iş 221, vv. 26.

Həbsdən bir gün sonra onlar tələb olunan vəsaiti ödəmişlər.[39] A.Mikoyanın özü həmin hadisəni xatırlayaraq yazırdı ki, o, mandata uyğun olaraq, Nobel şirkətinin direktoru A.Lessneri, həmçinin S.Tagianosovu, Qukasovu həbs etməli idi. A.Mikoyan əsgərlərlə birgə A.Lessnerin yaşadığı evə gələrək, adi qaydada otağa girmək əvəzinə A.Lessneri qorxutmaq üçün əlindəki tapançanı azacıq açıq olan qapıdan içəri saldı, sonra isə özü daxil oldu. A.Mikoyanın sözlərinə görə, yük maşınının arxasında otuzdurulan Lessnerin yol boyu "əməlli başlı silkələnməsi" onlara "ləzzət eləmişdi."[40]

Neft sənayeçilərinə qarşı növbəti inzibati təzyiq Bakı XTŞ-in qərarı ilə baş vermişdir. Qərarla iri neft firmalarına – Xəzər-Qara Dəniz Cəmiyyəti, Nobel qardaşları, S.Şibayev, S.Lianozov, A.Mantaşev firmalarına tapşırılırdı ki, onlar saziş bağlayıb özlərinin neftayırma zavodları üçün 24571 ton neft satın alsınlar. Firmalar bu nefti vahid qiymətə almalı, qərarın dərc olunmasından sonra 5 gün ərzində onu öz anbarlarına doldurmalı idilər. İmtina edildiyi təqdirdə sahibkarlar 300 min rubl həcmində cərimə olunacaqdılar.[41] Təbiidir ki, bu qərarla sovet hökuməti hasilatı artırmaq və minlərlə ton neftin satışından nəğd vəsait əldə etmək məqsədini daşıyırdı. Lakin bolşeviklər nəzərə almırdılar ki, anbarlar onsuz da neftlə doludur və məhz buna görə sahibkarlar nefti almaqdan imtina edirdilər.

1918-ci il mayın 1-də Bakı XKS-i bəyannamə ilə çıxış edərək, ümumrusiya mərkəzi hökuməti ilə sıx əlaqədə olacağını elan etmiş,[42] beləliklə, özünü RSFSR hökumətinin yerli

---

[39] Шаумян С. Бакинская коммуна. Баку, 1927, с. 24, 108.

[40] Копия рукописи книги А.Микояна «В революционном Баку. 1918-1920 годы»: Т.1 / AMEA A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi (bundan sonra – TİEA): qovluq №5525, v. 398.

[41] ARDA: f. 11, siy. 1, iş 1, v. 178.

[42] ARDA: f. 11, siy. 1, iş 5, v. 1.

orqanı olduğunu hüquqi cəhətdən rəsmiləşdirmişdir. Bu bəyannamədən bəlli olurdu ki, XKS-in bütün fəaliyyəti Rusiya maraqlarına uyğun həyata keçiriləcək. Rusiyanın, daha doğrusu, bolşeviklərin maraqları isə yanacaqla fasiləsiz təminatı tələb edirdi, çünki ölkə vətəndaş müharibəsi və xarici müdaxilə şəraitində idi. Neftsiz cəbhələrdə qələbəni təmin etmək qeyri-mümkün idi. Azərbaycan tarixçisi Nigar Maksvellin qeyd etdiyi kimi, Rusiya bolşeviklərini neftin hansı çətinliklər bahasına daşınacağı maraqlandırmırdı, bundan başqa, onlar neft mədənlərinin əslində kimə məxsus olması məsələsini də müzakirə etmirdilər.[43]

Bakı neft sənayesindəki acınacaqlı durum isə davam edirdi: mədənlər işləmir, fəhlələrin maddi vəziyyəti, ərzaq təminatı pisləşir, iqtisadi və siyasi hərc-mərclik sənayeni iflic etmişdi. Mövcud vəziyyət Rusiyanın Bakıdan neft daşınması planlarına mənfi təsir göstərirdi. Buna görə V.Lenin hökuməti neft işini böhrandan xilas etmək üçün təcili tədbirlər görürdü. Bununla belə, yaddan çıxarmaq olmaz ki, atılan addımların hamısı Azərbaycana, neft sənayesinə görə yox, Rusiyanın öz maraqları naminə həyata keçirilirdi. Rusiyanın neft sənayesini idarə edən Ali Xalq Təsərrüfatı Şurası (AXTŞ) yanında Yanacaq şöbəsi (1918-ci il mayın 17-də Baş Neft Komitəsi adlandırıldı) Bakıya göndərdiyi teleqramda neft sənayesinin inkişaf etdirilməsi üçün aşağıdakı tədbirləri müəyyənləşdirdi: 1) işləməyən mədənləri dərhal bərpa etmək, məhsuldarlığı az olduğu üçün fəaliyyəti dayandırılan bütün quyuları işə salmaq; 2) qazma, dərinləşdirmə, təmir məqsədilə dayandırılan mədənləri işə salmaq; 3) neft və neft məhsullarının mövcud ehtiyatlarını təxirə salmadan Rusiyaya göndərmək; 4) fəh-

---

[43] Maksvell N. Azərbaycan demokratik hökumətinin siyasətində neft məsələsi / Azərbaycan neft sənayesinin tarixinə dair I Beynəlxalq konfransın materialları. Bakı, 1996, s. 39.

lələrlə hesablaşmaları nəzarət orqanlarının yoxladığı tabellər əsasında firmaların aparatı vasitəsilə aparmaq; 5) ayrı-ayrı firmaların ixtiyarında olan bütün materiallardan istifadə etmək.[44]

Bakıda hakimiyyəti ələ keçirəndən sonra bolşeviklər milliləşdirmə siyasətinə başlamağı qərarlaşdırdılar. Onlar, eyni zamanda, bu məsələdə tələskənliyə yol verməməyə çalışırdılar. Bakı XTŞ Rəyasət heyətinin bəyannaməsində bildirilirdi ki, "...neft sənayesinin milliləşdirilməsi haqqında dekreti dərhal qəbul etmək qeyri-mümkündür, çünki indiyədək müvafiq hazırlıq, təşkilati işlər aparılmamışdır."[45] Rəyasət heyəti əvvəlcə neft müəssisələrinin trestləşdirilməsi planını hazırlamağı, qazma, hasilat, emal, saxlama, nəqletmə sahəsində texniki təkmilləşdirmə işlərini aparmağı zəruri sayırdı. İ.Fioletov bu fikri hələ 1918-ci ilin martında bildirmişdir. Bakı bolşeviklərinin konfransında çıxış edərkən o, demişdir ki, hal-hazırda neft sənayesini qoruyub saxlamaq vacibdir, onu qaydaya salmaq lazımdır və milliləşdirmə ilə tələsmək olmaz.[46] Moskvada da bu cür fikirləşirdilər. V.Lenin milliləşdirmənin "mütləq və dərhal" həyata keçirilməsi haqqında əvvəlki tezisindən imtina edərək, bu siyasətin gerçəkləşməsi üçün vaxtın hələ yetişmədiyi fikrində olanların tərəfini tutdu. Ümumi mövqe bundan ibarət idi ki, milliləşdirmə "nəinki neft sənayesinin bərpasına gətirib çıxarmayacaq, əksinə, onu daha böyük dağınıqlığa düçar edəcək."[47]

Ciddi iqtisadi çətinliklərlə, ölkəni fasiləsiz olaraq yanacaqla təmin etmək zərurəti ilə üzləşən bolşevik rəhbərliyi neft sənayesinin bərpasına xarici kapitalı cəlb etməyə çalışırdı. Almaniya ilə iqtisadi münasibətlərin qurulması haqqında tezis-

[44] ARDA: f. 11, siy. 1, iş 228, v. 68.
[45] ARDA: f. 11, siy. 1, iş 1, v. 88.
[46] Гулиев Г.Б. Göst. əsəri, s. 18.
[47] Косторниченко В.Н. К вопросу о национализации…, с. 89.

lərdə (15 may 1918-ci il) deyilirdi ki, Rusiya öz gücü hesabına təsərrüfatını tez bir zamanda bərpa etmək iqtidarında olmadığı üçün onun "Mərkəz dövlətləri ilə yenidən iqtisadi münasibətlər qurmağa nəinki hüququ çatır, hətta buna borcludur."[48] Eyni fikir ABŞ ilə əlaqələrin inkişafı planında (12 may 1918-ci il), Ümumrusiya xalq təsərrüfatı şuralarının qurultayında (26 may 1918-ci il) qəbul olunmuş beynəlxalq əməkdaşlıq proqramında da irəli sürülmüşdür. Bir sözlə, bolşeviklər Qərb dövlətləri ilə iqtisadi əlaqələrin bərpasına və bu məqsədlə hətta təsərrüfatın bəzi sahələrində, ilk növbədə, neft sənayesində xaricilərə konsessiyaların verilməsinə hazır idilər.

Moskvada irəli sürülən və siyasi rəhbərliyin ən yuxarı səviyyəsində razılıqla qarşılanan bu fikirlərə rəğmən Bakıda neft müəssisələrinin (o cümlədən, xarici kapitala məxsus) milliləşdirilməsi məsələsini qəti həll olunmuş hesab edirdilər. Bakı XKS-i neft sənayesinin, dəniz nəqliyyatının və digər sahələrin milliləşdirilməsini özünün başlıca vəzifəsi kimi müəyyənləşdirmişdir. Rusiya mərkəzi hökuməti ilə fikir ayrılıqlarını çözmək və milliləşdirmənin zəruriliyini əsaslandrmaq məqsədilə Bakı XKS-i S.Ter-Qabrielyanı Moskvaya göndərməyi qərara aldı. 1918-ci il aprelin 28-də hələ Həştərxanda olarkən o, Bakıya – S.Şaumyana yazırdı: "…Neft məsələsinə gəldikdə isə sənə deməliyəm ki, burada olduqca şübhəli şeylər baş verir. Xalq Komissarları Sovetindəki Qukovski [RSFSR xalq maliyyə komissarı – *F.C.*] cənab neftçilərə həm hasilatda və qazmada, həm də neftin paylaşdırılmasında və satışında tam sərbəstlik vermək fikrinə düşüb. Dünən Nobelin buradakı işlər müdiri Nobelin idarə heyətindən teleqram alıb. Teleqramda deyilirdi ki, Qukovski ilə əldə edilən razılığa görə, bütün nəzarətedici və paylaşdırıcı təşkilatlar ləğv olunmalıdır, buna görə də nef-

---

[48] Документы внешней политики СССР: Т.1, с. 676-677.

ti yalnız firmaların idarə heyətlərinin göstərişi ilə göndərmək lazımdır."[49] Göründüyü kimi, hökumətin neft sənayeçilərinə etdiyi güzəştlər olduqca əhəmiyyətli və ən başlıcası, zəruri idi. Lakin radikal addımların tərəfdarı olan S.Ter-Qabrielyan dərhal burada hansısa gizli sövdələşmənin baş verdiyi qənaətinə gəldi: "Açıq-aşkar danışırlar ki, Leninin və başqalarının bu məsələdən xəbərsiz olmasından istifadə edən Qukovski iri neft sənayeçilərinin siyasətini həyata keçirir."[50]

Sonralar S.Ter-Qabrielyan V.Lenini milliləşdirmənin vacibliyinə necə inandırdığını belə xatırlayırdı: "Mən, bizdə ümumiyyətlə nələrin baş verdiyi haqqında danışırdım, üç saat ərzində danışırdım. O, mənə sual verir: bəs nə etmək fikrindəsiniz? Mən deyirəm ki, neft sənayesinin milliləşdirilməsini elan etmək lazımdır. Deyir: "Sağ olun, milliləşdirməyimiz yetər. Bəs bizdə kim işləyəcək?" …Bakı fəhlələri. "Bəs kim idarə edəcək?"… Bakı mühəndislər ittifaqı. "Xeyr, bu olmaz."... Milliləşdirmə məsələsini həll etmədən geri qayıda bilmirəm... V.İ.Lenin AXTŞ-in sədri A.İ.Rıkova məktub göndərdi – "əhval-ruhiyyəyə baxın." Aleksey İvanoviçin yanına getdim. Deyir: "Yox, edə bilmərik, bu, neft sənayesinin məhvi deməkdir..."[51] Göründüyü kimi, Bakı XKS-i milliləşdirmə işini tələsdirirdi, Moskva isə bu tədbirin təxirə salınmasına tərəfdar idi.

Sovet Rusiyasının lideri V.Leninin mötədil mövqeyi bəzi əsərlərdə onun Bakı bolşeviklərinin apardığı dağıdıcı milliləşdirmə siyasətinə hələ 1918-ci ilin yazından tərəfdar olduğu haqqında müddəanı təkzib edir. Məsələn, A.Mikoyan öz xatirələrində bu məsələyə toxunaraq yazırdı: "Şaumyan bir neçə dəfə bu məsələ [milliləşdirmə məsələsi – *F.C.*] barədə Leninlə məsləhətləşmişdir. Lenin Şaumyanın *təxirəsalınmaz* [kursiv

[49] Шаумян С. Бакинская коммуна, с. 96.
[50] Шаумян С. Бакинская коммуна, с. 97.
[51] Косторниченко В.Н. К вопросу о национализации…, с. 90.

mənimdir – *F.C.*] milliləşdirmə haqqında qərarını dəstəkləyirdi."[52] Lakin hadisələr heç də A.Mikoyanın təsvir etdiyi kimi deyil idi. İrəlidə göstərildiyi kimi, V.Lenin S.Şaumyanın Moskvanın razılığını almadan milliləşdirməyə başlaması haqqında xəbəri eşidəndə buna çox təəccüblənmişdir.

Bakıda iqtisadi vəziyyət isə gündən-günə kəskinləşirdi. Xəzinəni doldurmaq üçün neft sənayeçilərinin müvəqqəti həbsləri yerli hökumət qarşısında duran maliyyə problemlərini həll etmədi. Şəhərdə ağır ərzaq böhranı başladı. 1918-ci il mayın 10-da keçirilən mitinqdə qəbul olunan qətnamədə fəhlələr bəyan etmişlər ki, əgər bir həftə ərzində şəhərə çörək gətirilməzsə, hökumət Sovetə yeni seçkilər təyin etməli və neftçilərin Bakıdan sərbəst çıxışına icazə verməlidir. İki gün sonra Bakı XTŞ-i sahibkarları günahlandıraraq, neft sənayesinin milliləşdirilməsini özünün "birbaşa vəzifəsi" elan etdi.[53] Hadisələr göstərirdi ki, S.Şaumyan artıq Moskvanın mövqeyi ilə hesablaşmadan hərəkət etməyi qərara alıb.

Neft sənayesinin dövlətin sərəncamına götürülməsi istiqamətində ilk addım 22 may 1918-ci il tarixində atıldı. Həmin gün Bakı XKS-i yeraltı sərvətlərin milliləşdirilməsi haqqında dekret qəbul edərək, Bakıda neft və ozokerit çıxarılan, özəl mülkiyyət hüququnda ayrı-ayrı şəxslərə, şirkətlərə, kənd cəmiyyətlərinə məxsus olan, istər sahibi, istərsə də icarədar tərəfindən istismar olunan torpaqları dövlətin mülkiyyəti elan etdi. 1917-ci il oktyabr çevrilişinə qədər torpaqların icarəsinə dair keçmiş hökumətlə imzalanan bütün müqavilələr ləğv olunurdu və onlara yenidən baxılmalı idi. Müqavilələrin təkrar baxılmasına qədər isə bütün əvvəlki hüquqlar və vəzifələr qüvvədə qalırdı.[54]

---

[52] Микоян А.И. Так было. Москва, 2002. // http:biblioteka.org.

[53] Косторниченко В.Н. К вопросу о национализации…, с. 90.

[54] ARDA: f. 11, siy. 1, iş 295, vv. 26-27.

Lakin bu dekret neft çıxarılan və kəşfiyyat işləri aparılan torpaqlara aid idi. Emal edən, köməkçi müəssisələr, anbarlar, nəqliyyat hələ də dövlət nəzarətinə alınmamışdı. Bu səbəbdən Bakıdakı sovet hökuməti neft sənayesinin tam milliləşdirilməsini tələsdirirdi. Mayın 27-də V.Leninə göndərilən teleqramda Bakı XKS-i tezliklə müvafiq dekretin veriləcəyinə ümid etdiyini bildirmişdir.[55] Həmin gün İ.Stalindən S.Şaumyanın adına aşağıdakı məzmunda radioteleqram daxil olmuşdur: "Qabrielyan, Yeltsov yük ilə gəlirlər, paroxodlar və sairə təmin olunub, milliləşdirmə təsdiq edilib. Dərhal neftin və pambığın daşınmasına başlayın..."[56]

1918-ci il mayın 28-də İ.Stalin S.Şaumyana daha iki teleqram göndərdi. Onların birində deyilirdi: "Xalq Komissarları Soveti neft sənayesinin milliləşdirilməsini təsdiq edib... Neft Komissarlığı ləğv olunub, bütün işlər Baş Neft Komitəsinə verilib."[57] İ.Stalinin teleqramı Bakıda anlaşılmazlığa səbəb oldu. Bakı bolşevikləri İ.Stalinin teleqramını göstəriş kimi qəbul edərək milliləşdirməni həyata keçirməyə başladılar, halbuki sənəddə milliləşdirmənin yaxın gələcəkdə baş tutacağına və müvafiq dekretin verildiyinə dair heç bir söz deyilmirdi.

1918-ci il iyunun 1-də Bakı XKS-i mərkəzi hökumətin rəsmi qərarını gözləmədən və yalnız İ.Stalinin teleqramına istinad edərək, neft sənayesinin milliləşdirilməsi haqqında dekret qəbul etdi (dekret iyunun 2-də dərc olundu). Sənədin preambulasında deyilirdi ki, bu dekret "Ali Xalq Komissarları Sovetinin neft sənayesinin milliləşdirilməsi haqqında qərarının icrası ilə əlaqədar" qəbul edilir. Belə çıxırdı ki, Bakıdakı bolşevik hökumətinin addımları Moskva ilə razılaşdırılıb. Əslində isə belə deyildi. Sənədə görə, neft müəssisələrinin bütün

---

[55] Азизбекова П.А., Мнацаканов А.Н., Трускунов М.Б. Göst. əsəri, s. 72.
[56] ARPİİSSA: surət fondu, iş 378.
[57] ARPİİSSA: f. 1, siy. 38, iş 221, v. 27.

daşınan və daşınmaz əmlakına, kapitallarına, cari hesablarına və qiymətli əşyalarına qadağa qoyulur, müəssisələrin özləri isə inzibati, texniki və maliyyə cəhətdən Bakı XKS-ə tabe edilirdilər. Bütün işçi heyətə, qulluqçulara, ustalara və fəhlələrə öz yerlərində qalmaq və vəzifələrini tam şəkildə yerinə yetirmək tapşırılırdı. İşləri pozmağa cəhd göstərən və ya üzərinə düşən vəzifələrin icrasından boyun qaçıran texniki və inzibati personala xəbərdarlıq olunurdu ki, buna görə onlar həbs ediləcək və inqilabi tribunalın məhkəməsinə veriləcəklər.[58]

Dekret böyük tələskənliklə icra olunurdu və bunun əsas məqsədi Bakıdan daha çox neft daşımaq idi. 463 neft firması, onların mədənləri, neftayırma zavodları, kəmərləri, anbarları, avadanlıqları, köməkçi müəssisələri milliləşdirildi. Maliyyə, texniki və inzibati sahələrdə idarəçilik, həmçinin bütün milliləşdirilmiş müəssisələr üzərində nəzarət Xalq Təsərrüfatı Şurasının ixtiyarına verildi. Müəssisələr şura qarşısında hesabat verməli və ondan göstərişlər almalı idilər.[59]

Milliləşdirmənin gedişini sürətləndirmək və sahibkarlar tərəfindən sabotaja son qoymaq üçün XTŞ bəzi icbari qərarlar qəbul etdi. Qərarların birinə əsasən, bütün mədənlər milliləşdirmədən əvvəlki qaydalar üzrə yanacağı kəmərlərə ötürməli idilər.[60] Digər qərarla milliləşdirilmiş müəssisələrə tapşırılırdı ki, yeddi gün ərzində 1918-ci ilin iyul-sentyabr ayları üçün xərclər smetasını tərtib etsinlər və XTŞ-in baş mühasibatlığına təqdim etsinlər. Göstərilən müddətdə smetanı təqdim etməyən müəssisələr kreditlərdən məhrum olunacaqdılar.[61]

Sahibkarlar neft sənayesinin dövlət inhisarına alınmasına cidd-cəhdlə müqavimət göstərirdilər. Bununla bağlı qəbul

---

[58] ARDA: f. 11, siy. 1, iş 1, v. 76; iş 3, v. 6.
[59] ARPİİSSA: f. 1, siy. 38, iş 221, v. 29; ARDA: f. 11, siy. 1, iş 6, vv. 116, 170.
[60] ARDA: f. 11, siy. 1, iş 300, v. 4.
[61] ARDA: f. 11, siy. 1, iş 1, v. 8.

edilən bəyanatda onlar bildirirdilər ki, milliləşdirmə dağınıqlığa və məhvə bərabərdir, "onilliklər boyu qurulan təşkilatlanmanın köklü surətdə sındırılması, sənaye və ticarət aparatının tamamilə yeni qaydalar əsasında qurulması indiki vaxtda ölkənin yanacaqsız və işıqsız qalmasına gətirib çıxaracaq..."[62]

Təhlükə həqiqətən də qaçılmaz idi, çünki milliləşdirməni həyata keçirərkən sovet hökuməti bu tədbirin iqtisadi səmərəliliyinə yox, sırf siyasi xarakterinə önəm verir, sahibkarların iqtisadi qüdrətinin sarsıdılmasına çalışırdı. Bolşevik nəzəriyyəsinə uyğun həyata keçirilən milliləşdirmə qısa müddətdə iqtisadi böhranı daha da dərinləşdirdi. Müvafiq maddi, maliyyə və kadr resurslarına malik olmayan Sovet dövləti yüzlərlə müəssisədə istehsalın təşkili kimi ağır yükü öz üzərinə götürdü. Nəticədə həmin müəssisələr bağlanmağa, fəhlələrin yaşayış səviyyəsi isə aşağı düşməyə başladı.

Neftin daşınması işini asanlaşdırmaq üçün 1918-ci il iyunun 5-də Bakı XKS-i Xəzər dəniz donanmasının da milliləşdirilməsi haqqında dekret qəbul etdi.[63]

Qeyd etmək lazımdır ki, Bakıda milliləşdirmə zamanı tətbiq olunan metodlar RSFSR-in bəzi partiya-təsərrüfat orqanlarının rəhbərləri tərəfindən də mənfi qarşılanmışdır. Sovet tarixşünaslığında bu məsələnin işıqlandırılmasında ciddi boşluq var idi və radikal milliləşdirmənin bütün əleyhdarları bir qayda olaraq, mənfi qiymətləndirilirdi. Əslində isə onlar prinsip etibarı ilə bu siyasətə qarşı deyil, hazırlıqsız, tez-tələsik, pərakəndə aparılan milliləşdirməyə qarşı idilər. 1918-ci il aprelin əvvəlində, yəni milliləşdirmə hələ başlamamış, Bakı Sovetinin iclasında çıxış edən Z.Dosser demişdir: "Bizim neft sənayesinin milliləşdirilməsi haqqında şüarımız var, lakin bu məsələyə

[62] ARDA: f. 11, siy. 1, iş 26, v. 53.
[63] ARDA: f. 11, siy. 1, iş 3, v. 4.

ehtiyatla yanaşmaq lazımdır. Təcrübə göstərdi ki, tələskənlik ziyan gətirə bilər... Beləliklə, XTŞ qarşısında əvvəlcə sənayeni təşkil etmək, yalnız bundan sonra milliləşdirməyə başlamaq məsələsi dayanır."[64]

Bakı XKS-in dekretindən üç gün sonra – iyunun 4-də Moskvadan Bakıya göndərilən radioteleqramda bildirilirdi ki, RSFSR Xalq Komissarları Soveti neft sənayesinin milliləşdirilməsi məsələsini müsbət həll edib və tədbirin həyata keçirilməsi yalnız Baş Neft Komitəsi tərəfindən smeta təqdim olunmadığına görə yubanır.[65] Göründüyü kimi, Moskvada Bakı Xalq Komissarları Sovetinin qəbul etdiyi milliləşdirmə dekretindən xəbərsiz idilər. Yalnız iyunun 11-də hərbi işlər üzrə quberniya komissarı D.Sosninin Həştərxandan V.Leninə göndərdiyi teleqramda iyunun 2-də neft sənayesinin milliləşdirilməsi haqqında Bakı XKS-in dekretinin dərc edildiyi barədə məlumat verilirdi. Bu xəbər V.Lenin üçün gözlənilməz oldu, o, xahiş etdi ki, teleqramı "təcili" təkrar eləsinlər, "...görünür, məlumatda haqqında bəhs olunan dekretin mətni buraxılıb."[66]

İyunun 13-də S.Şaumyan V.Leninə teleqram göndərərək, nikbinliklə yazırdı: "Aclığa baxmayaraq, neft sənayesinin və ticarət donanmasının milliləşdirilməsi ruh yüksəkliyinə, neft hasilatının və daşınmasının artmasına səbəb oldu..."[67] Lakin real vəziyyət heç də S.Şaumyanın təsvir etdiyi kimi deyil idi. Bolşeviklər Bakıda neft sənayesini milliləşdirdiyi, əslində isə məhv və qarət etdiyi bir vaxtda mərkəzi hökumətin məsələ ilə bağlı hələ də dəqiq mövqeyi yox idi. İyunun 4-də Bakıya göndərilən teleqram Moskvanın tərəddüd içində olduğunu, milliləşdirməyə başlayıb-başlamamaq dilemması qarşısında dur-

[64] ARPİİSSA: f. 1, siy. 38, iş 221, v. 33.
[65] ARPİİSSA: surət fondu, iş 373.
[66] Косторниченко В.Н. К вопросу о национализации…, с. 94.
[67] Шаумян С.Г. Избранные произведения: Т.2. Москва, 1978, с. 362.

duğunu nümayiş etdirdi. Tələsik milliləşdirmənin tərəfdarları və əleyhdarları arasında mübarizə səngimirdi. İlk mərhələdə ikincilər üstünlük qazandılar. Bunu V.Leninin S.Şaumyana iyunun 18-də göndərdiyi teleqram təsdiqləyir. V.Lenin bildirirdi: "Neft sənayesinin milliləşdirilməsi haqqında dekret hələ olmamışdır. Neft sənayesinin milliləşdirilməsi haqqında dekreti naviqasiyanın axırında vermək fikrindəyik. Hələlik neft məhsulları ticarətinin dövlət inhisarına alınmasını təşkil etməkdəyik. Neft məhsullarının tezliklə Volqaya daşınması üçün bütün tədbirləri görün. Baş Neft Komitəsinə neft sənayesinin vəziyyəti haqqında hər gün məlumat verin."[68]

Ertəsi gün – iyunun 19-da Moskvadan S.Şaumyanın adına olduqca sərt məzmunlu iki teleqram göndərilir. Birinci teleqramda bildirilirdi ki, Baş Neft Komitəsi neft sənayesinin milliləşdirilməsini həyata keçirmir və komitənin xəbəri olmadan bunu heç kim edə bilməz.[69] İkinci teleqramda RSFSR XKS-in guya neft sənayesinin milliləşdirilməsinə dair qərar verməsi haqqında məlumat təkzib edilirdi.[70] Moskvadan gələn hər iki teleqram bir neçə aspektdən maraq doğurur. Birincisi, teleqramlar Bakı neftinin taleyini real olaraq kimin həll etdiyini və bütün məsələlərdə son sözün kimə məxsus olduğunu göstərir. İkincisi, milliləşdirmənin artıq tam tempi ilə getdiyi bir vaxtda mərkəz hələ də özünün dəqiq mövqeyini müəyyənləşdirməmişdir. Sovet Rusiyasının siyasətindəki bu qeyri-müəyyənlik nə ilə əlaqədar idi?

Nəzərə almaq lazımdır ki, Bakı ilə Moskva arasında fikir ayrılığı taktiki xarakter daşıyır və milliləşdirmənin lazım olub-olmadığı ətrafında deyil, onun vaxtı və miqyası məsələsi ətrafında cərəyan edirdi. A.Mikoyan vəziyyəti bu cür təsvir

---

[68] V.İ.Lenin Azərbaycan haqqında, s. 128.
[69] ARPİİSSA: f. 276, siy. 3, iş 32, v. 135.
[70] ARPİİSSA: f. 1, siy. 38, iş 221, v. 136.

edirdi: "…Moskvada oturan neft firmalarının nümayəndələri AXTŞ-in mütəxəssisləri arasında da müvafiq iş aparırdılar. Oradan hətta milliləşdirmənin müvəqqəti gecikdirilməsi haqqında teleqram alınmışdı, Baş Neft Komitəsindən gələn teleqram isə faktiki olaraq milliləşdirməni ləğv edirdi."[71] A.Mikoyanın dediklərindən belə təsəvvür yarana bilər ki, guya hökumət nümayəndələri ilə bəzi neft sahibkarları arasında gizli sövləşmə mövcud idi. Əslində isə vəziyyət tamam başqa idi. Tələsik milliləşdirmənin əleyhdarları başa düşürdülər ki, neft sənayesi kimi spesifik sahənin dərhal dövlət inhisarına alınması böhranı son həddə çatdıracaq və nəticədə neftin daşınması azalacaq. Onlar buna imkan verməməyə, dövlət inhisarının tədricən, planlı şəkildə tətbiq olunmasına çalışırdılar. Eyni zamanda onlar Bakıdan Rusiyaya fasiləsiz, qarətçi neft daşımalarının tərəfdarları olaraq qalırdılar.

Bakı XKS-in 24 iyun 1918-ci il tarixli iclasında S.Ter-Qabrielyanın neft sənayesinin milliləşdirilməsi haqqında məlumatı müzakirə olundu. V.Leninin məsələyə dair münasibətinə toxunan S.Ter-Qabrielyan bəyan etdi ki, "...əgər sizdə texniki qüvvələr tapılarsa, Lenin birmənalı olaraq bunun [milliləşdirmənin – *F.C.*] tərəfdarıdır... AXTŞ və qismən Baş Neft Komitəsi məsələni müəyyən qədər yubadırlar... Lakin milliləşdirmə artıq fakt olduğu üçün indi geri çəkilmək olmaz."[72]

Rusiya alimi Vladimir Kostorniçenko Bakı ilə Moskva arasında fikir ayrılıqlarını, bir-birinə zidd addımların səbəblərini ətraflı araşdıraraq belə qənaətə gəlir ki, o dövrdə sovet hökumətinin Rusiyanın cənubunda faktiki təmsilçisi İ.Stalinin müdaxiləsi Bakı bolşeviklərinin 1 iyun dekretini qəbul etməsi üçün əsas olmuşdur. Bakıda milliləşdirmə prosesinin iştirakçıları İ.Stalinin hadisələrdə aparıcı rolunu qeyd edirdilər: "...

---

[71] Микоян А.И. Так было. // http:biblioteka.org.
[72] ARDA: f. 11, siy. 1, iş 25, v. 4.

Tsaritsında [indiki Volqoqrad – *F.C.*] oturan Stalin hər şeyi ələ keçirmək haqqında sərəncam verdi. Bunun əsasında neft sənayesi milliləşdirildi."[73] Bu faktı S.Şaumyan da təsdiq edirdi. Çıxışlarının birində o, deyirdi: "Mən, yoldaş Stalindən bir məktub almışdım, sonda əlavə edilirdi ki, məktuba Lenin baxıb və bəyənib və həmin məktubda deyilənlərin hamısı rəsmidir, Xalq Komissarları Sovetindən gəlir. Daha sonra Stalindən gələn üç teleqramda qəti şəkildə bildirilirdi ki, milliləşdirmə təsdiq olunub..."[74] Yeri gəlmişkən, bu sözlər Suren Şaumyanın atasının guya milliləşdirməni "özünü riskə ataraq" həyata keçirdiyi, İ.Stalinin isə yalnız bundan sonra "milliləşdirməyə xeyir-dua" verdiyi barədə yazdıqlarını təkzib edir.[75] Əslində S.Şaumyan İ.Stalinin teleqramlarını hərəkətə keçmək üçün siqnal kimi başa düşmüşdür. Bundan başqa, təsadüfi deyil ki, Baş Neft Komitəsinin iclaslarında "vaxtından əvvəl" baş tutan milliləşdirmə haqqında müzakirələrin əsas predmeti təkcə Bakı XKS-in qərarları deyil, həm də İ.Stalinin mövqeyi idi. Müzakirələrin birində RSFSR xalq maliyyə komissarı İ.Qukovski qeyd etmişdir ki, milliləşdirmə İ.Stalinin məlumatları əsasında həyata keçirilsə də, o, "qətiyyən bu sahədə sərəncam vermək ixtiyarı olmayan şəxs idi", BNK-nın məsul əməkdaşı S.Salko isə demişdir ki, İ.Stalinin məktubu "formaca məlumat xarakterli olsa da, mahiyyətcə göstəriş idi... "[76]

Moskvanın milliləşdirmənin təxirə salınması ilə bağlı qərarının başqa bir səbəbi də var idi. Həmin səbəb xarici amil ilə əlaqədar idi. RSFSR xalq yollar komissarı P.Kobozevin S.Şaumyana və P.Caparidzeyə göndərdiyi məktubda bu barədə deyilirdi: "Şadam ki, siz [milliləşdirməni – *F.C.*] həyata

---

[73] Косторниченко В.Н. К вопросу о национализации…, с. 93.

[74] Шаумян Ст. Статьи и речи. 1917-1918 гг. Баку, 1929, с. 124.

[75] Шаумян С. Бакинская коммуна, с. 24.

[76] Косторниченко В.Н. К вопросу о национализации…, с. 94.

keçirmədiniz, lakin deməliyəm ki, bunun uğrunda hələ çox mübarizə aparmalı olacağıq. Məsələ bundadır ki, Almaniya ilə sülh müqaviləsinə görə, əgər biz nə isə milliləşdiririksə, biz bütün itkilərin əvəzini ödəyirik, Nobel isə iri alman firmasıdır və özümüzü hər tərəfdən əməlli başlı sığortamalıyıq ki, daha az ödəyək..."[77] Göründüyü kimi, Sovet Rusiyasının Almaniya ilə bağladığı müqavilədə milliləşdirilən müəssisələrə görə xarici xarici şirkətlərə kompensasiya ödəmək haqqında şərtin olması bolşevik hökumətini milliləşdirmənin dərhal həyata keçirilməsindən çəkindirən vacib amillərdən idi.

Beləliklə, İ.Stalinin dəstəklədiyi Bakı XKS-i ilə V.Leninin dəstəklədiyi BNK arasında fikir ayrılıqları vəziyyətin müxtəlif cür qiymətləndirilməsi və buna uyğun olaraq, böhrandan çıxış yollarına fərqli baxışlarla əlaqədar idi. V.Lenin və BNK tələsik milliləşdirməni və kapital üzərində təzyiqi bir qədər yubatmağı, keçid dövründə dövlətin nəzarəti altında işləyən iri özəl müəssisələrin mövcud olmasını mümkün sayırdılar. Buna misal olaraq belə bir faktı göstərmək olar ki, hələ 1918-ci il iyunun 3-də BNK V.Leninin sərəncamı əsasında milliləşdirilmiş donanmanın 1918-ci il naviqasiyası ərzində keçmiş gəmi sahiblərinə verilməsi haqqında qərar qəbul etmişdir. Neftin və neft məhsullarının daşınması zamanı yüklərin tamlığına görə məsuliyyət sahibkarların üzərinə qoyulurdu.[78] Bu qərarın müəllifləri başa düşürdülər ki, milliləşdirmə Rusiyaya yanacaq daşımalarının azalmasına gətirib çıxaracaq və buna görə 1918-ci il naviqasiyası ərzində hasilatı özəl firmaların ixtiyarında saxlamaq, nefti Rusiyaya daşımaq və yalnız naviqasiya başa çatdıqdan sonra tələsmədən neft işini dövlətin sərəncamına vermək lazımdır.

---

[77] Azərbaycan tarixi arxiv sənədlərində: I cild, s. 141.
[78] ARPİİSSA: f. 276, siy. 3, iş 32, v. 122.

V.Leninin və BNK-nın opponentləri isə ilk növbədə siyasi maraqları üstün tutaraq hesab edirdilər ki, regionda sovet hakimiyyətinin sabit və effektiv fəaliyyəti yalnız mülkiyyət sisteminin dəyişdirilməsi, dövlət inhisarının bərqərar edilməsi nəticəsində mümkündür. Buna görə onlar istehsal vasitələrinin tez bir zamanda özəl sektordan dövlətin ixtiyarına keçməsində təkid edirdilər. İrəlidə bəhs edildiyi kimi, son nəticədə İ.Stalinin və Bakı XKS-in dəstəklədiyi bu mövqe üstün gəldi və Moskva 1918-ci il iyunun 20-də milliləşdirmə haqqında dekret verdi.

Partiya-təsərrüfat dairələrindəki fikir ayrılıqlarından Bakıda milliləşdirmənin əleyhdarları da xəbərdar idilər. Onların arasında Bakı XTŞ-in tərkibinə daxil olan mühəndislər qrupu xüsusilə seçilirdi. Həmin qrupun qətiyyətli mövqeyini XTŞ-in bütün iclaslarında müşahidə etmək olur. Məsələn, mühəndislər hesab edirdilər ki, sənaye müəssisələrinin kollegial idarə olunması idarəçiliyi xeyli çətinləşdirəcək, yubadacaq, yaradıcı təşəbbüslərin qarşısını alacaq, müəssisələri bürokratik quruma çevirəcək. Nəticədə isə yüksəliş əvəzinə sənaye daha da tənəzzülə uğrayacaq. XTŞ-in 21 iyun 1918-ci il tarixli fövqəladə iclasında Mühəndislər və Texniklər İttifaqının nümayəndələri Bakıda neft sənayesinin milliləşdirilməsinin səhv olduğu barədə AXTŞ-in teleqram göndərməsi haqqında sorğu ilə müraciət etdilər. İ.Fioletov bildirmişdir ki, heç bir teleqram alınmayıb və milliləşdirmənin ləğvi barədə söhbət gedə bilməz.[79]

Bakı bolşevikləri bu cür əhval-ruhiyyənin milliləşdirmə siyasətinin həyata keçirilməsinə xələl gətirəcəyindən narahat idilər. Bunu Z.Dosserin Moskvaya göndərdiyi teleqram təsdiqləyir: "…iyunun 2-də Stalinin milliləşdirmənin təsdiq olunması haqqında teleqramından sonra dekretlə neft və

[79] ARDA: f. 11, siy. 1, iş 295, v. 38.

qazma müəssisələrinin bütün əmlakına qadağa qoyulmuşdur. Administrasiya Bakı Xalq Təsərrüfatı Şurasına tabedir… Mühəndislər işləməyə razıdırlar, lakin onlar arasında boykot əhval-ruhiyyəsi həddindən artıq güclüdür. Milliləşdirmə məsələsində hər cür yubanma, tərəddüd əleyhdarların müqaviməti gücləndirmək ümidlərini artıracaq, asanlıqla texniklərin tətilinə səbəb ola biləcək və çox ağır nəticələrə gətirib çıxaracaq. Qəbul olunmuş kursun dəyişdirilməsi mümkün deyil. Dərhal milliləşdirmə haqqında dekret qəbul etməyi, teleqrafla Bakıya xəbər verməyi xahiş edirik…”[80]

Mokvanın milliləşdirmə ilə bağlı tərəddüdləri S.Şaumyanı çox qəzəbləndirdi. V.Leninə yazdığı məktubda Bakı XKS-in 1 iyun tarixli dekretini əsaslandıran S.Şaumyan deyirdi: “Cari hesabları, nefti, materialları və s. ələ keçirmək lazım idi.” Moskvadan gələn teleqramlara toxunan S.Şaumyan yazırdı: “Bunlar bizi hiddətləndirdilər, çünki belə məsələ ilə zarafat etmək olmaz. Qərarları qəbul etmək, onları ictimailəşdirmək və sonra da “müvəqqəti” dayandırmaq. Biz bu məsələdə milliləşdirmə əleyhdarlarının hərəkətlərini gördük və buna görə etiraz etdik... Belə tərəddüdlərə son qoymağı təkidlə xahiş edirəm. Mən başa düşürəm, ola bilsin ki, Rusiyada bu milliləşdirmə sizə baha başa gəldi və Rusiyadan gələnlər milliləşdirmə bayrağı altında xəzinənin talan edilməsi haqqında danışırlar, lakin bizdə ab-hava başqadır və biz xəzinə sandığında həddindən artıq möhkəm oturmuşuq.”[81]

Lakin Bakıda gerçək durum S.Şaumyanın təsvir etdiyindən köklü şəkildə fərqlənirdi. Əslində bolşeviklərin siyasəti nəticəsində müəssisələrin çoxu xammal çatışmazlığı səbəbindən bağlanmış və nəticədə işsizlərin sayı artmışdır. İlkin tələbat

[80] ARDA: f. 11, siy. 1, iş 228, v. 83.
[81] ARPİİSSA: surət fondu, iş 110, vv. 6-7.

malları, ərzaq çatışmırdı. Cənubi Azərbaycandan, Rusiyadan gələn mövsümi fəhlələr mədən və zavodları tərk edib öz vətənlərinə qayıdırdılar. Əgər 1917-ci ildə neft sənayesində 47 min fəhlə və qulluqçu çalışırdısa, 1918-ci ildə onların sayı 38 minə qədər azalmışdır.[82] Burada daha bir faktı nəzərə almaq lazımdır ki, mart soyqırımından sonra minlərlə müsəlman qətlə yetirilmiş, bəziləri xilas olmaq üçün Bakıdan getmişdir. Bu insanların çoxu neft sənayesində işləyən fəhlələr idi.

Milliləşdirmə zamanı zorakı və kobud üsullardan istifadə edildiyini bildirən keçmiş Rus Neft Sənayesi Cəmiyyətinin qulluqçuları işdən çıxmaq haqqında ərizələrində yazırdılar ki, fəhlələr və mədən-zavod komissiyaları tərəfindən zorakılıq hərəkətləri, bir neçə dəqiqə ərzində işdən azad olunmaq haqqında qərarların verilməsi, müttəhimin iştirakı olmadan ona qarşı ittihamların irəli sürülməsi və s. göstərirdilər onları bu addımı atmağa vadar edən.[83] Müəssisələrin idarəetmə mexanizmi düzgün qurulmadığı üçün belə hallar tez-tez baş verirdi. "Bakı rayonunun milliləşdirilmiş neft və qazma müəssisələrinin idarə olunması haqqında əsasnamə"yə uyğun olaraq hər müəssisədə kollegiya yaradılırdı. Beş nəfərdən ibarət kollegiyaya 3 nəfər seçilmiş (2 nəfər – fəhlə və qulluqçular, 1 nəfər – inzibati-texniki personal tərəfindən) və 2 nəfər XTŞ tərəfindən təyin olunmuş üzvlər daxil idi.[84] Beləliklə, istehsal prosesini daha yaxşı bilən inzibati-texniki personal idarəetmə qurumunda azlıqda təmsil olunurdu. Sonralar "Neftyanoye delo" qəzeti bolşeviksayağı milliləşdirmənin metodları haqqında yazırdı: "Bu siyasət nəticəsində sənaye durmadan uçuruma, məhvə doğru gedirdi. Bunun səbəbi mühəndislərin, texniklərin və mədənlərdəki işlər müdirlərinin "sabotajı" deyildi, səbəb o

---

[82] История Азербайджана: Т.3, ч.1. Баку, 1963, с. 133.
[83] ARDA: f. 11, siy. 1, iş 2, v. 4.
[84] ARDA: f. 11, siy. 1, iş 3, v. 6.

idi ki, bütün bilikli, namuslu və vicdanlı işçilərin təşəbbüsü, məhsuldar işləmək imkanı əllərindən alınmışdı. Sənaye ona görə məhv olurdu ki, ixtisaslı işçilər, texniklər və mühəndislər üzərində nəzarətçi və sərəncamverici qismində cahil, taleyin və şuranın [Xalq Təsərrüfatı Şurası – *F.C.*] rəyasət heyətinin hökmü ilə mədən və zavodlarda sərəncamverici hakimiyyəti ələ almış fəhlələr və ya kontor işçiləri dayanırdı."[85]

Bolşeviklərin Bakıda hökmranlığı dövründə neft sənayesinin vəziyyətini bir arxiv sənədi tam dolğunluğu ilə əks etdirir: "1918-ci il neft sənayesi üçün ən ağır il olmuşdur. Əhalinin bir hissəsinin mədənlərdən getməsinə səbəb olmuş mart hadisələri, daşımaların dayanması və Bakının təchizat mərkəzləri ilə əlaqələrinin kəsilməsi nəticəsində şəhərdə başlanan ərzaq böhranı, çoxsaylı səhvlərdən xali olmayan sənayenin köklü şəkildə yenidən qurulması neft sənayesinin vəziyyətini xeyli pisləşdirmişdir. Lakin ən böyük çətinlik əvvəl Bakı quberniyasında, daha sonra isə Bakı şəhəri ətrafında hərbi cəbhənin açılması olmuşdur. Sonuncu amil fəhlələrin böyük kütləsini mədənlərdən ayırmış və nəticədə 1918-ci ilin avqust və sentyabr aylarında mədənlərdə işlər demək olar ki, tamam dayanmışdır. Həmin aylarda hasilat müvafiq olaraq 11,2 mln. puda [183,5 min tona – *F.C.*] və 5,7 mln. puda [93,4 min tona – *F.C.*] düşmüşdür."[86] İqtibas gətirilən sənəd ötən əsrin 20-ci illərinin əvvəlində sovet mütəxəssisləri tərəfindən hazırlanmışdır və göründüyü kimi, onlar sələflərinin qoyduğu mirası obyektiv və qərəzsiz qiymətləndirirdilər.

Həqiqətən də bolşeviklərin həyata keçirdiyi milliləşdirmə neft sənayesi üçün ölüm hökmü oldu və dolayısı ilə rejimin özünün taleyini həll etdi. Təsadüfi deyil ki, Nəriman Nərimanov 1918-ci ildə Bakıda sovet hakimiyyətinin süqutu səbəbləri

[85] Нефтяное дело, 1919, №3-4, стлб. 19.

[86] ARDA: f. 1610, siy. 13, iş 306, v. 68.

arasında zavodların və fabriklərin plansız və hazırlıqsız milliləşdirilməsini göstərmişdir.[87]

Lakin heç bir çətinlik Bakı bolşeviklərinin qarşısını kəsə bilməzdi, çünki onların əsas məqsədi nefti Sovet Rusiyasına daşımaq idi. S.Şaumyan V.Leninə göndərdiyi teleqramlarda daşımanın artdığı barədə məlumat verirdi. Belə ki, əgər 1918-ci il mayın 1-dən iyunun 1-dək 272061 ton neft məhsulları daşınmışdırsa, iyunun 1-dən iyulun 1-dək bu rəqəm 433241 ton təşkil etmişdir.[88] Bakı XKS-in bütün iclaslarında adətən birinci olaraq İ.Fioletovun neftin hasilatı və Sovet Rusiyasına daşınması haqqında çıxışı dinlənirdi. İslasların birində o, məlumat vermişdir ki, naviqasiyanın başlanmasından sonra 212940 ton neft və neft məhsulları daşınmışdır: "Gündəlik daşınma get-gedə artır; belə ki, bir gün (şənbə) ərzində 1300000 pud [21294 ton –*F.C.*] daşınmışdır. Gələcəkdə biz mütəmadi olaraq hər gün 1 milyon pud [16380 ton – *F.C.*] göndərmək niyyətindəyik."[89] Bakı neftinin Rusiya üçün əhəmiyyəti həm də onunla bağlı idi ki, Qroznı neft mədənləri və Donetsk kömür hövzəsi bolşeviklərlə müharibə aparan ağqvardiyaçılar tərəfindən tutulmuşdur və beləliklə, Bakı Sovetlərin yeganə yanacaq bazası idi.

1918-ci il iyunun 20-də RSFSR XKS-i V.Leninin imzası ilə ölkədə neft sənayesinin milliləşdirilməsi haqqında dekret qəbul etdi. Bu dekret Bakıda artıq bir neçə gün ərzində faktiki olaraq həyata keçirilən tədbiri rəsmiləşdirdi, digər tərəfdən isə bütün əvvəlki mübahisələrə qəti şəkildə son qoydu. Eyni zamanda, dekret Bakı XKS-in təzyiqi qarşısında mərkəzin bir növ güzəşti idi. 20 iyun dekreti nefti hasil və emal edən müəssisələrin bütün əmlakını dövlətin mülkiyyəti elan edir, neft ticarətində dövlət

---

[87] ARPİİSSA: f. 609, siy. 1, iş 15, vv. 121-122.

[88] ARPİİSSA: f. 5, siy. 1, iş 31, v. 2.

[89] ARDA: f. 11, siy. 1, iş 2, v. 66.

inhisarını tətbiq edir, milliləşdirilmiş müəssisələrin idarə olunmasını Baş Neft Komitəsinin səlahiyyətinə verirdi.

Mərkəzin qərarı Bakıda razılıqla qarşılanmışdır, lakin Bakıdakı hökumətlə BNK arasında fikir ayrılıqları bununla bitmədi. BNK neftdaşıyan donanmanın milliləşdirilməsinin təxirə salınmasını təklif edirdi. BNK-ın sədr müavini K.Maxrovskinin 1918-ci il iyunun 26-da Bakıya göndərdiyi teleqramda deyilirdi: "Alınan məlumatlara görə, Bakı Deputatlar Soveti neft donanmasının milliləşdirilməsi haqqında dekret qəbul etmişdir, özü də gəmilərin Sovetə təhvil verilməsinə dair sərəncam var. Xalq Komissarları Sovetinin [RSFSR XKS-i nəzərdə tutulur – *F.C.*] dekretinə görə, bütün donanma milliləşdirilib; beləliklə, Bakı Sovetinin Xəzər neft donanmasının milliləşdirilməsi haqqında xüsusi dekretinə ehtiyac yoxdur. Yalnız donanmanın cari naviqasiya dövründə idarəetmə qaydaları haqqında məsələni qoymaq olar. Bu məsələ Baş Neft Komitəsi tərəfindən belə həll olunub: cari naviqasiya dövründə neft donanması Baş Neft Komitəsinin nəzarəti altında keçmiş sahiblərin idarəçiliyinə verilir... İdarəetmənin qaydalarını bu cür müəyyənləşdirməklə, Baş Neft Komitəsi təklif edir ki, firmaların inzibati aparatı daşımanın sürətləndirilməsi üçün istifadə olunsun… Yerli şəraitə uyğun olaraq fərqli idarəetmə qaydaları haqqında qərar qəbul edən zaman Bakı Sovetinə təklif olunur ki, idarəetmənin bu və ya digər formasının ilk növbədə Bakıdan neft məhsullarının daşınmasına necə təsir göstərəcəyinə diqqət yetirsin."[90] Geri çəkilmək istəməyən Bakı bolşevikləri K.Maxrovskidən Moskvaya şikayət etdilər: "İndi də Xəzər donanmasının milliləşdirilməsi ilə eyni şeylər başlayır. Maxrovskinin bu gün göndərdiyi teleqram məlumatsızlığı və anlaşılmazlığı nümayiş etdirir. Çox xahiş edirik, vaxtında dayandırın, işləməyə mane olmayın."[91]

[90] Шаумян С. Бакинская коммуна, с. 23.

[91] Косторниченко В.Н. К вопросу о национализации…, с. 95.

İyunun 30-da Bakı XKS-in iclasında çıxışı zamanı S.Şaumyan demişdir: "Bu teleqramla bizə donanmanın milliləşdirilməsi haqqında dekretimizi ləğv etmək təklif olunur, çünki bu mövsümdə Volqadakı bütün donanma cənab kapitalistlərə qaytarılıb. Mən artıq etirazımı göndərmişəm."[92] S.Ter-Qabrielyan da K.Maxrovskinin teleqramının işləri ləngitdiyini, neftin daşınmasına mane olduğunu vurğulamışdı.[93]

Bu dəfə də məsələyə İ.Stalin müdaxilə etdi. İyulun 7-də S.Şaumyana yazdığı məktubda o, mərkəzlə razılaşdırmadan göstəriş verirdi: "Xəzər donanmasının milliləşdirilməsi məsələsində qətiyyətlə hərəkət edə, teleqrama [K.Maxrovskinin 26 iyun teleqramına – *F.C.*] fikir verməyə bilərsiniz. Arxayın olun ki, Xalq Komissarları Soveti Sizin yanınızda olacaq."[94] İ.Stalinin bu cür qətiyyətlə və arxayınlıqla çıxış etməsinin başlıca səbəbi heç şübhəsiz, Azərbaycan-Osmanlı qoşunlarının hücumu və onların Bakı Sovetinin qüvvələri üzərində inamlı qələbələri ilə əlaqədar Bakının itirilməsi təhlükəsi idi.

K.Maxrovskinin teleqramı ilə əlaqədar yaranmış insident iyulun 13-də BNK-nın kollegiyasında müzakirə olunan zaman aşağıdakı məzmunda qətnamə qəbul edilmişdir: "AXTŞ Rəyasət Heyətinə məlumat verilsin ki, kollegiya K.Maxrovskinin hərəkətlərini düzgün sayır, bu hərəkətlərə görə məsuliyyəti öz üzərinə götürür, K.Maxrovskinin işdən çıxarılması məsələsini kollegiyanın tam tərkibdə istefası məsələsi ilə əvəzlənməsini xahiş edir. Məsələdən asılı olmayaraq, kollegiya Rəyasət Heyətindən xahiş edir ki, yoldaş Stalinə neft işlərinə qarışmamağı tapşırsın."[95]

---

[92] Azərbaycan tarixi arxiv sənədlərində: I cild, s. 155.

[93] Azərbaycan tarixi arxiv sənədlərində: I cild, s. 155.

[94] Косторниченко В.Н. К вопросу о национализации…, с. 96.

[95] Косторниченко В.Н. К вопросу о национализации…, с. 96.

Bu zaman isə Rusiya XKS-in neft sənayesinin milliləşdirilməsi haqqında 20 iyun tarixli dekretinə bəzi xarici dövlətlərdən cavab reaksiyası gəlmişdir. İyulun 8-də Moskvada İsveç səfiri Brendstremin sədrliyi ilə bitərəf dövlətlərin – İspaniya, Hollandiya, Norveç, İsveçrə, Danimarka və İranın diplomatik nümayəndələrinin müşavirəsi keçirilmiş və burada xarici sərmayədarlara böyük maddi ziyan vuran milliləşdirmə haqqında dekretə qəti etiraz bildirilmişdir. Sovet hökumətinin xarici firmaların qanuni maraqlarını nəzərə almadığı təqdirdə səfirlər gələcəkdə Sovet Rusiyasının xarici iqtisadi əlaqələri üçün ciddi nəticələr olacağı barədə xəbərdarlıq etmişlər.[96] Lakin xarici ölkə səfirlərinin bu etirazı "RSFSR-in daxili işlərinə müdaxilə" bəhanəsi ilə rədd edilmişdir.[97]

1918-ci il iyulun 12-də Bakıda neft sənayesinin milliləşdirilməsi haqqında yerli dekret dərc olundu. Görünür, milliləşdirmə zamanı əvvəl yol verilən səhvlərdən qaçmaq üçün 12 iyul dekretində qeyd olunurdu ki, xırda müəssisələr dövlətin nəzarətinə keçmir.[98]

Dekretin dərc edilməsindən sonra neftin satışı və paylaşdırılması üzrə komissar təyin olunan S.Ter-Qabrielyan bütün partiya-təsərrüfat orqanlarına teleqram ünvanlayaraq, neft sənayesinin milliləşdirilməsi və AXTŞ-nin ixtiyarına keçməsi ilə əlaqədar olaraq "rus inqilabının sərvəti olan" neftin Saratov vasitəsilə maneəsiz daşınmasına şərait yaradılmasını xahiş etmişdir.[99] İlk vaxtlarda neftin daşınması zəif idi. Bolşeviklər bunu firmaların qiymətlərin artmasını gözləyib malları anbarlarda saxlamağa çalışması, gəmilərin bir hissəsinin təmirə dayanması, "gəmi komandalarının öz vəzifələrini axıradək dərk

---

[96] Василенко А.Б. Göst. əsəri, s. 20.
[97] Maksvell N. Göst. əsəri, s. 40.
[98] ARDA: f. 11, siy. 1, iş 3, v. 6.
[99] ARPİİSSA: f. 276, siy. 3, iş 32, v. 29.

etməməsi" ilə izah edirdilər.[100] Bəzi hallarda neft daşıyan gəmilər geri dönərkən Port-Petrovskda yubanır və möhtəkirlik məqsədi ilə ərzaq alırdılar.[101] Bakı XKS-in bütün hakimiyyəti dövründə – 1918-ci ilin aprelindən iyuluna qədər Sovet Rusiyasına 1,3 mln. tonadək neft və neft məhsulu daşınmışdır.[102] Aylar üzrə göstəriciləri aşağıdakı cədvəldən görmək olar.

**Cədvəl 1. 1918-ci ilin fevral-iyul ayları ərzində Bakıdan Rusiyaya neftin daşınması (tonlarla)[103]:**

| Ay | Daşınan neftin həcmi |
|---|---|
| Fevral | 26000 |
| Mart | 26500 |
| Aprel | 94000 |
| May | 182000 |
| İyun | 464000 |
| İyul | 492000 |
| Cəmi | 1284500 |

Rəqəmlərdən göründüyü kimi, bolşeviklərin Bakıda hakimiyyəti ələ almasına qədər neftin daşınması göstəricisi aşağı idi, bundan sonra isə get-gedə artmağa başlamışdır. Əgər iyunun birinci yarısında gündəlik 22932 ton neft məhsulları daşınmışdırsa, iyulun əvvvəllərində bu rəqəm 32760 ton təşkil etmişdir.[104]

---

[100] ARDA: f. 11, siy. 1, iş 228, v. 67.

[101] ARDA: f. 11, siy. 1, iş 228, v. 77.

[102] Азербайджанская Демократическая Республика (1918-1920). Баку, 1998, с. 69; Азизбекова П.А., Мнацаканян А.Н., Трускунов М.Б. Göst. əsəri, s. 77.

[103] История Азербайджана: Т.3, ч.1, с. 130, 134; Maksvell N. Göst. əsəri, s. 41.

[104] ARDA: f. 11, siy. 1, iş 228, vv. 84, 94; История Азербайджана: Т.3, ч.1, с. 134.

Bolşeviklərin Bakıda hakimiyyətdə olmadığı bir vaxtda belə Rusiya neftin daşınması üçün cəhd göstərirdi. Məsələn, bolşevik A.Kvyatkovski 1918-ci il sentyabrın 2-də, yəni Bakıda artıq "Sentrokaspi diktaturası" hökuməti mövcud olduğu vaxtda Moskvaya teleqram vuraraq bildirirdi ki, o, Bakıda olmasından istifadə edib neftin Rusiyaya göndərilməsinə çalışacaq. A.Kvyatkovskinin sözlərinə görə, 20 mln. pud [327609 ton – *F.C.*] neftin daşınmasına imkan var və "Sentrokaspi diktaturası" buna razılıq verir, bir şərtlə ki, Həştərxandakı sovet hökuməti Bakıdan gələn gəmiləri geri buraxsın.[105] Göründüyü kimi, bolşeviklər hər cür imkandan yararlanıb, Bakı neftinin mümkün qədər çox və tez daşınmasına çalışırdılar.

Beləliklə, uzun mübahisələrdən və tərəddüdlərdən sonra sovet hökuməti Bakı neft sənayesinin milliləşdirilməsini həyata keçirdi. İqtisadiyyatın bu vacib sahəsinin dövlətin nəzarətinə keçməsi faktı özlüyündə zərərli addım kimi qiymətləndirilə bilməz, çünki XX əsrdə neft ölkələrinin əksəriyyəti bu yolu keçmişdir. Müasir dövrdə də bir çox ölkələrdə, o cümlədən, Azərbaycan Respublikasında dövlət neft sektorunda əsas inhisarçıdır. Lakin Bakıdakı 1918-ci il hadisələrinə gəldikdə qəti şəkildə demək olar ki, sovet hakimiyyəti üçün neft sənayesinin milliləşdirilməsi ilk növbədə siyasi mahiyyət kəsb edir və ağır vəziyyətdə olan Rusiyanı yanacaqla təmin etmək məqsədini daşıyırdı. Neftin külli miqdarda Rusiyaya daşınması qarət yolu ilə, pulsuz həyata keçirildyindən Azərbaycan xalqının maraqlarına zidd idi.

Bu zaman isə 1918-ci il mayın 28-də Tiflisdə Müsəlman Milli Şurası Azərbaycanın müstəqilliyini, Azərbaycan Cümhuriyyətinin yaradılmasını elan etdi. Bu nöqteyi-nəzərdən bolşeviklərin milli hökumətdən xəbərsiz və onun razılığı ol-

---

[105] TİEA: qovluq №5321, v. 198.

madan Bakıda keçirdiyi bütün tədbirlər qanunsuz idi. Bakı nefti uğrunda kəskinləşən beynəlxalq mübarizə şəraitində və Sovet Rusiyasının şəhəri öz əlində saxlamaq cəhdləri fonunda Azərbaycan Cümhuriyyətinin hökuməti Bakını bolşeviklərdən azad etməyə hazırlaşırdı.

# III.

# AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİN ELAN OLUNMASI VƏ BAKI NEFTİ UĞRUNDA MÜBARİZƏNİN KƏSKİNLƏŞMƏSİ

1917-ci ilin oktyabrında Rusiyada baş vermiş çevriliş keçmiş imperiya ərazisində yaranan yerli hakimiyyət orqanları, o cümlədən Cənubi Qafqaz hökuməti tərəfindən mənfi qarşılanmış və onlar bolşevik hökumətini tanımadıqlarını bəyan etmişlər. Rusiyanın faktiki olaraq region üzərində nəzarəti itirməsi digər dövlətləri burada öz siyasətlərini fəallaşdırmağa vadar etdi. Cənubi Qafqazda möhkəmlənmək və onun ərazisini Rusiyaya qarşı hərbi müdaxilə məqsədilə istifadə etmək üçün həmin dövlətlər Cənubi Qafqaz xalqlarının müstəqillik meyllərini dəstəkləməyi mümkün sayırdılar. Antanta dövlətlərinin London konfransında (dekabr, 1917) Rusiyada nüfuz dairələrinin bölüşdürülməsi haqqında qəbul edən konvensiyaya əsasən, Bessarabiya, Ukrayna, Krım Fransanın, kazakların əraziləri və Qafqaz isə Böyük Britaniyanın nüfuz dairələrinə

daxil edilmişdir.[106] Lakin xarici dövlətlərin Cənubi Qafqazla bağlı siyasətində daha bir vacib səbəb var idi – Bakı nefti. Antanta Bakının alman-türk qoşunları tərəfindən ələ keçirilməsindən ehtiyat edirdi, çünki belə olduqda müharibənin gedişində müttəfiqlər üçün xoşagəlməz nəticələr yarana bilərdi.

Bu dövrdə Bakı bolşeviklərin regionda yeganə istinadgahı idi. Mart soyqırımı və bundan sonra Xalq Komissarları Sovetinin yaranması Bakıda bolşevik diktaturasının formalaşmasını başa çatdırdı. Lakin Zaqafqaziya Seyminin Azərbaycan fraksiyası qəti şəkildə bildirmişdir ki, şəhər Azərbaycanın ayrılmaz hissəsidir və buna görə yalnız müsəlman türklər Bakıda ali hakimiyyəti təmsil edə bilərlər. Seymdə mövcud olan qüvvələr nisbəti və daxili ziddiyyətlər şəraitində Azərbaycan fraksiyası seymin milli maraqları təmin edəcəyinə güvənə bilməzdi. Bakını azad etmək üçün daxili qüvvələr isə kifayət etmirdi. Buna görə kənardan yardıma və dəstəyə ehtiyac duyulurdu. Azərbaycanın müttəfiqi qismində çıxış edə biləcək ölkə Osmanlı dövləti idi. Türklər 1918-ci ilin əvvəllərindən etibarən Cənubi Qafqazda öz siyasətini fəallaşdırmışlar. Bu, təkcə Antanta blokunun deyil, həmçinin Osmanlı dövlətinin Birinci Dünya müharibəsində müttəfiqi – Almaniyanın da maraqlarına cavab vermirdi. Almanlar neft məsələsində türklərə etibar etmirdilər və bu səbəbdən Yaxın Şərq cəbhəsində olan qüvvələrini Bakıya yürüşə hazırlamaq məqsədilə təcili şəkildə Gürcüstana göndərdilər. Almaniya Baş qərargahının rəisi E.Lüdendorf öz xatirələrində yazırdı: “Mən, türklərin əməliyyatlarına müsbət yanaşırdım, çünki bunlar müharibənin ümumi gedişinin maraqlarına cavab verirdi. Lakin həmin əməliyyatlar Türkiyəni əsas hərbi vəzifələrindən yayındırmamalı və bizim Qafqazdan

[106] Юсифзаде С.З. Первая Азербайджанская Республика: история, события, факты англо-азербайджанских отношений. Баку, 1998, с. 31.

xammal daşımağımızı əngəlləməməli idi. Biz güman edirdik ki, daşımalar bizim işimizi xeyli yüngülləşdirəcək... Biz yalnız öz qüvvələrimizə arxayın olduqda Bakdan neft əldə edə bilərdik."[107] Almaniya Osmanlı hökumətindən Cənubi Qafqaza hücumu dayandırmağı və Zaqafqaziya Seymi ilə danışıqlara başlamağı tələb etdi. Öz müttəfiqinin fikri ilə hesablaşmalı olan Osmanlı dövləti güzəştə getməyə məcbur oldu. 1918-ci il aprelin 27-də İstanbulda Osmanlı dövləti ilə Almaniya arasında Cənubi Qafqazda nüfuz dairələrinin bölüşdürülməsi haqqında məxfi müqavilə imzalandı. Müqavilənin şərtlərinə görə, türklərin tutduğu Cənubi Qafqaz vilayətləri onların ixtiyarında qalır, regionun digər əraziləri isə Almaniyanın maraq dairəsi elan olunurdu. Bununla belə, türklər İranın şimalında ingilislərlə müharibə aparmaq üçün qoşunların Cənubi Qafqaz dəmir yolu vasitəsilə daşımaq hüququna da nail ola bildilər[108]. Müqavilənin bu bəndinin Osmanlı dövlətinin Bakının azad edilməsi işində Azərbaycana göstərəcəyi hərbi köməkdə mühüm əhəmiyyəti var idi.

Cənubi Qafqaz ətrafında gedən fəal beynəlxalq mübarizənin fonunda bölgənin özündə mürəkkəb hadisələr cərəyan edirdi. Seymin bütün fraksiyalarının yalnız öz maraqlarını təmin etməyə çalışması son nəticədə onsuz da zəif olan Cənubi Qafqaz federasiyasının dağılmasına gətirib çıxardı. 1918-ci il mayın 28-də müstəqil Azərbaycan Cümhuriyyəti elan edildi. Milli hökumətin əsas vəzifələrindən biri Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi və Bakının bolşevik işğalından azad olunması idi. Bu işdə Osmanlı dövləti Azərbaycanın dayağı oldu. İki dövlət arasında 1918-ci il 4 iyun müqaviləsinin imzalanmasın-

---

[107] Людендорф Э. Мои воспоминания о войне 1914-1918 гг.: Т.2. Москва, 1924, с. 187.

[108] Пипия Г.В. Германский империализм в Закавказье в 1910-1918 гг. Москва, 1978, с. 101.

dan sonra Osmanlı dövləti Azərbaycan Cümhuriyyətinin ölkə ərazisində, o cümlədən, Bakıda hakimiyyətinin bərqərar edilməsi istiqamətində yardım göstərməyə başlamışdır.

V.Lenin hökuməti bilirdi ki, Osmanlı-Azərbaycan yaxınlaşması son nəticədə Bakı məsələsində bolşeviklərlə toqquşmaya gətirib çıxaracaqdır. Buna görə Sovet Rusiyası Bakını əldə saxlamaq üçün diplomatik və hərbi tədbirlər görməyə başladı. Almaniya ilə Türkiyə arasında ziddiyyətlərdən istifadə etməyə çalışan V.Lenin 1918-ci il mayın 24-də S.Şaumyana yazırdı: "...Bakının beynəlxalq vəziyyəti çətindir. Buna görə də məsləhət görərdim ki, Jordaniya [Gürcüstan milli hökumətinin başçısı Noy Jordaniya – *F.C.*] ilə ittifaqa girməyə cəhd edin. Əgər mümkün deyilsə, onda hərbi cəhətdən möhkəmlənənədək manevr etmək və qərar çıxarılmasını ləngitmək lazımdır. Vəziyyəti ağıllı-başlı nəzərə almalı və qərar çıxarılmasını ləngitmək üçün diplomatiya işlətməli – bunu yadda saxlayın..."[109] Məktubda səsləndirilən tövsiyələrə uyğun olaraq, S.Şaumyan iyunun 6-da N.Jordaniyaya müraciət edərək, guya Cənubi Qafqazın müstəqilliyini türklərin hücumlarından qorumaq üçün sovetlərə kömək göstərilməsini ondan xahiş etmişdir. S.Şaumyan həmçinin zəmanət verirdi ki, əgər Gürcüstan türkləri öz ərazisindən Azərbaycana buraxmasa, onda Sovet Rusiyası Cənubi Qafqazda öz hakimiyyətini bərqərar etdikdən sonra gürcülərə muxtariyyət verə bilər.[110]

Türklərin Azərbaycan ərazisində sürətlə irəliləməsi həm Rusiyanın, həm də Almaniyanın maraqlarına zidd idi. Əgər Rusiya neft Bakısını itirməkdən qorxurdusa, Almaniya türklərin Azərbaycan qüvvələri ilə birgə şəhəri ala biləcəyinə inanmırdı. Almanlar ehtiyat edirdilər ki, döyüş əməliyyatları vaxtı neft

---

[109] V.İ.Lenin Azərbaycan haqqında, s. 126.

[110] Həsənli C.P. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı, 2009, s. 106.

mədənləri məhv ola bilər. Berlin çətin vəziyyətə düşmüşdür: birincisi, 27 aprel 1918-ci il müqaviləsinə görə, Azərbaycan Almaniyanın nüfuz dairəsinə keçmişdir. Lakin Osmanlı dövləti Azərbaycana hərbi və siyasi yardım göstərməkdə davam edirdi. İkincisi, türklərin fəallığı ilə yanaşı alman hökuməti Bakıda sovet hakimiyyətinin mövcudluğu, həmçinin Brest-Litovsk müqaviləsinin tələbləri ilə də hesablaşmağa məcbur idi. Üçüncüsü, alman komandanlığı narazı idi ki, türk qoşunları Şimali İranda ingilislərlə mübarizə adı ilə şərqdə cəmləşib özlərinin qərbdəki mövqelərini zəiflədiblər. Almaniyanın hakim dairələrində həmçinin anlayırdılar ki, Türkiyənin bölgədə nüfuzu artdıqca Qafqazda Almaniya-Osmanlı rəqabəti daha da kəskinləşəcək.[111]

Almaniya ilə Osmanlı dövləti arasında Qafqaza, o cümlədən Azərbaycana münasibətdə fərqli yanaşmalar və ziddiyyətlər 1918-ci il iyunun sonunda keçirilməsi nəzərdə tutulan İstanbul konfransında özünü qabarıq şəkildə büruzə verdi. Dördlər İttifaqı və Qafqaz (Gürcüstan, Azərbaycan, Ermənistan və Dağlılar İttifaqı) dövlətləri arasında siyasi, iqtisadi, maliyyə və hərbi məsələlərin müzakirəsinə həsr olunmuş konfransda iştirak edən Azərbaycan nümayəndələrinin – Məhəmmədəmin Rəsulzadənin, Xəlil bəy Xasməmmədovun və Aslan bəy Səfikürdskinin Osmanlı hərbi naziri Ənvər paşaya ünvanladıqları məktubdan göründüyü kimi, onlar Bakının azad edilməsi işində daha da qətiyyətli addımların atılmasını gözləyirdilər. Məktubda deyilirdi: "Müsəlmanların maddi və mənəvi zənginliyinin mərkəzi olan Bakı isə bolşeviklərin əlinə keçmiş və ağlagəlməz bir surətdə dağıdılmışdır. Biz şəhərin tezliklə azad edilməsini acizanə şəkildə sizdən xahiş edirik. Ötən hər gün bizə böyük bədbəxtliklər gətirir. Bir həftə də yubansaq, Cənu-

---

[111] Пипия Г.В. Göst. əsəri, s. 124..

bi Qafqazda bir çəllək də neft qalmayacaq, neft olmadığından sizin istifadə etmək istədiyiniz dəmir yolu öz hərəkətini dayandıracaq, bolşeviklər tərəfindən həbs olunmuş bütün ziyalılar və kapitalistlər vəhşicəsinə məhv ediləcəklər. Biz təxirə salınmadan ora hərbi kömək göndərilməsini rica edirik."[112]

İstanbul konfransı zamanı almanlara məlum oldu ki, Türkiyənin müdafiə və yardım etdiyi Azərbaycan hökuməti Bakını heç kimə güzəşt etmək fikrində deyil. Hətta Sovet Rusiyasının Bakı Xalq Komissarları Sovetini müdafiə etməsi və dəstəkləməsi Almaniyanın RSFSR nümayəndələrinin İstanbul konfransına dəvət edilməsi təşəbbüsünü irəli sürməsinə də səbəb olmuşdur. Lakin Osmanlı dövlətinin buna qarşı çıxması təklifin gerçəkləşməsinə imkan verməmişdir.[113]

Beləliklə, son məqsəddən asılı olmayaraq, həm Rusiyanın, həm də Almaniyanın maraqları Türkiyəyə mane olmaq məsələsində üst-üstə düşürdü. Bu amil iki ölkənin bir-biri ilə yaxınlaşmasına və Bakı məsələsində Rusiya-Almaniya sövdələşməsinə təkan verdi. Almanlar anlayırdılar ki, "Bakı problemi"nin açarı Sovet Rusiyasının əlindədir. Almaniyanın İstanbuldakı konsulu öz hesabatında yazırdı ki, bolşeviklər Bakını əldə saxlayırlar və buna görə çox güman ki, şəhəri almaq mümkün olmayacaq. Konsul Bakı məsələsində Rusiya ilə danışıqlara getməyi məqsədəuyğun hesab edirdi: "Ümumiyyətlə, türklərin Bakını ala bilməsi şübhəli görünür; çox güman ki, onlar orada bolşeviklər tərəfindən əsaslı şəkildə məğlub ediləcəklər – bunu arzulamaq lazımdır. Əgər biz bolşeviklərlə razılaşsaq, onda Bakının neft mənbələri və neft ehtiyatları tam və zərər çəkmədən bizim əlimizə keçəcək. Əgər gözləntilərin əksinə olaraq bolşeviklər şəhəri tərk etməyə məcbur olsalar, onda onlar mədənləri yan-

[112] Həsənli C.P. Azərbaycan Xalq Cümhuriyyətinin..., s. 114.
[113] Həsənli C.P. Azərbaycan Xalq Cümhuriyyətinin..., s. 117.

dıracaqlar və nə biz, nə də türklər neft ehtiyatlarından yararlana bilməyəcəyik."[114] Bolşeviklərin Bakının neft mədənlərini yandıra bilməsini ehtimal edərkən alman diplomatı heç də yanılmırdı. Əlbəttə, o, bunu dəqiq bilə bilməzdi, çünki həmin məsələ tam məxfi idi. Lakin tarixi faktlar sübut edir ki, bolşeviklərin həqiqətən belə bir dəhşətli planı var idi.

1918-ci il iyunun 5-də V.Lenin naməlum şəxsə yazırdı: "Terə [S.Ter-Qabrielyana – *F.C.*] həm də çatdıra bilərsinizmi ki, o, hücum olacağı təqdirdə Bakının tamamilə yandırılması üçün hər şeyi hazırlasın və bu barədə Bakıda elan dərc etsin."[115] Bolşeviklərin mədənləri yandırmağa hazırlaşdığını S.Şaumyanın V.Leninə yazdığı 23 iyun 1918-ci il tarixli məktubu da təsdiqləyir. S.Şaumyan S.Ter-Qabrielyanın Bakıya silah və "çoxlu başqa xeyirli şeylər" gətirdiyi üçün V.Leninə təşəkkürünü bildirir, həmçinin almanların Azərbaycan-Osmanlı qoşunlarına kömək edəcəyindən narahatlığını ifadə edərək yazırdı: "... onda yəqin ki, biz Bakını əldə saxlaya bilmərik. Belə olarsa, biz Sizin reseptinizi tətbiq edəcəyik. Bununla bağlı barəsində Sizə xəbər verdiyimiz qətnaməni qəbul etmişik və mütəxəssislərdən ibarət komissiya təşkil olunub. Komissiya öz işi barədə hər gün mənə məruzə edir."[116] Şübhə yoxdur ki, "Sizin reseptiniz" dedikdə, S.Şaumyan V.Leninin neft mədənlərini yandırmaq haqqında planını nəzərdə tutur və artıq hazırlıq işlərinin getdiyi barədə məlumat verirdi.

Azərbaycan-Osmanlı qüvvələri Bakıya doğru irəlilədikcə Rusiya-Almaniya yaxınlaşması real müstəviyə keçirdi. Bunu V.Leninin İ.Stalinə ünvanladığı teleqramdan görmək mümkündür: "Bu gün, iyunun 30-unda Berlindən İoffedən [RSFSR-in Berlində səlahiyyətli nümayəndəsi – *F.C.*] xəbər

---

[114] Азербайджанская Демократическая Республика (1918-1920), с. 80.
[115] Ленин В.И. Неизвестные документы. Москва, 1999, с. 239.
[116] ARPİİSSA: surət fondu, iş 110, vv. 1-2.

gəlmişdir ki, Külman [Almaniya Xarici İşlər Nazirliyinin dövlət katibi – *F.C.*] İoffe ilə ilkin danışıqlar aparmışdır. Bu danışıqlardan bəlli olduğuna görə, almanlar razıdırlar ki, türkləri Brest müqaviləsində göstərilən sərhəddə hərbi əməliyyatı dayandırmağa məcbur etsinlər, bizim üçün dürüst demarkasiya xətti müəyyənləşdirsinlər. Söz verirlər türkləri Bakıya qoymasınlar, özləri də neft istəyirlər. İoffe cavab vermişdir ki, biz Brest sülhünə ciddi əməl edəcəyik, lakin almaq xatirinə vermək prinsipinə tamamilə razıyıq. Bu xəbərə ciddi diqqət yetirin və çalışıb onu Şaumyana tez çatdırın, zira Bakını əldə saxlamaq üçün indi ən ciddi imkanlar vardır. Neftin bir qismini, əlbəttə, verərik."[117]

7 iyul tarixli növbəti teleqramda V.Lenin İ.Stalinə yazırdı: "...Bakıya dair ən vacib olan budur ki, Siz daim Şaumyanla əlaqədə olasınız və Şaumyan almanların Berlində səfir İoffeyə etdikləri təklifdən xəbərdar olsun. Təklif bundan ibarətdir ki, biz almanlara neftin müəyyən hissəsini verməyə zamin durur, onlar isə türklərin Bakıya hücumunu dayandırmağa razılaşırlar. Əlbəttə, biz razılaşacağıq."[118] Rusiya üçün çox vacib idi ki, almanlar Bakını Rusiyanın bir hissəsi kimi tanısınlar, özü də bolşeviklər neftin bir hissəsini güzəştə getməkdən əlavə alman protektoratı altında olan Gürcüstanın işlərinə müdaxilə etməməyə də söz verirdilər. Ertəsi gün – iyulun 8-də İ.Stalin S.Şaumyana göndərdiyi teleqramda bildirirdi: "1. Zaqafqaziyaya dair məsələdə bizim ümumi siyasətimiz bundan ibarətdir ki, biz almanları gürcü, erməni və Azərbaycan məsələlərinin Rusiyanın daxili məsələsi kimi rəsmən tanımağa və onları bu məsələlərin həllində iştirak etməməyə məcbur etməliyik. Məhz buna görə biz Almaniyanın tanıdığı Gürcüstanın müstəqilliyini tanımırıq. 2. Ola bilsin

[117] V.İ.Lenin Azərbaycan haqqında, s. 131.

[118] Документы внешней политики СССР: Т.1, с. 381.

ki, biz Gürcüstan məsələsində almanlara güzəştə getməli olacağıq, lakin belə güzəştə biz yalnız o şərtlə gedəcəyik ki, almanlar Ermənistanın və Azərbaycanın işlərinə qarışmamağa razı olsunlar. 3. Almanlar Bakının bizdə qalmasına razılıq verərək əvəzində müəyyən qədər neftin ayrılmasını xahiş edirlər. Əlbəttə ki, biz bu "xahişi" təmin edə bilərik."[119]

Rusiya ilə Almaniya arasında danışıqlar və müzakirələr getdiyi bir vaxtda bolşeviklərin Bakının neft mədənlərini məhv etmək planı yenidən gündəmə gəldi. Məqalələrinin birində S.Şaumyan bu barədə yazırdı: "Bakı almanlar tərəfindən tutulduğu halda neft ehtiyatlarının onların əlinə keçməməsi üçün Lenin bütün tədbirlərin görülməsini bizdən tələb edirdi. İclasların birində mənim təklifimlə Bakı Sovetinin belə bir qətnaməsi qəbul olunmuşdur: bütün neft sənayesini məhv etmək, lakin almanlara təslim etməmək."[120]

Almaniya ilə Rusiya arasında aparılan gizli danışıqlardan xəbər tutan İstanbuldakı Azərbaycan Cümhuriyyəti nümayəndə heyətinin başçısı M.Rəsulzadə xarici işlər naziri Məhəmmədhəsən Hacınskiyə ünvanladığı 19 iyul 1918-ci il il tarixli məktubda yazırdı: "Almanların Bakıya hücum əleyhinə olmalarının dəlili bu imiş ki, Bakıya hərbi yolla gedilərsə, bolşeviklər neft mədənlərini və neft ehtiyatlarını yandırarlar. Halbuki, neft müharibə edən müttəfiqlərə su kimi lazımdır. Buna görə də almanlar Bakı məsələsini başqa formada, sülh yolu ilə həll etmək istəyirlər... Şəxsi kanallarla bizdə məlumat var ki, neftə dair almanlarla bolşeviklər arasında xüsusi müqavilə mövcuddur. Məlumunuz olsun ki, neft məsələsi Azərbaycan-Almaniya məsələsindən çox Türkiyə-Almaniya məsələsidir. Batumi

---

[119] Ментешашвили А. Из истории взаимоотношений Грузинской Демократической Республики с советской Россией и Антантой. 1918-1921 гг. // http:sisuari.tripod.com

[120] Шаумян С.Г. Избранные произведения: Т.2, с. 409.

müqaviləsinə görə, neftin artıq qalan hissəsi Türkiyənindir. Görünür, türklər neft amili zəminində almanlardan istifadə etmək istəyirlər."[121]

Yaranmış şəraitdə Azərbaycan Cümhuriyyəti Osmanlı dövlətinin və Almaniyanın maraqları ilə hesablaşmalı, onlarla kompromisə nail olmalı idi. M.Rəsulzadə məktublarının birində yazırdı: "Çox güman ki, biz Bakıda almanlara məlum iqtisadi güzəştlərə getməli olacağıq."[122] Xarici işlər naziri M.Hacınski İstanbulda olan M.Rəsulzadədən xahiş edirdi ki, o, Azərbaycan hökumətinin Berlinin və İstanbulun maraqlarını təmin etməyə hazır olduğunu Almaniya və Türkiyə rəsmilərinə bildirsin: "Türkiyənin, Azərbaycanın və Almaniyanın maraqlarını yaxınlaşdırmaq üçün zəmin tapın. Belə bir zəmin Bakı neftinə dair iqtisadi sazişdir. Burada güzəştə getmək olar."[123]

Bu vaxt isə Azərbaycan və Osmanlı ordusunun Bakıya yürüşü davam edirdi. RSFSR xalq xarici işlər komissarı Georgi Çiçerin Almaniyanın diplomatik nümayəndəsi Kurt Ritslerə Bakıya hərbi hücumla əlaqədar etiraz notası göndərmişdir.[124] S.Şaumyan türklərin şəhərə yaxınlaşması haqqında daim Moskvaya teleqramlar göndərirdi. İyulun 27-də V.Leninə ünvanladığı teleqramda o, məlumat verirdi: "Cəbhədə vəziyyət gündən-günə pisləşir. Şamaxı istiqamətində bizim qoşunlar geri çəkiliblər və dəmir yolu xətti boyu yenidən formalaşırlar. Şimaldan – Pirsaat istiqamətində, cənubdan – Salyan tərəfdən sıxışdırılan qoşunlar Ələt stansiyasına qədər geri çəkiliblər, vəziyyət olduqca ciddidir."[125]

Cəbhədə ağır döyüşlərin getdiyi bir vaxtda Bakının özündə mühüm hadisələr baş verdi – Rusiyanın Cənubi Qafqazdakı ye-

[121] Həsənli C.P. Azərbaycan Xalq Cümhuriyyətinin..., s. 125.
[122] Азербайджанская Демократическая Республика (1918-1920), с. 83.
[123] Азербайджанская Демократическая Республика (1918-1920), с. 83.
[124] Документы внешней политики СССР: Т.1, с. 410.
[125] Шаумян С.Г. Избранные произведения: Т.2, с. 368.

ganə sovet forpostu süqut etdi. Bolşeviklərin şəhəri müdafiə etmək iqtidarında olmadığını görən Bakı Soveti 1918-ci il iyulun 25-də ingilislərin dəvət olunması haqqında qərar qəbul etdi. Bu barədə V.Leninə xəbər verən S.Şaumyan ondan əlavə qoşunların göndərilməsini xahiş edirdi: "Bakını Rusiya üçün xilas etmək vacibdir."[126] Hakimiyyəti əldə saxlaya bilməyən Xalq Komissarları Soveti iyulun 31-də səlahiyyətlərinə xitam verdi. Şəhərdə bütün hakimiyyət eser, menşevik və daşnak partiyalarının nümayəndələrindən ibarət "Sentrokaspi diktaturası" hökumətinə keçdi. Bir neçə gündən sonra ingilis qoşunları Bakını işğal etdilər. Britaniya generalı Lionel Denstervil öz xatirələrində yazırdı: "...bizim əsas məqsədimiz Xəzər dənizi üzərində ağalıq idi. Buna isə yalnız Bakını ələ keçirməklə nail ola bilərdik. Şəhərin düşmən qüvvələrin nəzarəti altına düşməsinə heç vəchlə yol verilməməli idi. Bakının əhəmiyyəti son dərəcə böyük olduğundan şübhəsiz, ona sahiblənmək baxımından hər bir risk özünü doğruldurdu."[127]

Baş verən hadisələr Azərbaycan hökumətinin Bakını yadelli işğaldan azad etmək əzminə mane ola bilmədi. Bu cəhətdən M.Rəsulzadənin "Journal d'Orient" jurnalına verdiyi müsahibə olduqca səciyyəvi idi: "Biz Bakını qarətçi bolşeviklərdən və şəhəri tutan ingilislərdən təmizləmək istəyirik. Biz indiki düşmənlərimizi əvəz etmək fikrinə düşən istənilən qüvvəyə və istənilən təsirlərə qarşı müharibəni davam etdirəcəyik. Hətta mümkün olmayanı, məsələn, belə bir düşmənin Almaniya və ya bizim təbii himayədarımız Türkiyə olacağını ehtimal etsək, sizi əmin edirəm ki, onda da biz heç bir halda Bakıdan imtina etməyəcəyik."[128]

---

126 Документы внешней политики СССР: Т.1, с. 411.

127 Quliyev V. Densterfors Bakıda. General Denstervilin Bakı gündəliyi. Bakı, 2018, s. 67.

128 Азербайджанская Республика. Документы и материалы / под ред. Дж.Б.Гулиева. Баку, 1998, с. 47.

Bakıda bolşevik diktaturasının süqutundan sonra çətin vəziyyətə düşən Rusiya indi Almaniyanın dəstəyinə daha çox ehtiyac duyurdu. 1918-ci il avqustun 19-da G.Çiçerin Osmanlı qoşunlarının Bakıya yürüşü ilə əlaqədar Almaniyanın baş konsulu H.Hauşildə etiraz notası göndərmişdir. Notada "Bakı neftinin bütün Rusiyanın xalq təsərrüfatı və Rusiyanın iqtisadi əlaqələrə girmək niyyətində olduğu ölkələr üçün" əhəmiyyətinə xüsusi diqqət yetirilirdi.[129] Neft şəhərinin Rusiyanın əlində qalmasında maraqlı olan almanlar qırmızı ordunun ingilisləri Bakıdan çıxaracağı təqdirdə Osmanlı qoşunlarının şəhərə hücumunun dayandırılmasına zəmanət verirdilər.[130] Bakının tezliklə azad olunmasını gözləyən Almaniyanın hakim dairələri mövcud vəziyyəti nəzərə alaraq, özlərinin Cənubi Qafqaz siyasətində müəyyən düzəlişlər etməyin zəruri olduğu qənaətinə gəldilər. Bununla əlaqədar 1918-ci il avqustuun 21-də Berlində ali hərbi komandanlığın, iqtisadiyyat nazirliyinin, inhisar birliklərinin və "Qafqazda marağı olan" digər qurumların nümayəndələrinin iştirakı ilə xüsusi konfrans keçirildi. Protokolda konfransda iqtisadiyyata və nəqliyyata dair məsələlərin müzakirə olunduğu, siyasi məsələlərə toxunulmadığı göstərilsə də, əslində konfransın gedişində Almaniyanın Cənubi Qafqazda nüfuzunun möhkəmləndirilməsi və daha da genişləndirilməsi ilə bağlı məsələlərə baxılırdı.[131] Bakı nefti məsələsinə dair ətraflı fikir mübadiləsi nəticəsində konfransda qərara alınmışdır ki, Almaniyanın Bakı məsələsinə dair siyasəti aşağıdakı prinisplər üzərində qurulmaldır: "a) Bakı yəqin ki, bolşeviklərin əlində qalacaq; b) neft hasilatı almanların rəhbərliyi ilə aparılacaq; c) Bakı-Tiflis dəmir yolu və Bakı-Batumi neft kəməri almanların nəzarəti altında olmalıdır."[132] Gürcü tarixçisi

---

[129] Документы внешней политики СССР: Т.1, с. 428-429.
[130] V.İ.Lenin Azərbaycan haqqında, s. 147.
[131] Пипия Г.В. Göst. əsəri, s. 128.
[132] Пипия Г.В. Göst. əsəri, s. 129.

Georgi Pipiyanın qeyd etdiyi kimi, konfrans iştirakçıları Türkiyə ilə rəqabət haqqında danışarkən və Bakı neftinə dair yalnız Almaniyanın maraqlarına cavab verən qərar qəbul edərkən heç də türk qoşunlarının Bakıya hücumunun dayandırılmasını nəzərdə tutmurdular. Əksinə, Almaniyanın hakim dairələri bu hücumun uğurla başa çatmasını və türklərin şəhəri ələ keçirməsini arzulayırdılar, çünki belə olduğu təqdirdə Almaniya özünü neftlə təmin edəcəkdi. Konfransın protokolunda yazılmışdır: "Bakının tutulmasından sonra neft yataqlarının Nobel firması ilə sıx təmasda istismarı nəzərdə tutulur. Buna görə İsveç vətəndaşı və Nobel firmasının direktoru Hagelin yubanmadan general fon Kressə tabe edilməlidir. Nobellərin zavodlarından birinin sahibi Bakı yaxınlığında bolşevik əsirliyində saxlanılır. Bizim onu azad etməyimiz çox arzuolunandır."[133]

Osmanlı dövləti ilə rəqabət məsələsinə gəldikdə isə Berlində nəzərdə tuturdular ki, gələcəkdə türkləri 27 aprel 1918-ci il müqaviləsində göstərilən sərhədlərdən çıxmağa məcbur etmək lazım gələcək. Lakin bu, Azərbaycan Cümhuriyyətinin hakimiyyəti bütün ölkə ərazisində bərqərar olduqdan və ingilislər türklərin köməyi ilə Bakıdan çıxarıldıqdan sonra mümkün olacaq. Almaniyanın hakim dairələri hesab edirdilər ki, Bakının taleyi gələcəkdə Sovet Rusiyası ilə Türkiyə arasında yox, Rusiya ilə Almaniyanın protektoratı altında olan Azərbaycan Cümhuriyyəti arasında danışıqlarda "xoşluqla" həll olunmalıdır. Almanlar Sovet Rusiyasını Bakını Azərbaycana güzəştə getməyə məcbur etməyi və bununla Bakı neftini qəti şəkildə nəzarətə götürməyi planlaşdırırdılar. Bu planlarla yanaşı almanların daha bir ehtiyat planı mövcud idi: onlar Sovet Rusiyasının nümayəndələri ilə Bakı neftinə dair danışıqları davam etdirirdilər.

---

[133] Пипия Г.В. Göst. əsəri, s. 129.

Nəhayət, uzun sürən danışıqlar nəticəsində "Bakı məsələsi" həll olundu. 1918-ci il avqustun 27-də Almaniya və Rusiya Berlində Brest-Litovsk sülhünə Əlavə müqaviləni imzaladılar. Rusiya ilə Almaniya arasında münasibətlərin müxtəlif məsələlərini əhatə edən Əlavə müqavilənin bir neçə maddəsi bilavasitə Cənubi Qafqaza aid idi. 4-cü maddədə deyilirdi: "Almaniya Rusiya dövləti ilə onun ayrı-ayrı vilayətləri arasında münasibətlərə qətiyyən qarışmayacaq, xüsusilə həmin vilayətlərdə müstəqil dövlət təsisatlarının yaradılmasına təkan verməyəcək və onları dəstəkləməyəcək." 14-cü maddəyə əsasən, Almaniya "Qafqazın Gürcüstanın hüdudlarından kənar hissələrində mümkün ola biləcək hərbi əməliyyatlarda heç bir üçüncü dövlətə yardım" göstərməməli idi.[134] Burada "üçüncü dövlət" dedikdə Brest-Litovsk müqaviləsinin müəyyənləşdirdiyi demarkasiya xəttini keçən və Azərbaycan ordusu ilə birlikdə Bakının xilasına dəstək verən Osmanlı dövləti nəzərdə tutulurdu. Almaniyanın öhdəlikləri qarşılığında isə Rusiya Bakıda neft hasilatını artırmağı və çıxarılan neftin ¼-ni Almaniyaya verməyi öz üzərinə götürür, əvəzində almanlar rusları Donetsk kömürü ilə təchiz etməli idilər.[135]

27 avqust tarixli Rusiya-Almaniya Əlavə müqaviləsi separatçı, hüquqa zidd müqavilə idi. İki dövlət öz aralarında sövdələşir, separat sazişlər imzalayır, təbii sərvətləri bölüşdürür, özgə ərazilərin taleyini həll edirdilər. Müqavilənin Qafqaza aid maddələri birinci növbədə Azərbaycan Cümhuriyyətinin ərazi bütövlüyünə qarşı yönəlmişdir. 27 avqust müqaviləsi Cümhuriyyət hökumətinin kəskin etirazına səbəb olmuşdur. M.Rəsulzadənin İstanbuldakı alman səfirinə ünvanladığı notada deyilirdi: "...Azərbaycan xalqı Bakını geri almaq arzu-

---

[134] Документы внешней политики СССР: Т.1, с. 439.
[135] Yenə orada, s. 443-444.

sundan imtina edə bilməz. Bu məsələ Azərbaycan üçün təkcə ərazisinin genişlənməsi məsələsi deyil, həmçinin yaşamaq qabiliyyətinin şərtidir; əksinə, Bakının onlara lazım olduğunu iddia edən Rusiya və başqa xalqlar üçün bu şəhər sırf iqtisadi baxımdan vacibdir."[136]

Bu gərginliyin fonunda isə beynəlxalq vəziyyət tamamilə Antantanın xeyrinə dəyişdi və nəticədə Almaniyanın 27 avqust müqaviləsinə marağı azaldı. Rusiya ingilisləri Bakıdan sıxışdırıb çıxara bilmədi, çünki buraya gələn bolşevik qüvvələri Gürcüstan və Dağlılar Respublikası tərəfindən dayandırıldı. Belə bir şəraitdə müqaviləyə əsasən Bakıya "üçüncü dövləti", yəni Osmanlı dövlətini buraxmamalı olan Almaniya faktiki olaraq şəhəri ingilislər üçün qoruyurdu. Belə bir vəziyyətin absurdluğunu və arzuolunmazlığını anlayan Almaniya 27 avqust müqaviləsindən imtina etdi. Bundan əlavə Berlin Bakının azad edilməsi işinə öz "töhfə"sini vermək qərarına gəldi. General P. fon Hindenburq Osmanlı hökumətinə məlumat verdi ki, Bakını ingilislərdən azad etmək üçün Cənubi Qafqaza iki alman briqadası göndərilib.[137] General E.Lüdendorf sonralar xatırlayırdı ki, alman hərbi komandanlığı Bakıya hücum üçün hazırlıqlara başlamış, bu məqsədlə Tiflisə süvari briqadasını və bir neçə tabor göndərmişdir. Lakin Nuru paşanın komandanlığı altında Osmanlı-Azərbaycan qoşunları almanların köməyini gözləmədən Bakını azad etmiş, sonrakı hadisələr isə almanları Tiflisə gələn həmin qüvvələri Rumıniyaya göndərməyə məcbur etmişdir.[138]

1918-ci il sentyabrın 15-də Osmanlı-Azərbaycan ordusu Bakıya daxil olmuş və şəhəri "Sentrokaspi diktaturası" hö-

---

[136] Азербайджанская Демократическая Республика. Внешняя политика. Баку, 1998, с. 74.

[137] Həsənli C.P. Azərbaycan Xalq Cümhuriyyətinin..., s. 158.

[138] Люденфорф Э. Göst. əsəri, s. 220.

kumətindən azad etmişdir. Həmin gün general L.Denstervilin komandanlığı altında ingilis qoşunları Bakını tərk etdilər. Arxiv sənədlərindən məlum olur ki, Britaniyanın ali siyasi və hərbi rəhbərliyi şəhəri əldə saxlamağın mümkünsüzlüyü təqdirdə Bakının neft mədənlərinin məhv edilməsini planlaşdırırdı. Özü də bu plan hələ avqustun əvvəllərində – Britaniya qoşunlarının Bakını yenicə işğal etdiyi vaxtlarda hazırlanmışdı. Londonda Bakının neft mədənlərinin məhv edilməsi, həmçinin neft anbarlarına yandırıcı qumbaraların atılması məsələsinin müzakirəsi zamanı bəzi hərbçilər (məs., general Makdonou, Stouks) bunun o qədər də asan olmayacağını bildirmişlər. Əsas arqumentlər kimi mədənlərdə çalışan müsəlman fəhlələrinin özlərinin yeganə dolanışıq mənbəyinin məhv edilməsində maraqlı olmaması, onların Osmanlı dövlətinə rəğbət bəsləməsi, həmçinin nəzərdə tutulan aksiyanın yerli əhali arasında böyük tələfatlar törətməsi göstərilirdi. Buna baxmayaraq, Britaniya Hərbi Nazirliyi Mesopotamiyadakı qoşunların baş komandanına neft kəmərlərinin və neft anbarlarının "bütün mümkün vasitələrlə məhv edilməsi" tapşırığını vermişdir.[139] Lakin ingilislər Bakını tərk edəndə bu planı həyata keçirə bilmədilər. Professor Cəmil Həsənlinin yazdığı kimi, "onlar elə böyük sürətlə qaçdılar ki, bu əmri yerinə yetirməyə macal tapmadılar."[140]

Bakı azad edildikdən sonra neft Azərbaycan milli hökumətinin ixtiyarına keçdi. Buna baxmayaraq, Sovet Rusiyası neft Bakısını geri qaytarmaq niyyətindən əl çəkmirdi. RSFSR Xalq Xarici İşlər Komissarlığı (XXİK) Almaniya hökumətinə nota verərək, Bakının azad edilməsini "türk qoşunlarının ta-

---

[139] Азербайджанская Демократическая Республика. Архивные документы Великобритании. Составитель Н.А.Максвелл. Баку, 2011, с. 214-215.

[140] Həsənli C.P. Azərbaycan Xalq Cümhuriyyətinin..., s. 162.

tar [Azərbaycan – *F.C.*] quldur dəstələrinin köməyi ilə Rusiya Respublikasının mühüm şəhərlərindən birinin işğalı" kimi qiymətləndirmişdir.[141] Rusiyanın etirazlarına cavab olaraq Almaniyadan bildirilmişdir ki, "əldə olunan məlumatlara görə, Bakıya türk ordusunun nizami qüvvələri deyil, hansısa "yerli quldur dəstələri" hücum edir."[142]

1918-ci ilin sentyabrında İstanbulda və Berlində Qafqazda yaranan mübahisələrin həllinə dair Osmanlı dövləti ilə RSFSR arasında danışıqlar keçirildi. Danışıqlar sədr-əzəm Tələt paşa və Rusiyanın Berlindəki nümayəndəsi A.İoffe səviyyəsində aparılırdı. Tələt paşa türk qoşunlarının geri çəkilməsinə razı olsa da, Azərbaycan ərazisinin Sovet Rusiyasına verilməsi şərtindən imtina etmişdir.[143] Bundan başqa Türkiyənin Almaniyadakı səfiri Rüfət paşa Qafqazda hərbi vəziyyətin tənzimlənməsi haqqında protokol imzalamağı A.İoffeyə təklif etmişdir. Protokol layihəsində türk qoşunlarının Qafqazdan çıxarılması və Brest-Litovsk müqaviləsinin müəyyən etdiyi sərhədlərə qədər geri çəkilməsi nəzərdə tutulurdu. Lakin protokolda neft Bakısına aid bənd olmadığı üçün sovet hökuməti sənədi imzalamaqdan imtina etmişdir. V.Lenin A.İoffeyə göndərdiyi 7 oktyabr 1918-ci il tarixli teleqramda buna birbaşa işarə edirdi: "Bakının hakimiyyət orqanlarımıza vermək barəsindəki təklif qəbul edilməyincə, Türkiyə protokolunu imzalamağa razı deyilik, çünki bu maddə olmadan güman etməyə tam əsas vardır ki, Bakını Antantaya təslim etmək barəsində Antanta ilə gizli saziş bağlanmışdır."[144] Lakin bu ehtimal həqiqətə uyğun deyildi. Sonralar hərbi qruplaşmalar arasında imzalanmış gizli

[141] Документы внешней политики СССР: Т.1, с. 491-492.
[142] История дипломатии: Т.3. Москва, 1965, с. 110.
[143] Азербайджанская Демократическая Республика. Внешняя политика, с. 608.
[144] V.İ.Lenin Azərbaycan haqqında, s. 151.

müqavilələr aşkarlananda məlum oldu ki, Mudros barışığına qədər Osmanlı dövləti Bakı barəsində Antanta dövlətləri ilə heç bir gizli danışıqlar aparmamış və heç bir gizli müqavilə imzalamamışdır.[145]

Rusiya ilə danışıqlarda Osmanlı tərəfinin irəli sürdüyü təkliflər müstəqil Azərbaycanın maraqlarının təmin olunmasına yönəlmişdir. Lakin Rusiyanın aşkar imperialist mövqeyinə görə danışıqlar uğursuzluqla nəticələndi.

Beləliklə, Azərbaycanın mütəqilliyinin elan olunmasından sonra neft uğrunda hərbi-diplomatik mübarizə yenidən qızışdı. Azərbaycan Cümhuriyyətinin hökuməti Bakıya olan istənilən qəsdin qarşısının alınmasında qətiyyət nümayiş etdirdi. Beynəlxalq vəziyyət, Osmanlı dövləti ilə ittifaq Azərbaycan hökumətinin siyasətinə müsbət təsir göstərdi. "Qara qızıl"ı əldən vermək istəməyən Rusiya isə Bakının Azərbaycan Cümhuriyyətinin nəzarəti altına keçməməsi üçün bütün vasitələrə əl atırdı. 1918-ci ildə buna nail olmaq mümkün olmadı: Azərbaycanın təbii sərvəti bir müddət özünün əsl sahibinin – Azərbaycan xalqının və milli hökumətin ixtiyarına keçdi.

[145] Həsənli C.P. Azərbaycan Xalq Cümhuriyyətinin..., s. 175.

## IV.

# NEFT VƏ APREL İŞĞALI

Bütün ölkə ərazisində hakimiyyətini möhkəmləndirdikcə Azərbaycan hökuməti neft sənayesinin bərpası istiqamətində tədbirlər görməyə başladı. 1918-ci il oktyabrın 5-də neft sənayesində milliləşdirmənin ləğvi haqqında qərar qəbul olundu.[146] Bütün mədənlər, zavodlar, gəmilər, müəssisələrə məxsus əmlak əvvəlki sahiblərinə qaytarılırdı. Həmin gün daha bir vacib qərar qəbul olundu – ticarət donanması da yenidən özəlləşdirildi.[147] Milliləşdirmənin ləğvi ilə yanaşı 8 saatlıq iş günü, müştərək müqavilə və istehsal prosesi üzərində fəhlə nəzarəti də ləğv olundu. Bununla əlaqədar ticarət və sənaye

---

[146] Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты. Сборник документов. Баку, 1998, с. 238.
[147] Азербайджанская Республика. Документы и материалы, с. 48.

naziri Behbud xan Cavanşir neft sənayeçilərinin nümayəndələri ilə 12 oktyabr 1918-ci il tarixli görüşdə demişdir ki, hökumət bundan sonra fəhlələrin öz işi ilə məşğul olacağına və müəssisələrin idarəolunmasına müdaxilə etməyəcəyinə nəzarət edəcəkdir.[148] Milliləşdirmənin ləğvi ilə bağlı tədbirlərə toxunan "Neftyanoye delo" qəzeti yazırdı: "Bu aktla bolşeviklərin ləğv etdiyi özəl mülkiyyət prinsipi bərpa edilir və dünya əhəmiyyətli sənayemizin yüksəlişini uzun müddət əngəlləyən maneə aradan qaldırılır."[149]

Qeyd etmək lazımdır ki, milli hökumətin iqtisadi platformasında mülkiyyət plüralizmi – dövlət, xüsusi, səhmdar, bələdiyyə və digər mülkiyyət formaları nəzərdə tutulurdu. Bolşeviklərdən fərqli olaraq, xüsusi mülkiyyət prinsipi nəinki rədd edilmir, əksinə, şəxsi təşəbbüsə imkanlar açdığı üçün təşviq edilirdi. Eyni zamanda, xüsusi mülkiyyətin miqyası müəyyənləşdirilir, bu işdə ifrata varmağın zərərli olduğu göstərilirdi. Azərbaycan Cümhuriyyətinin iqtisadi siyasətində nəzərdə tutulurdu ki, xüsusi mülkiyyətin mövcudluğu mülkiyyətin tamamilə xırdalanmasına aparmamalıdır. Xüsusən də fabrik və zavodların xırdalanması yolverilməz hesab edilirdi.[150] Azərbaycan Cümhuriyyətinin bolşeviklərin inzibati-amirlik üsullarından fərqlənən iqtisadiyyatın dövlət tənzimlənməsi sahəsində təcrübəsi də maraq kəsb edir. Məsələn, neft sənayesinin yenidən özəlləşdirilməsi haqqında qərarda deyilirdi ki, neft məhsullarının bütün ehtiyatı hökumətin sərəncamında qalır, hökumət isə həmin ehtiyatı saxlamaq üçün keçmiş sahibkarlara verirdi. Sahibkarlara Ticarət və Sənaye Nazirliyinin icazəsi olmadan neft məhsullarını kəmərlər vasitəsilə nəql etmək qadağan olunurdu.[151] Oktyabrın 30-da nazir B.Cavanşir elan etmişdir ki, anbarlarda olan, həmçinin yeni

[150] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: I cild, Bakı, 2004, s. 57.
[151] Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты, с. 238.

hasil və emal olunan neft və neft məhsulları xüsusi sərəncam verilənədək müəssisələrdə saxlanılmalı, sahibkarlar isə nazir müavininin icazəsi olmadan onları heç yerə daşımamalı və göndərməməlidirlər. Əks halda sahibkarlar cinayət məsuliyyətinə cəlb olunacaqdılar.[152] Göründüyü kimi, yeni hökumət iqtisadiyyata, xüsusilə Azərbaycan üçün strateji olan neft sənayesinə dövlət müdaxiləsi prinsipindən imtina etmirdi. Cümhuriyyət hökuməti dövlət sektoruna iqtisadiyyata təsir vasitəsi kimi baxırdı. Çoxukladlı iqtisadiyyat yaradılarkən dövlət mülkiyyətinə xüsusi əhəmiyyət verilirdi. Belə hesab olunurdu ki, dövlətin gücü təkcə və hətta başlıca olaraq, onun qanunvericilik fəaliyyətində deyil, dövlət mülkiyyətinin güclü olmasındadır. Dövlət milliləşdirmə və əksmilliləşdirmə tədbirlərini həyata keçirməklə yanaşı, əmək münasibətlərinin qaydaya salınmasını da təmin edirdi.[153]

Bolşeviklər milli hökumətə çox ağır miras qoymuşdular. "Neftyanoye delo" qəzeti milliləşdirmədən sonrakı vəziyyəti belə təsvir edirdi: "...mədənlərin, zavodların birləşdirilməsi metodlarında, daşınmada tam xaos, bu işə ilk dəfə cəlb olunan şəxslərin nəzarətsiz və bacarıqsız idarəçiliyi, heç bir hesabatın olmaması, böyük pul vəsaitlərinin layiq olmayan insanlara verilməsi, nəinki sahibkarların və baş rəhbərlərin, həmçinin birbaşa müdirlərin tamamilə işdən uzaqlaşdırılması."[154] Mədənlərin amansızcasına istismarı nəticəsində 1918-ci ildə 3,4 mln. tona yaxın neft çıxarılmışdır.[155] Azərbaycan Cümhuriyyətinin hökuməti 1919-cu ildə hasilatı 3,7 mln. tona qədər yüksəltməyə müyəssər olmuşdur.[156] Ölkədə sabitlik yarandıqca neft sənayesi də tədricən bərpa olunur və ümumi hasilat 1919-cu

[152] Азербайджан, 3 ноября 1918 г.
[153] Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: I cild, s. 57.
[154] Нефтяное дело, 1919, №3-4, стлб. 32.
[155] Азербайджанская Демократическая Республика (1918-1920), с. 208.
[156] ARDA: f. 1610, siy. 13, iş 299, v. 41.

ilin iyununda 171995 tona, iyulda isə 365284 tona çatdırılmışdır.[157] Rusiya Azərbaycanı yenidən işğal edəndən sonra "Azneft"in rəhbəri olmuş A.Serebrovski Cümhuriyyət dövrünü 1920-1921-ci illərlə müqayisə edərkən etiraf edirdi: "Bizdə indi hasilat burjua dövrü ilə müqayisədə qat-qat azdır. Biz indi fəxr etməməliyik ki, bir necə ay ərzində hasilatı 4 milyona [pudla – *F.C.*] qaldırmışıq, çünki burjuaziyanın hökmranlığı zamanı hasilat bizimkindən 30 milyon çox idi."[158]

Azərbaycan Cümhuriyyəti hökuməti ölkənin müstəqilliyi elan olunduğu andan öz xarici siyasətində bütün dövlətlərlə sülh və dostluq münasibətlərinin qurulmasına çalışırdı. Bu siyasi xətt gənc dövlətin əsas hüquqi sənədi – "İstiqlal Bəyannaməsi"ndə elan olunmuş, eləcə də Cümhuriyyət rəhbərlərinin bəyanat və məktublarında dəfələrlə bildirilmişdir. RSFSR Azərbaycanın müstəqilliyini tanımasa və ona qarşı düşmən münasibət bəsləsə də, milli hökumət Moskva ilə normal əlaqələrin qurulmasının tərəfdarı idi. Hələ "Gəncə dövrü"ndə Fətəli xan Xoyski hökuməti özünün Tiflisdəki nümayəndəsi vasitəsilə Sovet Rusiyası ilə diplomatik münasibətlər yaratmaq, hər iki tərəf üçün əlverişli olan əlaqələri inkişaf etdirmək niyyətində olduğunu bildirmişdir.[159] 1918-ci ilin sentyabrında İstanbulda olan M.Rəsulzadə də xarici işlər naziri M.Hacınskiyə yazdığı məktubda bolşevik hökuməti ilə birbaşa əlaqələrin qurulmasının əhəmiyyətini qeyd etmişdir.[160]

1918-ci il dekabrın 7-də parlamentin açılışındakı nitqində M.Rəsulzadə deyirdi: "...bizim Rusiya camaatinə qarşı heç

---

[157] ARDA: f. 1610, siy. 13, iş 306, v. 68arx.-69.

[158] ARDA: f. 1610, siy. 13, iş 229, v. 38.

[159] Мустафазаде Р.С. Две Республики: Азербайджано-российские отношения в 1918-1922 гг. Москва, 2006, с. 34.

[160] Азербайджанская Демократическая Республика. Внешняя политика, с. 81.

ədavətimiz və nifrətimiz yoxdur. Bezar olduğumuz Rusiya, çarizm Rusiyası, Rusiya istibdadır. Rusiyaya nifrətimiz Rusiya istibdadı altında inləyən Rusiya camaatına nifrət demək deyildir. Bizcə, mənfur olan Rusiya, millətləri əzən və hüquqlarını verməyən rəsmi Rusiyadır, hər bir millət müstəqil və hürr olmalı, hürr olduqdan sonra digər millətlər ilə ürəyi istədiyi kimi əqdi-ittifaq etməlidir... Ərz etdim ki, biz Rusiya camaatının düçar olduğu fəlakətdən qurtulmasını ürəklə istəriz. Biz Rusiya hökumətinin həqiqi rus demokratiyası əlinə keçməsi tərəfdarıyız. Çünki, Qafqaziya dağlarının şimalında təşəkkül edən müstəbid və təcavüzkar bir hökumətə biz laqeyd qala bilməriz. Biz Rusiyanın səadətini istəriz, Rusiya camaatını sevəriz, fəqət, kəndi istiqalalımızı da əziz tutarız."[161] Dekabrın 10-da parlamentdə çıxış edərkən M.Rəsulzadə bir daha Cümhuriyyətin Rusiya ilə bərabərhüquqlu münasibətlər qurmaqda maraqlı olduğunu vurğulamış və hətta Azərbaycanın müəyyən mərhələdə Rusiya ilə, həmçinin keçmiş Rusiya imperiyası ərazisində yaranmış digər dövlətlərlə konfederativ ittifaqda birləşməyə hazır olduğunu bildirmişdir.[162] Cümhuriyyətin Baş naziri F.Xoyski dekabrın 26-da parlamentdə çıxış edərkən bir daha Rusiya ilə sıx əlaqələrin qurulmasına inamını bildirmişdir.[163]

Azərbaycan Cümhuriyyətinin Gürcüstanda diplomatik nümayəndəsi Məmmədyusif Cəfərov RSFSR XXİK-na 1918-ci il 6 oktyabr tarixli məktubunda Moskva quberniyası ərzaq komitəsinin nümayəndəsi İ.P.Orlovun Azərbaycanla rəsmi iqtisadi əlaqələr yaratmaq sahəsində gördüyü işləri qeyd edərək, Bakıda və Moskvada rəsmi nümayəndənin təyin olunmasını,

---

[161] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar): I cild. Bakı, 1998, s. 34.
[162] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament: I cild, s. 51.
[163] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament: I cild, s. 122.

ticarət mübadiləsinin ümumi istiqamətlərinin müəyyənləşdirilməsini təklif edirdi.[164]

Bu dövrdə Sovet Rusiyasının özü də Bakıdan neft almaq üçün müəyyən addımlar atırdı. Lakin bunun üçün Azərbaycan hökuməti ilə deyil, neft firmaları ilə birbaşa əlaqələrin qurulmasına üstünlük verilirdi. Rusiyalı tədqiqatçı Aleksandr Vasilenko arxiv sənədlərinə istinadən qeyd edir ki, RSFSR Baş Neft Komitəsinin yüksək rütbəli məmurlarından biri M.Moiseyev Bakı ezamiyyətindən qayıtdıqdan sonra komitəyə məruzə edirdi ki, Rusiya hökuməti nefti almaq üçün Bakıdakı iri firmalarla deyil, xırda firmalarla danışıqlar aparmalıdır. Öz təklifini əsaslandıran M.Moiseyev yazırdı ki, iri neft sahibkarları siyasi motivlərə görə Sovet Rusiyasına neft satmağa razı olmayacaqlar, çünki onlar bolşevik quruluşuna düşmən münasibət bəsləyirlər. Əksinə, şimal bazarının bağlanmasından daha çox ziyan çəkən və iri neft firmaları ilə rəqabətə tab gətirməyən xırda firmalar üçün siyasi məsələlər o qədər də əhəmiyyətli olmadığından onlar Rusiyaya neft satmağa daha çox maraq göstərəcəklər. M.Moiseyev təklif edirdi ki, Rusiya bu iki qrup arasındakı ziddiyyətlərdən istifadə edib xırda neft firmaları ilə danışıqlara girməlidir.[165] Lakin edilən cəhdlərə baxmayaraq, Sovet Rusiyasının ticarət nümayəndələrinin Bakıdan neft almaq təşəbbüsləri uğursuz olmuşdur.

Azərbaycan Cümhuriyyəti hökumətinin Rusiya ilə sıx münasibətlər yaratmağa çalışması ilk növbədə iqtisadi səbəblərlə izah olunur, çünki Rusiya bazarı Bakı neftinin əsas istehlakçısı idi. Aşağıda təqdim olunan cədvəldən göründüyü kimi, 1913-1918-ci illər ərzində şimal istiqamətində neftin daşınması Bakıdan ümumi ixracın 73-86 %-ni təşkil edirdi.

---

[164] Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı, 1996, s. 232.
[165] Василенко А.Б. Göst. əsəri, s. 24.

**Cədvəl 2. 1913-1918-ci illərdə Bakıdan neftin daşınması (tonlarla)[166]**

| İllər | Bütün istiqamətlər üzrə | Həştərxan istiqamətində | Həştərxana daşımaların ümumi daşımalara nisbəti (%-lə) |
|---|---|---|---|
| 1913 | 6073958 | 4424423 | 73 |
| 1914 | 5279495 | 4006716 | 76 |
| 1915 | 6313116 | 5236905 | 83 |
| 1916 | 6689872 | 5521929 | 83 |
| 1917 | 5693926 | 4606249 | 81 |
| 1918 | 1479176 | 1271141 | 86 |

Lakin məlum siyasi səbəblərə görə və sovet hökumətinin Azərbaycan Cümhuriyyətinə qarşı açıq düşmənçilik münasibəti üzündən Rusiya bazarı bağlanmışdı. Doğrudur, milli hökumət neftin başqa istiqamətlərdə daşınması üçün tədbirlər görürdü. Ancaq bunun üçün vaxt və vəsait tələb olunurdu, iqtisadiyyatı isə təcili böhrandan çıxarmaq lazım idi. Rusiya bazarının Bakı neft sənayesi üçün əhəmiyyətinə toxunan Cümhuriyyətin yollar naziri Xudadat bəy Məlikaslanov parlamentin 6 fevral 1919-cu il tarixli iclasında deyirdi ki, əvvəllər ölkədə 8,2 mln. neft hasil olunurdu: "Əvvəlləri bu miqdarın az bir hissəsi Batuma, yerdə qalanı Rusiyaya göndərilirdi. Batuma dəmir yolu ilə 1917-ci ildə 40 milyon [655219 ton – *F.C.*], digər illərdə hər il 50-60 milyon pud [819024-982828 ton – *F.C.*] getmişdir. Şimdi Batuma o qədər neft göndərmək mümkün de-

---

[166] Нефтяное дело, 1919, №5-6, стлб. 3. Mənbədə rəqəmlər pudla verilib, tonlara mənim tərəfimdən çevrilib.

yildir, çünki dəmir yolu ancaq 20 milyon [327609 ton – *F.C.*] apara bilir, əlavə neft provodu [kəməri – *F.C.*] ilə də 50 milyon pud [819024 ton – *F.C.*] göndərilir. Qalan neft gərək burada qalsın, yainki Rusiyaya göndərilsin. Amma yol yoxluğundan Rusiyaya neft göndərmək mümkün deyildir. Bu surətdə nefti sata bilmiriz, burada da az işlənir."[167] 1919-cu il ərzində Bakıdan cəmi 663390 ton neft daşınmışdır, bu da həmin ilin neft hasilatının 18 %-ni, müharibədən əvvəlki daşımaların isə 12 %-ni təşkil edirdi.[168]

Beləliklə, şimalla iqtisadi əlaqələrin pozulması, anbarlarda külli miqdarda neft məhsullarının (müxtəlif hesablamalara görə, 2,5-4 milyon ton) yığılıb qalması Azərbaycanın iqtisadi durumunu çətinləşdirirdi. Lakin Rusiyanın özü də Bakı neftinə kəskin ehtiyac duyurdu. Həmin dövrdə orada nefti ağ neft, spirt və skipidar qarışığı ilə əvəz edir, sürtkü yağları yerinə kastor və pambıq yağı istifadə edirdilər. Qatar sobalarında yanacaq əvəzinə qurudulmuş balıq yandırırdılar.[169] "Neftyanoe delo" qəzeti hətta qeyd edirdi ki, "...Bakının əsas satış bazarından – Rusiyadan təcrid olunması çox güman ki, məsələni belə bir həddə çatdıracaq: kim kimi daha tez boğacaq – duru yanacağın olmaması Rusiyanı, yoxsa Volqa istiqamətində ixracın dayandırılması Bakını."[170] Qəzetdə həmçinin Rusiyada çıxan "Baş Neft Komitəsinin Xəbərləri"ndə dərc olunan məqalədən bir hissə verilmişdi. Həmin məqalədə Rusiyada yanacaq böhranı belə təsvir edilirdi: "...yaxın gələcəkdə yanacaq ehtiyatlarının tamamilə tükənməsi ilə üzləşəcəyik... Hasilat rayonları Sovet Rusiyasının hüdudlarından kənarda qalmaqda davam edir; cari naviqasiya

---

[167] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament: I cild, s. 242.
[168] Раевский А. Английская интервенция и мусаватское правительство. Баку, 1927, с. 81.
[169] Султанов Ч.А. Нефть / www.sultanov.azeriland.com.
[170] Нефтяное дело, 1919, №5-6, стлб. 24.

dövründə oradan yeni məhsulun gəlməsi çox şübhəli görünür və bu, cəbhələrdəki silahlı mübarizənin gedişindən, qismən də beynəlxalq siyasi amillərdən asılıdır. Bizim yaxın naviqasiya aylarında neft rayonları ilə əlaqənin bərpasına möhkəm inamımız olmadığından ölkənin hətta ən cüzi ehtiyaclarının neftin hesabına ödəniləcəyinə ümid yoxdur."[171]

F.Xoyski hökumətinin Sovet Rusiyası ilə ikitərəfli əlaqələrin qurulmasına yönələn kursu Baş nazir Nəsib bəy Yusifbəylinin kabineti tərəfindən də davam etdirilirdi. 1919-cu il aprelin 14-də parlamentin iclasında hökumətin proqramını bəyan edən N.Yusifbəyli bu mühüm məsələyə toxunaraq demişdir: "Bizim sərvətimiz, rifah halımız həp neft ticarətinə bağlıdır. Halbuki neftimizin ən böyük bazarı olan Rusiyanın yolu bağlıdır. Bazar açılmazsa bir korluq çəkəcəyiz. Digər tərəfdən Rusiyanın bizim neftimizə ehtiyacı o dərəcədədir ki, bizimlə anlaşmazlar, bizimlə bir "modusu verəndə" vəz və təyin etməzlər isə Rusiya olduqca böyük və təhlükəli və müşkilat zühür edə biləcəyi bədihidir. Binaən-ileyh, hərgah Astraxan tərəfindən bizə ticarət qapılarını açmaq vüqu bularsa müəyyən şəraitlə qəbul edə bilərik. Filhəqiqə, bizim üçün Rusiyanın daxili işlərinə qarışmağa haqqımız yoxdur. Rusiyada hansı firqə qalib gələcək, hansı adamlar iş başına keçəcək. Bu bizim vəzifəmiz deyil, böyük Rusiyanın kəndi işidir. Biz Rusiya ilə, dövləti ilə hər zaman sülh və səlahla, dustanə keçinmək istəriz. Yalnız bir məsələ var ki, (bolşevik Rusiyamı, menşevikmi, yoxsa birimi olsun) bizim daxili işlərimizə qarışmamalıdır. Biz Rusiyadan yalnız bunu tələb ediriz. Bu da haqqımız olduğunu təbii kimsə inkar etməz zənn edəriz. Bunun üçün də Rusiya ilə hər bir ticarətə girişməyi, münasibəti düstanə təsis etməyi Azərbaycan hökuməti hər zaman kəndisinə borc biləcəkdir. Astraxan yolu açılarsa, iki yüz milyon puta balğ neftimizi ixrac edə biləcəyi-

[171] Нефтяное дело, 1919, №17-18, стлб. 8.

mizdən nəticədə iki milyarda qədər bir para Azərbaycana daxil olmuş bulunacaqdır.”[172]

Baş nazir N.Yusifbəylinin çıxışı bir neçə aspektən maraqlıdır. Birincisi, o, Rusiya ilə yaxınlaşmağa dəfələrlə təşəbbüs göstərmiş əvvəlki hökumətin xarici siyasət kursuna sadiqliyi nümayiş etdirdi. Bu, yeni kabinetin F.Xoyski hökumətindən fərqli olaraq ənənəvi iqtisadi tərəfdaşlara dair Cümhuriyyətin rəsmi siyasətinin dəyişməsi barədə fikri təkzib edir.[173] İkincisi, N.Yusifbəyli öz çıxışında Azərbaycan-Rusiya münasibətlərinin təməlini təşkil etməli olan əsas prinsipi – bir-birinin daxili işlərinə qarışmamaq prinsipini bəyan etdi. Baş nazir Azərbaycan Cümhuriyyətinin Rusiyada mübarizə aparan heç bir qüvvəyə – nə bolşeviklərə, nə də “ağ”lara rəğbət bəslədiyini, bunun “rus xalqının daxili işi” olduğunu bildirdi. Nəhayət, üçüncüsü, N.Yusifbəylinin çıxışı Azərbaycan Cümhuriyyəti ilə RSFSR arasında iqtisadi münasibətlərin olmamasının bütün günahını Azərbaycan hökumətinin üzərinə yıxan, onu Rusiya ilə ticarət aparmaqdan imtina etməkdə və əlaqələrin qurulmasına maneçilik törətməkdə suçlandıran bəzi sovet və müasir xarici tarixçilərin arqumentlərinin əsassız olduğuna dəlalət edir.[174]

Beləliklə, neftin ixracı həm Azərbaycana, həm də Rusiyaya lazım idi. Bəs onda Cümhuriyyət dövründə iki dövlət arasında iqtisadi əlaqələri qurmaq niyə mümkün olmamışdır və Azərbaycan hökumətini Rusiya ilə ticarətdən imtina etməkdə günahlandırmaq nə dərəcədə doğrudur? Qeyd etmək lazımdır

---

[172] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament: I cild, s. 326.

[173] Азербайджанская Демократическая Республика. Баку, 1998, с.128.

[174] Bu barədə ətraflı bax: Джаббаров Ф. К освещению некоторых вопросов новейшей истории Азербайджана в современной российской историографии /AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası. 2011, №1, s. 59-73.

ki, əslində iki ölkə arasında iqtisadi münasibətlərin qurulmamasının kökündə tamam başqa problem dayanırdı. Məsələ bundadır ki, 1918-ci ilin noyabrından 1919-cu ilin avqustunadək Bakıda Böyük Britaniya qoşunları yerləşirdi və bu ölkənin hərbi komandanlığının Cümhuriyyət hökumətinə böyük təsir gücü var idi. Həmin dövrdə Böyük Britaniya Sovet Rusiyasına qarşı blokadada və hərbi müdaxilədə iştirak edir, bolşeviklərlə mübarizə aparan ağqvardiyaçıları dəstəkləyirdi. Bu səbəbdən də milli hökumətə təzyiq göstərən ingilislər hər vəchlə Azərbaycanla Rusiya arasında münasibətlərin qurulmasına mane olurdular. Məsələn, Britaniya qoşunlarının komandanı general G.N.Kori Baş nazir N.Yusifbəyliyə yazırdı: "Qafqaz dövlətləri bolşevik qüvvələrini təchiz etməkdən çəkinməlidir. Bu şərtlərə riayət olunmaması onları Böyük Britaniyanın xoş münasibətindən məhrum edəcək və general Denikinin hərbi qüvvələrinin [Şimali Qafqazda bolşeviklərlə vuruşan keçmiş çar generalı A.Denikinin qoşunları nəzərdə tutulur – *F.C.*] şimalda qalmasını [yəni Azərbaycan sərhədlərinə yaxınlaşmamasını – *F.C.*] təkid etməyi Əlahəzrət hökuməti üçün mümkünsüz edəcək..."[175] Bir faktı da nəzərə almaq lazımdır ki, 1918-ci il noyabrın 29-dan Xəzər donanmasının bütün ticarət gəmiləri Britaniya komandanlığının ixtiyarına keçmişdir. Beləliklə, dəniz yolu ilə şimala hər hansı neft daşımaları haqqında danışmaq sadəcə olaraq mümkün deyildi.

Bununla belə, qeyd etmək yerinə düşər ki, ingilislər özlərinin neftə olan tələbatlarını tam həcmdə ödəyirdilər. Onlar Bakıda "Britaniya neft administrasiyası"nı təşkil etmişdilər, Bakıdan neftin daşınmasına maneə törətməməsi üçün Azərbaycan hökumətinə təzyiq göstərirdilər. Britaniya Xəzər Dəniz Nəqliyyatı İdarəsinin Azərbaycan Cümhuriyyətinin Aksiz

---

[175] Юсифзаде С.З. Göst. əsəri, s. 220.

İdarəsinə ünvanladığı xəbərdarlıqların birində deyilirdi ki, Böyük Britaniya hökuməti üçün nəzərdə tutulan neft məhsullarından aksiz vergisi yığıla bilməz və onların maneəsiz daşınmasına şərait yaradılmalıdır.[176] 1918-ci ildə ingilislər Bakıdan İrana və Batumiyə 13,3 min, 1919-cu ildə 275 min, 1920-ci ildə (may ayına qədər) 153 min ton neft məhsulları daşımış,[177] əvəzində isə Azərbaycan xəzinəsinə bir qəpik də ödəməmişlər. Bundan başqa ingilislər Rusiyada sovet hakimiyyətinə qarşı mübarizədə Bakı neftindən alət kimi istifadə edirdilər. Təsadüfi deyil ki, V.Lenin Osmanlı dövlətinin Birinci Dünya müharibəsində məğlubiyyətindən sonra demişdir: "indi isə İngiltərə türklərlə müqavilə bağlayıb Bakını ələ keçirmişdir ki, xammalımızı əlimizdən almaqla bizi boğsun."[178]

Maraqlıdır, bəs Bakı neftinə kəskin ehtiyac duyan Sovet Rusiyasının mövqeyi necə idi? Rusiyanın özü Azərbaycanla iqtisadi və siyasi münasibətlərin qurulmasına meyl göstərirdimi? Birmənalı cavab vermək olar ki, yox. Hələ 1918-ci il mayın 29-da Bakı XKS-in sədri S.Şaumyanın çağırdığı Bakı Fəhlə, Əsgər və Matros Deputatları Sovetinin və Bakı qəzası müsəlman kəndli deputatlarının birgə iclasında hər iki bolşevik mərkəzinin (Moskvanın və Bakının) Azərbaycan Cümhuriyyətinin yaranmasına münasibətini əks etdirən qətnamə qəbul olunmuşdur: "Həm Bakı demokratiyası, həm də bütün Zaqafqaziyanın fəhlə və kəndliləri Zaqafqaziyanın inqilabi Rusiyadan ayrılması ilə barışmayacaq, əllərində silah türk-alman quldur dəstələri və onların müttəfiqlərinə qarşı mübarizə aparacaqdır."[179] Qətnamədə Azərbaycan, gürcü və erməni mil-

.............................................................................................

[176] Из истории иностранной интервенции и гражданской войны в Азербайджане / Азербайджан архиви, 1988, №1-2, с. 44.

[177] Юсифзаде С.З. Göst. əsəri, s. 139.

[178] V.İ.Lenin Azərbaycan haqqında, s. 153.

[179] Мустафазаде Р.С. Göst. əsəri, s. 35.

li şuralarının Tiflisdə imzaladığı razılaşmaların qəbul edilmədiyi və Cənubi Qafqazın "böyük Rusiya Federativ Respublikasının" tərkib hissəsi kimi tanındığı vurğulanırdı.

Bolşeviklər Bakıya özlərinin keçmiş mülkü kimi baxır və onu gec-tez qaytarmağa ümid edirdilər. RSFSR-in xarici siyasətinin işğalçı xarakteri ona Azərbaycanla normal iqtisadi əlaqələr yaratmağa imkan vermirdi. Bunun əvəzində Rusiya başqa yolu seçdi: neft sərvətlərinin gizli yolla talan olunması, yerli bolşeviklərin köməyi ilə Bakıda sabitliyin pozulması və nəhayət, 1920-ci ildə Azərbaycanın işğal edilməsi yolu ilə neftin ələ keçirilməsi. Hələ 1919-cu ilin fevralında bolşevik Aleksandr Şlyapnikov V.Leninə xəbər verirdi ki, Bakıdan əldə edilən məlumatlara görə, fəhlələr və matroslar şəhərdəki ingilis komandanlığına qarşıdır, rus matrosları sovet hakimiyyətinin tərəfinə keçməyə hazırdır, Bakı fəhlələri isə Qırmızı ordunun hücumu olarsa üsyan qaldıracaqlar.[180] A.Şlyapnikovun bütün bu məlumatları ötürərkən nəyə istinad etdiyini söyləmək çətindir, lakin Bakı fəhlələrinin bolşeviklərə bu qədər rəğbət bəsləməsi haqqında deyilənlər haddindən artıq şişirdilsə də, V.Lenin 1919-cu il fevralın 12-də Həştərxana, A.Şlyapnikova yazırdı: "Bakı işləri haqqında teleqramınızı aldım. Ümid edirəm ki, Siz məsələnin çox vacib olduğunu anlayırsınız və cəld, qəti hərəkətlər üçün bakılıların əhval-ruhiyyəsindən istifadə etmək məqsədilə fəal tədbirlər görəcəksiniz. Bizim tərəfimizə keçənlərin təhlükəsizliyinə zəmanət verin. Təfərrüatlar haqqında teleqramla xəbər göndərin."[181] Necə deyərlər, şərhlər artıqdır...

Azərbaycanda hökm sürən iqtisadi böhran, Bakıda ingilislərin işğal rejiminin davam etməsi tədricən yerli əhali ara-

---

[180] Борьба за победу Советской власти в Азербайджане. 1918-1920. Документы и материалы (редколлегия: И.А.Гусейнов, Е.А.Токаржевский, Х.Г.Везиров и др.). Баку, 1967, с. 517.

[181] Борьба за победу..., с. 66.

sında narazılığın artmasına səbəb olurdu. Birbaşa Moskvadan idarə olunan yerli bolşeviklər bundan istifadə etməyə çalışırdılar. Onların dövlətçiliyə zidd təbliğatı get-gedə daha kəskin formalar alırdı. Hərbi nazir Səməd bəy Mehmandarovun Baş nazir N.Yusifbəyliyə 1919-cu il aprelin 21-də göndərdiyi raportda deyilirdi: "Bakıda işini başa çatdıran həmkarlar ittifaqlarının qurultayı aşağıdakı məzmunlu qətnamə qəbul edib: "İttifaqların məqsədi siyasi məqsəd olmalıdır – Zaqafqaziyada sovet hakimiyyətinin qurulmasına cidd-cəhdlə nail olmaq. Bu qərar yerli bolşeviklərin Azərbaycanın müstəqilliyini məhv etmək və Sovet Rusiyası ilə birləşmək niyyətinin olmasına heç bir şübhə yeri qoymur."[182] Göründüyü kimi, bolşeviklər iqtisadi çətinliklərdən siyasi məqsədlər üçün istifadə edirdilər. Bakıda fəaliyyət göstərən Mərkəzi Tətil Komitəsi 1919-cu il mayın 6-da ümumi iqtisadi tətilin başlanması haqqında bəyanat vermişdir. Komitənin tələbləri diqqəti cəlb edir: "1. Müştərək müqavilənin Fəhlə Konfransının redaktəsində qəbul olunması. 2. Həştərxanla ticarət mübadiləsinin yaradılması və yerinə yetirilməyən bəzi digər iqtisadi tələblər."[183] Sonuncu bənd tələblərin daha çox siyasi xarakter daşıdığını sübut edir, çünki şimalla ticarət mübadiləsinin açılması Rusiyanın Azərbaycanın müstəqilliyini tanımasından asılı idi. Bu məsələ ilə əlaqədar parlamentdə çıxış edərkən M.Rəsulzadə demişdir: "Onlar deyirlər ki, Həştərxan yolu açılsın, oraya neft getsin. Bunu hökumət öz bəyannaməsində də söyləmişdir. Həştərxan yolu açılsın, ticarət münasibəti başlansın, əmələlər [işçilər – *F.C.*] işsiz qalmasınlar. Bunlar və zahirdə haqq sözlərdir. Fəqət, bunun altında batil bir məqsəd vardır. Onlar bununla vəziyyəti-siyasiyyəni bərhəm edib Həştərxana neft aparmaq-

[182] Азербайджанская Республика. Документы и материалы, с.220.
[183] Азербайджанская Республика. Документы и материалы, с. 225-226.

la Həştərxanı burada hakim etmək istəyirlər. Əvət, əfəndilər, məsələ belədir. Zahirdə iqtisadi tələblər təklif olunur. Tələb olunur ki, stavka artsın, kollektiv qəbul edilsin. Əgər, doğrudan da fəhlələrin halı və mənafeyi-iqtisadiyyələri gözlədilmiş olsa idi əgər arada intriqa və siyasi məqsədlər olmasa idi, digər tələblər də olmalıydı. Əgər raboçi konfrans [Fəhlə konfransı – *F.C.*] əmələlərin əhvalını gözləmək istəyir bilməli idi ki, gündən-günə məvacibi artırmaqla iş düzəlməz. Promıslı [mədənlər – *F.C.*] hökumət parasilə dolanır. Stanoq [çap maşını – *F.C.*] kağız para kəsir, əmələlərə ucuz buğda, çörək, ət və sair lazımı şeylər versin. Əgər raboçi konfrans iqtisadi mənafi güdsə idi bunu deməli idi. Fəqət, bundan bəhs olunmur. Bunu demirlər, lakin elə şeylər tələb edirlər ki, onlar ilə əsla dərdə çarə olmaz. Bu cür siyasi məsələlər ortalığa da ancaq anarxiya və iğtişaşdan başqa bir şey salmaz."[184]

N.Yusifbəyli hökuməti tətili siyasi xarakterli hesab edərək, onun qarşısını almaq üçün bir sıra tədbirlər gördü. Nazirlər Şurasının qəbul etdiyi qərarda deyilirdi: "1. Fəhlə Konfransının elan etdiyi ümumi tətil siyasi tətil hesab olunsun. 2. Baş nazirə tətilin yatırılması, o cümlədən, fəaliyyətləri Azərbaycan dövlətçiliyinin əsaslarına qarşı yönəlmiş şəxslərin həbsi və ölkədən çıxarılması hüququ verilsin."[185] Bununla belə, hökumət iqtisadi tələblərin ədalətli hissəsinin sahibkarlarla və fəhlələrlə müzakirə etməyə hazır idi və bu barədə əmək nazirinə göstəriş vermişdi.[186]

Tətilin başladığı gün – mayın 6-da parlamentdə bu hadisənin müzakirəsi oldu. Baş nazir N.Yusifbəyli geniş nitqlə

---

[184] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament: I cild, s. 513.

[185] Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты, с. 308.

[186] Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты, с. 308.

çıxış etdi. Qeyd olunmalıdır ki, may tətili rəhbərlik etdiyi hökumətin hələ bir ayı tamam olmamış Baş nazir üçün ilk ciddi siyasi sınaq idi. Nəinki vəziyyətin sabitləşməsi, bəlkə də Nazirlər Şurasının bütün gələcək taleyi N.Yusifbəylinin mövqeyindən asılı idi. Hökumət başçısının söylədiyi arqumentlərin vacibliyini nəzərə alaraq, onun çıxışını cüzi ixtisarlarla təqdim edirəm: "Bu tətilin iqtisadi olmayıb, siyasi olduğunu güman edirəm, bilməyən yoxdur. Bu tətilin siyasi olduğunu tətil edənlər və tətil etdirmək istəyən adamların özləri də inkar etmirlər. Onlar öz məclislərində açıq deyirlər ki, biz gərək bütün Rusiyada, o cümlədən də Azərbaycanda ki; onu Rusiyanın bir parçası hesab edirlər, Sovdepiya [sovet – *F.C.*] hökuməti təşkil edək. Onlar bunu inkar etmirlər və bu məqsədə çatmaqdan ötəri də vəsiləyə müraciət ediblər və edirlər. Məlumi-alinizdir ki, indiyə qədər iş başında olan hökumət və indiki hökumət Azərbaycanda hürriyyəti-mətbuat, hürriyyəti-ictimaiyyə tətillər mühafizə olunmuşdur. Bunun səbəbi nədir? Səbəbi budur ki, hər nə qədər hökumətimizə bəy-xan hökuməti desələr də iş başında olan hökumət öz demokrat və xalqpərəst əməli ilə demokratlığı isbat etmişdir. Fəqət, bu hürriyyət suyi-istemal olunur. Bunlarda öz içərimizdə olan əhvalimiz deyil, özgə dövlətlərdən gələnlərdir ki, suyi-istemal edirlər. Bu vəziyyət içəridən qalxmış deyil, xaricdən qaldırılır, bununla da əsl məqsəd Azərbaycanı Rusiyaya ilhaq etməkdir. Bunu rusların əksəri, mütəəssifanə hər bir rus istəyir. Sələfdən bunu istəyirdilər, hətta bu xüsusda Azərbaycan daxilində bir para tədbirlər görülmüşdü ki, o da kəşf olundu. Bir çoxlar nəfy və tərd edildi və edilir. Soldan da bunu istəyənlər var. Soldan istəyirlər ona görə ki, bir vasitə ilə Azərbaycanı Rusiyaya ilhaq etmək istəyirlər. Onlar cürbəcür vasitələr ilə öz amalımızın, əmələlərimizin əli ilə öz ixtiyarlarını və qüvvələrini buraya gətirmək istəyirlər. Doğrudur, türk müsəlman fəhlələrin arasında hala mövqei həqqilə düşünə bilməyən, anlaya bilməyən bəzi adam-

lar tapılar, ancaq əminəm siz də inanırsınız ki, müsəlman türk demokratiyası və ələlümüm yerli demokratiya ki, arasında rus və erməni demokratiyası da var, bu yalana aldanmayacaqdır. Çünki onlar uşaq deyillər, onlar müvəqqəti olaraq bu yağlı sözlərə aldana bilərlər. Lakin işə gəldiyi zaman məsələki dikinə qoyuldu, yəni ya Azərbaycan tərəfinə və ya Rusiya Sovdepiyasına gedəsi məsələsi qoyuldu, o zaman zənn etmirəm rus tərəfdarı bir-iki prosentdən artıq raboçi tapılsın. Mən eşitmişəm mitinqlərdə söyləyirlər ki, hökumət Həştərxan yolunun açılmasına tərəfdardır. Deklarasiyasında da bunu deyir. Doğrudur, hökumət Həştərxan yolunun, bu yeni bazar yolunun açılmasına tərəfdardır. İki yüz milyon put neft var. Onu satmaq lazım, satmaq üçün də mühüm bir bazar Həştərxandır. Ancaq hökumət və millət deyil ki, neft bacını da verər ki, Sovdepiya hökumətini bura gətirməz və istiqlalından əl çəkməz. Hökumət demişdir ki, bəli, əgər sovdepiyadan təklif olarsa nefti almaq istəyirik, o vaxt bəzi şərait qəbul edərik. Bunun mənası açıq idi. Əgər Rusiya bizim istiqlalımızı tanırsa, bizimlə hesablaşırsa o zaman neft verərik. Bunlar olmayınca hökumət sovdepiyaya neft verməz. Lakin bunlar deyilər ki, yolu şərtsiz açın, gəlsinlər, buna heç bir hökumət, heç bir fəhlə, Türk demokratiyası, heç bir azərbaycanlı razı olmaz."[187]

N.Yusifbəylinin nitqi parlament deputatlarının böyük əksəriyyəti tərəfindən dəstəkləndi və müzakirələrdən sonra aşağıdakı məzmunda qətnamə qəbul olundu: "Raboçi konfrans adlanan müəssisə tərəfindən elan olunan tətili-ümuminin istiqlalımız əleyhinə bir sui-qəsdi-mütəzəmmin olduğunu nəzərə alaraq və hökumət rəisinin izahatını eşidərək hökumətin tətili bitirmək haqqında gördüyü və görəcəyi qəti tədbirləri təqdir və bu xüsusda kəndisinə hər növ müavinətdə

[187] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament: I cild, s. 516-517.

bulunacağını vəd ilə Məclisi-Məbusan növbədəki məsələlərin müzakirəsinə keçir."[188]

Fəhlə Konfransının elan etdiyi tətil mayın 13-də məğlubiyyətlə başa çatdı. Hökumətin qətiyyətli addımları, tətilçilərin Bakı fəhlələrinin geniş dəstəyini ala bilməməsi, həmçinin konfrans rəhbərləri arasında ziddiyyətlər nəticəsində tətil iflasa uğradı. Eyni zamanda, N.Yusifbəyli hökuməti parlament fraksiyalarının əksəriyyətinin və tətilin siyasi məqsəd daşıdığını anlayan, müstəqillik ideallarına sadiqlik nümayiş etdirən fəhlələrin əsas hissəsinin dəstəyini qazana bildi. Bu, həmçinin Sovet Rusiyası ilə münasibətlərin yalnız Azərbaycanın müstəqilliyinin tanınması və ona hörmət olunması təqdirdə mümkün olacağına istiqamətlənmiş N.Yusifbəyli kursunun dəstəklənməsi demək idi. Maraqlıdır ki, bu cəhət Böyük Britaniya komandanlığının da nəzərindən yayınmamışdır. Böyük Britaniyanın İstanbuldakı ali komissarı admiral C.De Robek xarici işlər naziri lord C.Kerzona göndərdiyi raportda yazırdı ki, Azərbaycanda "müstəqillik ideyası dərin kök salıb. Azərbaycanlıların rus adamlarına dostcasına yanaşmasına və iqtisadi səbəblərdən [neftin – *F.C.*] ənənəvi alıcısı olan Rusiya ilə yaxşı münasibətlər saxlamağa çalışmalarına baxmayaraq, onlar köhnə rejimə qayıtmaqdan və yaxud mərkəzləşmiş Rusiya ilə birləşməkdən daha çox vuruşmağa hazırdırlar."[189]

1919-cu ilin yayında bolşeviklər öz təbliğatlarını gücləndirmiş və onların çağırışları daha da radikal xarakter almışdır. Rusiya Kommunist (bolşeviklər) Partiyasının (RK(b)P) Qafqaz Diyar və Bakı Komitələri Azərbaycan əhalisinə müraciət edərək, onu sovet hakimiyyətinin qurulması uğrunda mü-

[188] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament: I cild, s. 538.

[189] Азербайджанская Демократическая Республика. Архивные документы Великобритании, с. 263.

barizəyə çağırmışlar. Müraciətdə hökumət əleyhinə şüarlarla yanaşı sovet hakimiyyətinin qurulmasının vacibliyi vurğulanırdı. Bolşeviklərin fikrincə, məhz sovet hakimiyyəti Azərbaycanın "əsl" müstəqilliyini təmin edəcəkdir.[190]

Təxribatçı fəaliyyətlə yanaşı, bolşeviklər nefti əldə etmək üçün əməli addımlar da atırdılar. Artıq qeyd olunduğu kimi, Bakı və bütün Azərbaycan Sovet Rusiyası üçün tamamilə əlçatmaz idi. Bolşeviklərlə müharibə aparan general A.Denikinin qoşunları Şimali Qafqazı ələ keçirmiş, Bakı-Rostov dəmir yolunu bağlamışlar. Xəzər dənizində sovetlərin əlində bircə Həştərxan limanı qalmışdır. Lakin Həştərxana aparan yollara Denikinin və Britaniyanın gəmiləri nəzarət edirdi. Vəziyyəti qiymətləndirən V.Lenin Moskva Sovetinin fövqəladə plenumunun 3 aprel 1919-cu il tarixli iclasında demişdir: "...Siz bilirsiniz ki, Bakıda nefti ingilislər əlimizdən almışlar. Onlar Xəzər dənizindəki gəmilərin bir hissəsini ələ keçirmək və Qroznını tutmaqla bizim neftdən istifadə etməyimizə mane olurlar. Yanacaqsız isə nə sənaye, nə də dəmir yolları işləyə bilmir. Var qüvvəni toplamaq lazım gəlir."[191]

Azərbaycan Cümhuriyyəti hökumətinin Rusiya ilə sivil, normal münasibətlərin qurulmasına ümidləri də get-gedə özünü doğrultmurdu. 1919-cu il dekabrın 22-də parlamentdə çıxış edən N.Yusifbəyli demişdir: "Təəssüf ki, Rusiyada mübarizə aparan qüvvələrin heç biri Rusiyanın keçmiş sərhədlərini bərpa edə bilməyəcəyinə inanmır və ya inanmaq istəmir, öz müqəddəratını təyin etmiş xalqlar üzərində yenidən hökmranlığın bərqərar edilməsi xülyadır. Bizimlə Rusiya arasında fikir ayrılığının səbəbi bundadır."[192]

---

[190] Борьба за победу Советской власти…, с.202-205.

[191] V.İ.Lenin Azərbaycan haqqında, s. 156.

[192] Азербайджанская Демократическая Республика. Парламент. Стенографические отчеты. Баку, 1998, с. 812.

Sovet hökuməti Azərbaycan Cümhuriyyətini tanımaq və qarşılıqlı əlaqələr qurmaq əvəzinə Bakı neftini oğurluq yolu ilə əldə etməyə üstünlük verirdi. Bu isə Azərbaycanın daxili işlərinə müdaxilə demək idi. Bu oğurluq uzun müddət sovet tarixşünaslığında Xüsusi dəniz ekspedisiyası adlandırılmış və Azərbaycan neftçilərinin Rusiyaya qardaşlıq, beynəmiləl köməyi kimi qələmə verilmişdir. Həqiqət isə tamam başqa idi – Rusiya faktiki olaraq, müstəqil dövlətin ərazisindən qanunsuz neft daşıyırdı.

Bakı ilə Həştərxan arasında dəniz ekspedisiyaları 1919-cu ilin martında RK(b)P-nin Bakı Komitəsi tərəfindən təşkil olunmuşdur. Ekspedisiyanın təşkilinə bolşevik D.Kojemyako rəhbərlik edirdi, ümumi rəhbərllik isə Sergey Kirova həvalə olunmuşdur. Xüsusi dəniz ekspedisiyası qarşısında bir neçə vəzifə qoyulmuşdur. Ekspedisiya vasitəsilə Həştərxana gedən Bakı bolşevikləri özləri ilə Azərbaycandakı vəziyyət, ingilislərin yerləşmə yerləri və s. barədə məlumatlar aparırdılar. Bakıya geri qayıdarkən isə onlar inqilabi ədəbiyyat, yeni partiya işçilərini, silah və pul gətirirdilər.[193] Təkcə birinci reys (1919-cu il, aprel-may) ərzində Həştərxandan Bakıya 2 mln. rubl gətirilmişdir.[194] Ekspedisiyanın tərkibinə 20-dək balıqçı qayığı və motorlu barkas, 200-ə qədər matros daxil idi. Xəzərin akvatoriyası ağqvardiyaçı və ingilis gəmilərinin ciddi nəzarəti altında olsa da, Bakı-Həştərxan dəniz yolu demək olar ki, fasiləsiz fəaliyyət göstərirdi.[195]

Xüsusi dəniz ekspedisiyasının fəaliyyəti iki mərhələyə bölünür. Birinci mərhələdə (aprel-avqust, 1919) ekspedisiya Bakı-Lənkəran-Həştərxan istiqamətində (Muğanda sovet qiyamı

---

[193] ARPİİSSA: f. 456, siy. 17, iş 1, v. 37.

[194] Агаев К.А. Особая морская экспедиция. Баку, 1967, с. 19.

[195] Дарабади П.Г. Военные проблемы политической истории Азербайджана начала XX века. Баку, 1991, с. 150.

ilə əlaqədar) işləyirdi. İkinci mərhələdə (avqust, 1919 - aprel, 1920) ekspedisiyanın fəaliyyət dairəsi genişləndi. Bu vaxt ingilis qoşunları Bakıdan çıxdığına və ingilis donanması artıq Xəzər dənizinə nəzarət etmədiyinə görə ekspedisiya Bakı-Krasnovodsk (indiki Türkmənbaşı), Bakı-Port-Petrovsk, Həştərxan-Krasnovodsk marşrutları ilə fəaliyyət göstərirdi.[196] Xüsusi dəniz ekspedisiyasının əsas məqsədlərindən biri ağqvardiyaçılarla müharibə aparan bolşeviklərə nefti çatdırmaq idi. V.Lenin Xəzər-Qafqaz cəbhəsinin hərbi-inqilab şurasına yazırdı: "... neftə kəskin ehtiyac var. Bütün səylərinizi neftin tezliklə əldə olunmasına yönəldin və ətraflı teleqram göndərin."[197] 1920-ci il fevralın 27-də V.Lenin S.Kirova yazırdı: "Bir saat belə itirmədən, maksimum ehtiyatla bütün nefti daşımaq üçün var-gücümüzü səfərbər etməliyik... Təcili cavab verin, bütün tədbirlər görülübmü, hazırlıq necədir, ehtimallar necədir, ən yaxşı adamlar təyin olunubmu, dəniz vasitəsilə təhlükəsiz daşımaya kim cavabdehdir."[198] Neft məhsullarını almaq və daşımaq məqsədilə bolşeviklər Bakıda saxta kontor açmışdılar. Həmin kontor neft, duz, tütün və s. mallar alır və sonra onları guya İranda və Krasnovodskda satırdı. Bəzən hökumət qurumları qayıqlarda neftin yox, başqa məhsulun olmasını və Həştərxana deyil, İrana və Krasnovodska daşındığını düşünərək özləri səfərlərə icazə verirdi. Məsələn, 1919-cu ilin iyulunda RK(b)P-nin Bakı Komitəsi XI Ordunun hərbi-inqilab şurasına məlumat verirdi ki, yerli hökumət qurumlarından əvvəlcə 24,5, daha sonra isə 32,7 ton benzinin daşınmasına icazə alınmışdır.[199] Bolşevik Çingiz İldırımın Bakı ticarət limanının rəisi olması da bu işdə mühüm rol oynamışdır. Şımali Qafqazdakı ağqvardiyaçı qüvvələrin qə-

[196] Агаев К.A. Göst. əsəri, s. 21-22.
[197] Азизбекова П.А., Мнацаканян А.Н., Трускунов М.Б. Göst. əsəri, s. 129.
[198] Азизбекова П.А., Мнацаканян А.Н., Трускунов М.Б. Göst. əsəri, s. 129.
[199] Агаев К.A. Göst. əsəri, s. 43.

rargahının məlumatında (noyabr, 1919-cu il) bu barədə deyilirdi: "...bizim donanmamızın zəif nəzarəti səbəbindən Xəzər dənizində Bakı ilə Həştərxan arasında kiçik gəmilərin mütəmadi reysləri təşkil olunub: Bakı Həştərxanı neftlə təchiz edir. Neft Ənzəliyə göndərilmək adı ilə əvvəl qeydiyyatdan keçir, sonra isə açıq dəniz yolu ilə Həştərxana daşınır."[200]

Həştərxandan Bakıya gələn məktublarda təcili olaraq neftin göndərilməsi tələbi qoyulurdu. Bolşevik İ.Kolomiytsev yazırdı: "Əgər siz böyük xərclər hesabına Həştərxana heç olmasa 300-500 [pud – *F.C.*] əla növ və ya ikinci növ benzin göndərə bilsəydiniz, buradakı donanmanı sözün əsl mənasında canlandırardınız və böyük gücə malik, hərəkətsiz qalmış aeroqırıcıları işə salmağa imkan yaradardınız."[201] Xüsusi dəniz ekspedisiyasının üzvlərinə müraciət edən S.Kirov isə deyirdi: "Əgər siz bizə 5-10 min pud [82-164 ton – *F.C.*] benzin çatdırsanız, bizim Tsaritsın və Həştərxan ətrafında dayanan zirehli avtomobillərimiz, eləcə də aviasiya hərəkətə gətiriləcək və Tsaritsındakı ağ cəbhə yarım aydan sonra darmadağın ediləcək."[202] 1919-cu il avqustun 31-də o, Azərbaycan bolşeviklərinə yazırdı: "Sizdən benzin dolu cəmi beş qayıq gəlib, ümumilikdə 2500 pud [41 ton – *F.C.*]. Bizi benzinlə təchiz etmək üçün bundan sonra da tədbir görməyə davam edin, həmçinin bizə maşın yağı çatdırmağa çalışın."[203]

Xüsusi dəniz ekspedisiyasının fəaliyyəti ərzində Bakıdan Həştərxana qanunsuz olaraq 327,6 ton neft, 57,33 ton sürtkü yağı daşınmışdır.[204] Bakıya gətirilən pul, ədəbiyyat, silah

---

200 Военные моряки в борьбе за власть Советов в Азербайджане и Прикаспии. 1918-1920: Сборник документов. Баку, 1971, с.210.

201 Борьба за победу..., s. 164-165.

202 Киров С. М. в борьбе за нефть. Баку, 1935, с. 13.

203 Братья навеки…, с. 366.

204 Азизбекова П.А., Мнацаканян А.Н., Трускунов М.Б. Göst. əsəri, s. 129; Токаржевский Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку, 1957, с.209.

isə Azərbaycanın növbəti işğalının hazırlanmasına sərf olunurdu. Bunun qarşısını almaq üçün Cümhuriyyət hökuməti 26 may 1919-cu il tarixli qərarla neft məhsullarının daşınmasına ciddi nəzarət tətbiq etdi. Qərara əsasən Həştərxana dəniz yolu bağlandı. Buna baxmayaraq, bolşeviklər yenə də gizli yollarla nefti şimala daşımağa müyəssər olurdular. Belə ki, Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalından cəmi 3 gün əvvəl – aprelin 24-də Bakıdan Krasnovodska yüklə dolu "Van" paroxodu qaçırılmışdı.[205] Həmin paroxodun qaçırılmasının təşkilatçısı isə Cümhuriyyətin yollar nazirinin Xəzər dənizində ticarət gəmilərinə nəzarət üzrə müvəkkilinin gizli agenti A.Titorets idi. Bolşeviklər partiyasının üzvü olan A.Titorets xidməti vəzifələrindən sui-istifadə edərək bu aksiyaya rəhbərlik etmişdir.[206]

RSFSR Azərbaycanı və onun neftini ələ keçirmək planlarından imtina etməmişdir və buna görə müstəqil Cümhuriyyəti tanımaq, onunla diplomatik münasibətlər qurmaq istəmirdi. Rusiyadan gələn təhlükəyə toxunan baş nazir N.Yusifbəyli hələ 1919-cu il mayın 6-da parlamentdə demişdir: "Bizim müstəqilliyimizə rus böyükdövlətçi şovinistlər tərəfindən – həm sağdan, həm soldan təhlükə var. Sağdan gələn təhlükə ilə hökumət mübarizəni başlayıb və davam etdirir, lakin indi soldan gələn təhlükə daha açıq-aydın görünür."[207] Sovet Rusiyasından gələn təhlükə həqiqətən də artır və get-gedə daha geniş miqyas alırdı. Bununla əlaqədar Cümhuriyyətin xarici işlər naziri F.Xoyski müttəfiq dövlətlərin Paris sülh konfransındakı nümayəndələrinə nota göndərərək, bir-biri ilə mübarizə aparan və müstəqil dövlətə təhlükə törədən Denikin ordusundan və bolşeviklərdən qorunmaq üçün

205 ARPİİSSA: f. 456, siy. 17, iş 1, v. 37.
206 ARPİİSSA: f. 456, siy. 17, iş 1, vv. 27, 37.
207 Азербайджанская Демократическая Республика. Парламент, с. 381.

Azərbaycana mənəvi, siyasi, maliyyə-iqtisadi və hərbi yardım göstərməyi xahiş etmişdir.[208]

1920-ci ilin əvvəlində Qırmızı ordu Denikini məğlub etmiş və Cənubi Qafqazın sərhədlərinə yaxınlaşmışdır. Beynəlxalq vəziyyət də bolşeviklərin xeyrinə dəyişmişdi. Qərb dövlətləri get-gedə hərbi müdaxilənin uğursuzluğa düçar olduğunu anlayır və Rusiya ilə sülh münasibətlərinin qurulmasına çalışırdılar. Belə bir şəraitdə RSFSR tərəfindən Azərbaycana rəsmi təzyiq başladı. Məqsəd əvvəlki kimi eyni idi: Azərbaycanı işğal etmək və nefti ələ keçirmək. 1920-ci il yanvarın 2-də RSFSR xalq xarici işlər komissarı G.Çiçerin Denikinə qarşı mübarizə aparmaq üçün hərbi ittifaq bağlamaq təklifi ilə Azərbaycan Cümhuriyyətinin xarici işlər naziri F.Xoyskiyə teleqram göndərdi. Bu teleqramın Azərbaycanın müstəqilliyi elan olunduğu vaxtdan Sovet Rusiyası hökumətinin ilk rəsmi müraciəti olduğunu nəzərə alsaq, sənədin məzmununa xüsusi diqqət yetirmək vacibdir. Sənəddə RSFSR hökumətinin suveren dövlətə münasibəti haqqında heç bir şey deyilmirdi. Müraciət diplomatik sənədə deyil, daha çox döyüş-təbliğat çağırışına bənzəyirdi: “Rusiyanın fəhlə və kəndlilərinin qəhrəman səyləri ilə yaranan Qırmızı Ordu Yudeniçi və Kolçakı [keçmiş çar generalları – *F.C.*] darmadağın etmiş və pərakəndə şəkildə Rostov-Dona doğru geri çəkilən çar generalı Denikinin ağqvardiyaçı dəstələrinə sarsıdıcı zərbə endirmişdir. Monarxist əks-inqilabına son zərbələri vuran RSFSR hökuməti Rusiyanın cənubundakı ağqvardiyaçı orduları tamamilə məğlub etmək məqsədilə hər iki komandanlıq arasında hərbi sazişin imzalanması üçün Azərbaycana sovet hökuməti ilə təcili [kursiv mənimdir – *F.C.*] danışıqlara başlamağı təklif edir.”[209] Azər-

[208] Азербайджанская Демократическая Республика. Внешняя политика, с. 598-603.

[209] Азербайджанская Республика. Документы и материалы, с. 420.

baycanı Rusiyada gedən vətəndaş müharibəsinə cəlb etməyə və bununla da onu zəiflətməyə çalışan bolşevik hökuməti Cümhuriyyət hökumətinə xəbərdarlıq etmək fürsətini də əldən buraxmadı: "*Nə qədər ki, gec deyil* [kursiv mənimdir – *F.C.*], biz Azərbaycana və Azərbaycan xalqına müraciət edərək, onu Denikinə qarşı mübarizəyə qalxmağa çağırırıq. Azərbaycan dövlətinin və onun zəhmətkeş siniflərinin düzgün başa düşülən sosial-siyasi maraqları Azərbaycanı bizim təklifimizə razılıq verməyə *məcbur etməlidir* [kursiv mənimdir – *F.C.*]."[210]

G.Çiçerinin bu və növbəti teleqramları Bakıda bolşevikləri hərəkətə gətirdi və onların çıxışlarına təkan verdi. Artıq yanvarın 7-də Bakıdakı Mərkəzi fəhlə klubunun mitinqində, yanvarın 25-də isə Bakı Fəhlə Konfransı tərəfindən qəbul edilən qətnamələrdə hökumətdən RSFSR ilə təcili danışıqlara başlamaq və hərbi ittifaq bağlamaq tələb olunurdu.[211]

1920-ci ilin əvvəlində yaranmış vəziyyət müstəqil respublika üçün olduqca əlverişsiz idi. Bir tərəfdən, yanvarın 11-də Antanta Ali Şurası Azərbaycanın müstəqilliyini de-fakto tanıdı, digər tərəfdən isə yanvarın 16-da Sovet Rusiyasının üzərindən blokadanın götürülməsi bəyan edildi. 1920-ci il fevral ayının axırlarında işə başlamış müttəfiqlərin Ali Şurasının London sessiyasında müstəqilliyi Antanta tərəfindən tanınan yeni dövlətlərə (o cümlədən, Azərbaycana) tövsiyə edilirdi ki, Sovet Rusiyası ilə dinc münasibətlər yaratsınlar, Rusiya ilə müharibə aparan ölkələrə isə məsləhət görülürdü ki, müharibəni davam etdirməsinlər. Lakin müttəfiqlər bildirirdilər ki, əgər Sovet Rusiyası yeni yaranmış dövlətlərə hücum edərsə, onların qanuni sərhədlərini pozarsa, Antanta hücuma məruz qalmış dövlətlərə bütün vasitələrlə yardım

---

[210] Азербайджанская Республика. Документы и материалы, с. 421.
[211] Азербайджанская Республика. Документы и материалы, с. 422, 447-448.

göstərəcəkdir.[212] Professor C.Həsənli haqlı olaraq qeyd edir ki, Antanta dövlətlərinin bütün bu vədləri deklarativ xarakter daşıyırdı.[213]

Beləliklə, 1920-ci ilin əvvəllərindən etibarən Qərblə RSFSR arasında münasibətlərdə faktiki olaraq müharibədən sülhə keçid başladı. Bu dəyişikliyi Paris sülh konfransına göndərilən Azərbaycan Cümhuriyyəti nümayəndə heyətinin üzvləri də hiss etmişdilər. Heyətin üzvü Miryaqub Mehdizadə hələ fevralın 5-də Londondan Parisə – heyətin sədri Əlimərdan bəy Topçubaşova zəng vuraraq bildirmişdir ki, Böyük Britaniyanın Xarici İşlər Nazirliyinin yüksək rütbəli məmuru M.Mehdizadə ilə söhbətində Antantanın Cənubi Qafqaz respublikalarına canlı qüvvə və hərbi materiallarla kömək etməyəcəyini, dəstəyin yalnız diplomatik yolla göstərilə biləcəyini demişdir. Buna görə Azərbaycan özü bolşeviklərlə əlaqələr yaratmalı və onlarla saziş bağlamağa çalışmalıdır.[214] Eyni fikri 1920-ci il martın 1-də Böyük Britaniyanın xarici işlər nazirinin birinci müavini Ç.Hardinq Londona gələn Ə.Topçubaşovun özünə də bildirmişdir. Ə.Topçubaşovun "Hal-hazırda Müttəfiqlər və ingilis hökumətinin özü Sovet Rusiyası ilə iqtisadi xarakterli danışıqlara başlayır. Bizim həmin Rusiya ilə iqtisadi əlaqələrimiz həddindən artıq çoxdur. Bizim Sovet Rusiyası ilə bu cür danışıqlara girməyimizin vaxtıdırmı və bu lazımdırmı?" sualına cavab olaraq Ç.Hardinq demişdir: "...hər bir ölkə öz maraqlarına uyğun şəkildə və əlbəttə, öz məsuliyyəti çərçivəsində bolşeviklərlə bu və ya digər sazişlər bağlamaqda sərbəstdir... Əgər hesab edirsinizsə ki, Azərbaycana bolşeviklərlə hansısa münasibətlər yaratmaq lazımdır, siz bunu özünüz

---

[212] Həsənli C.P. Azərbaycan Xalq Cümhuriyyətinin..., s. 464-465.

[213] Həsənli C.P. Azərbaycan Xalq Cümhuriyyətinin..., s. 465.

[214] Топчибаши А.М. Парижский архив 1919-1940. В четырех книгах. Книга первая 1919-1921. Составители Г.Мамулиа и Р.Абуталыбов. Москва, 2016, с. 355.

və öz məsuliyyətiniz çərçivəsində edə bilərsiniz."[215] Antantanın siyasətində baş verən bu dəyişikliklərdən istifadə edən və müttəfiqlərin yeni yaranan müstəqil dövlətləri zəif müdafiə etdiyini görən Sovetlər yeni ad altında vahid Rusiyanın bərpası siyasətini fəallaşdırdılar.

Moskvanın Azərbaycan Cümhuriyyətinə münasibətdə yürütdüyü siyasətin əsl mahiyyətini 1920-ci il yanvarın 18-də V.Leninin təklifi ilə RK(b)P Mərkəzi Komitəsinin (MK) qəbul etdiyi qərardan görmək olar. Qərarda RSFSR Xalq Xarici İşlər Komissarlığına "Azərbaycan hökuməti barəsində çox böyük təmkinlik və etimadsızlıq siyasəti" yürütmək tapşırılırdı.[216]

Lakin Moskvada Azərbaycanı müstəqil dövlət kimi tanımaq ideyası da mövcud idi. Xalq Xarici İşlər Komissarlığı bu məsələ ilə bağlı RK(b)P-nin Qafqaz Diyar Komitəsinə və Bakı Komitəsinə sorğu göndərmişdir. Qafqaz Diyar Komitəsi diplomatik tanımanı məqsədəuyğun hesab etmişdir. 1920-ci il yanvarın 30-da Bakı bolşeviklərinin nümayəndəsi V.Naneyşvili radioteleqramla S.Kirova bunları bildirmişdir: "İngiltərə Azərbaycanda və Gürcüstanda intriqalarla məşğuldur. Sovet Rusiyası ilə müharibəyə sövq etmək istəyir. Sovet Rusiyasını neftlə təchiz etməmək müqabilində pul, silah, sualtı qayıqlar təklif edir. Azərbaycan Sovet Rusiyası ilə hərbi ittifaqdan qorxur. İngiltərədən təhdid var. Hərbi ittifaq şərtini irəli sürmədən Azərbaycanın tanınmasını zəruri hesab edirik."[217] V.Naneyşvilinin fikri barədə Moskvaya məlumat verən S.Kirov yazırdı: "Yoldaş Çiçerinin Gürcüstana və Azərbaycana müraciəti müəyyən təəssürat yaradır, lakin Diyar Komitəsi Xalq Xarici İşlər Komissarlığının siyasəti ilə razı deyil. Komitə hesab edir ki, biz qeyd-şərtsiz, yəni Azər-

---

[215] Топчибаши А.М. Парижский архив. Книга первая, с. 372-373.
[216] V.İ.Lenin Azərbaycan haqqında, s. 160.
[217] ARPİİSSA: surət fondu, iş 219.

baycana bizimlə Denikinə qarşı hərbi ittifaq yaratmaq şərtini qoymadan Azərbaycan Respublikasını tanımalıyıq. Görünür, Diyar Komitəsinin fikrincə, bizim maraqlarımız tələb edir ki, biz hal-hazırda Azərbaycan demokratiyası qarşısında özümüzü göstərməliyik və şovinistlərə, xüsusən də müsavatçılara nümayiş etdirməliyik ki, öz müqəddəratını təyinetmə prinsipini onların başa düşdüyü tərzdə izah edirik."[218]

Lakin Azərbaycanın dərhal işğal edilməsinə tərəfdar olan başqa qüvvələr hesab edirdilər ki, diplomatik tanınmaya vaxt sərf etməyə ehtiyac yoxdur. Bu mövqe Qafqaz bolşevikləri G.Orconikidze ilə Y.Kvantaliani arasında baş tutmuş telefon danışığında ifadə olunmuşdu. Y.Kvantaliani məlumat verirdi: "Bakıda vəziyyət həddindən artıq ciddidir: fəhlələrin daxildən çıxışı olarsa və ya qırmızılar xaricdən hücum edərsə, hökumət neft ehtiyatlarını və mədənləri yandırmağa hazırdır. Bizim Bakıya hücumumuzu elə təşkil etmək lazımdır ki, bu faciə baş verməsin, əks halda Sovet Rusiyasını məhv edərik..."[219] Əslində Cümhuriyyət hökumətinin neft mədənlərini yandırmaq planı olmasa da, təqdim olunan söhbət Rusiyanın Bakını işğalı zamanı əsl məqsədini bir daha nümayiş etdirir.

Məsələ ilə bağlı bolşevik hökumətində milli siyasətə rəhbərlik edən İ.Stalin də barışmaz mövqedən çıxış edirdi. Fevralın 20-də o, G.Çiçerinə yazırdı: "Azərbaycanın müstəqilliyinin qeyd-şərtsiz və qəti şəkildə tanınmasını yolverilməz hesab edirəm."[220]

Diplomatik tanınma ətrafında gedən bütün söhbətlərə Azərbaycan Kommunist (bolşeviklər) Partiyası (AK(b)P) son qoydu. Partiya tanınmanın əleyhinə çıxış etdi. Bu qərar onunla izah olundu ki, "Azərbaycanın fəhlə-kəndli kütlələri tanınmanın əleyhinədir."[221] Partiyanın I qurultayı (1920-ci il,

---

[218] Azərbaycan tarixi arxiv sənədlərində: I cild, s. 698.
[219] ARPİİSSA: surət fondu, iş 323.
[220] Василенко А.Б. Göst. əsəri, s. 28.
[221] Nəsibzadə N. Göst. əsri, s, s. 244.

fevral) aşağıdakı məzmunda qətnamə qəbul etdi: "Azərbaycan və Rusiya sovet dövlətlərinin qardaşlıq ittifaqı, onlar arasında normal və düzgün əmtəə mübadiləsi Bakı sənayesini tezliklə canlandıracaq və bununla fəhlə-kəndli kütlələrini məhv olmaqdan xilas edəcək."[222] AK(b)P MK Bürosunun da cavabı qəti idi. 1920-ci il 17 fevral tarixli iclasında büro aşağıdakı məzmunda qərar qəbul etmişdir: "Moskvaya xəbər verilsin ki, AKP MK Azərbaycan Cümhuriyyətinin müstəqilliyinin bəyan edilməsini artıq və lazımsız hesab edir."[223]

Neftə kəskin tələbat hiss edən Rusiya Bakının işğalına hazırlaşmağa başladı. Maraqlıdır ki, hələ 1920-ci ilin fevralında V.Lenin ABŞ-ın "The World" qəzetinə müsahibəsində müxbirin Rusiyanın daxili vəziyyəti ilə bağlı sualına belə cavab vermişdir: "Vəziyyət kritikdir, lakin yaxşı perspektivlər var. *Yaza doğru* [kursiv mənimdir – *F.C.*] ərzaq çatışmazlığı aradan qaldırılacaq, ən azından şəhər əhalisi aclıqdan xilas olacaq. Onda yanacaq da *kifayət qədər olacaq* [kursiv mənimdir – *F.C.*]"[224] V.Leninin bu sözləri söyləməyə əsas verir ki, Bakı neftinin ələ keçirilməsi planı artıq hazır idi. 1920-ci il martın 17-də Sovet Rusiyasının rəhbəri İ.Smilqaya və G.Orconikidzeyə məşhur teleqram göndərmişdir: "Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səylərinizi buna verin, həm də bəyanatlarda son dərəcə diplomatik olmaq və möhkəm yerli Sovet hakimiyyəti hazırlandığını tamamilə yəqin etmək lazımdır..."[225] Volqa-Xəzər hərbi donanmasının komandanı F.Raskolnikova tapşırılmışdı ki, XI Ordu Abşeron yarımadasına yaxınlaşan zaman Bakının neft daşıyan donanmasını ələ keçirsin və mə-

[222] Коммунистическая партия Азербайджана в резолюциях и решениях съездов, конференций и пленумов ЦК: Т.1. Баку, 1986, с. 13.
[223] Борьба за победу..., s. 418.
[224] Документы внешней политики СССР: Т.2. Москва, 1958, с.383.
[225] V.İ.Lenin Azərbaycan haqqında, s. 164.

dənlərin dağıdılmasına imkan verməmək üçün Ələt stansiyası yaxınlığında desant çıxarsın.[226]

Cümhuriyyət hökumətinin neft mədənlərini məhv edəcəyini düşünən rus işğalçıları buna imkan verməmək üçün bolşeviklərin tərəfində olan türk zabitlərindən istifadə etmək istəyirdilər. Belə ki, 1920-ci il aprelin 14-də XI ordunun komandanı M.Levandovski ilə G.Orconikidzenin teleqrafla söhbətində belə bir təklif irəli sürülmüşdür ki, Bakıya həmlə vaxtı türk zabiti Xəlil paşanı müsəlmanlardan ibarət hissələrin başında qoymaq və həmin hissələri hücum edən rus qüvvələrindən irəlidə buraxmaq lazımdır. Belə hesab edilirdi ki, Xəlil paşanın Azərbaycan hökumətində populyarlığı və nüfuzu mədənləri və neft ehtiyatlarını məhv olmaqdan xilas edə bilər.[227]

Azərbaycanı işğal etməzdən əvvəl RSFSR hökuməti artıq Bakıda neft sənayesi ilə məşğul olacaq qurum da yaratmışdır. 1920-ci il aprelin 16-da V.Leninin təklifi ilə Aleksandr Serebrovski "Azneft"in rəisi təyin olundu.[228] Müstəqil dövlətin daxili işlərinə kobud müdaxilənin növbəti nümunəsi olan bu addım bir daha sübut edir ki, Rusiya Bakıya və onun təbii sərvətinə öz əmlakı kimi baxmaqda davam edirdi.

Sovet Rusiyası ilə diplomatik gərginliyin artdığı bir şəraitdə Cümhuriyyət Parlamentində Moskva ilə münasibətlər məsələsi yenidən gündəmə gəldi. Aprelin 15-də keçirilən iclasda xarici ölkələrdə təsis ediləcək diplomatik nümayəndəliklər haqqında məsələnin müzakirəsi zamanı bolşevik Əliheydər Qarayev hökuməti Rusiya ilə əlaqələr yaratmamaqda günahlandıraraq demişdir: "Mən istəyirəm biləm ki, nə üçün bizim hökumətin dostluq münasibətləri yaratmaq istədiyi ölkələr arasında So-

---

226 Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: I cild, s. 213.

227 Azərbaycan tarixi arxiv sənədlərində. Aprel-dekabr 1920-ci il: II cild. Tərtibçi İ.Niftəliyev. Bakı, 2012, s. 22.

228 V.İ.Lenin Azərbaycan haqqında, s. 167.

vet Rusiyasının adı yoxdur. Nə üçün bütün imperialist dövlətlərə nümayəndə heyəti göndərərkən siz həqiqi dostunuzu yaddan çıxarırsınız... Bu sizin taktikanızdır. Göstərirsiniz ki, Sovet Rusiyası ilə dostluq əlaqələri yaratmaq istəmirsiniz."[229] Ə.Qarayevin bu təxribatçı çıxışına cavab verən xarici işlər naziri F.Xoyski bildirmişdir: "Mən bilmirəm, çıxış edən natiq demaqoqiya ilə məşğuldur, yoxsa məsələyə həqiqətən aydınlıq gətirmək istəyir. Bizə deyirlər ki, niyə siz istəmirsiniz sovet Rusiyası ilə dostluq əlaqələri yaradasınız. Biz həmişə böyük rus xalqı ilə xalqımızın ən sıx surətdə yaxınlaşması fikrində olmuşuq və yenə də bu fikirdəyik. Əgər bu dostluq yoxdursa, bu bizim günahımız deyil. Biz üç dəfə sovet Rusiyasına müraciət edərək dostluq əlaqələri yaratmaq üçün danışığa hazır olduğumuzu elan etmişik. Lakin bu günə qədər bizim təkliflərimiz cavabsız qalıb. Çıxış edən natiq nahaq bizi günahlandırır. Əgər o istəyir ki, bizimlə Rusiya arasında dostluq əlaqələri yaransın, onda qoy öz məsləkdaşlarını danışıqlara getməyə məcbur etsin. Biz danışıqlar üçün həmişə hazırıq. Bizə göstəriş vermək lazım deyildir. O şəxslərə göstəriş vermək lazımdır ki, bu günə qədər həmin məsələnin həllini yubadır."[230]

Qeyd etmək lazımdır ki, Parlament 19 aprel tarixli iclasında digər ölkələrə olduğu kimi, Rusiyaya da diplomatik nümayəndəlik göndərilməsi barədə qərar qəbul etmişdir,[231] aprelin 22-də isə müvafiq qanun imzalanmışdır.[232]

Azərbaycanın işğalına hazırlıq məsələsinə toxunarkən Rusiyanın siyasətində neft amili ilə bağlı olan daha bir vacib məqam üzərində dayanmaq gərəkdir. Aprel işğalı ərəfəsində

........................................................................................

[229] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). II cild. Bakı, 1998, s. 940-941.

[230] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament: II cild, s. 941.

[231] Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament: II cild, s. 964.

[232] Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты, с. 180.

RSFSR Azərbaycan Cümhuriyyəti ilə iqtisadi münasibətlərin qurulması üçün milli hökumətlə rəsmi danışıqlara başlamışdır. Ümumrusiya İstehlakçılar Cəmiyyətlərinin Mərkəzi İttifaqı (ÜİCMİ) 1920-ci il martın sonunda Rusiya ilə ticarət əlaqələrinin bərpası və ÜİCMİ-yə 81903 ton neft və neft məhsullarının satılması haqqında Azərbaycan hökuməti ilə saziş bağlamışdır. Azərbaycan tərəfi sovet hökumətinin gəmilərin sərbəst şəkildə geri dönməsinə zəmanət verəcəyi təqdirdə göstərilən həcmdə neftin dərhal gəmilərə doldurulmasına razılıq vermişdir.[233] Bakıda səfərdə olan ÜİCMİ-nin rəsmisi S.İ.Selavri (o, ÜİCMİ-nin Xəzəryanı bölgələrdə və İranda ticarət əməliyyatlarına rəhbərlik edirdi) martın 26-da Moskvaya teleqram göndərərək, Azərbaycan hökuməti ilə ticarət sazişi imzaladığını bildirmiş və lazımi təlimatların verilməsini xahiş etmişdir.[234] İmzalanan sazişə toxunan bolşeviklərin "İskra" qəzeti yazırdı: "Şübhəsizdir ki, bu saziş böyük siyasi əhəmiyyətə malikdir. Azərbaycan hökuməti Rusiyaya qarşı heç bir təcavüzkarlıq niyyətinin olmamasını sübut etdi. İnanırıq ki, Moskvanın gözlənilən cavabı Rusiya hökumətinin Azərbaycana qarşı təcavüzkarlıq niyyətlərinin olmaması haqqında şübhələri – Çiçerinin notalarının təsiri altında yaranan bu şübhələri alt-üst edəcək."[235]

ÜİCMİ-nin bağladığı saziş Moskvanın Azərbaycana münasibətdə yürütdüyü ikiüzlü siyasəti nümayiş etdirdi. Cəmi bir neçə gün fərqi ilə V.Lenin Bakının alınması haqqında tapşırıq verir və, eyni zamanda, sovetlər Cümhuriyyət hökuməti ilə danışıqlar aparır. 1920-ci il aprelin 17-də Azərbaycan Cüm-

---

[233] Азербайджанская Демократическая Республика. Внешняя политика, с. 572-573; Нефтяное дело. 1920, №4, стлб. 23, 31.

[234] Азербайджанская Демократическая Республика. Внешняя политика, с. 573; ARDA: f. 970, siy. 1, iş 224, v. 5.

[235] Азербайджанская Демократическая Республика. Внешняя политика, с. 573.

huriyyətinin Xarici İşlər Nazirliyinə RSFSR xalq xarici işlər komissarının müavini L.Karaxandan aşağıdakı məzmunda teleqram daxil oldu: “Bununla sovet hökuməti gəmilərin sərbəst girişinə və maneəsiz geri dönüşünə, həmçinin malların, o cümlədən, neft məhsullarının satışı və daşınması ilə əlaqədar Həştərxana gələnlərin şəxsi və əmlak toxunulmazlığına zəmanət verir.”[236] L.Karaxanın teleqramı faktiki olaraq Sovet Rusiyasının Azərbaycanla ticari-iqtisadi əlaqələrin qurulmasına prinsipial razılıq verdiyini göstərdi.[237] Həmin gün RSFSR xalq xarici ticarət komissarının müavini A.Şeynmandan alınan teleqramda bildirilirdi ki, Rusiya Azərbaycandan 49142 ton xam neft və 32761 ton mazut almaq niyyətindədir.[238]

Rusiya ilə ilkin danışıqlar aparmaq üçün Azərbaycan nümayəndə heyətinin tərkibi də müəyyən edildi. Bura Ağa Əminov (sədr), Bağır Rzayev, R.Vəkilov, M.Məlikov və b. daxil idi.[239]

Arxiv sənədlərindən məlum olur ki, 1920-ci ilin yazında Bakıda səfərdə olan ÜİCMİ-nin rəsmisi N.Solovyovun ticarət missiyası satış və ya əmtəə mübadiləsi yolu ilə neft məhsullarının Həştərxan və Krasnovodsk vasitəsilə daşınmasının bərpası haqqında danışıqlar aparırdı. N.Solovyov Azərbaycan xəzinəsinə 15 mln. qızıl rublun köçürülməsini təklif edirdi. Həmin məbləğ Volqaya neft məhsullarının daşınmasına razılıq verildikdən dərhal sonra Moskvadan Bakıya köçürülməli idi.[240] Cümhuriyyətin Ticarət və Sənaye Nazirliyi ilə aparılan bu danışıqlar aprel işğalına qədər davam etdi. Tərəflər arasında həll olunmayan əsas məsələ neftin qiyməti

[236] Нефтяное дело. 1920, №4, стлб. 32.
[237] ARDA: f. 970, siy. 1, iş 224, v. 4.
[238] Нефтяное дело. 1920, №4, стлб. 32.
[239] ARDA: f. 970, siy. 1, iş 224, v. 4.
[240] ARDA: f. 1610, siy. 13, iş 213, vv. 43-44.

ilə bağlı idi və buna görə rəsmi saziş imzalanmadı.[241] Lakin buna baxmayaraq, şimal istiqamətində yanacağın göndərilməsi haqqında danışıqlar davam etdiyi dönəmdə Azərbaycan Krasnovodska artıq 491 ton ağ neft göndərmişdir. Bu, Rusiya işğalına bir neçə gün qalmış baş verdi.[242]

Sonrakı hadisələr göstərdi ki, bütün bu danışıqlar, missiyalar Azərbaycan hökumətinin sayıqlığını azaltmağa yönəlmiş Rusiyanın taktiki gedişi idi və Azərbaycana qarşı təcavüzkarlıq niyyətlərinin olmaması haqqında təsəvvür yaratmaq niyyətini güdürdü. Xüsusi vurğulanmalıdır ki, Cümhuriyyət hökuməti Rusiya ilə diplomatik münasibətlər yaratmadan iqtisadi əlaqələrin qurulmasına razılıq verməklə özünün səmimi niyyətlərini nümayiş etdirdi. Bolşeviklərin müstəqil Azərbaycan dövlətinə əsl münasibətini bilə-bilə milli hökumət neftin satışına və mübadiləsinə razı oldu. Şübhəsiz, onu bu addımı atmağa vadar edən başlıca səbəb anbarlarda külli miqdarda neftin yığılıb qalması və həmin amilin Azərbaycan iqtisadiyyatına mənfi təsir göstərməsi idi. Maraqlıdır ki, Sovet Rusiyasının Azərbaycanı işğal etməsindən bir neçə gün əvvəl baş nazir N.Yusifbəyli ilə görüşən Böyük Britaniyanın Cənubi Qafqazda Ali komissar əvəzi Q.Lyuk yaranmış təhlükəli vəziyyətdə hökumətin nə edəcəyi ilə maraqlanmışdı. Baş nazir cavabında demişdir ki, Azərbaycanın iki çıxış yolu var: Antantanın dəstəyi ilə güclü Cənubi Qafqaz federasiyasının yaradılması və ya bolşeviklərlə danışıqlar. Birinci yol Ermənistanla Azərbaycan arasında ziddiyyətlər və lazımi hazırlığın olmaması səbəbindən mümkün olmadığından yeganə alternativ kimi ikinci yol qalır. Bununla belə, bolşeviklərlə danışıqları N.Yusifbəyli "müvəqqəti tədbir kimi uğurlu

---

[241] ARDA: f. 970, siy. 1, iş 224, vv. 5, 7.

[242] Азербайджанская Демократическая Республика. Архивные документы Великобритании, с. 666.

olacağını" və hər iki tərəfin qarşılıqlı ticari əlaqələrə ehtiyac duyduğunu söyləmişdir.[243]

Sovet Rusiyası ilə ticarət əlaqələrinin bərpası məsələsində Cümhuriyyət hökumətinin mövqeyi Bakı neft sənayeçilərinin maraqları ilə də üst-üstə düşürdü. Neft sənayeçilərinin mətbu orqanı – "Neftyanoye delo" qəzetində çıxan "Sovet Rusiyası üçün Bakı nefti" məqaləsi Rusiya ilə əldə olunmuş razılaşmalarla bağlı Azərbaycan cəmiyyətində yaranan yanlış fikirləri, əsassız ümidləri əyani şəkildə nümayiş etdirir. Məqalədə deyilirdi: "İki ilə yaxın idi ki, Bakı neftinin Həştərxana, Rusiya üçün daşınması akademik məsələ idi, hal-hazırda isə bu məsələ artıq aktual məsələ oldu. Rusiyada mübarizə aparan iki siyasi qüvvədən hansının hal-hazırda hakimiyyətə yiyələndiyi və Rusiyada vətəndaş müharibəsinin artıq başa çatdığı məlum olandan sonra, həmçinin Sovet Rusiyasının hakimiyyəti Dağıstan da daxil olmaqla, bütün Şimali Qafqaz ərazisində bərqərar olduqdan sonra Zaqafqaziyanın yeni dövlətləri və Rusiya üçün ticarət əlaqələrini yaratmaq imkanı və həm siyasi, həm də iqtisadi xarakterli qarşılıqlı münasibətlərin mahiyyətini öyrənmək zərurəti yaranmışdır. Bu təbii qarşılıqlı maraq indiki məqamda Rusiya ilə Bakı arasında əmtəə mübadiləsi məsələsini ortaya qoymuşdur. Rusiya ilə Azərbaycan arasında qarşılıqlı siyasi münasibətlərin hələ də anlaşılmaz qalmasına baxmayaraq, biz indi iki dövlət arasında müntəzəm əmtəə mübadiləsinə dair müəyyən saziş ərəfəsindəyik."[244]

27 aprel 1920-ci ildə müstəqil dövlətə qarşı təcavüz nəticəsində Rusiya Azərbaycanı işğal etdi. Bolşeviklərin illər boyu uğrunda mübarizə apardıqları Bakı nefti yenidən onların əlinə keçdi. Bakının alınmasının əhəmiyyətinə toxunan V.Lenin aprelin 29-də şüşə-farfor istehsalı fəhlələrinin ümumrusiya

[243] Топчибаши А.М. Парижский архив. Книга первая, с. 129-190.
[244] Нефтяное дело. 1920, №4, стлб. 1-2.

qurultayındakı çıxışında demişdir: "...Yenə dünən Bakıdan aldığımız bir xəbər göstərir ki, Sovet Rusiyasının vəziyyəti yaxşılaşmaqdadır; sənayemizin yanacaqsız qaldığı bizə məlumdur, indi isə xəbər almışıq ki, Bakı proletariatı hakimiyyəti öz əlinə almış və Azərbaycan hökumətini yıxmışdır. Bu o deməkdir ki, indi bizim bütün sənayemizi canlandıra biləcək bir iqtisadi bazamız vardır. Bakıda milyon pudlarla neft vardır, bu neft son zamanlara qədər satıla bilmirdi, bu səbəbdən də hətta neft sənayeçisi Nobel həmin nefti Sovet Rusiyasına göndərmək haqqında bizimlə danışıqlara başlamağa çalışırdı. Beləliklə, nəqliyyatımız və sənayemiz Bakı neft mədənlərindən çox böyük yardım alacaqdır."[245]

Əlbəttə, 1920-ci ilin aprelində Azərbaycanın Rusiya tərəfindən tutulması təkcə neft amili ilə bağlı deyildi. Burada həmçinin ölkənin geostrateji vəziyyəti, Azərbaycanın Cənubi Qafqazda sovet hakimiyyətinin bərqərar edilməsində, Rusiyanın şərq siyasətində əhəmiyyəti nəzərə alınmalıdır. Lakin bütün bunlarla yanaşı, Rusiyanın Azərbaycana münasibətini müəyyənləşdirən əsas amillərdən biri neft idi – iqtisadi böhrandan çıxmaq üçün zəruri olan Bakı nefti. Həqiqətən də 1920-ci ilin aprel işğalı Bakı neftinə tələbatdan doğmuşdur.

[245] V.İ.Lenin Azərbaycan haqqında, s. 168.

V.

# BAKI NEFTİNİN YENİ SAHİBİ

Ötən əsrin 20-ci illərindən etibarən dünyanın aparıcı ölkələrində bilavasitə neftlə əlaqədar olan irimiqyaslı dəyişikliklər baş verirdi. Kütləvi avtomobil istehsalı, daxili yanacaq mühərriklərinin tətbiqi başlanmış, elektrik stansiyaları kömür əvəzinə daha qənaətli mazut yanacağına keçmişdi, motorların tətbiqi və texnikanın mürəkkəbləşməsi, konveyer xətlərinin işə düşməsi ilə neft məhsullarına, sürtkü yağlarına tələbat çoxalmışdır. Neft sənayesinin inkişafına təkan verən mühüm amillərdən biri də dünya müharibəsi idi. Əgər əvvəllər orduda neft məhsullarının əsas istehlakçısı artilleriya ilə piyada qoşunları idisə, indi tanklar, aviasiya, hərbi-dəniz donanması, hərbi-kimya kompleksi neftdən istifadə etməyə başlamışdı. Neft quyularının qazılmasında və istismarında, neft məhsullarının daşınmasında ciddi struktur dəyişiklikləri nəzərə çarpırdı. ABŞ-da dərin qazma

üsulları geniş tətbiq olunurdu, bəzi hallarda 2500 m-dən artıq quyular qazılırdı.[246] Beynəlxalq və daxili bazarlarda istehlakçı uğrunda mübarizə gedirdi, yeni neft yataqlarının axtarışı kəskin rəqabət şəraitində davam etdirilirdi.

Dünyada baş verən bu sürətli dəyişkliklər fonunda isə Azərbaycan neft sənayesi acınacaqlı vəziyyətdə idi. XX əsrin əvvəllərində başlanan böhran Birinci Dünya müharibəsi illərində daha da dərinləşmiş, Cümhuriyyət dövründə isə kəskin xarakter almışdır. Hasilat aşağı düşmüşdü və onun gələcəkdə artmasına həm texniki materialların, həm də neft sənayeçilərində pul vəsaitlərinin çatışmazlığı mane olurdu. Sonuncu amil neft məhsullarının daşınmasının məhdudlaşması, Rusiya bazarının tamamilə bağlanması ilə əlaqədar idi. Mövcud anbarlar neftlə dolu idi, bu səbəbdən ehtiyat anbarlarına da neftin vurulmasına başlanılmışdır. Hətta Bakı limanındakı bəzi gəmilər anbar kimi istifadə edilirdi.[247] Anbarların dolması hasilata da mənfi təsir göstərirdi, çünki neft məhsullarını saxlamaq üçün yerlərin çatışmazlığı səbəbindən sahibkarlar fəaliyyətdə olan buruqları dayandırmağa məcbur idilər. Onsuz da aşağı düşən hasilat 1920-ci ilin aprelində cəmi 281748 ton təşkil etmişdir.[248] Azərbaycanın sovetləşməsi Bakı neft sənayesinin texniki təchizatında müsbət dəyişikliklərə gətirib çıxarmamışdır. Rusiyadan texniki materiallarla təminat zəif idi, çünki Rusiya özü həmin mallara ehtiyac duyurdu, texniki materialların əvvəl alındığı xarici bazarlar və Qara dəniz limanları isə Azərbaycan üçün bağlı idi.

---

[246] Соколов А.К. Советский Нефтесиндикат на внутреннем и международном рынках в 1920-е годы / Экономическая история. Обозрение. Вып.10. Москва, 2005, с. 109.
[247] ARDA: f. 1610, siy. 11, iş 8, v. 1.
[248] ARDA: f. 1610, siy. 13, iş 306, v. 69.

Aprel işğalı nəticəsində neft məhsullarının qiymətində də artım müşahidə olunurdu. Bunu aşağıdakı cədvəldən görmək mümkündür:

**Cədvəl 3. Neft məhsullarının hər puduna görə qiymət dəyişikliyi (rublla)[249]**

| Məhsulun adı | 1920-ci ilin aprelinədək | 1920-ci ilin aprelindən sonra | 1920-ci il mayın 1-i | 1920-ci il mayın 9-u |
|---|---|---|---|---|
| Benzin | 300-400 | 500-600 | 900 | 1000-1400 |
| Ağ neft | 100-120 | 170-200 | 200-250 | 260-300 |
| Neft | 90 | 200 | 300 | 400-500 |
| Maşın yağı | 200-220 | 300-320 | 400-450 | 450-550 |

Aprel işğalından sonra bolşevik hökuməti qarşısında neft sənayesinin idarəetmə metodlarının yenidən qurulması vəzifəsi dayanırdı. Özəl mülkiyyət, xarici kapital təkcə ideoloji səbəblərə görə deyil, həmçinin Bakı neftinin Rusiyaya daşınmasına mane ola biləcəyi üçün qətiyyən rədd edilirdi. 1918-ci ilin yazında olduğu kimi, 1920-ci ilin aprelindən sonra da başlıca vəzifə dəyişilməz qalırdı – Azərbaycanın təbii sərvətini talan etmək.

Köhnə idarəetmə aparatının yenidən qurulması AK(b)P-nin I Ümumbakı konfransında (5-6 may 1920-ci il) təxirəsalınmaz vəzifə kimi qoyulmuşdur. Konfransın qəbul etdiyi qətnamədə deyilirdi: “AK(b)P təcili olaraq fəhlə aparatını sənayenin idarə olunması üçün hazırlamağa başlamalıdır. Milliləşdirməyə keçid tədbiri kimi fəhlə nəzarəti tətbiq olunmalı və bütün məhsuldar

[249] Azərbaycan tarixi arxiv sənədlərində (1917-1920-ci illər): II cild, s. 380.

qüvvələr uçota alınmalıdır."[250] 1918-ci ildə olduğu kimi, bu dəfə də bolşeviklər milliləşdirməni tez-tələsik, zorakı, inqilabi metodlarla həyata keçirmək niyyətində idilər. Bu mənada S.Kirovun konfransda çıxışı səciyyəvi idi: "Azərbaycanın zəngin olduğu, Qərbi Avropa ölkələrini cəlb etdiyi hər şey və ilk növbədə bizim neft mədənlərimiz – bunların hamısının üzərində fəhlə-kəndli sovet kommunist işarəsi qoyulmalıdır. Fabriklərin, zavodların, mədənlərin həyatındakı köklü çevrilişi qətiyyətlə, heç nəyə fikir vermədən, tərəddüdsüz, heç kimlə razılaşdırmadan gerçəkləşdirmək lazımdır... Unutmaq olmaz ki, inqilabi dekret yalnız insan qanı ilə yazıla bilər!"[251] S.Kirov öz çıxışında belə bir əminlik ifadə etmişdir ki, "Bakı nefti – buradakı atmosferi zəhərləyən o qara, çirkli maye tezliklə Rusiyaya axacaq və fəhlə-kəndli Rusiyası tam olmasa da, ən azından azad nəfəs almaq imkanı qazanacaq. Rusiyada təsərrüfat həyatının bərpasının şərti bundadır."[252] Göründüyü kimi, bolşevik liderləri Bakı neftinə sırf Rusiyanın maraqları prizmasından yanaşır, öz siyasi məqsədlərinin gerçəkləşməsi üçün vasitə kimi baxırdılar və burada Azərbaycanın maraqları sözsüz ki, nəzərə alınmırdı.

Ümumbakı konfransından bir neçə gün sonra inzibati orqanların sahibkarların işinə müdaxiləsi başlandı. 1920-ci il mayın 15-də Azərbaycan SSR XTŞ Neft Sənayeçiləri Qurultayının Şurasına neft işinin vəziyyəti barədə məlumatları və hesabatları XTŞ-ə təqdim etməyi tapşırdı, həmçinin firmaların hərbi məqsədlər üçün neft daşımalarını qadağan etdi. 18 iyul tarixli məktubla XTŞ dəniz nəqliyyatı vasitəsilə neft məhsullarının daşınmasını da qadağan etdi.[253] Göründüyü kimi, əsas

---

250 Коммунистическая партия Азербайджана в резолюциях…, с. 18.

251 Киров С.М. Избранные статьи и речи. Москва, 1957, с. 103.

252 Киров С.М. Избранные статьи и речи, с. 99.

253 Рустамова Х.А. История национализации нефтяной промышленности Азербайджана (1920 г.): Авторефат диссертации кандидата исторических наук. Баку, 1965, с. 7.

diqqət neftin daşınmasına yönəlmişdir, bu səbəbdən də yeni hökumət həmin sahəni dərhal öz nəzarəti altına aldı. Məhz Rusiyanı fasiləsiz yanacaqla təchiz etmək məqsədilə bolşeviklər Bakı neft sənayesini milliləşdirdilər. 1920-ci il mayın 27-də Azərbaycan SSR Müvəqqəti İnqilab Komitəsinin neft sənayesinin milliləşdirilməsi haqqında dekreti dərc olundu. Dekretə görə, neft hasilatı, emalı, daşınması, qazma işləri üzrə bütün müəssisələr, onların əmlakı dövlət mülkiyyəti elan olunurdu.[254] Neft və neft məhsulları ilə ticarət də dövlət inhisarına keçirdi. Milliləşdirmənin həyata keçirilməsi, müəssisələrin idarə olunması A.Serebrovskinin başçılıq etdiyi Azərbaycan Neft Komitəsinə ("Azneft"ə) həvalə olunurdu. Komitənin vəzifəsi 272-yə yaxın iri və xırda firmanı vahid təsərrüfatda birləşdirmək idi. Mexaniki emalatxanalar, elektrik stansiyaları, Gədəbəy misəritmə zavodu, Çıragidzor kükürd mədənləri və neft sənayesi ilə əlaqəsi olan digər müəssisələr də komitənin nəzarətinə verilirdi.[255] Milliləşdirmədən sonra ümumi sahəsi 2404 hektardan çox neft mədənləri və 1532 neft quyusu "Azneft"in sərəncamına keçdi.[256]

Yuxarıda deyildiyi kimi, Azərbaycan neft sənayesini idarə edən qurumun – Azərbaycan Neft Komitəsinin başçısı A.Serebrovski təyin olunmuşdur. A.Serebrovski neft sənayesi tarixində olduqca ziddiyyətli rol oynamışdır. İrəlidə bəhs olunduğu kimi, o, bir tərəfdən, neft məhsulları ilə ticarətdə "Azneft"ə daha geniş hüquqların verilməsini və Bakıdan daşınan neftə görə Moskvanın haqq ödəməsini tələb edir, digər tərəfdən, neft sənayesini özünün tam nəzarəti altına almağa çalışır, Azərbaycan hökuməti ilə hesablaşmırdı. A.Serebrov-

---

[254] Декреты Азревкома (1920-1921). Баку, 1988, с. 44.

[255] Из истории развития азербайджанской нефтяной промышленности. Обзор документов. Баку, 1963, с. 5.

[256] ARDA: f. 1610, siy. 13, iş 213, v. 268.

skinin özünü neft sənayesinin mütləq hakimi kimi aparması N.Nərimanovun onu tənqid etməsinə, "kral" adlandırmasına, rəhbərlik etdiyi "Azneft"i isə "monarxiya"ya bənzətməsinə əsas vermişir.[257] Moskva həqiqətən də A.Serebrovskiyə çox böyük səlahiyyətlər vermişdir: Azərbaycan Neft Komitəsinin sədri olmaqla yanaşı, o, 1920-ci il mayın 14-də V.Leninin tövsiyəsi ilə Azərbaycan SSR XTŞ-in Rəyasət heyətinin tərkibinə daxil edilmişdir.[258] "Azneft" rəhbərinin fəaliyyəti faktiki olaraq yerli hökumətin nəzarətindən kənar idi, çünki Moskvanın tətbiq etdiyi qaydaya görə, "Azneft"in rəisi vəzifəsinə təyinat Ümumrusiya Dağ Mədənçiləri İttifaqının Mərkəzi Komitəsi ilə razılaşdırmaqla RSFSR Baş Yanacaq İdarəsinin (BYİ) rəisi tərəfindən həyata keçirilirdi.[259] Azərbaycan SSR XTŞ yanında fəaliyyət göstərən yanacaq şöbəsi respublikanın şəhər və rayonlarının yanacağa olan tələbatını öyrənməli, yanacaq ehtiyatlarının uçotunu aparmalı, yanacaq növlərinin paylaşdırılması planlarını tərtib etməli olsa da, bu orqan faktiki olaraq kağız üzərində fəaliyyət göstərirdi.[260] Həmin funksiyaları əslində "Azneft" icra edirdi.

Azərbaycan neft sənayesinə rəhbərlik etmək üçün RSFSR hökumətinə məhz A.Serebrovski kimi kommunist ideologiyasına sadiq olan peşəkar inqilabçı, neftin fasiləsiz olaraq təchizatını təmin edəcək və Rusiya maraqlarını milli maraqlardan üstün tutacaq bir şəxs lazım idi. Eyni zamanda belə bir faktı da qeyd etmək lazımdır ki, neft sənayesi heç də A.Serebrovskiyə yad sahə deyildi. A.Serebrovski peşəkar olmasa idi, onu

[257] Nərimanov N.N. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub). Bakı, 1992, s. 35.
[258] Бабаев М.З. Азревком – орган диктатуры пролетариата / Azərbaycan arxivi, 1969, № 1, s. 20.
[259] ARDA: f. 1610, siy. 1, iş 71, v. 81.
[260] ARDA: f. 130, siy. 1, iş 52, v. 3.

kəskin böhran keçirən strateji sahəyə rəhbər təyin etməzdilər. A.Serebrovski Brüsseldə təhsil almış, maşınqayırma, daha sonra isə neft sənayesinin mexaniki avadanlığı üzrə ixtisaslaşmışdır. 1917-ci ilin oktyabrından sonra RSFSR ticarət və sənaye xalq komissarının müavini, daha sonra hərbi zavodların rəisi işləmişdir.[261] A.Serebrovski 1920-1927-ci illərdə Azərbaycan neft sənayesinə rəhbərlik etmişdir.

Yuxarıda qeyd olunduğu kimi, A.Serebrovskinin vəzifələrinə təkcə neftin Rusiyaya daşınmasının təşkili yox, həm də neft sənayesinin bərpası daxil idi. Sovet hökuməti belə hesab edirdi ki, milliləşdirmə, neft məhsullarının kütləvi daşınması və beləliklə, anbarların boşalması neft sənayesində sürətli yüksəlişə təkan verəcəkdir. Lakin belə olmadı. Milliləşdirmə kənddə məhsul tədarükü və biçin işləri dövrünə təsadüf etdiyindən mövsümi fəhlələrin çoxu şəhərdən kəndə qayıtmışdı. Neft mədənlərində fəhlələrin sayı kəskin azalmış və nəticədə istismar edilən quyuların sayı aşağı düşmüşdü, bu isə dərhal hasilata təsir etmişdir. Bir müddət sonra Bakıda başlayan aclıq, əmək intizamının və məhsuldarlığın aşağı düşməsi, müxtəlif təşkilatların istehsal prosesinə müdaxiləsi, mütəxəssislərə olan ümumi etimadsızlıq, texniki materialların və daşınma vasitələrinin kəskin çatışmazlığı neft sənayesinə mənfi təsir göstərirdi.[262]

Moskva Bakı neft sənayesinə kömək məqsədilə təcili tədbirlər gördü. 1920-ci il noyabrın 27-də RK(b)P MK-nın Siyasi Bürosu İ.Stalinin təklifi ilə "Qafqaz işləri haqqında" qərar qəbul etdi. Həmin qərarda deyilirdi: "...Ərzaq Komissarlığına çox mühüm siyasi və iqtisadi vəzifə kimi Bakını mütləq və mütəmadi şəkildə 100 %-lik normada ərzaqla təmin etmək tapşırılsın..."[263]

---

[261] ARPİİSSA: surət fondu, iş 338.\
[262] ARDA: f. 1610, siy. 13, iş 213, v. 263.
[263] Ленин В.И. Неизвестные документы, с. 403.

Statistik məlumatlar da sənayenin durmadan aşağı düşməsini təsdiq edir. Sutkada istismar olunan quyuların orta sayı 1920-ci ilin iyununda 1239 idisə, sentyabrda bu rəqəm 817-yə düşmüşdür. Qazılan quyuların sayı 1920-ci il iyunun 1-nə 129-a çatırdısa, oktyabrda 71-ə enmişdir. Neft hasilatı iyundakı 244072 tondan sentyabrda 176911 tona düşmüşdür.[264] Bakı neft sənayesində hökm sürən böhranı neftin Rusiyaya kütləvi, əvəzi ödənilmədən daşınması daha da kəskinləşdirirdi. Bununla əlaqədar A.Serebrovski etiraf etməyə məcbur olmuşdur ki, "Rusiya aldıqlarının əvəzini ödəməyənə qədər biz sənayenin yüksəlişinə nail ola bilmərik, xərclərimizi gəlirlərimizlə ödəməklə kifayətlənməli olacağıq."[265] "Qara qızıl"ın Rusiya tərəfindən talan edilməsi Bakı neft sənayesinin tarixində misli görünməmiş hadisəyə gətirib çıxardı – neft defisiti yarandı!

Neft sənayesinin ehtiyaclarını öyrənmək üçün yerli hökumət 1921-ci ilin yanvarında Fövqəladə komissiya yaratdı. Komissiyanın işi nəticəsində fəhlələrin maddi vəziyyətinin yaxşılaşdırılması üçün tədbirlər müəyyənləşdirildi, müxtəlif təşkilatların neft işinə müdaxiləsi bir qədər zəiflədildi, "Azneft"in razılığı olmadan işçilərin neft sənayesindən geri çağırılması qadağan olundu. Komissiyanın fəaliyyəti nəticəsində mühəndislərin də vəziyyəti yaxşılaşmışdı – əvvəllər onlar həbslərə, müsadirələrə məruz qaldıqları, mənzillərindən qovulduqları üçün öz işləri ilə sərbəst məşğul ola bilmirdilər.[266]

Vəziyyəti yerində araşdırmaq üçün Moskva da xüsusi komissiya yaratmışdır. RSFSR XKS-in 1 fevral 1921-ci il tarixli qərarında deyilirdi ki, həmin komissiyanın vəzifəsi neft sənayesinin vəziyyətini araşdırmaq idi. Komissiyanın MK-nın Siyasi Bürosuna, həmçinin RSFSR Əmək və Müdafiə Şurasına

---

[264] ARDA: f. 1610, siy. 13, iş 213, vv. 263-264.
[265] ARDA: f. 28, siy. 1, iş 188, v. 27.
[266] ARDA: f. 1610, siy. 13, iş 306, v. 70.

təqdim etdiyi bir neçə hesabatda və məruzədə neft sənayesinin dirçəldilməsi üçün əməli təkliflər əks olunmuşdur.[267]

AK(b)P-nin III qurultayının (11-18 fevral 1921-ci il) qəbul etdiyi qətnamədə də neft sənayesinin bərpası ilə əlaqədar bəzi tədbirlər nəzərdə tutulmuşdu. Bunların arasında neftçilərin mənzil şəraitinin yaxşılaşdırılması, işçi qüvvəsinin, mütəxəssislərin cəlb olunması, texnikanın və texnologiyanın inkişafı kimi məsələlər var idi.[268]

Bütün görülən tədbirlər vəziyyətin qismən yaxşılamasına gətirib çıxarsa da, tezliklə ərzaq böhranı yenidən sərt şəkil aldı, fəhlə və qulluqçuların ərzaq payı azaldı, fəhlələr şəhəri tərk edib qazanc dalınca kəndlərə üz tutmağa başladı. XIX əsrin sonundan etibarən minlərlə fəhləni özünə cəlb edən neft Bakısı indi onları çörəksiz qoyurdu. Fəhlələrin həm məcburi, həm də kənddə ənənəvi mövsümi işlər ilə əlaqədar olan təbii axını mədənlərdə işlərin dayanmasına və nəticədə hasilatın aşağı düşməsinə gətirib çıxarmışdı. İşçi qüvvəsinin çatışmazlığını qismən aradan qaldırmaq üçün RSFSR Əmək və Müdafiə Şurası 16 fevral 1921-ci il tarixli qərarla neftçi-mütəxəssislərin Qırmızı Ordu sıralarından tərxis olunması və onların istehsalata göndərilməsi haqqında qərar qəbul etmişdir.[269] Vaxtilə bolşeviklərə qarşı vuruşmuş ağqvardiyaçı general Vrangelin ordusunun keçmiş əsgərləri də Bakıda neft mədənlərində işə cəlb olunurdular.

Böhranın daha da şiddətləndiyini görən Moskva neft sənayesinin problemləri ilə daha fəal məşğul olmağa başladı. 1921-ci ilin martında AXTŞ-nin Rəyasət heyəti Bakı neft sə-

---

[267] Азизбекова П.А. Руководство В.И.Ленина социалистическим строительством в Азербайджане в 1920-1923 гг. Баку, 1960, с. 92.

[268] Коммунистическая партия Азербайджана в резолюциях…, с. 49-53.

[269] Əliyev C. Azərbaycanda neft sənayesinin inkişafı tarixindən. Bakı, 1960, s. 5.

nayesinin növbədənkənar qaydada təchiz olunması və təchizat cəhətdən kömür sənayesinə bərabərləşdirilməsi haqqında qərar qəbul etdi. Bakıda qazma işlərinin inkişaf etdirilməsinə 708 mlrd. rubl ayrıldı.[270]

1921-ci ilin avqustunda RSFSR Əmək və Müdafiə Şurasının səlahiyyətli komissiyasının Bakıya gəlməsi vəziyyətin sabitləşməsində mühüm rol oynadı. İ.Smilqanın rəhbərlik etdiyi komissiyanın məqsədi vəziyyətin dəqiq öyrənilməsi və neft sənayesinin bərpasına lazım olan təkliflərin hazırlanması idi. Aparılan araşdırmalar nəticəsində komissiya neft sənayesinin texniki və texnoloji durumu, neft donanmasının vəziyyəti, neftin dəniz və ağ neft kəməri vasitəsilə daşınması, həmçinin digər məsələlərə dair geniş məruzə hazırlamışdır.[271] Bu məruzə XX əsrin 20-ci illərinin əvvəllərində Bakıda neft sənayesinin durumunu öyrənmək üçün olduqca qiymətli mənbədir. Komissiya aşağıdakı əsas tədbirlərin həyata keçirilməsini təklif etmişdir: 1) neft sənayesində çalışanların yaşayış minimumu həcmində əməkhaqqı ilə, həmçinin ərzaq və geyimlə təmin olunması; 2) neft sənayesinin texniki materiallarla və nəqliyyat vasitələri ilə təchiz olunması; 3) neft sənayesində vahid idarəçiliyin tətbiqi.[272]

Komissiyanın vahid idarəçiliyin vacibliyi haqqında gəldiyi nəticə sovet hökumətinin 1921-ci ildə elan etdiyi Yeni iqtisadi siyasət (YİS) kursuna uyğun idi. Həmin siyasətin tərkib hissələrindən biri sənayedə "trest islahatı" idi.[273] Aparıcı sahələr, o cümlədən neft sənayesi AXTŞ-nin birbaşa tabeçiliyində qal-

---

270 Токаржевский Е.А. Очерки истории Советского Азербайджана в период перехода на мирную работу по восстановлению народного хозяйства. Баку, 1956, с. 69.

271 ARDA: f. 28, siy. 1, iş 188, vv. 106-125.

272 ARDA: f. 1610, siy. 13, iş 213, v. 265.

273 Соколов А.К. Göst. əsəri, s. 103.

salar da, əvvəlki baş komitələr və mərkəzlər əvəzinə AXTŞ-nin tərkibində kommersiya hesablaşmaları əsasında fəaliyyət göstərən trestlər təşkil olunurdu. Yalnız kiçik müəssisələr dövlət nəzarətindən çıxarılır və özəl sektora icarəyə verilirdi. Neft sənayesindəki iri müəssisələr, mədənlər AXTŞ-nin Baş Yanacaq İdarəsinə tabe idi.[274]

Bakının neft mədənləri əsasında yaradılan "Azneft" tresti Rusiyanın ən iri tresti idi. "Azneft"in ən yüksək orqanı olan İdarə heyətində trestin rəisi, onun müavini (texniki direktor), kommersiya direktoru, mədənlərin direktoru, ticarət idarəsinin direktoru daxil idi.[275] "Azneft"in ali inzibati personalı tamamilə qeyri-azərbaycanlılardan ibarət idi: A.Serebrovski – rəis, Sivkov – müavin, Yevreinov – işlər müdiri, Tagianosov – maliyyə idarəsinin rəisi, Hayatov – ticarət idarəsinin rəisi, Dots – təchizat idarəsinin rəisi, Yegiazarov – təftiş idarəsinin rəisi və s.[276] İdarə heyətinin yeganə azərbaycanlı üzvü mədənlər idarəsinin rəisi Fətulla bəy Rüstəmbəyov idi. "Azneft"in rayon təşkilatlarının rəhbərləri, həmçinin sovet respublikalarında və xaricdə nümayəndələri ilə də vəziyyət eyni idi. Belə ki, "Azneft"in xarici kontorlarının rəislərindən yalnız 5-i azərbaycanlı, 81-i isə qeyri-millətlərin nümayəndələri idi.[277] "Azneft"in sıravi işçiləri ilə vəziyyət də oxşar idi. Bununla əlaqədar N.Nərimanov yazırdı: "Yerli müsəlman mühəndislər və ümumiyyətlə ziyalılar alver edir, bu müəssisələr ["Azneft" və Bakı Soveti nəzərdə tutulur – *F.C.*] isə rus, erməni və yəhudilərlə doldurulmuşdur."[278] 1923-cü il aprelin 1-i üçün "Azneft"də

---

[274] Соколов А.К. Göst. əsəri, s. 105.

[275] Азербайджанская нефтяная промышленность на 1-е декабря 1922 г. Доклад начальника «Азнефти» А.П.Серебровского. 1922, с. 71.

[276] ARDA: f. 1610, siy. 13, iş 200, vv. 146-148.

[277] ARDA: f. 1610, siy. 16, iş 139, vv. 61-63.

[278] Nərimanov N. Göst. əsəri, s. 36.

çalışanların 43,8 %-ni ruslar, 13,8 %-ni ermənilər, 12,6 %-ni azərbaycanlılar təşkil edirdilər.[279]

Bakıda olmuş Əmək və Müdafiə Şurası komissiyasının qərarları çərçivəsində görülən tədbirlər tədricən öz müsbət nəticələrini verməyə başlamışdı. 1921-ci il boyu ayda 188,3 ton olan hasilat tədricən qalxmağa başladı və oktyabr-dekabr ayları ərzində 248,9 min tona çatdı.[280] 1922-ci ilin mayında isə aylıq neft hasilatı Azərbaycanda sovet hakimiyyətinin mövcud olduğu dövrdə ən yüksək göstəriciyə – 269249 tona yüksəldi.[281] 1921-ci ilin oktyabrından 1922-ci ilin mayına qədər hasilatda müşahidə edilən fasiləsiz yüksəliş yalnız aprel ayında müvəqqəti olaraq dayanmışdır, bu da Suraxanıda baş vermiş güclü yanğın (yanğın nəticəsində Suraxanı rayonunun V mədənində 14 buruq məhv olmuşdur) və Bibi-Heybətdə fontan hasilatının aşağı düşməsi ilə əlaqədar idi.[282]

Hasilatın artması həm də ona görə diqqətəlayiq idi ki, bu artım daha çox dartay və kompressor üsullarının genişlənməsi hesabına baş verirdi, yəni neft mədənlərində daha qabaqcıl texnologiya istifadə olunurdu. Jelonka, fontan, ştanq-zərbə kimi köhnəlmiş istismar və qazma üsulları keçmişdə qaldı. Suraxanı mədən rayonu neftin hasilatı üzrə birinci yerə çıxdı, sonrakı yerlərdə Bibi-Heybət, Ramana, Balaxanı, Sabunçu, Binəqədi rayonları gəlirdi. Yeni neft yataqlarının kəşfində 1920-ci ildə təsis edilən Geoloji kəşfiyyat bürosunun böyük rolu olmuşdur. Büronun işində İ.Qubkin, D.Qolubyatnikov, digər görkəmli alim və mütəxəssislər iştirak edirdilər. Məhz onların xidmətləri

279 ARPİİSSA: f. 1, siy. 85, iş 538, vv. 27-31.

280 Коммунистическая партия Азербайджана в резолюциях…, с. 104.

281 ARDA: f. 1610, siy. 13, iş 212, v. 195.

282 ARDA: f. 1610, siy. 13, iş 306, v. 49.

nəticəsində 1922-ci ildə Balaxanı-Sabunçu rayonunda yeni zəngin neft yatağı aşkar olunmuşdur.[283]

1921-ci ilin sonunda "Azneft"in Moskvanın naryadları əsasında texniki materiallarla təchizatı ləğv edildi. Bundan sonra "Azneft" materialları Rusiyanın daxili bazarlarında mal mübadiləsi və birbaşa satınalmalar yolu ilə əldə etməli idi[284]. Nəticədə xarici şirkətlərlə əməkdaşlığa və istehsalatda texnoloji yeniliklərin tətbiqinə təkan verildi. 1921-ci ildə "Azneft" ABŞ-ın "Standard oyl" tresti ilə kontrakt imzaladı. Kontraktın şərtlərinə görə, Bakıya avadanlıq və fəhlələr üçün ərzaq gətirilməli, ABŞ-a isə neft və neft məhsulları göndərilməli idi. Britaniyanın "Hikkerz limited" firması ilə imzalanmış başqa bir müqaviləyə görə isə Azərbaycan ilk krekinq zavodu üçün texniki hissələrin istehsalına lisenziya qazanırdı[285].

Beləliklə, 1921-ci ilin yayından etibarən Bakı neft sənayesində tədricən dirçəlmə müşahidə edilməyə başladı. Bakı neftçilərinin, alimlərin, mütəxəssisələrin fədakar əməyi sayəsində yeni texniki nailiyyətlər əldə olundu, yeni yataqlar istismara verildi. Bununla belə, qeyd etmək lazımdır ki, 1921-1923-cü illər ərzində əvvəlki istehsal səviyyəsi bərpa olunmamış, yalnız neft hasilatının artırılması istiqamətində addımlar atılmışdır. Təbii ki, neft sənayesinin intensiv inkişafı Azərbaycanın iqtisadi potensialının artmasına səbəb olurdu. Lakin unutmaq olmaz ki, Bakı neft sənayesinin inkişafına təkan verməklə Rusiya ilk növbədə öz maraqlarının təmin edilməsinə üstünlük verirdi. Azərbaycanın öz "qara qızıl"ından gələn gəlirlərdən istifadə hüququ sıfıra endirilmişdir.

[283] Qaffarov T. Azərbaycan neft sənayesi Sovet hakimiyyəti illərində / Azərbaycan neft sənayesinin tarixinə dair I Beynəlxalq konfransın materialları. Bakı, 1996, s. 78.
[284] ARDA: f. 1610, siy. 13, iş 212, v. 158.
[285] Qaffarov T. Göst. əsəri, s. 77.

1920-ci ilin aprelindən sonra Moskvanın Azərbaycana münasibətində iqtisadi maraqlar vacib əhəmiyyət daşımaqda davam edirdi. Akademik Cəmil Quliyevin sözlərinə görə, "mərkəzin sosializm quruculuğu siyasətində Azərbaycanın yeri onun "beynəlmiləl borcu" necə icra etməsi ilə ölçülürdü. Həmin siyasətin ana xətti Bakı – ölkənin əsas neft xəzinəsi idi."[286]

Aprel işğalından sonra Rusiyanın Sovet Azərbaycanına münasibətini S.Orconikidzenin və S.Kirovun 4 may 1920-ci ildə V.Leninə göndərdikləri teleqramdan aydın görmək olar: "Sizin Azərbaycanı salamlamağınız və onu ümumi formada tanımağınız lazımdır. Sovet Rusiyası ilə hərbi-təsərrüfat və iqtisadi birləşmə aparacağıq. Təcrübə tələb edir ki, bizi bütün Qafqaz və digər ərazilər üçün Xalq Komissarları Sovetinin səlahiyyətləri ilə təmin etsinlər. Bizi radio vasitəsilə təmin edin ya da başqa kimisə göndərin. Nərimanova belə səlahiyyətlər verməyin."[287] İ.Stalin isə öz münasibətini daha açıq ifadə etmişdir: "Mən, Azərbaycanın müstəqilliyinin tərəfdarı deyiləm. Kommunistlərin bir hissəsi digərlərindən müstəqil ola bilməz... Sovet Rusiyası Bakının yanacağı olmasa, keçinə bilməz. Sovet Rusiyasının köməyi, onun mütəşəkkilliyi, ordusu və s. olmasa idi Azərbaycan da olmayacaqdı. Burada tam birləşmə qaçılmazdır."[288]

Göründüyü kimi, Moskvanı birinci növbədə neft maraqlandırırdı. Bakının "qara qızıl"ı Rusiyanın dağılmış iqtisadiyyatının bərpasında, gələcək siyasi və iqtisadi quruculuq planlarında mühüm rol oynamalı və bütövlükdə sovet dövlətinin mövcudluğunu təmin etməli idi.

---

[286] Гулиев Дж.Б. К истории образования Второй республики Азербайджана. Баку, 1997, с. 8.

[287] Большевистское руководство. Переписка. 1912-1927. Сборник документов. Составители: А.В.Квашонкин, О.В.Хлевнюк, Л.П.Кошелева, Л.А.Роговая. Москва, 1996, с. 122-123.

[288] Гулиев Дж.Б. Göst. əsəri, s. 59.

Aprel işğalından sonra N.Nərimanovun şəxsində Azərbaycan SSR rəhbərliyi Bakı neftinin Rusiyaya məxsus olduğunu bəyan etmişdir: "Sovet Rusiyası yaşadıqca biz də yaşayırıq və Rusiyanın inkişaf etməsinə kömək göstərmək lazımdır."[289] Bir qədər sonra – 1921-ci il sentyabrın 15-də isə N.Nərimanov V.Leninə yazırdı: "Sovet Rusiyası Sovet Azərbaycanına görə arxayın ola bilər, Azərbaycan qəti şəkildə anlayır ki, onun nefti Sovet Rusiyasına məxsusdur."[290]

Rusiyanın maraqları neftin mümkün qədər tez və çox daşınmasını tələb edirdi və yuxarıda deyildiyi kimi, bu vəzidə A.Serebrovskiyə tapşırılmışdır. Bakıya gəlişi ərəfəsində V.Leninlə söhbətini xatırlayan A.Serebrovski deyirdi: "...o, məni Bakıya göndərərkən neft mədənlərinin ələ keçirilməsinə xüsusi əhəmiyyət verirdi. İliç məni yanına çağırdı və neft ehtiyatlarının Bakıdan Həştərxana, sonra isə Volqa çayı ilə daşınmasına dair ətraflı təlimat verdi..."[291] A.Serebrovskinin dediklərindən və Azərbaycanda sovet hakimiyyəti qurulandan dərhal sonra Rusiyanın apardığı siyasətdən belə bir nəticəyə gəlmək olar ki, bolşevik hökumətini daha çox sənayenin bərpası deyil, Bakıdan neftin daşınması maraqlandırırdı. Neft Rusiyanın çökmüş iqtisadiyyatı üçün hava və su demək idi.

1920-ci il mayın 28-nə olan məlumata görə, Bakıda 5 mln. ton neft məhsulu yığılıb qalmışdı.[292] Onların daşınmasına artıq aprelin 28-də, yəni milliləşdirməyə bir ay qalmış başlanıldı.[293] Neft həm böyük, həm də kiçik partiyalarla göndərilirdi. Məsələn, 1920-ci il yanvar-sentyabr ayları üzrə neft məhsullarının qəbulu və buraxılışı kitabında qeyd olunmuşdur ki, ma-

---

[289] Нариманов Н.Н. Избранные произведения: Т.2. Баку, 1989, с. 531.
[290] Нариманов Н.Н. Göst. əsəri, s. 557.
[291] Братья навеки…, с. 498.
[292] ARDA: f. 1610, siy. 13, iş 213, v. 82.
[293] ARDA: f. 1610, siy. 13, iş 213, v. 111.

yın 1-də "Qədir Hüseynov" qayığında Həştərxana 1237,9 ton, mayın 2-də isə "İqnati" qayığında 859,9 ton neft daşınmışdır.[294] Mayın 4-də G.Orconikidze və S.Kirov V.Leninə ünvanladıqları teleqramda yazırdılar ki, "hələlik Həştərxana milyon yarım pud [24571 ton – *F.C.*]" daşınmışdır.[295]

1920-ci ilin mayında bolşevik qüvvələri Xəzər dənizini ağqvardiyaçılardan tamamilə təmizləyəndən sonra vaxtilə ağqvardiyaçıların ələ keçirdiyi və Ənzəliyə apardığı bütün gəmilər Xəzər donanmasının sərəncamına verildi. Nəticədə neftin Rusiyaya daşınması daha da sürətləndi. Gündəlik daşıma 16,3 min, bir qədər sonra isə 32,7 min tona çatdı. 1920-ci ilin dekabrı üçün Rusiyaya 2,6 mln. tondan çox neft və neft məhsulları daşınmışdır.[296] Bakının "qara qızılı"nın Rusiya üçün nə qədər əhəmiyyətli olduğunu təsəvvür etmək çətin deyil. 1920-ci il oktyabrın 15-də müşavirələrin birində çıxış edərkən V.Lenin demişdir: "...indi bizdə sənaye üçün yanacaq var, Bakıdan 100 milyon puddan [1,6 mln. ton – *F.C.*] çox neftimiz var..."[297] V.Leninin səsləndirdiyi rəqəm diqqəti cəlb edir: aprel işğalından sonra keçən altı ay ərzində Rusiyaya 1,6 mln. tondan çox neft, yəni işğal zamanı mövcud olan ehtiyatların 30 %-i daşınmışdır. Sənayenin yanacaqla təmin olunması Rusiyanın mərkəzində bir sıra zavod və fabrikləri işə salmağa imkan verdi. Təsadüfi deyil ki, 1920-ci il dekabrın 22-də Sovetlərin VIII Ümumrusiya qurultayında çıxış edən V.Lenin bildirmişdir ki, "...neft işi yaxşı gedir və biz yanacaq məsələsində ayaq üstə durmağa başlayırıq."[298] A.Serebrovski də öz növbəsində Bakı nefti hesabına nəqliyyatın işinin yaxşılaşdığını, dəmir yolları

[294] ARDA: f. 1610, siy. 11, iş 9, v. 10.
[295] Большевистское руководство..., с. 122.
[296] Азизбекова П.А., Мнацаканян А.Н., Трускунов М.Б. Göst. əsəri, c. 67.
[297] Азизбекова П.А. Göst. əsəri, s. 86.
[298] Азизбекова П.А. Göst. əsəri, s. 168.

vasitəsilə pambıq daşımalarının artdığını, pambıq və yanacaq ehtiyatları hesabına toxuculuq fabriklərinin işə düşə biləcəyini qeyd edirdi. Onun sözlərinə görə, Bakıdan yanacaq gələndən sonra Sormovo, Bryansk, Kolomna, Neva, Putilov parovozqayırma zavodlarının işi yaxşılaşmışdır.[299]

Bolşeviklər bir çox problemlərin həllində Bakı neftindən istifadə edirdilər. Məsələn, 1922-ci ildə Azərbaycan SSR XKS-in iclaslarının birində xalq hərbi-dəniz məsələləri üzrə komissarı Ə.Qarayev komissarlığa neftin və yağın verilməsini xahiş etmiş, bu məhsulların satışından əldə olunan gəlirin əsgərlər üçün geyim alınmasına icazə istəmişdir.[300] Bundan başqa Bakıda neftin kustar üsulu ilə çıxarılmasına dair Qırmızı ordu ilə "Azneft"in müqaviləsi var idi və əldə olunan neft bazara satışa çıxarılırdı.[301] Bu yolla ordunun bəzi maliyyə problemləri həll olunurdu. Rusiya daşınan neftə görə heç nə ödəmədiyi üçün "Azneft" daim pul vəsaitlərinə ehtiyac duyurdu. Buna baxmayaraq, Türküstan Respublikasının dəmir yollarının yanacaqla təchizatı "Azneft" trestinə həvalə olunmuşdur.[302] Azərbaycan SSR XXİK-nın Batumidəki nümayəndəsi Bakıdan onun sərəncamına 8,19 ton ağ neft göndərilməsini xahiş edirdi.[303] Bəzi hallarda Bakının "qara qızılı" spesifik funksiyaları da yerinə yetirməli olurdu. Məsələn,1922-ci ilin noyabrında Azərbaycan SSR XKS-i erməni dilində çıxan "Kommunist" qəzeti redaksiyasının borclarını ödəməyi "Azneft"ə təklif etmişdir.[304]

Rusiya Bakı nefti hesabına dirçəldiyi və ya V.Leninin təbirincə desək, "ayaqa qalxdığı" bir vaxtda neft şimala tamamilə

---

299 Доклад А.Серебровского «Экономическое положение и хозяйственная политика АССР» / TİEA: qovluq №5327, vv. 101-102.

300 ARDA: f. 411, siy. 1, iş 89, v. 23.

301 ARDA: f. 1610, siy. 16, iş 203, v. 3.

302 ARDA: f. 1610, siy. 16, iş 138, v. 135.

303 ARDA: f. 28, siy. 1, iş 159, v. 6.

304 ARDA: f. 133, siy. 1, iş 6, v. 87.

pulsuz daşınırdı. Bütün daşımalar Moskvadan gələn və icra üçün mütləq olan naryadlar əsasında həyata keçirilirdi. 1920-ci il naviqasiyası dövründə (oktyabra qədər) Rusiyaya ümumilikdə 1984684 ton neft daşınmışdır.[305] Milliləşdirmənin ilk iki ili (may, 1920 - may, 1922) ərzində Bakıdan Rusiyaya dəniz yolu ilə 5998607 ton, dəmir yolu ilə 13104 ton nəql edilmişdir. Neftin digər istiqamətlər üzrə daşınması aşağıdakı kimi idi: 171997 ton – dəmir yolu ilə Cənubi Qafqaz respublikalarına, 29485 ton – Bakı-Batumi ağ neft kəməri vasitəsilə.[306]

Azərbaycanın özünə isə iki il ərzində (may, 1920 – may, 1922) cəmi 496990 ton ayrılmışdı, bu isə daşınan neftin cəmi 25 %-ni təşkil edirdi.[307] Qıtlıq səbəbindən Azərbaycan əhalisinə neft məhsulları kartoçkalarla verilirdi. Buna görə Moskvanı tənqid edən N.Nərimanov yazırdı: "Azərbaycan kəndlisi ağ neft olmadığı üçün talaşa yandıranda, azərbaycanlı vətəndaş Tiflisdə ağ neftin Gəncədəkindən ucuz satıldığını görəndə, istər-istəməz bütün bunları törədənlərin ünvanına tənə, müstəmləkəçilikdə ittiham və i.a. eşitməyə məcbur olursan."[308] Vəziyyəti düzəltmək üçün "Azneft" Azərbaycanın daxilində dəmir yol stansiyalarına, anbarlara yaxın ərazilərdə ağ neftin satışını təşkil etmişdir.[309]

Yuxarıda göstərildiyi kimi, RSFSR Əmək və Müdafiə Şurası komissiyasının qərarlarından sonra Azərbaycan neft sənayesində müəyyən artım müşahidə olunurdu. Buna təsir edən amillərdən biri də mərkəzin 1921-ci ilin payızından etibarən "Azneft"ə Rusiya, Cənubi Qafqaz, Türküstan və İran ərazisində neft məhsullarını satmağa müəyyən hüquqlar verməsi idi.

---

305 ARDA: f. 1610, siy. 13, iş 212, v. 121.
306 ARDA: f. 1610, siy. 13, iş 213, vv. 122-123.
307 ARDA: f. 1610, siy. 13, iş 213, vv. 104-105.
308 Nərimanov N. Göst. əsəri, s. 36.
309 ARDA: f. 411, siy. 1, iş 102, v. 23.

Bu məqsədlə Moskvada, Rostovda, Qroznıda, Həştərxanda, Daşkənddə, Tiflisdə, Batumidə, Ənzəlidə "Azneft"in kontorları açıldı. Kontorlar həm neft məhsullarının satışı ilə məşğul olur, həm də neft sənayesi üçün lazım olan materialları satın alırdılar.[310] Çox vaxt mətbuat səhifələrində belə elanlara rast gəlmək mümkün idi: ""Azneft"in Moskva kontoru nəğd hesablaşma və neft məhsullarının mübadiləsi yolu ilə zəruri texniki materiallar, parça, geyim, ayaqqabı, ərzaq və s. alır."[311]

Lakin neftin satışından əldə olunan gəlirin əksər hissəsi Rusiya xəzinəsinə axışırdı. Bundan əlavə neft məhsullarının 9/10-u RSFSR-in, Türküstanın, Ermənistanın, Əlahiddə Qafqaz ordusunun, Cənubi Qafqaz dəmir yollarının ehtiyacları üçün ayırılırdı.[312] Neft kütləvi daşındığı üçün "Azneft" tresti 1921-ci ilin oktyabrında belə bir elan verməyə məcbur olmuşdur: "Neft və neft məhsullarının ehtiyatları tükəndiyi üçün "Azneft" onların respublika daxilində paylaşdırılmasını, həmçinin dəniz və dəmir yolu vasitəsilə daşınmasını ciddi qənaət və məsrəflərin məqsədəuyğunluğu prinsipi əsasında həyata keçirməyə məcburdur."[313]

Qeyd etmək lazımdır ki, "Azneft" neft məhsullarının ödənişli əsaslarla alınması prinsipini ilk dəfə 1920-ci ilin noyabrında tətbiq etmişdir.[314] Lakin bunun praktiki əhəmiyyəti olmadı, çünki "Azneft"dən pulsuz neft almaq qaydası dəyişilməz qalırdı. 1921-ci ilin ortalarında əksər sovet müəssisələrində YİS prinsiplərinin tətbiq olunması ilə əlaqədar "Azneft" istehsal etdiyi neftə görə müəssisələrlə ödənişli hesablaşmalara

---

[310] ARDA: f. 1610, siy. 16, iş 139, v. 23

[311] Правда, 2 апреля 1922 г.

[312] О концессиях в нефтяной промышленности / Экономический вестник, 1922, №3, с. 23.

[313] ARDA: f. 130, siy. 1, iş 729, v. 16.

[314] ARDA: f. 1610, siy. 13, iş 212, v. 139.

keçmək imkanını əldə etdi. Lakin yenə də əksər hallarda neft "kreditə" verilirdi, bu isə əlavə maliyyə çətinlikləri yaradırdı. Belə olduqda, 1922-ci ilin əvvəlində "Azneft" neft məhsullarının pulsuz və "kreditə" verilməsinin dayandırılması haqqında qərar çıxarmışdır.[315] Həmin ilin aprelində kəskin pul böhranı ilə əlaqədar "Azneft"in bütün nümayəndələrinə və müvəkkillərinə neft məhsullarının satışından əldə olunan vəsaitin yarısının təcili Bakıya göndərilməsi haqqında təlimat verilmişdir.[316]

Bu arada isə Bakı nefti Rusiyaya əvvəlki qaydalarla daşınırdı və neft sənayesinin maraqları, ehtiyacları qətiyyən nəzərə alınmırdı. "Azneft"in Baş (Bakı) kontorunun müdiri S.Ryazanskinin "1922 və 1923-cü illərdə Bakıdan Volqaya neft məhsullarının daşınmasına dair" adlı arayışında deyilirdi: "1920-ci ildə olduğu kimi, 1922-ci ildə də neftin daşınması məsələsi yenə vacib vəzifədən – Sovet Rusiyasının yanacaqla təmin olunması vəzifəsindən asılıdır. Vəzifə həmişə eynidir, lakin onun həyata keçirilməsi çətinliklərlə (məsələn, Suraxanıda yanğın, daşınma üçün nəzərdə tutulan neft məhsullarının azalması) əlaqədar dəyişikliklərə məruz qalır. Planı böyük çətinliklərlə yerinə yetirərkən çox güman ki, yanacağın mövcud ehtiyatlarını "yerli-dibli" götürəcəyik və yalnız cari hasilatla qalacağıq."[317] Neft ehtiyatlarının "yerli-dibli" götürülməsini asanlaşdırmaq üçün RSFSR Baş Yanacaq İdarəsi hətta Azərbaycanın bütün neft anbarlarının öz nəzarəti altına götürülməsi layihəsi ilə çıxış etmişdir. Lakin respublikanın Ali İqtisadi Şurası (bundan sonra – AİŞ) bu təklifin əleyhinə çıxış edərək anbarların icarə əsasında Azərbaycan Neft Sindikatına (sindikat haqqında irəlidə bəhs olunacaq) verilməsini məqsədəuyğun saymışdır.[318]

---

[315] ARDA: f. 1610, siy. 13, iş 8, v. 30.
[316] ARDA: f. 1610, siy. 13, iş 8, v. 70.
[317] ARDA: f. 1610, siy. 13, iş 6, v. 105.
[318] ARDA: f. 412, siy. 1, iş 13, v. 132.

Bakı neftinin Sovet Rusiyasının tam ixtiyarında olmasına baxmayaraq, Azərbaycana öz təbii sərvətindən istifadə etmək üçün daha geniş hüquqların verilməsi haqqında Bakıdan Moskvaya tələblər göndərilirdi. Ümumiyyətlə, neftdən istifadə məsələsi respublika üçün həyat əhəmiyyətli bir çox digər məsələlər, o cümlədən, ərazi bütövlüyü, partiya-dövlət quruculuğu və s. çox vaxt Azərbaycanın maraqları nəzərə alınmadan və onun iştirakı olmadan həll edilirdi. N.Nərimanov dəfələrlə mərkəzin Azərbaycanı "simasızlaşdırmaq" siyasətinə etiraz edirdi.[319] Yalnız onun qətiyyətli tələblərindən sonra RK(b)P MK-nın Siyasi Bürosu 1921-ci il oktyabrın 17-də qəbul etdiyi qərarla RSFSR-in bütün idarələrinə və xalq komissarlıqlarına Azərbaycana aid məsələlərin müzakirəsi zamanı respublikanın nümayəndəsinin dəvət olunmasını tapşırmışdır.[320] Lakin Siyasi Büronun bu qərarı çox vaxt yerinə yetirilmirdi. 1921-ci ilin oktyabrında Moskvada olarkən N.Nərimanov dəfələrlə Bakı neftindən istifadə sahəsində Azərbaycana daha geniş hüquqların verilməsi məsələsini qaldırmışdı. Həmin hüquqlar neft sənayesinin bərpası, maddi-texniki bazasının yaxşılaşdırılması, fəhlələrin həyat səviyyəsinin yüksəldilməsi üçün zəruri idi. Neftin Rusiyaya pulsuz daşınması, Azərbaycanın öz təbii sərvətini xarici bazarlarda satmaq hüququndan məhrum edilməsi neft sənayesinin dirçəlməsinə mane olurdu. Moskvada Azərbaycan üçün olduqca vacib olan RSFSR XKS-in qərarı saya salınmırdı. Həmin qərarda Bakı neftinin satışından əldə olunan gəlirin 60 %-nin "Azneft"ə ayrılması nəzərdə tuturdu.[321] Sadalanan amillərin neft sənayesinə və bütövlükdə Azərbaycandakı vəziyyətə mənfi təsirini başa düşən N.Nərimanov respublikanın mənafeyini qorumağa çalışırdı. RK(b)P

---

[319] ARPİİSSA: f. 609, siy. 1, iş 36a, vv. 7-9.

[320] ARDA: f. 28, siy. 1, iş 99, v. 29.

[321] ARDA: f. 1610, siy. 13, iş 213, v. 22.

MK-nın Siyasi Bürosunun 17 oktyabr tarixli iclasında onun Bakı neftindən istifadə məsələsində Azərbaycanın üstünlükləri haqqında təklifi müzakirə olunmuşdur. Qəbul edilən qərara əsasən xarici bazarlarda neft məshullarının satışı Azərbaycan hökumətinin tapşırığı ilə birləşmiş Azərbaycan-Rusiya xarici ticarət qurumu vasitəsilə, RSFSR və digər müttəfiq respublikaların bazarlarında satış isə sərbəst aparılmalı idi.[322] N.Nərimanov bu qərarın icrasına nəzarət edəcək komissiyanın tərkibinə daxil edilmişdir.

Siyasi Büronun 17 oktyabr tarixli qərarı neft sənayesinin inkişafı üçün potensial imkanlar yaradırdı. Lakin N.Nərimanov Bakıya qayıdan kimi hər şey əvvəlki axarı ilə davam etdi. Moskva yenə də Azərbaycanın neftdən istifadə hüquqlarını məhdudlaşdırmaq siyasətinə əl atdı. 1921-ci il oktyabrın 21-də Siyasi Büronun iclasında aşağıdakı məzmunda qərar qəbul olundu: "…2. a) Yoldaş Smilqaya və Xinçuka tapşırılsın ki, iki həftə ərzində Azərbaycana ayrılacaq neftin təxmini hesablamalarını MK-ya təqdim etsinlər; b) N.Nərimanovun getməsi ilə əlaqədar olaraq onu Siyasi Büronun cari il oktyabrın 17-də təyin etdiyi komissiyada Azərbaycan hökumətinin Moskvadakı nümayəndəsi əvəz etsin."[323]

Bir müddət sonra RSFSR BYİ-nin başçısı İ.Smilqa Azərbaycanın neftə olan tələbatının ödənilməsinə dair layihə tərtib etmişdir. Respublikanın real tələbatlarını əks etdirməyən həmin layihə BYİ-nin arayışı əsasında işlənib hazırlanmışdır, yəni Azərbaycan hökumətinin, "Azneft"in nümayəndələri sənədin hazırlanmasına cəlb olunmamışdılar. İ.Smilqa Azərbaycanın tələbatlarını ödəmək üçün 57330 ton neftin, o cümlədən, 19656 ton ağ neftin, 10319 ton xam neftin, 4914 ton sürtkü yağlarının, 1638 ton benzinin və qazolinin, 819 ton sürtkü qalıqlarının və sürtkü mazutunun, 327,6 ton solyarka yağının

---

[323] ARPİİSSA: f. 609, siy. 1, iş 88, v. 1.

ayrılmasını mümkün hesab edirdi.[324] Bütün bu hesablamalar 1913-cü ildən 1921-ci ilə qədərki dövrü əhatə edən rəqəmlər, həm də yalnız Bakı və onun qəzaları üzrə aparılmışdır.

BYİ-nin arayışı N.Nərimanovun ciddi etirazına səbəb oldu. O, RK(b)P MK-ya yazırdı ki, arayışda Bakının və onun qəzalarının ehtiyacları haqqında bəhs edilir, lakin Azərbaycan təkcə keçmiş Bakı quberniyasından deyil, həm də keçmiş Bakı, Gəncə quberniyalarından və Zaqatala dairəsindən ibarətdir. Bu səbəbdən N.Nərimanov belə bir qənaətə gəlirdi ki, "BYİ-nin məlumatları Azərbaycanın neft məhsullarına tələbatının təxmini hesablamaları üçün qətiyyən əsas kimi götürülə və istifadə edilə bilməz."[325] İ.Smilqanın layihəsində həmçinin satış üçün Azərbaycan hökumətinə ümumi hasilatdan cəmi 15 %-dək neft məhsullarının ayrılması nəzərdə tutulurdu. N.Nərimanovun sözlərinə görə, bu bəndlə "MK-nın Siyasi Bürosunun qərarı ləğv olunur, çünki həmin layihə vəziyyəti əvvəlkindən də pis edir."[326]

N.Nərimanov Azərbaycanın real ehtiyaclarını əks etdirən alternativ layihə təqdim etmişdi. Onun təkliflərinin mahiyyəti belə idi: "Sovet hakimiyyətinin bir ili ərzində Azərbaycanın müxtəlif neft məhsullarına sənaye və texniki tələbatı 21900000 pud [358737 ton – *F.C.*] təşkil edir, əhaliyə isə Smilqanın göstərdiyi kimi 2 mln. pud [32761 ton – *F.C.*] yox, 3 mln. pud [49142 ton – *F.C.*] ağ neft lazımdır... Buna görə texniki və sənaye tələbatını ödəməkdən başqa, Azərbaycan Xalq Komissarları Sovetinə özünün istifadəsi üçün daha 8100000 pud [132683 ton – *F.C.*] müxtəlif neft məhsullarının ayrılması zəruridir. Beləliklə, cəmi 30 mln. pud [491420 ton – *F.C.*] müxtəlif neft məhsulu lazımdır, bu da 140 milyonluq

[324] ARPİİSSA: f. 609, siy. 1, iş 98, v. 9.
[325] ARPİİSSA: f. 609, siy. 1, iş 98, v. 8.
[326] ARPİİSSA: f. 609, siy. 1, iş 98, v. 2.

[2293296 ton – *F.C.*] istehsal proqramı çərçivəsində hasilatın 22 %-ə qədərini təşkil edir."[327]

Lakin Azərbaycanın ədalətli səsi Moskvada eşidilmədi və Rusiya məsələni özünə uyğun formada həll etdi. 1921-ci il oktyabrın 31-də RSFSR Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin qəbul etdiyi qərarda deyilirdi: "...Baş Yanacaq İdarəsinə təklif olunsun ki, Azərbaycan Xalq Komissarları Sovetinin ixtiyarına 3 mln. pud [49142 ton – *F.C.*] yağ, 100000 pud [1638 ton – *F.C.*] benzin ayrılsın. Azərbaycan XKS-nə ayırmalar hasilatın 15 %-dən artıq olmamalıdır."[328] Qərarda nəzərdə tutulurdu ki, Azərbaycan hökuməti neft məhsullarını RSFSR-in daxili bazarlarında Mərkəzi İstehlakçılar Birliyi ilə razılaşdırmaqla satacaq.[329] Qərarda göstərilən neft məhsullarına görə XKS "Azneft"ə vəsait ödəyirdi, yəni respublika hökuməti öz neftinə görə həmin təbii sərvəti hasil edən təşkilata pul köçürməli idi. 15 %-ə gəldikdə isə, bu kvota XKS-in xüsusi fondunu təşkil edir və "Azneft" tərəfindən pulsuz ayrılırdı. Həmin 15 %-in XKS-in ehtiyaclarını ödəməyəcəyini əvvəlcədən bilən və Azərbaycana daha böyük kvotanın ayrılmasını əngəlləmək istəyən Moskva qərara belə bir bənd də əlavə etmişdir: "15 % neft məhsulları Azərbaycan SSR-in ehtiyaclarını təmin etməsə, 15 %-dən artıq məhsul Ali İqtisadi Şuranın tələbnaməsi RSFSR Baş Yanacaq İdarəsi tərəfindən təsdiq olunandan sonra ayrıla bilər."[330] Yəni tələbnaməni irəli sürən də, onu təsdiq edən də Azərbaycandakı yox, mərkəzdəki qurumlar olmalı idi. Beləliklə, Moskva Azərbaycanın neftdən istifadə hüququ məsələsində status-kvonu saxlamış və faktiki olaraq əvvəlki qaydalar bərpa edilmişdi. Yeganə fərq bunda

[327] ARPİİSSA: f. 609, siy. 1, iş 88, v. 2.
[328] ARPİİSSA: f. 609, siy. 1, iş 98, v. 5.
[329] ARDA: f. 28, siy. 1, iş 86, v. 46.
[330] ARDA: f. 412, siy. 1, iş 22, v. 1.

idi ki, neft məhsullarının paylaşdırılmasında respublikaya rəsmi olaraq 15 %-lik kvota ayrılmışdı. Nəzərə alınmalıdır ki, əməkhaqqı fondu üzrə xərclər Moskva tərəfindən kompensasiya olunmurdu və Azərbaycan neftçilərin əməkhaqqını ona ayrılan 15 %-lik kvotadan ödəmək məcburiyyətində idi.

31 oktyabr qərarından bir neçə ay sonra Moskva Azərbaycanın neftdən istifadə hüquqlarını bir qədər də məhdudlaşdırdı. Əgər əvvəl 15 %-lik kvotaya yalnız XKS-in fondu daxil idisə, 1922-ci ilin yanvarından etibarən tətbiq olunan qaydaya görə, müəssisələr üçün ayrılan neft məhsullarının həcmi XKS-in fondu ilə birlikdə hasilatın 15 %-dən artıq ola bilməzdi.[331] Moskvanın bu siyasətinə "Azneft" trestinin rəisi A.Serebrovskinin mövqeyi güclü təsir göstərirdi. O, ümumiyyətlə, Azərbaycan hökumətinə hər hansı ayırmaların əleyhinə idi və hesab edirdi ki, hasilatdan əldə olunan gəlir hökumətin yox, "Azneft"in ehtiyacları üçün ayrılmalıdır. A.Serebrovskinin fikrinə görə, əgər trest nefti hasil edirsə, neftin yeganə sahibi də özü olmalıdır. Respublika hökumətinə hər hansı ayırmaların əleyhinə olan A.Serebrovski Rusiyaya neftin daşınması zəruriliyini şübhə altına almır, bunu bir vəzifə, "Azneft"in Moskva qarşısında borcu hesab edirdi. 1922-ci il yanvarın 31-də o, Moskvaya – BYİ-nin məsul işçisi M.Lyadova yazırdı: "... deyəsən, bizim hasilatın 15 %-nin Azərbaycan hökumətinə verilməsi haqqında Siyasi Büronun qərarı var. Bu bizi məhv edəcək, olmazmı ki Azərbaycana aksiz şəklində renta ödənilsin? Axı biz Azərbaycana ağ neft və neft versək, özümüz özümüzü məhv edərik, Zaqafqaziyada ticarət edə bilməyəcəyik. Sizdən çox xahiş edirəm, Siyasi Büronun və ÜMİK-in [Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin – *F.C.*] bu qərarının ləğvinə nail olun."[332] Bu məzmunda məktubları A.Serebrovski daha

[331] ARDA: f. 412, siy. 1, iş 13, v. 2.
[332] ARDA: f. 1610, siy. 1, iş 75, v. 3.

çox RSFSR BYİ-nin müvəqqəti rəisi G.Pyatakova göndərirdi. A.Serebrovskinin təkidli xahişləri sonda öz nəticəsini verdi. 1922-ci il fevralın 16-da G.Pyatakov A.Serebrovskiyə aşağıdakı məzmunda teleqram göndərmişdir: "Sizin məktubunuzla əlaqədar 15 %-in ləğv olunması ilə bağlı Siyasi Büroya müraciət edirəm..."[333] Bu xəbər "Azneft" rəisini o qədər ruhlandırmışdır ki, o, G.Pyatakova cavab verirdi: "Sizin teleqramınızı aldıq və hamımız sevindik."[334]

Məktubların birində A.Serebrovskinin Azərbaycan hökumətinin Bakı neftinə olan hüquqları haqqında belə bir fikri var: "Ola bilsin ki, siyasi nöqteyi-nəzərdən Azərbaycana heç nə verməmək olmaz, onda bunu aksiz yığımı və ya başqa vergi formasında etmək daha yaxşı olardı, lakin ağ nefti pulsuz vermək heç cür olmaz... Azərbaycan neft məhsullarını sərbəst satacaq və bununla "Azneft"ə böyük ziyan vuracaq. Bundan başqa, natura formasında ayırmalar bazara çıxarıla biləcək neft məhsullarının həcmini xeyli azaldardı."[335] Moskvada A.Serebrovskinin mövqeyini dəstəklədilər. 1922-ci il martın 4-də RK(b)P MK-nın Siyasi Bürosunun iclasında 1921-ci il 31 oktyabr tarixli qərara yenidən baxılması haqqında BYİ-nin xahişi dinlənilmişdir. Siyasi Büronun qəbul etdiyi qərara əsasən, A. Serebrovskiyə və Azərbaycan SSR XKS-nə tapşırılırdı ki, onlar Azərbaycana neft məhsullarının ayrılması məsələni müzakirə edib razılaşdırılmış qərarın və ya iki qərarın layihələrini MK-nın plenumuna təqdim etsinlər. Məsələ həll olunanadək 31 oktyabr tarixli qərar qüvvədə qalırdı.[336]

Qeyd etmək lazımdır ki, sovet dövlətinin bürokratik aparatının fəaliyyət mexanizmi çox vaxt təsərrüfatın ayrı-ayrı sahələ-

---

[333] ARDA: f. 1610, siy. 1, iş 75, v. 28.
[334] ARDA: f. 1610, siy. 1, iş 75, v. 54.
[335] ARDA: f. 1610, siy. 1, iş 75, v. 63.
[336] ARPİİSSSA: f. 1, siy. 85, iş 216, v. 4.

rinin idarə olunmasında pərakəndəliyə, müxtəlif təşkilatlar arasında münaqişələrə və ziddiyyətlərə gətirib çıxarırdı. Göründüyü kimi, analoji vəziyyət Azərbaycan neft sənayesində də müşahidə olunurdu. Burada üstünlük uğrunda "Azneft" tresti və Azərbaycan SSR Xalq Komissarları Soveti mübarizə aparırdılar. Təsərrüfat qurumu olan "Azneft" Moskvanın Azərbaycana ayırdığı neftə təkbaşına sahib olmağa, onu öz istəyinə uyğun paylaşdırmağa can atırdı. XKS isə hökumət olaraq buna qarşı idi və neft resurslarından istifadə hüquqlarını Azərbaycanın özünə qaytarmağa çalışırdı. 15 %-lik kvota haqqında qərardan sonra XKS "Azneft" trestini minimal nəzarət altına almağa cəhdlər etmişdir. Bunu Azərbaycan SSR Ali İqtisadi Şuranın sədri Qəzənfər Musabəyovun "Azneft"ə göndərdiyi 21 dekabr 1921-ci il tarixli məktubdan görmək olar. Q.Musabəyov ağ neft və yağ emalı zavodlarının istehsalat proqramının, həmçinin hər ayın 20-də və 5-də hasil olunan neftin həcmi haqqında məlumatın şuraya təqdim olunmasını xahiş edirdi.[337] Və yaxud başqa bir fakt. Fəhlə və qulluqçuların 1921-ci ilin oktyabr ayı üzrə məvaciblərinin verilməsi üçün 700 mln. rublun ayrılması haqqında "Azneft"in sorğusuna cavab olaraq, Azərbaycan SSR XKS-i qərara almışdır: "AİŞ yanında maliyyə komissiyasına tapşırılsın ki, "Azneft"lə Xalq Maliyyə Komissarlığı arasında maliyyə münasibətləri, o cümlədən, neft məhsullarının 15 %-nin Azərbaycanın xeyrinə ayrılması qaydası araşdırılsın, bundan sonra "Azneft"in pul əskinasları ilə təminatı məsələsinə baxılsın."[338] Bu cür tədbirlərlə hökumət trestin və şəxsən A.Serebrovskinin qeyri-məhdud hökmranlığına son qoymaq istəyirdi. Bu məqsədlə Azərbaycan SSR XKS-i 1921-ci ilin sentyabrında neft məhsullarının satışının inhisara alınması haqqında qərar qəbul etmişdir.[339] İndiyədək bu, "Azneft"in müstəsna hüququ idi.

---

[337] ARDA: f. 1610, siy. 16, iş 138, v. 36.
[338] ARDA: f. 130, siy. 1, iş 73, v. 17.
[339] ARDA: f. 411, siy. 1, iş 24, v. 1.

Dövrün sənədləri ilə tanışlıq belə təsəvvür yaradır ki, “Azneft” və XKS daha çox bir respublikanın idarəetmə sistemində iki qurum kimi yox, bir-biri ilə əlaqəsi olmayan strukturlar kimi çıxış edirdilər. Məsələn, A.Serebrovskinin növbəti imtina cavabından sonra N.Nərimanov RSFSR BYİ-dən xahiş etmişdir ki, “Azneft” rəisinə Azərbaycan SSR XKS-in fonduna pulsuz neft ayırmalarının dərhal bərpa edilməsi haqqında göstəriş verilsin. N.Nərimanov yazırdı ki, əks halda o, fəhlələrin məvaciblərinin ödənilməsi və başqa məqsədlər üçün respublika büdcəsindən “Azneft”ə vəsaitin ayrılmaması haqqında sərəncam verəcək.[340] A.Serebrovski təkcə Azərbaycan hökumətinin tələblərinə deyil, həmçinin RSFSR MİK-in 31 oktyabr 1921-ci il tarixli qərarına da məhəl qoymurdu. AK(b)P MK-nın Rəyasət Heyətinin 11 mart 1922-ci il tarixli iclasında “Azneft” rəhbərinə XKS-ə neft məhsullarının ayrılması haqqında qərarı icra etmək tövsiyə olunmuşdur.[341]

N.Nərimanovun yuxarıda adı çəkilən bəyanatına oxşar teleqram 1922-ci il mayın 16-da Q.Musabəyovun da adından V.Leninə göndərilmişdir. Q.Musabəyov şikayətlənirdi ki, A.Serebrovski XKS-in fondu üçün nəzərdə tutulan neft məhsullarını pulsuz verməkdən imtina edir.[342]

Münaqişənin böyüdüyünü görən Moskva məsələyə müdaxilə etməli oldu. Mərkəzin qərarı ilə XKS üçün pulsuz neft məhsullarının ayrılması qaydası bir daha təsbit edildi. Lakin A.Serebrovski yenə də qərara məhəl qoymurdu və onun hərəkətləri respublika hökumətinin qəzəbinə səbəb oldu. AİŞ Rəyasət Heyətinin iclasında (iyun, 1922-ci il) qərara alındı ki, “Azneft”in neft məhsullarının ayrılması haqqında qərarların icrasına məcbur edilməsi haqqında AK(b)P MK-da və Azər-

[340] ARDA: f. 28, siy. 1, iş 86, v. 18.
[341] ARDA: f. 411, siy. 1, iş 105, v. 19.
[342] ARDA: f. 28, siy. 1, iş 46, v. 37.

baycan SSR XKS-də təcili şəkildə məsələ qaldırılsın[343]. AK(b)P MK-nın Rəyasət Heyətinin 25 iyun 1922-ci il tarixli iclasında Q.Musabəyovun "Azneft"in Moskvanın qərarlarını icra etməməsi haqqında məlumatı dinlənildi. Rəyasət Heyətinin qəbul etdiyi qərarda deyilirdi: "..."Azneft" qərarları (XKS-ə müəyyən olunmuş neft məhsulları normasının verilməsi haqqında) icra etmədiyi təqdirdə XKS sədrinə repressiv tədbirlər görmək, o cümlədən, "Azneft" rəhbərlərini həbs etmək hüququ verilsin."[344]

Bütün bu münaqişə və mübahisələrin kökündə Sovet Rusiyasının Azərbaycandakı siyasəti dururdu. Respublika hökumətinə cüzi miqdarda neft məhsullarının ayrılması, "qara qızıl"dan əldə olunan gəlirlərin bölüşdürülməsində Azərbaycanın iştirakının heçə endirilməsi, neftin Rusiyaya kütləvi, qarətçi daşınması vəziyyətin bu şəkil almasına səbəb olurdu. Ziyanı isə ilk növbədə neft sənayesi çəkirdi.

Qeyd etmək lazımdır ki, A.Serebrovski hökumətə neft məhsullarının ayrılmasının əleyhdarı olsa da, Azərbaycanın öz neftindən istifadə hüququnun məhdudlaşdırması siyasətinə qarşı çıxış edirdi. Bu məsələdə, həmçinin "Azneft"in sərbəst xarici ticarət hüququ məsələsində onu N.Nərimanov başda olmaqla, Azərbaycan hökuməti dəstəkləyirdi (bu barədə VII fəsildə ətraflı bəhs ediləcək). Məqalələrinin birində A.Serebrovski yazırdı: "Dövlətin yanacaq siyasəti həmişə belə qurulurdu ki, neft sənayesi tamamilə mərkəzi yanacaq orqanlarının tabeliyində qalırdı. Neft sənayesinin məhsulları mərkəzin sərəncamında olur və ya onun naryadları əsasında dövlət qurumlarına, müəssisələrinə, nəqliyyata verilirdi. Digər tərəfdən, hamıya məlumdur ki, dövlət təchizatı adı ilə dövlətdən nə alırdıq. Bu təchizat nə texniki materiallara, nə ərzaq məhsullarına, nə də

---

343 ARDA: f. 412, siy. 1, iş 22, v. 39.
344 ARPİİSSA: f. 1, siy. 74, iş 128, v. 21.

kütləvi tələbat mallarına minimal ehtiyacları ödəmirdi."[345] Göründüyü kimi, Moskvanın təyin etdiyi "Azneft" rəisi də respublikanın öz neftindən istifadə hüquqlarının məhdudlaşdırılması ilə bağlı narazılığını bildirirdi. Əlbəttə, burada A.Serebrovskinin Moskvanın sərt nəzarətindən azad olmaq istəyi az rol oynamırdı.

Xarici bazarlarda (Qərbi Avropa istisna olmaqla) ticarət məsələsində də Azərbaycan SSR XKS-i ilə "Azneft" arasında ciddi fikir ayrılıqları var idi. Hər iki qurum bu sahədə öz üstünlüyünü təmin etmək istəyirdi. Kompromisə gəlmək üçün respublika AİŞ-in 18 iyul 1922-ci il tarixli iclasında Cənubi Qafqazda, Türküstan Respublikasında, İranda, Yaxın Şərqdə neft məhsullarının müştərək satışına dair trestlə XKS arasında sazişin imzalanmasının məqsədəuyğunluğu haqqında qərar qəbul edilmişdir.[346]

1922-ci il avqustun 2-də Azərbaycan SSR XKS-i və "Azneft" tresti neft məhsullarının satışı məqsədilə "Azneftsindikat"ın yaradılması haqqında saziş imzaladılar.[347] Sazişə əsasən, Azərbaycan hökuməti və "Azneft" öz fondlarındakı neft məhsullarını satış üçün sindikata təhvil verirdilər. XKS-in fondundan 131048 tonadək, "Azneft"in fondundan isə 360375 tonadək neft məhsulu satışa çıxarılmalı idi. Neft ticarəti Cənubi Qafqazda, Türküstanda, İranda və Yaxın Şərqdə aparılmalı, ticarət əməliyyatlarından əldə olunan gəlir isə aşağıdakı kimi bölünməli idi: 75 % – "Azneft"ə, 25 % – XKS-ə. Məhsulu satmaq üçün XKS 31 oktyabr 1921-ci il tarixli qərarla ona ayrılan 131000 tona yaxın fondun hamısını, "Azneft" isə 360000 tona qədər neft məhsulunu "Azneftsindikat"a təhvil verirdi. Lakin tezliklə yeni ziddiyyətlər ortaya çıxdı. Məsələ burasın-

[345] Заря Востока, 14 декабря 1922 г.

[346] ARDA: f. 412, siy. 1, iş 22, v. 49.

[347] ARPİİSSA: f. 609, siy. 1, iş 98, vv. 1-3.

dadır ki, XKS-in bütün fondunun "Azneftsindikat"a təhvil verilməsi hökuməti həmin ehtiyatdan tamamilə məhrum etdi və bundan sonra neft məhsullarının verilməsi üçün XKS hər dəfə "Azneft"dən asılı olmalı idi. Bundan başqa, sindikatın satdığı neftdən əldə etdiyi vəsaitin cüzi hissəsi XKS-ə çatmalı idi və həmin vəsait nə sazişin şərtlərinə, nə də "Azneftsindikat"ın satdığı neft məhsullarının həcminə uyğun deyildi.

Beləliklə, Bakı neft sənayesini tam nəzarətə götürən RSFSR rəhbərliyi Azərbaycanın öz təbii sərvətindən istifadə hüquqlarını sıfıra endirdi. Bakı nefti Rusiyanın maraqlarına tabe edilmişdi və Azərbaycanın mənafeyi tamamilə nəzərə alınmırdı. Bununla əlaqədar neftin hasilatını və onun Rusiyaya daşınmasını göstərən bəzi statistik göstəricilərə diqqət yetirmək maraqlı olardı. Həmin rəqəmlərdən həm Bakıda neft hasilatının dinamikasını, həm də hasilatın daşınmaya nisbətini izləmək mümkündür. İlk baxışdan diqqəti çəkən məqam bundan ibarətdir ki, Bakı neftinin əksər hissəsi Rusiyaya daşınırdı.

**Cədvəl 4. 1920-1923-cü illərdə Bakıda neft hasilatı (tonlarla)[348]**

| Dövr | Hasilatın həcmi |
|---|---|
| iyun, 1920-iyun, 1921 | 2493844 |
| iyun, 1921-may, 1922 | 2751627 |
| iyun 1922-may, 1923 | 3276137-dən artıq |
| Cəmi | 8521608-dən artıq |

[348] Бакинская нефтяная промышленность за три года национализации. Баку, 1923, с. II. Mənbədə rəqəmlər pudla verilib, tonlara mənim tərəfimdən çevrilib.

Milliləşdirmə başlayan gündən etibarən "Azneft" Rusiyaya neft daşımalarını 150 % yerinə yetirmişdir. Milliləşdirmənin ilk üç ili ərzində şimal istiqamətində dəniz yolu ilə 7677579 ton neft daşınmış, bu isə hasilatın 90 %-nə bərabər idi.[349] Nəzərə alsaq ki, yerdə qalan neftin 10 %-ni Rusiya Qərbi Avropada, İranda satır, Cənubi Qafqaza, Türküstana daşıyırdı, onda həmin 10 %-dən Azərbaycana nə qədər neftin qaldığını təsəvvür etmək çətin deyil. Buna bir daha əmin olmaq üçün Rusiyaya və başqa istiqamətlərdə neftin daşınmasının faiz nisbətini əks etdirən cədvələ nəzər salaq:

**Cədvəl 4. Bakı neftinin Rusiyaya və başqa istiqamətlərə daşınması (%-lə)[350]**

| İstiqamətlər | 1920-1921-ci illər | 1921-1922-ci illər | 1922-1923-cü illər |
|---|---|---|---|
| Rusiyaya | 94,5 | 77,5 | 82 |
| Xaricə (Batumi vasitəsilə) | 0,4 | 3,1 | 8,1 |
| Cənubi Qafqaza və İrana | 5,1 | 19,4 | 10 |

Göründüyü kimi, Bakı neftinin Rusiyaya və Cənubi Qafqaz respublikalarına daşınması ixracdan xeyli artıq idi. Bundan başqa, Rusiyaya aparılan neftə görə Azərbaycan heç nə qazanmırdı. Sovet hakimiyyəti Azərbaycan xalqının təbii sərvətini açıq-aşkar talan edirdi.

349 Бакинская нефтяная промышленность..., с. 98-99.

350 Вывоз нефти из Баку за пять лет национализации / Экономический вестник Азербайджана, 1925, №1, с. 7.

# VI.

# SOVET RUSİYASININ CƏNUBİ QAFQAZ SİYASƏTİNDƏ BAKI NEFTİ AMİLİ

1920-ci ilin aprelində Azərbaycanı işğal etdikdən sonra Sovet Rusiyası Cənubi Qafqazdakı siyasətində, özünün xarici ticarətində, Qərb ölkələri ilə münasibətlərində Bakı neftinə böyük əhəmiyyət verirdi. Daxili siyasətdə olduğu kimi, xarici siyasətdə də Rusiya Azərbaycanın maraqlarını nəzərə almırdı, burada da Bakı nefti yalnız Moskvanın məqsədlərinə xidmət edirdi.

Azərbaycanın işğalı ilə bolşeviklər Cənubi Qafqazda sovet hakimiyyətini zorla yaymağa başladılar. Hələ 1919-cu ilin fevralında "Qafqazın tutulmasına baxış" adlı məqaləsində N.Nərimanov yazırdı: "...təkcə Bakının alınması ilə və orada möhkəmlənməklə işi bitmiş hesab etmək olmaz... Bakıdan sonra Şərq haqqında məsələ ortaya çıxır. Bizim bəzi rus yoldaşlarımız yalnız tüfəng və süngülərə arxayındır. Lakin biz –

həqiqi müsəlman kommunistləri deyirik: Bakıya qədər süngü ilə, lakin sonra süngüləri kənara qoymaq lazımdır, çünki inqilabın alovunu Qafqaza və ümumiyyətlə Şərqə süngü ilə gətirmək olmaz. Birdəfəlik anlamaq lazımdır ki, yalnız xoş rəftarla, yumşaq siyasətlə, məğlub əhalinin psixikasına diqqətlə yanaşmaqla qalib qoşun özünə yol açıb tutduğu yerlərdə sakit və təhlükəsiz qala bilər."[351]

Rusiyanın Cənubi Qafqaza olan marağı regiona strateji forpost kimi yanaşmadan irəli gəlirdi. Cənubi Qafqaz bolşeviklərin siyasi və iqtisadi planlarının gerçəkləşməsi üçün geniş imkanlar açırdı. Bununla bağlı İ.Stalin 1920-ci il noyabrın 30-da "Pravda" qəzetinə verdiyi müsahibədə deyirdi: "Qafqazın inqilab üçün mühüm əhəmiyyəti onun təkcə xammal, yanacaq və ərzaq mənbəyi olması ilə deyil, eyni zamanda, Avropa ilə Asiya, o cümlədən, Rusiya ilə Türkiyə arasındakı mövqeyi və çox mühüm iqtisadi və strateji yolların (Bakı-Batumi, Batumi-Təbriz, Batumi-Təbriz-Ərzurum) mövcudluğu ilə müəyyən olunur. Bütün bunlar hal-hazırda Qara dənizin açarı sayılan İstanbula sahib olan və Zaqafqaziya vasitəsilə Şərqə birbaşa yolu əlində saxlayan Antanta tərəfindən nəzərə alınır. Qafqazda sonda kim möhkəmlənəcək, neftdən və Asiyanın içərilərinə aparan mühüm yollardan kim istifadə edəcək – inqilab yoxsa Antanta – məsələ bundadır."[352]

1920-ci ilin aprelindən sonra Azərbaycan Cənubi Qafqazda yeganə sovet respublikası idi və buna görə regionda sovet hakimiyyətinin bərqərar olunmasında ona xüsusi rol ayrılırdı. Bir tərəfdən, Azərbaycan qonşu Gürcüstanda və Ermənistanda bolşevizmin yayılması üçün istinadgah olmalı, digər tərəfdən isə Bakı neftindən həmin respublikalara təzyiq vasitəsi kimi

---

[351] Нариманов Н.Н. Избранные произведения, с. 189-190.

[352] Ментешашвили А. Göst. əsəri...

istifadə edilməli idi. Bu dövrdə Gürcüstanın və Ermənistanın daxili vəziyyəti olduqca mürəkkəb idi. Ənənəvi təsərrüfat əlaqələrinin pozulması, daxildə gedən siyasi mübarizə 1920-ci ildə bu ölkələrin inkişafının səciyyəvi xüsusiyyətləri idi. İqtisadi çətinliklərdən çıxmaq üçün Gürcüstan və Ermənistan sabit yanacaq təminatına ehtiyac duyurdular. 1920-ci ilin aprelindən sonra həm Tiflis, həm də İrəvan Bakı neftinin alınması məqsədilə Azərbaycan SSR hökuməti ilə münasibətlərin qurulmasına çalışırdılar. Bu işdə ermənilər daha fəal idilər. Artıq aprelin 30-da xarici işlər naziri A.Oqandjanyan Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəsi Arutyunova aşağıdakı məzmunda teleqram göndərmişdir: "…Devrilmiş Azərbaycan Cümhuriyyətinin hökuməti siyasi səbəblərdən neft məhsullarının Ermənistana daşınmasını əngəlləyirdi. Azərbaycanda əsl demokratik quruluşun bərqərar olmasından sonra Ermənistan hökuməti əmindir ki, gələcəkdə neftin daşınmasına mane olan bütün əngəllər dəf ediləcək. Hökumət bu məsələnin təcili həll olunması üçün Sizi müvəkkil edir ki, Azərbaycanın yeni hökuməti ilə dərhal danışıqlara girəsiniz."[353] Əslində A.Oqandjanyanın "siyasi" adlandırdığı səbəb Ermənistanın Azərbaycana qarşı təcavüzü idi ki, məhz buna görə Cümhuriyyət hökuməti neftin Ermənistana daşınmasını dayandırmışdır. Məsələn, 1919-cu ilin iyununda Azərbaycan Cümhuriyyətinin Ermənistan Respublikasındakı diplomatik nümayəndəsi M.Təkinski Xarici İşlər Nazirliyinə göndərdiyi teleqramda yazırdı ki, Ermənistanın dəmir yolları üçün mazut göndərilməsi dayandırılmalıdır, çünki ermənilər Naxçıvanda təxribatlar törətməyə hazırlaşır.[354] Baş nazir N.Yusifbəyliyə ünvanladığı başqa bir teleqramda isə M.Təkinski bildirirdi:

[353] ARDA: f. 28, siy. 1, iş 99, v. 20.

[354] Азербайджанская Демократическая Республика. Архивные документы Великобритании, с. 232.

"Ermənilər müsəlman kəndlilərini öz kəndlərinə buraxmayana və müsəlmanlardan icarəyə götürdükləri torpaqları geri qaytarmayana qədər onlara bir litr də olsun ağ neft və ya mazut almağa imkan verməyin."[355]

Diqqət çəkən məqamlardan biri də A.Oqandjanyanın riyakarcasına bolşevik rejimini "əsl demokratik quruluş" adlandırması idi. Ermənilərin bu cür davranışı təsadüfi deyil. Ermənistan yanacağa kəskin ehtiyac duyurdu və Bakı neftini almaq üçün ciddi səylər göstərirdi. Sovet Rusiyası isə Azərbaycanın kommunist rəhbərliyinin əli ilə bu amildən öz maraqları üçün istifadə edirdi. Belə ki, 1920-ci ilin yayında Azərbaycan SSR hökumətinin başçısı N.Nərimanov bir özəl erməni cəmiyyətindən 4 yeni yük maşınının 16,38 ton ağ neftə, 16,38 ton benzinə və 32,76 ton neftə dəyişdirilməsi haqqında təklif almışdır. Lakin bu təklif rədd edilmişdir. Bununla əlaqədar N.Nərimanov yazırdı: "Hesab edirəm ki, başqa məsələlərlə yanaşı biz neft məsələsində də Ermənistana böyük təzyiq göstərə bilərik."[356]

1920-ci ilin noyabrında Ermənistanda sovet hakimiyyəti quruldu. Ermənistan İnqilab Komitəsinin 29 noyabr 1920-ci il tarixli bəyannaməsində belə bir əminlik ifadə olunurdu ki, "mazutun olmaması səbəbindən dayanan Ermənistan dəmir yolları Azərbaycan sovet nefti hesabına yenidən işə düşəcək və azad olmuş Ermənistanın bütün ərazisində əlaqələr yenidən canlanacaq."[357] Ermənistanda sovet hakimiyyəti qurulandan sonra Azərbaycandan oraya sistematik olaraq yanacaq daşınmağa başladı. Bakı Sovetinin məşhur 1 dekabr 1920-ci il ta-

[355] Азербайджанская Демократическая Республика. Архивные документы Великобритании, с. 233.
[356] ARPİİSSA: f. 609, siy. 1, iş 21, v. 44.
[357] Великая Октябрьская социалистическая революция и победа Советской власти в Армении. Сборник документов / Под ред. А.Н.Мнацаканяна. Ереван, 1957, с. 291.

rixli bəyanatında deyilirdi: "Sovet Azərbaycanı sahib olduğu tükənməz sərvətlərini – nefti, ağ nefti və digər məhsulları Sovet Ermənistanının üzünə açır."[358] 1920-ci il dekabrın 17-də Bakıdan Ermənistana 40 vaqondan ibarət qatar yola salınmış, bunlardan 35 vaqonda çörək məhsulları, 5 vaqonda isə ağ neft göndərilmişdi.[359] Dekabrda Azərbaycan Müvəqqəti İnqilab Komitəsi Ermənistana daha 48 sistern neft göndərmişdir.[360] 1921-ci ilin iyununda Azərbaycan SSR AİŞ-in Rəyasət Heyəti Ermənistana 40 vaqon ağ neftin, 30 vaqon mazutun göndərilməsi haqqında sərəncam vermişdir.[361] Bütün bunlar Ermənistanda bolşevik rejiminin möhkəmlənməsi üçün edilirdi. N.Nərimanov deyirdi: "Ermənistan Respublikası bizdən tam asılıdır, çünki hər şeyi Sovet Azərbaycanından alacaq."[362]

İlk vaxtlarda neft Ermənistana pulsuz daşınırdı və bütün səylərə baxmayaraq, ölkədə yanacaq qıtlığını aradan qaldırmaq mümkün olmurdu. 1921-ci ilin iyununda Ermənistan SSR XKS sədri A.Myasnikov 1921-ci ilin iyununda göndərilən neft məhsullarına əlavə olaraq daha 5 sistern benzinin göndərilməsini xahiş etmişdi. Bununla əlaqədar Ermənistan SSR-in Azərbaycan SSR-də nümayəndəsi İ.Dovlatyan "Azneft"dən xahiş edirdi: "Ermənistanda neft məhsulları ilə bağlı yaşanan kəskin böhranla əlaqədar olaraq... ağ neftin, neftin və benzinin təcili şəkildə, növbədənkənar qaydada göndərilməsinə dair sərəncam vermənizi xahiş edirik."[363] 1922-ci il yanvarın 24-də A.Serebrovski ilə A.Myasnikov arasında imzala-

[358] Коммунист, 2 декабря 1920г.

[359] Гассиев И.К. Братская взаимопомощь народов Закавказья и Дагестана в строительстве социализма / Азербайджан архиви, 1969, №1, с. 36.

[360] История Азербайджана: Т.3, ч.1, с. 264.

[361] ARDA: f. 1610, siy. 11, iş 26, v. 4.

[362] Нариманов Н.Н. Избранные произведения: Т.2, с. 499.

[363] ARDA: f. 1610, siy. 11, iş 26, v. 6.

nan müqaviləyə görə, növbəti il mayın 1-nə qədər "Azneft" hər ay Ermənistana 1638 tonadək neft məhsulları ayırmalı idi. Bunun əvəzində Ermənistan hökuməti "Azneft"ə pul ödəməli, həmçinin kolçedan, çaxır və konyak göndərməli idi.[364]

Azərbaycandan Ermənistana neft daşımalarının statistik göstəriciləri aşağıdakı kimi idi: 1920-ci ilin sentyabrından dekabrınadək – 273,2, 1921-ci il ərzində – 2367, 1922-ci ilin yanvarından mayınadək – 972 ton.[365]

RSFSR-in Cənubi Qafqaz siyasətinin mühüm istiqamətlərindən biri də Gürcüstan idi. Rusiyanın Bakı nefti ilə manipulyasiya etməsi bu ölkənin timsalında özünü daha qabarıq göstərirdi. 1920-ci il aprel işğalından sonra Azərbaycan SSR ilə Gürcüstan Respublikası arasında iqtisadi əlaqələr kəsildi. Doğrudur, Bakı-Batumi ağ neft kəməri 1920-ci ilin aprelinə qədər işləyirdi və bunun hesabına Gürcüstan öz ehtiyaclarını təmin edirdi. Lakin tezliklə həmin ehtiyatlar tükəndi və neftə kəskin tələbat hiss olunmağa başladı. İqtisadi problemlər Gürcüstandakı siyasi böhranı daha da gərginləşdirirdi. Gürcüstandakı vəziyyəti şərh edən İ.Stalin 1920-ci il noyabrın 30-da "Pravda" qəzetinin əməkdaşı ilə söhbəti zamanı demişdir: "Gürcüstanın dəhşətli təsərrüfat və ərzaq vəziyyəti hətta indiki hökumət rəhbərləri tərəfindən qəbul edilən faktdır. Antantanın toruna düşən və buna görə həm Bakı neftindən, həm də Kuban çörəyindən məhrum olan, İngiltərənin və Fransanın imperialist əməliyyatlarının əsas bazasına çevrilən, buna görə də Sovet Rusiyası ilə düşmən münasibətlərdə olan Gürcüstan indi ömrünün son günlərini yaşayır."[366]

Belə bir şəraitdə Rusiya diplomatik manevrlərə əl atmağa başladı. Azərbaycandan istifadə edən Rusiya 1920-ci ilin iyu-

---

364 ARDA: f. 1610, siy. 11, iş 26, v. 12.

365 ARDA: f. 1610, siy. 13, iş 213, vv. 98-99.

366 Ментешашвили А. Göst. əsəri.

nunda Bakı ilə Tiflis arasında sazişin imzalanmasına nail oldu. Həmin sazişə əsasən iki ölkə arasında ticarət-tranzit müqaviləsi imzalanana qədər Azərbaycan Gürcüstana 16380 ton neft verməli idi.[367] Müqaviləni isə sazişin imzalanmasından sonra bir ay müddətində bağlamaq nəzərdə tutulurdu. Lakin sovet hökuməti hər vəchlə ticarət müqaviləsinin imzalanmasını əngəlləməyə çalışırdı. AK(b)P MK-nın Bürosunun 15 iyul 1920-ci il tarixli iclasında Gürcüstanla ticarət müqaviləsini imzalamamaq və bu prosesi ləngitmək haqqında qərar qəbul olunmuşdur. Bu qərar Gürcüstanda kommunistlərə qarşı repressiyaların aparılması ilə əsaslandırılırdı. Digər səbəb kimi isə Azərbaycanın Rusiya ilə vahid iqtisadi siyasətinin olması və buna görə neftlə bağlı məsələlərin birgə həll edilməsi zəruriliyi göstərilirdi.[368] Maraqlıdır ki, hüquqi cəhətdən Azərbaycanla Rusiya arasında hələ heç bir ümumi siyasət olmadığı halda Azərbaycanın bolşevik rəhbərliyi buna istinad edirdi. Bu bir daha sübut edir ki, Azərbaycan tamamilə Moskvanın iradəsinə tabe idi, mərkəzin maraqları isə Gürcüstandakı yanacaq böhranından istifadə edib Tiflisə daim təzyiq göstərməyi və oradakı sabitliyi pozmağı tələb edirdi. Buna misal kimi RSFSR XXİK-dən 1920-ci il sentyabrın 15-də N.Nərimanova göndərilən məktubu göstərmək olar. Məktubda bildirilirdi ki, Gürcüstana siyasi təzyiq göstərmək üçün neft böhranından istifadə etmək vacibdir.[369]

Eyni zamanda, Rusiya həddindən artıq sərt siyasətin mənfi nəticələr verəcəyindən narahat olub Gürcüstanla ehtiyatla davranırdı. 1920-ci il oktyabrın 5-də İ.Stalin V.Leninə məlumat verirdi ki, Gürcüstan Millətlər Cəmiyyətinə daxil olub və Batuminin Antantaya keçməsi mümkündür. Bununla əlaqədar

367 ARDA: f. 28, siy. 1, iş 55, v. 7.
368 ARPİİSSA: f. 1, siy. 1, iş 18, v. 13.
369 ARPİİSSA: f. 609, siy. 1, iş 195,

İ.Stalin təklif edirdi: “Vaxt udmaq məqsədilə Gürcüstan hökuməti daxilində ziddiyyətləri gücləndirmək və tərəddüdləri uzatmaq üçün Gürcüstana az miqdarda neft vermək lazımdır.”[370] İ.Stalinin təklifi müsbət qarşılandı. 1920-ci ilin oktyabrında Moskvada keçirilən məxfi müşavirədə Gürcüstana neftin göndərilməsi məsələsi müzakirə olundu. Müşavirədə qeyd edildiyi kimi, hal-hazırda Gürcüstanda iki siyasi cərəyan var: 1) Antanta ilə ittifaq tərəfdarları və 2) bitərəflik tərəfdarları. Birincilərin üstünlük qazanmaması üçün Gürcüstana neft vermək və bunun hesabına ən azından ölkənin bitərəfliyinə nail olmaq qərara alındı. İclasda çıxış edən RSFSR-in Gürcüstandakı səlahiyyətli nümayəndəsi A.Şeynman bildirdi: “...Gürcüstanın iqtisadi vəziyyətini nəzərə alaraq deməliyik ki, Gürcüstan heç vaxt əmtəə mübadiləsi prinsipi əsasında ona göndərilən neftin əvəzini ödəyə bilməyəcək. Başqa sözlə desək, sovet hakimiyyəti sadəcə olaraq Gürcüstanı saxlamalı, ona lazım olan qədər nefti sözün əsl mənasında pulsuz verməlidir. Bizi bu məsələnin yalnız siyasi tərəfi maraqlandırmalıdır...”[371]

1920-ci il noyabrın 14-də RSFSR, Azərbaycan SSR və Gürcüstan Respublikası arasında ticarət-tranzit sazişi imzalanmışdır (göründüyü kimi, müqavilənin imzalanması baş tutmamışdır). Azərbaycan hər ay Gürcüstana 12285 ton neft məhsulları verməli və tədricən bu rəqəmi 16380 tona qədər çatdırmalı idi. Gürcüstan isə aldığı neft məhsulları əvəzində Azərbaycana daş kömür, ağac və başqa məhsullar göndərməli idi.[372] İmzalanan rəsmi sənədlər Rusiyanın əsl məqsədlərini pərdələməyə və Gürcüstan hökumətini Rusiyanın işğalçı niyyətlərinin olmamasına inandırmağa yönəlmişdir. Lakin 14 noyabr sazişindən sonra sovet hökuməti mütəmadi olaraq nef-

---

[370] ARPİİSSA: surət fondu, iş 401.
[371] ARPİİSSA: f. 609, siy. 1, iş 36a, vv. 21-22.
[372] ARDA: f. 28, siy. 1, iş 55, v. 54.

tin göndərilməsini dayandırır və bunu Gürcüstanda kommunistlərə qarşı repressiyalarla izah edirdi. 1920-ci il dekabrın 9-da RSFSR hökuməti A.Şeynmana bildirirdi ki, Tiflis hökumətinin RSFSR ilə Gürcüstan arasındakı müqavilələrə uyğun gəlməyən son hərəkətlərinə görə Gürcüstana neftin göndərilməməsi haqqında qərar qəbul olunub. Həmin hərəkətlər bunlar idi: 1) Gürcüstan limanlarında saxlanılan Rusiya gəmilərinin sovet hökumətinə təhvil verilməsinin yubadılması; 2) verdiyi vədlərə baxmayaraq, Gürcüstan hökuməti RSFSR və Azərbaycan SSR ərazisindən Ermənistana maneəsiz tranzitin həyata keçirilməsi üçün heç bir real addım atmır, bu da Ermənistanın zəhmətkeş kütlələrinə vaxtı-vaxtında ərzaq, yanacaq və digər köməyin göstərilməsinə mane olur; 3) Gürcüstan hökuməti yenidən Kommunist partiyasının üzvlərinə qarşı kütləvi təqiblərə və represiyalara başlayıb və s.[373]

1921-ci ilin fevralında milli hökumət devriləndən sonra Gürcüstanda sovet hakimiyyəti quruldu. Bundan sonra Cənubi Qafqaz tamamilə Rusiyanın əlinə keçdi. Gürcüstandakı yeni hakimiyyətin möhkəmlənməsinə kömək etmək üçün Bakı nefti oraya daşınmağa başladı. 1921-ci il fevralın 25-dən martın 15-dək dəmir yolu vasitəsilə 2326 ton neft və 25,6 ton ağ neft göndərilmişdir.[374] 1921-ci ilin martından həmin ilin sonunadək 21355 ton, 1922-ci ildə (iyunadək) isə 9335 ton neft daşınmışdır.[375] 1921-ci il martın 14-də Bakı-Tiflis-Batumi neft kəməri açıldı və iyunda kəmər vasitəsilə Gürcüstana 2457 ton neft məhsulları, Ermənistana isə 70 sistern neft və ağ neft göndərilmişdir.[376] Neft Rusiyanın dünya inqilabını həyata keçirmək məqsədinə xidmət edirdi. Azərbaycanın maraqları ilə isə heç

---

[373] Ментешашвили А. Göst. əsəri.

[374] Гассиев И.К. Göst. əsəri, s. 40.

[375] ARDA: f. 1610, siy. 13, iş 213, vv. 97-98.

[376] Гассиев И.К. Göst. əsəri, s. 40.

kim hesablaşmırdı. Rusiyaya olduğu kimi, Ermənistana və Gürcüstana da neft təmənnasız göndərilirdi. Yalnız 1922-ci ildə – "Azneft"ə nisbi ticarət müstəqilliyi verildikdən sonra trestin Cənubi Qafqaz respublikaları ilə qarşılıqlı münasibətləri xüsusi razılaşmalarla tənzimlənməyə başladı. Belə ki, 1922-ci il yanvarın 25-də Tiflisdə "Azneft" ilə Gürcüstan SSR XTŞ arasında imzalanan müqaviləyə əsasən, trest hər ay 2620 ton neft, 2375 ton ağ neft, 65,52 ton maşın yağı, 32,76 ton silindr yağı, 81,9 ton benzin və digər neft məhsullarını Gürcüstana göndərməli idi. Gürcüstan tərəfi isə məhsulların 50 %-nə qədərini Rusiya rublu ilə, qalan hissəni isə mallarla və ya pulla ödəmək öhdəliyini öz üzərinə götürürdü.[377]

Cənubi Qafqaz respublikaları üzərində tam hökmranlığını təmin etmək üçün Rusiya onların "könüllü" ittifaq adı ilə birləşdirilməsini vacib sayırdı. Hələ Ermənistanın və Gürcüstanın sovetləşməsinə qədər Sovet Rusiyası Azərbaycan SSR ilə siyasi və iqtisadi həyatın bəzi sahələrinin birləşdirilməsini nəzərdə tutan müqavilələr imzalamışdır. Nəticədə Azərbaycan bir çox məsələlərdə, o cümlədən, iqtisadi və ticarət sahəsində müstəqilliyini itirdi. Özünün iqtisadi zəifliyi səbəbindən Ermənistana və Gürcüstana potensial yardım etmək iqtidarında olmayan Moskva həmin respublikalarda sosial-iqtisadi bərpanı Azərbaycanın təbii sərvətləri hesabına aparırdı. Təsadüfi deyil ki, Qafqaz komsomolunun müşavirəsində G.Orconikidze demişdir: "Hamıya məlumdur ki, Tiflisdə əsas dəmir yolu emalatxanaları, Bakıda yanacaq var, Ermənistanda bunların heç biri yoxdur... Yadda saxlamaq vacibdir ki, Tiflis emalatxanaları Bakı nefti olmadan mövcud ola bilməzlər, Bakı Tiflis emalatxanaları olmadan nəqliyyatı qura bilməz; Ermənistan Azərbaycanın və Gürcüstanın köməyi olmadan mövcud ola bilməz."[378]

---

[377] ARDA: f. 1610, siy. 16, iş 202, v. 1.

[378] Орджоникидзе Г.К. Статьи и речи: Т.1. Москва, 1956, с. 188-189.

1921-ci il aprelin 9-da V.Lenin Cənubi Qafqaz respublikalarının rəhbərləri qarşısında regionda vahid təsərrüfat orqanının yaradılması məsələsini qoymuşdur. O, bunu G.Orconikidzenin adına göndərdiyi teleqramda bildirirdi. Bir qədər sonra çıxışların birində V.Lenin demişdir ki, Azərbaycan neft hasil edir, neft Gürcüstan ərazisindən Batumi vasitəsilə ötürülür, "deməli, vahid təsərrüfat mərkəzi olacaqdır."[379] Bakıya gələn G.Orconikidze V.Leninin teleqramını alan kimi dərhal AK(b)P MK-nın plenumunu çağırdı. O, respublikalarda iqtisadiyyatın bərpasının xaotik aparıldığını səbəb göstərərək, Cənubi Qafqazın təkcə siyasi deyil, həmçinin iqtisadi cəhətdən birləşdirilməsinin zəruriliyini qeyd etdi. G.Orconikidze etiraf etməyə məcbur olmuşdu ki, respublikaların xarici ticarət qurumları xarici bazarlarda bir-biri ilə rəqabət aparır, lakin valyuta qismində Ermənistana və Gürcüstana pulsuz göndərilən Bakı nefti çıxış edirdi. G.Orconikidze həmçinin qeyd etmişdir ki, Azərbaycan və Gürcüstan zəif və heç nəyi olmayan Ermənistanın təminatnı öz üzərlərinə götürməli olacaqlar.[380]

G.Orconikidzenin çıxışı Azərbaycan kommunistlərindən Əliheydər Qarayev və Həmid Sultanov tərəfindən birmənalı qarşılanmamışdır. Ə.Qarayev Bakı neftindən valyuta kimi istifadə edən Gürcüstanın və Ermənistanın Azərbaycanla rəqabət aparması faktını qeyri-normal hesab edərək, respublikaların xarici ticarət qurumlarının müstəqilliyini saxlamağı təklif etdi. H.Sultanovun fikrincə isə, birləşmə nəticəsində bir respublikanın iqtisadi problemləri digər respublikaya ziyan vurulması hesabına həll ediləcək. Bu çıxışlara cavab olaraq G.Orconikidze etiraf etməyə məcbur olmuşdur ki, "azərbaycanlı yoldaşlar Sultanovun qaldırdığı məsələni örtülü saxlayırdılar. Əgər

---

379 Азизбекова П.А. Göst. əsəri, s. 179.

380 Хармандарян С.В. В.И.Ленин и становление Закавказской федерации. 1921-1923 гг. Ереван, 1969, с. 128-129.

məsələ sırf eqoistcəsinə qoyulursa, onda açıq demək lazımdır ki, ən çox Azərbaycan "incik" vəziyyətdə olacaq, Ermənistan isə tamamilə "inciməyəcək". Əgər məsələ sovetcəsinə qoyulursa, hansınız burada cürət tapıb deyərsiniz ki, İrəvanda yox, burada – Bakıda çıxarılan neftdən əldə etdiyimizin hamısı bizimdir və erməni yoldaşlara yardımdan imtina olunmalıdır. Burada məsələni belə qoymaq lazımdır: biz özümüzün ac-yalavac payımızdan Sovet Ermənistanına kömək edəcəyikmi, bərabərhüquqlu yoldaşlarımız kimi onlara nə isə verəcəyikmi yoxsa deyəcəyik: əgər səndə yoxdursa, onda ac qal."[381]

Cənubi Qafqaz respublikalarının birləşmə prosesində Sovet Rusiyası xarici ticarətin birləşdirilməsi məsələsinə xüsusi diqqət ayırırdı. V.Lenin öz məktublarında və çıxışlarında yerli rəhbər işçilərə bu məsələni tənzimləməyi tövsiyə edirdi. V.Leninin təsəvvüründə tənzimləmə xarici ticarət sahəsində fəaliyyətin vahid vilayət orqanı çərçivəsində birləşdirilməsini nəzərdə tuturdu. Məsələn, Cənubi Qafqaz respublikalarının xarici firmalarla ticarət müqavilələri imzalaması ilə əlaqədar G.Orconikidzeyə yazdığı məktubda V.Lenin xarici ticarətə kimin rəhbərlik etdiyini və Azərbaycanın, Gürcüstanın, Ermənistanın bu sahədə birləşib-birləşmədiyini soruşurdu.[382]

1921-ci il aprelin 26-da keçirilən müşavirədə Azərbaycan, Gürcüstan və Ermənistan xarici ticarət orqanlarının birləşdirilməsi haqqında qərar qəbul olundu,[383] iyunun 2-də isə müvafiq saziş imzalandı.[384] Həmin saziş faktiki olaraq Gürcüstanla Ermənistanı Bakı neftinin xarici bazarlarda satışından əldə olunan gəlirlərin istifadəçilərinə çevirirdi. Digər tərəfdən, sazişə

---

381 Хармандарян С.В. Göst. əsəri, s. 131.

382 Азизбекова П.А. Göst. əsəri, s. 180.

383 ARDA: f. 28, siy. 1, iş 125, v. 80.

384 Qasımov M.C. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər). Bakı, 1998, s. 45.

əsasən bütün ixrac-idxal əməliyyatlarının mərkəzləşdirilməsi Azərbaycanın xarici bazarlarda neft məhsulları ilə sərbəst ticarət etmək səlahiyyətlərini məhdudlaşdırırdı.[385] 1921-ci il avqustun 7-də RSFSR, Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR arasında sazişin imzalanması ilə Azərbaycan xarici ticarət sahəsində müstəqilliyini tamamilə itirdi. Sazişə əsasən, Cənubi Qafqaz respublikaları xarici dövlətlərlə ticarət müqavilələrini yalnız Rusiyanın razılığı ilə imzalaya bilərdilər.[386] 1922-ci ilin yanvarında Gürcüstan SSR və Ermənistan SSR özlərinin neft və neft məhsulları ilə təchizatı haqqında Azərbaycan SSR ilə müqavilə imzaladılar. Müqaviləyə görə, Azərbaycan hər ay Gürcüstana 3718 ton, Ermənistana isə 1638 tondan artıq neft məhsulları verməli idi.[387]

Beləliklə, iqtisadi imkanları qeyri-bərabər olan Cənubi Qafqazın üç respublikası təbii sərvətlərdən gələn gəlirlərin bölüşdürülməsində süni şəkildə bərabərləşdirildilər. N.Nərimanov 1922-ci ilin dekabrında Cənubi Qafqaz Federasiyası haqqında yazdığı xüsusi rəy-məktubda bununla bağlı qeyd edirdi ki, Cənubi Qafqaz respublikalarının birləşdirilməsi zamanı "a) hər respublikanın müstəqilliyini saxlamaq, yəni onların ali dövlət orqanlarını (MİK və XKS) simasızlaşdırmamaq; b) hər respublikaya sənaye sahəsində sərbəstliyi inkişaf etdirməyə imkan yaratmaq; c) bir respublikaya maddi ziyan vuran, digərinə isə xeyir gətirən məsələlərin həllində tələskənliyə yol verməmək" lazımdır.[388]

Cənubi Qafqaz respublikalarının birləşdirilməsi 1922-ci ildə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının yaradılması və daha sonra onların SSRİ tərkibinə daxil olması

---

385 ARPİİSSA: f. 1, siy. 2, iş 24, v. 4; f. 609, siy. 1, iş 32, v. 20.

386 Qasımov M.C. Göst. əsəri, s. 116.

387 Гассиев И.К. Göst. əsəri, s. 41.

388 ARPİİSSA: f. 609, siy. 1, iş 106, v. 1.

ilə başa çatdı. Bununla da Azərbaycanın, Gürcüstanın və Ermənistanın formal müstəqilliyinə son qoyuldu.

Beləliklə, Sovet Rusiyası Cənubi Qafqazda sovet hakimiyyətini qurarkən Bakı neftindən istifadə edir, Gürcüstana və Ermənistana təzyiq göstərmək üçün neft amilini işə salırdı. Bakı nefti həmçinin Moskvanın Cənubi Qafqaz respublikalarının federasiya şəklində birləşdirilməsi işində də mühüm rol oynayırdı. Bu birləşmə müxtəlif sahələrdə getsə də, iqtisadi sahə xüsusi önəm daşıyırdı və burada Azərbaycanın təbii sərvəti həm Gürcüstanın və Ermənistanın iqtisadiyyatının bərpasında, həm də Cənubi Qafqaz federasiyasının infrastrukturunun yaradılmasında mühüm rol oynayırdı.

# VII.

# BAKI NEFTİ YENİDƏN DÜNYA BAZARLARINA ÇIXARILIR

1917-ci il oktyabr çevrilişindən sonra Qərb dövlətləri Sovet Rusiyasını iqtisadi və siyasi blokadada saxlamaqla, bolşevik hökumətinə qarşı hərbi müdaxilə də təşkil etmişdilər. Lakin 1920-ci ilin əvvəllərində Antantanın hərbi əməliyyatları uğursuzluğa düçar oldu, Rusiyanı təcridetmə siyasəti də heç bir nəticə vermədi. Antanta ölkələri anladılar ki, iqtisadi blokada onlara da ciddi ziyan vurur və Rusiya kimi nəhəng ölkənin dünya iqtisadi məkanından qopması Qərbi zəngin xammal mənbəyindən və satış bazarından məhrum edir. Məhz buna görə Qərb siyasətçilərinin bir çoxu Sovet Rusiyasına qarşı blokada və təcrid siyasətinə son qoyulması çağırışları ilə çıxış etməyə başladılar. Artıq 1919-cu ilin noyabrında Böyük Britaniyanın baş naziri D.Lloyd-Corc parlamentdə çıxışı zamanı etiraf etmişdir ki, ölkəsi Rusiyaya qarşı hərbi müdaxiləni da-

vam etdirmək iqtidarında deyil və Britaniya hökuməti Rusiya ilə sülhün əldə edilməsinə böyük əhəmiyyət verir.[389]

1920-ci il yanvarın 16-da Rusiyaya qarşı blokadaya formal olaraq son qoyuldu və Antantanın Ali Şurası ticarət münasibətlərinin bərpa edilməsi haqqında qərar verdi. Doğrudur, qərarda bu münasibətlərin sovet hökuməti ilə deyil, "rus xalqı ilə" bərpa edildiyi bildirilirdi. Antanta ölkələrinin hökumətləri şirkətlərə və fiziki şəxslərə Sovet Rusiyasının kooperativləri və ayrı-ayrı sovet vətəndaşları ilə ticarət aparmağa icazə verdilər. Bu addımın atılmasına baxmayaraq, bolşeviklərə münasibətin birdən-birə dəyişdiyini söyləmək də doğru olmazdı, çünki 1920-ci ilin yanvarından sonra da Qərb dövlətləri sovet hökumətini devirmək planlarından əl çəkməyib, bunun üçün Polşadan və keçmiş çar generalı Vrangeldən istifadə edirdilər.

İqtisadi əlaqələrin bərpasında Rusiyanın özü də maraqlı idi. Avropa Rusiya üçün çoxəsrlik iqtisadi tərəfdaş idi və ticarət böhrandan çıxmaqda bolşeviklərə kömək edə bilərdi. Bundan başqa, ticarət əlaqələrinin qurulması yolu ilə RSFSR hökuməti müəyyən siyasi dividendlər də qazanmaq istəyirdi, məsələn, diplomatik tanınmaya nail olmaq və ölkəni tamhüquqlu beynəlxalq subyektə çevirmək. Statistik məlumatlara nəzər saldıqda görmək olar ki, bu dövrdə RSFSR-in aparıcı Qərb dövlətləri ilə xarici ticarət dövriyyəsi çox aşağı səviyyədə idi. 1918-1920-ci illərdə dövriyyə ya ümumiyyətlə sıfıra bərabər idi, ya da 11,8 mln. rubldan yuxarı qalxmırdı. Diqqət çəkən məqam ondan ibarətdir ki, xarici ticarət dövriyyəsinə yalnız idxal daxil idi, yəni Rusiyanın özü bu illər ərzində heç nə ixrac etməmişdir.[390] Əlbəttə, bu göstəricilər nə Moskvanı, nə də Qərbi qane edə bilməzdi.

---

389 Волков Ф.Д. Крах английской политики интервенции идипломатической изоляции Советского государства (1917-1924). Москва, 1954, с. 145.

390 Внешняя торговля СССР. Статистический сборник. Москва, 1967, с. 8-13.

Bakı nefti hər iki tərəf üçün iqtisadi əlaqələrin qurulmasında mühüm amillərdən biri idi. Yanacağa tələbatı olan Avropa dövlətləri Bakı nefti hesabına ABŞ-dan asılılığa son qoymaq istəyirdilər. Bu məqsədlə 1920-ci il aprelin 24-də Böyük Britaniya və Fransa San-Remoda konvensiya imzaladılar. Sənədə əsasən, keçmiş Rusiya imperiyasının, həmçinin Mesopotamiyanın, ingilis və fransız müstəmləkələrinin neftli torpaqları yalnız bu iki ölkəyə məxsus şirkətlərin maraq dairəsi elan olunurdu.[391] Bu sazişlə Böyük Britaniya və Fransa faktiki olaraq Bakı neftinə olan maraqlarını qəti şəkildə ifadə edirdilər. Lakin San-Remo konvensiyası dünyada birmənalı qarşılanmadı. ABŞ Böyük Britaniyaya öz etirazını bildirərək, onu xarici şirkətləri başqa ölkələrdə neft yataqlarının işlənilməsindən kənarlaşdırmaqda ittiham etdi. Vaşinqtonla London arasında münasibətlərdə soyuqluq yarandı. Bundan başqa, Fransa da öz mövqeyini dəyişdi. Parisdə çoxları Britaniya ilə müştərək neft siyasətindən imtina etməyi və ingilis şirkətlərindən asılı olmayan, müstəqil neft sənayesinin yaradılmasını təklif edirdilər.[392] Bütün bunlar San-Remo konvensiyasının əhəmiyyətsiz bir sənədə çevrilməsini şərtləndirdi.

1920-ci ilin aprelindən sonra Bakı neftinə yiyələnən Sovet Rusiyası “qara qızıl”dan təkcə daxili iqtisadi problemlərin həllində istifadə etmək niyyətində deyildi. Azərbaycanın təbii sərvəti ixracatda əsas yerlərdən birini tutmalı və siyasi dividendlərin əldə olunması üçün vasitəyə çevrilməli idi. Neft ticarətinin hansı gəlirlər gətirdiyini təsəvvür etmək üçün rəqəmlərə diqqət yetirmək kifayətdir. Əgər 1913-cü ildə Rusiyadan 175,8 mln. rubl dəyərində neft və sintetik duru yanacaq daşınmışdırsa, 1918-ci ildə bu rəqəm 331 min, 1919-cu ildə 3 min, 1920-ci ildə 38 min rubl təşkil etmişdir.[393] Göründüyü kimi,

[391] Делези Ф. Нефть. Москва, 1923, с. 79-80.

[392] Арнот П. Göst. əsəri, s. 55-57.

[393] Внешняя торговля СССР за 1918-1940 гг. Статистический сборник. Москва, 1960, с. 45.

fərq həddindən artıq böyük idi. Bununla belə, nəzərə almaq lazımdır ki, Bakının Rusiyanın nəzarətində olduğu 1918-ci ildə (avqusta qədər) və 1920-ci ildə (apreldən sonra) RSFSR nefti yalnız iki ölkəyə – Finlandiyaya və İsveçə ixrac edirdi. Avropanın əsas bazarlarına isə çıxış bağlı idi.

Müxtəlif ölkələrin biznes və siyasi dairələrinin Bakı neftinə maraq göstərməsindən istifadə edən Rusiya bununla həm dövlətlər, həm də iri şirkətlər arasında ziddiyyətlərin qızışdırılmasına çalışırdı. Məsələn, RSFSR-in Böyük Britaniyada ticarət nümayəndəsi L.Krasin 1920-ci il mayın 29-da xalq xarici işlər komissarı G.Çiçerinə məlumat verirdi ki, ABŞ-ın "Standard oyl" şirkəti Batumi vasitəsilə Bakıdan benzinin, ağ neftin və paroxodlar üçün yanacağın alınması ilə maraqlanır. L.Krasin bunun əvəzində ABŞ-ın Cənubi Qafqaz dəmir yolunun bərpasında yardım göstərməsini, çatışmayan sisternlər, parovozlar göndərməsini və Rusiya ilə müharibə aparan Polşaya yardım etməməsini şərt kimi irəli sürürdü. Daha sonra L.Krasin yazırdı: "Hesab edirəm ki, bu danışıqlar ciddi əhəmiyyət daşıyır, çünki "Standard oyl" açıq-aşkar bu məsələdə İngiltərəyə pislik etmək niyyətindədir."[394] 1920-ci ilin iyununda L.Krasin İtaliyanın da Rusiya ilə ticarət əlaqələrini bərpa etmək və neft almaq niyyətində olduğunu G.Çiçerinə bildirirdi.[395]

Sovet Rusiyasının xarici iqtisadi əlaqələrdə Bakı nefti amilindən istifadə etmək cəhdləri aprel işğalından sonra mühacirətdə qalmağa məcbur olmuş Cümhuriyyətin Paris konfransında nümayəndə heyətinin rəhbəri Ə.Topşubaşovun kəskin reaksiyasına səbəb olmuşdur. 1920-ci il iyunun 30-da Ə.Topçubaşov L.Krasinin Rusiyanın Qərb ölkələrinə olan borclarının Bakı neftiin həmin ölkələrə konsessiyaya verilə biləcəyi ilə ödənilməsi barədə bəyanatına qarşı Versal Ali Şurasının

---

[394] Документы внешней политики СССР: Т.2, с. 552.
[395] Документы внешней политики СССР: Т.2, с. 569.

sədrinə etiraz notası göndərmişdir. Bir gün sonra o, bu məzmunda bir etiraz notasını da Versal konfransının Ali İqtisadi Şurasının sədrinə də təqdim edib bildirdi ki, L.Krasinin Bakı nefti haqqında danışmaq və Azərbaycanın təbii sərvətlərini kimlərəsə vəd etmək səlahiyyəti yoxdur. Ə.Topçubaşov Rusiyanın borclarını Bakı neftinin Qərb şirkətlərinə konsessiyaya verilməsi hesabına ödənilməsinə mühacirətdə olan Azərbaycan hökuməti adından qəti etirazını bildirdi.[396]

Bakı neftinin xarici bazarlarda satışını Moskva dərhal öz nəzarətinə götürmüşdür. "Azneft"in xaricdə sərbəst fəaliyyəti sıfıra endirilmişdir, halbuki neft ticarəti sənayenin dirçəlməsi üçün əlavə stimul ola bilərdi. Lakin mərkəz buna getmədi və neft ticarətindən əldə olunan gəlirin 60 %-nin Azərbaycana ayrılması ilə kifayətləndi. Əslində isə bu məbləğ də Azərbaycana ödənilmirdi və formal xarakter daşıyırdı.[397] Yalnız xeyli müddət keçəndən sonra Moskva "Azneft"in xarici bazarlarda ticarət aparmasına qismən icazə verdi, lakin bu zaman da trestin fəaliyyətinə maneələr yaradılırdı. "Azneft"in xarici bazarlarda sərbəst ticarət hüququ haqqında məsələ Bakı ilə Moskva arasında uzun sürən müzakirələrin və yazışmaların predmeti olmuşdur. Mərkəzə göndərilən teleqramların birində qeyd olunurdu: "...pul ödənmədiyi üçün fəhlələr mədənlərdə işləmir, nizam-intizam, əmək məhsuldarlığı aşağı düşüb, hasilat sutkada 500 minə qədər azalıb. Təcili olaraq neft ticarətindən əldə edilən gəlirin Azərbaycana ödənilməsi və fəhlələrlə hesablaşma aparmaq üçün dərhal Bakıya 127 mlrd. rubl göndərilməsi barədə sərəncam verin. Vəziyyəti düzəltmək üçün hələ vaxt var, lakin bir azdan artıq gec olacaq."[398]

---

396 Həsənli C.P. Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov. Bakı, 2013, s. 455-456.

397 ARDA: f. 1610, siy. 13, iş 117, v. 66.

398 ARDA: f. 1610, siy. 1, iş 75, v. 45.

1920-ci il iyunun 30-da Moskvada Fransanın "İmport-Eksport" cəmiyyətinin Ümumrusiya İstehlakçılar Cəmiyyətləri İttifaqı ilə imzaladığı müqaviləyə əsasən, Bakı-Batumi ağ neft kəməri ilə ötürülən neft məhsullarının 50 %-i əvəzində fransızlar 50-100 mln. frank dəyərində malların (taxıl, un, dərman, kənd təsərrüfatı maşınları və s.) çatdırılması öhdəliyini öz üzərlərinə götürürdülər.[399] Bu müqavilə Rusiyanın Bakı neftinin Avropa dövlətlərinə satışına dair imzaladığı ilk rəsmi sənəd idi.

Neft ticarətində inhisarını hüquqi cəhətdən rəsmiləşdirmək üçün RSFSR özünün və Azərbaycan SSR-in xarici ticarət orqanlarının birləşdirilməsini həyata keçirdi. Bu addımın atılmasının səbəblərindən biri də Azərbaycan SSR Müvəqqəti İnqilab Komitəsinin xarici ticarət haqqında dekretinin mövcud olması idi. Həmin dekretə görə, Azərbaycan SSR Xalq Xarici Ticarət Komissarlığına (XXTK) xarici dövlətlərlə, qurumlarla, müəssisələrlə ticarət aparmaq sahəsində müstəsna hüquq verilmişdir. Heç bir qurum komissarlığın əvvəlcədən razılığı və icazəsi olmadan Azərbaycana mal gətirilməsi və daşınması üzrə əməliyyatlar apara bilməzdi.[400] Belə bir vəziyyət, sözsüz ki, Moskvanı qane etmirdi və yerli xarici ticarət orqanlarını nəzarət altına almaq lazım idi. Azərbaycan SSR XTŞ-in Rəyasət Heyətinin 10 iyul 1920-ci il tarixli iclasında xarici ticarət sahəsində fəaliyyətin RSFSR Xalq Xarici Ticarət Komissarlığının nümayəndəliyi ilə razılaşdırılması məsələsi müzakirə edilmişdir. İclasda qeyd olunmuşdur ki, XTŞ-in nümayəndəliklə sıx təmaslar qurması, Azərbaycanın isə xarici bazarlarda əmtəə mübadiləsinə dair sazişlərin bağlanması və həyata keçirilməsi zamanı nümayəndəliyin köməyindən istifadə etməsi arzuolunandır.[401] Göründüyü kimi, burada Azərbaycan və Ru-

399 ARDA: f. 28, siy. 1, iş 55, vv. 33-34.
400 ARDA: f. 28, siy. 1, iş 55, v. 28.
401 ARDA: f. 130, siy. 1, iş 56, v. 116.

siya xarici ticarət orqanları arasında yalnız qarşılıqlı əməkdaşlıqdan söhbət gedirdi. Lakin tezliklə bu ideya yerli orqanların faktiki olaraq mərkəzə tabe etdirilməsi ilə əvəzləndi. 1920-ci il avqustun 24-də Moskvada RSFSR və Azərbaycan SSR xarici ticarət komissarlıqları arasında imzalanan müqavilədə hər iki tərəfin xarici bazarlarda vahid qurum kimi çıxış etməsi, bir-birindən xəbərsiz xarici dövlətlərlə müqavilələr və sazişlər bağlamaması nəzərdə tutulurdu.[402] Maraqlıdır ki, adıçəkilən sənəd RSFSR ilə Azərbaycan SSR arasında 1920-ci ilin avqust-sentyabr aylarında Moskvada imzalanan müqavilələr arasında ilk müqavilə idi və bu, Rusiyanın Azərbaycan neftinin xarici bazarlarda satışına böyük əhəmiyyət verdiyini göstərir.

1920-ci il sentyabrın 30-da xarici ticarət məsələlərinə dair imzalanan yeni saziş Azərbaycan üçün daha böyük məhdudiyyətlər yaratmış oldu. Həmin sazişə əsasən, Azərbaycan öz xarici iqtisadi əlaqələrini RSFSR XXTK-nın müəyyənləşdirdiyi prinsiplər əsasında həyata keçirməli idi. Azərbaycan neftdən başqa bütün məhsullarını Cənubi Qafqazda, İranda və Türkiyədə sata bilərdi, lakin bütün müqavilələr və sazişlər RSFSR ilə razılaşdırılmalı idi. RSFSR XXTK-nı Azərbaycan SSR XKS-də həlledici səsə malik olan nümayəndə təmsil etməli idi.[403]

Neft ticarəti strateji əhəmiyyət daşıdığı üçün bununla bağlı olan məsələlər ən yüksək səviyyədə həll edilirdi. 1921-ci il yanvarın 24-də RSFSR AXTŞ-in Rəyasət Heyətinin iclasında ingilis-holland "Royal Datç Şell" şirkətinə Rusiyadan neft məhsullarının ixracına, həmçinin neftli torpaqların istismarına icazənin verilməsi məsələsinə baxılmış və şirkətə Bakıdan və Qroznıdan 1,6 mln. tonadək neft məhsullarını ixrac etmək hüququ verilmişdir. Bunun müqabilində "Royal Datç Şell" ixrac üçün zəruri olan nəqliyyat vasitələrini, həmçinin mədənlə-

---

[402] ARDA: f. 28, siy. 1, iş 55, v. 121.
[403] Qasımov M.C. Göst. əsəri, s. 114.

ri və neft kəmərlərini avadanlıqla təmin etməli, neft kəmərləri çəkməli idi.[404]

Gürcüstan Rusiya tərəfindən işğal ediləndən və Batumi limanı sovetlərin əlinə keçəndən sonra neft məhsullarının ixracı asanlaşdı. Bununla əlaqədar V.Lenin 1921-ci ilin aprelində A.Serebrovskiyə yazırdı: "...İndi Batumi bizdə olduğu bir zamanda xaricdə ən tez bir zamanda neft və kerosin ilə avadanlıq mübadiləsinə var-qüvvə ilə güc vermək lazımdır. Bunun üçün Bakı rayonuna müəyyən müstəqillik lazımdır. Əgər Sizdə belə bir müstəqillik yoxdursa, teleqrafla dəqiq bildirin, biz Sizə bu müstəqilliyi verərik."[405] Bu məktubda ilk dəfə olaraq "Azneft"ə tam olmasa da, xaricdə sərbəst ticarət hüququnun verilməsinin mümkünlüyü bildirilirdi. Həmin hüquq olduqca vacib idi, çünki "Azneft" pul vəsaitlərinə kəskin ehtiyac duyurdu və mərkəzin gəlirlərin 60 %-nin trestə ayrılması haqqında qərarına baxmayaraq, Moskvadan "bir qəpik də gəlmirdi".[406] Sərbəst ticarət "Azneft"ə bütün mərkəzi instansiyaların maneələrinə rast gəlmədən neft sənayesini lazımi avadanlıqla, fəhlələri isə geyim və ərzaqla fasiləsiz təmin etməyə imkan verərdi.

1921-ci il aprelin 18-də V.Lenin "Azneft"in xaricdə neft məhsullarını avadanlığa, geyimə və ərzağa dəyişmək hüququ ilə təmin edilməsi haqqında göstəriş verdi.[407] Bir gün sonra "Azneft"in sərbəst ticarət aparmaq hüququ haqqında məsələ RSFSR XKS-də müzakirə olundu və müsbət həll edildi.[408] İcazə veriləndən sonra A.Serebrovski "Corciya" gəmisi ilə İstanbula yola düşdü. O, özü ilə 125 ton maşın yağı aparırdı və

[404] ARDA: f. 28, siy. 1, iş 124, v. 13.
[405] V.İ.Lenin Azərbaycan haqqında, s. 219.
[406] ARDA: f. 1610, siy. 1, iş 98, v. 67.
[407] ARPİİSSA: f. 1, siy. 74, iş 39, v. 67.
[408] Серебровский А.П. Руководство В.И.Ленина восстановлением нефтяной промышленности. Москва, 1958, с. 12.

bu məhsulu dərhal bir fransız şirkəti 1 mlrd. rubla aldı.[409] Daha sonra İtaliyanın və başqa ölkələrin firmaları Bakıdan gələn neft məhsullarını almağa başladılar. A.Serebrovski xatırlayırdı ki, pulu qabaqcadan, məhsula baxmadan, çox güzəştli şərtlərlə verirdilər. Əldə olunan pula avadanlıq, geyim və başqa mallar alınmışdır. "Azneft"in İstanbul əməliyyatları bazarda yaranmış əlverişli vaxta təsadüf etmişdir. Bakı nefti ABŞ-ın "Standard oyl" və Böyük Britaniyanın "Şell" şirkətlərinin Avropada mübarizə apardığı bir vaxtda dünya bazarına çıxırdı. A. Serebrovski qeyd edirdi ki, "...bizimlə ticarət aparmaq istəyən və iki nəhəng trestin himayəsindən azad olmağa can atan Avropa ölkələri ilə münasibətlərdə sərbəstliyin verilməsi siyasi baxımdan çox vacibdir."[410] İstanbulda "Azneft" Türkiyənin "Hacı Paşazadə qardaşlarının ticarət evi" firması ilə müqavilə imzalamışdır. Müqaviləyə görə, İstanbula ağ neft, benzin və mineral yağlar, əvəzində isə "Azneft"in ünvanına manufaktura malları, geyim, ayaqqabılar, kağız və digər mallar göndərilməli idi.[411] A.Serebrovskinin "A.Alberti Ticarət evi" ilə imzaladığı digər müqavilə də neft məhsullarının ərzaq malları ilə mübadiləsini nəzərdə tuturdu.[412]

1921-ci il mayın 9-da İstanbulda "Azneft" Rusiya üçün Ticarət-Sənaye və Maliyyə Cəmiyyəti – "Sosifross" ilə müqavilə imzalamışdır. Razılaşmaya əsasən, trest cəmiyyətə Qərbi Avropada satmaq üçün neft məhsullarının bir hissəsini verməli, əvəzində isə "Sosifross" "Azneft" üçün texniki materiallar və avadanlıq almalı idi. "Sosifross" ilə bağlanan müqavilə Moskvanın narahatlığına səbəb oldu. Bunun iki səbəbi var idi. Belə ki, bir müddət əvvəl RSFSR hökuməti xarici firmalardan biri

[409] Бакинский рабочий, 23 мая 1921 г.
[410] ARDA: f. 1610, siy. 1, iş 364, v. 20.
[411] ARDA: f. 411, siy. 1, iş 4, vv. 49-50.
[412] ARDA: f. 1610, siy. 13, iş 213, v. 52.

ilə müqavilə bağlamış və həmin firma Rusiyaya lazımsız mallar gətirmişdir. Bu dəfə də belə bir şeyin təkrarlanacağından narahat olan V.Lenin G.Orconikidzeyə yazırdı: """Sosifross"un aldatmayacağına dair təminat haradadır? Bu cür inhisarı necə vermək olardı? (Mən heç də Azərxariciticarətin və Azneftkomun İstanbul ilə bilavasitə ticarət etməsinin əleyhinə deyiləm, mən Bakının əhəmiyyətli dairədə muxtariyyətinə yardım etməyə hazıram, amma təminat lazımdır). Xahiş edirəm ki, mənə təcili cavab verəsiniz – Serebrovskinin İstanbulda aldıqlarının hamısının dəqiq siyahısı etibarlı kuryerlə göndərilibmi?"[413]

V.Leninin etirazlarına səbəb olan ikinci amil isə ona göndərilən müqavilənin surətində "Azneft"in texniki materialları və avadanlığı "Sosifross"un xəbəri olmadan başqa firmalardan almayacağı barədə öhdəlik götürməsi, əks halda cəmiyyətə 3 % komissiya haqqı ödəməsi haqqında bəndin olması idi. Lakin A.Serebrovskinin V.Leninə göndərdiyi teleqramda bildirilirdi ki, müqavilədə belə şərtlər nəzərdə tutulmayıb.[414]

Bütün narahatlıqlara rəğmən "Azneft" "Sosifross" ilə müqavilədə nəzərdə tutulan məhsulların hamısını əldə etdi. İstanbuldan qayıtdıqdan sonra A.Serebrovski V.Lenin ilə görüşmüşdür. Onun sözlərinə görə, V.Lenin "Azneft"in xaricdə neft məhsulları ilə sərbəst ticarətini dəstəklədiyini bir daha bildirmiş və demişdir: "Siz bilirsiniz, mən, "Bakının sərbəstliyi" ilə bağlı tanığınız şəxslər tərəfindən hansı hücumları dəf edirəm, lakin mən Sizə inanıram, Sizi tanıyıram və buna görə heç nəyə fikir vermirəm."[415]

"Azneft"in xarici bazarlarda müstəqil fəaliyyətinin əleyhdarları həqiqətən çox idi. Onlar neft ticarətini mərkəzin nəzarəti altında saxlamaq istəyirdilər. Məsələn, Azərbaycan SSR

---

[413] V.İ.Lenin Azərbaycan haqqında, s. 318.
[414] V.İ.Lenin Azərbaycan haqqında, s. 318.
[415] Серебровский А.П. Göst. əsəri, s. 15.

XKS-in 1921-ci il 22 sentyabr tarixli iclasında BYİ-nin rəhbəri İ.Smilqanın A.Serebrovskiyə xaricdə neft məhsullarının satışını qadağan etməsi haqqında məsələ müzakirə olunmuşdur. Bununla bağlı qəbul edilən qərarda deyilirdi: "...neft sənayesində ərzaq təminatı ilə bağlı dəhşətli vəziyyətin mürəkkəbliyini və nəticələrini nəzərə alan Azərbaycan SSR XKS-i qərara alır: "Azneft"ə xarici bazarlarda neft məhsullarını satmağa icazə verilsin və RSFSR XKS-dən xahiş edilsin ki, Birləşmiş Xarici Ticarət Komissarlığına xarici bazarlarda fəaliyyətin "Azneft"lə əlaqələndirilməsi tövsiyə olunsun."[416] 1921-ci ilin payızında, neft mədənlərinin bərpası məsələsi xüsusilə kəskinləşdiyi bir vaxtda Azərbaycan hökuməti RSFSR xalq xarici ticarət komissarı L.Krasindən "Azneft"in xaricdə sərbəst ticarət aparmaq hüququnun saxlanılmasını xahiş etmişdir. Həmin il oktyabrın 19-da RSFSR Əmək və Müdafiə Şurası bu məsələ ilə bağlı müsbət qərar qəbul etmiş və xaricdən malların alınması üçün 500 min qızıl rubl ayırmışdır.[417]

"Azneft"in İstanbuldakı fəaliyyəti, həmçinin Danimarkanın "A.İversen və Ko" firması, İstanbul taciri Məhəmməd Eyni bəy ilə imzaladığı müqavilələr[418] Moskvada birmənalı qarşılanmamışdır. Bəzi dairərlər "Azneft"in xaricdəki fəaliyyətinə kölgə salmaq üçün müxtəlif vasitələrə əl atırdılar. Bu dairələrin mövqeyini L.Krasin də dəstəkləyirdi. A.Serebrovskiyə göndərdiyi məktubda (14 mart 1921-ci il) o, "Azneft"in İstanbulda XXTK nümayəndəliyinin başı üzərindən fəaliyyət göstərməsindən narazılığını ifadə edərək yazırdı: "Sizin Sosifrossla bağladığınız müqavilələr tamamilə qalmaqallıdır və sovet hakimiyyətini gözdən salır... İşin mühüm tərəflərindən biri də budur ki, Sosifrossun başında Sovet Rusiyasının qatı

---

[416] ARDA: f. 411, siy. 1, iş 26, v. 1.
[417] Азербайджан архиви, 1971, №1, c. 20.
[418] ARDA: f. 1610, siy. 1, iş 23, vv. 48, 136.

düşməni Nülans dayanıb."[419] Əlbəttə, L.Krasini heç də işin ideoloji tərəfi maraqlandırmırdı. Bunu məktubun sonunda yazılanlar təsdiq edir: "Mən hesab edirəm ki, "Azneft"in işi nefti hasil etməkdir, ticarəti isə Xarici Ticarət Komissarlığı aparmalıdır. Şəxsən Siz əcnəbi tacirlərlə ticarətdə müstəsna bacarıqsızlıq nümayiş etdirdiniz, lakin mən heç bir halda, hətta "Azneft"in başqa rəhbəri olsa belə, bu istehsal orqanına xarici bazarda ticarət funksiyalarının verilməsinə razı ola bilmərəm."[420] Qeyd edilməlidir ki, məhz bu cür mövqe, yəni "Azneft"in xarici bazarlarda fəaliyyətinin məhdudlaşdırılması mərkəzin siyasətində aparıcı yer tuturdu. Bundan başqa, Cənubi Qafqaz respublikaları federasiyasının yaradılması ideyasını irəli sürməklə, Moskva bu respublikaların xarici ticarət siyasətinin birləşdirilməsini də sürətləndirmək qərarına gəlmişdir. Yalnız bu yolla neft ticarətini mərkəzi orqanların nəzarəti altında saxlamaq və Azərbaycan rəhbərliyi, şəxsən "Azneft" trestinin rəisi A.Serebrovski ilə mübahisələrə son qoymaq mümkün idi.

1921-ci il iyunun 2-də Azərbaycan, Gürcüstan və Ermənistan xarici ticarət, ixrac, idxal və valyuta fondu məsələlərinə dair müqavilə imzaladılar. Xarici ticarət orqanlarının birləşdirilməsindən sonra xaricdən müstəqil satınalmalar qadağan edildi və bu səlahiyyət birləşmiş xarici ticarət orqanına verildi. "Azneft" isə satışdan əldə edilən vəsaitə xaricdən müxtəlif texniki materiallar və avadanlıq almaq hüququnu qazandı.

Maraqlıdır ki, bu dövrdə V.Leninin mövqeyi tədricən "Azneft"in ticarət sərbəstliyinin məhdudlaşdırılması istiqamətində dəyişməyə başlamışdır. N.Nərimanova ünvanladığı teleqramda (26 sentyabr 1921-ci il) V.Lenin tələb edirdi: "Vilayət Xarici ticarət idarəsinin razılığı və RKP Emkasının icazəsi

[419] ARDA: f. 1610, siy. 1, iş 98, v. 14.
[420] ARDA: f. 1610, siy. 1, iş 98, v. 14.

olmadan nə almanlarla, nə də başqa heç kəslə xarici ticarət müqaviləsi bağlamayın."[421]

Moskvanın qoyduğu bütün məhdudiyyətlərə və təzyiqlərə baxmayraq, "Azneft" xarici ticarətin aparılmasında müəyyən güzəştlərə nail ola bilirdi və bunu müstəqil yox, mərkəzdəki qurumların ciddi nəzarəti altında həyata keçirirdi. Rusiyanın "Arkos" kooperativi ilə geniş əlaqələr yaradan "Azneft" öz sifarişlərini ona verirdi. Məsələn, 1922-ci ilin sentyabrında "Azneft" "Arkos"a 98284 ton ağ neftin və 32761 ton yağın xaricdə satılmasını təklif etmişdir.[422] Lakin "Arkos" və başqa qurumlar tərəfindən neft məhsullarının satışı əksər hallarda təsadüfi və çox vaxt bazar qiymətindən xeyli aşağı aparılırdı.[423] Bununla əlaqədar "Azneft"də çalışan mühəndis İ.Pritula A.Serebrovskiyə ünvanladığı məktubda yazırdı: "Bizim bütün sövdələşmələrimiz təsadüfi xarakter daşıyır və xarici ticarətimizin indiyədək möhkəm dayaqları yoxdur. Səbəb də budur ki, rus hökumətinin xaricdə öz ticarət aparatı yoxdur, yalnız nümayəndələri var. Bakı neft məhsullarının satışı üçün ticarət aparatına, neft məhsullarının saxlanılması üçün anbarlara və nəqli üçün paroxodlara malik olmaq lazımdır..."[424] Bunlar olmadığı üçün İ.Pritula neft məhsullarının satışı ilə məşğul olacaq bir xarici firma ilə saziş bağlamağı təklif edirdi. Bununla əlaqədar 1922-ci ilin sentyabrında "Azneft" Belçika-Qafqaz Neft Sənaye və Ticarət Səhmdar Cəmiyyəti ilə danışıqlara başladı və ilin sonunda tərəflər arasında müqavilə imzalandı. Cəmiyyət 2000 ton maşın yağını, 7000 ton solyar yağını və 5000 ton ağ nefti satmağı öhdəsinə götürür, "Azneft" isə cəmiyyətə gəlirin 3,5 %-ni ödəyirdi.[425]

---

[421] V.İ.Lenin Azərbaycan haqqında, s. 261.
[422] ARDA: f. 1610, siy. 1, iş 76, v. 27.
[423] ARDA: f. 1610, siy. 13, iş 306, v. 191.
[424] ARDA: f. 1610, siy. 13, iş 122, v. 52.
[425] ARDA: f. 1610, siy. 13, iş 306, v. 192.

Lakin təbiidir ki, məhsulların kiçik həcmi Azərbaycan neft sənayesinin ehtiyaclarını ödəyə bilməzdi. Həm də artıq qeyd edildiyi kimi, müəyyən olunmuş 60 %-lik kvotaya baxmayaraq, Moskva Bakı neftinin satışından əldə etdiyi vəsaiti "Azneft"ə ödəmirdi. Bununla bağlı A. Serebrovskinin 1922-ci il mayın 14-də Moskvaya göndərdiyi teleqramda deyilirdi ki, Bakı neftinin satışından 2 trln. 104 mlrd. rubl vəsait əldə olunmuş, "Azneft"ə isə cəmi 9 mlrd. rubl ayrılmışdır.[426]

"Azneft"ə xarici ticarət əməliyyatlarında sərbəstlik verilməsi məsələsi yenidən gündəmə gəldi. 1922-ci il boyu A.Serebrovski dəfələrlə Moskvadan bu icazənin alınmasına çalışırdı. Aprelin 23-də Ümumrusiya Fövqəladə Komissiyasının sədr müavini V.Menjinskiyə yazdığı məktubda A.Serebrovski ondan Moskvada "lazımi təzyiq" göstərib "Azneft"in xarici bazarlarda sərbəst çıxış etməsinə və mərkəzin müdaxiləsi olmadan sərbəst ticarət aparmasına icazənin alınmasını xahiş etmişdir.[427] Suraxanı neft mədənlərində baş vermiş yanğınla əlaqədar A.Serebrovski xaricdə neft məhsullarının satışına və əldə olunan vəsaitlə bərpa işlərinin aparılmasına icazə istəmişdir. Lakin Moskvadan gələn cavab qəti idi: "Azneft"ə 25 min funt sterlinq ayrılsın, lakin neft məhsullarının müstəqil satışına icazə verilməsin.[428]

A.Serebrovskinin yazdığı məktublar Moskvada çoxlarının xoşuna gəlmirdi. RSFSR xalq xarici ticarət komissarının müavini M.Frumkin S.Kirova yazdığı məktubda bildirirdi: "…Bakının neft mədənlərinin təchizatı ilə bağlı yaranan ümumi vəziyyətdən istifadə edən Serebrovski imkan düşdükcə özünün xarici bazarlarda sərbəst çıxış etməsi haqqında məsələ qaldırır. Biz razıyıq, ola bilsin ki, bizim xarici ticarət orqanlarımız

---

[426] ARDA: f. 1610, siy. 13, iş 117, v. 149.
[427] ARDA: f. 1610, siy. 13, iş 117, v. 99.
[428] ARDA: f. 1610, siy. 13, iş 117, v. 124.

"Azneft"in təminatı üçün lazım olanların hamısını etməyiblər. Lakin Serebrovskinin ötən il ərzində həm İstanbul, həm İran bazarlarında iş təcrübəsi göstərdi ki, bu cür müstəqil fəaliyyət "Azneft"in təchizatına kömək etmək əvəzinə bizim xarici ticarətimizi pozur və neft məhsullarını qiymətdən salır. Qüsurlara baxmayaraq, biz bütün xarici ticarətin XXTK-nın əlində cəmləşməsini zəruri hesab edirik."[429] M.Frumkinin "Azneft"in uğursuz ticarət əməliyyatları haqqında səsləndirdiyi fikir həqiqətdən uzaq idi və artıq deyildiyi kimi, A.Serebrovskinin İstanbula qısamüddətli səfəri zamanı bir neçə mühüm sazişə imza atılmış, bunun hesabına neft sənayesinin maddi-texniki vəziyyətini yaxşılaşdırmaq üçün imkan yaranmışdı.

Moskvaya yazan təkcə A.Serebrovski deyildi. 1922-ci il sentyabrın 15-də İ.Stalinin, A.Rıkovun, İ.Smilqanın, Dövlət Plan Komitəsinin, Ümumrusiya Mərkəzi Həmkarlar İttifaqları Şurasının və Ümumrusiya Dağ Mədənçiləri İtiifaqının adına Bakıdan geniş teleqram göndərilmişdir. Teleqramı imzalayanlar "Azneft" trestinin rəis müavini M.Barinov, Azərbaycan SSR XKS-in sədri Q.Musabəyov, AK(b)P MK-nın katibi P.Çagin və AK(b)P Bakı komitəsinin katibi L.Mirzoyan idi. Teleqramda deyilirdi: "“Azneft"in sərbəst ticarət hüququndan məhrum edilməsi Bakı neft sənayesini tamamilə çıxılmaz vəziyyətə salacaq… Əvvəlki dövrün təcrübəsi göstərdi ki, bu hüququn verilməsi özünü doğrultmur, çünki neft məhsullarının satışından əldə olunan vəsaitlər əsasən sənayenin başqa sahələrinin inkişafına yönəldilir, neft sənayesi isə bundan ziyan çəkir... "Azneft" məhsulların satışından gələn vəsaitlərdən birbaşa istifadə etməlidir ki, hal-hazırda anomal durumda olan mədənləri düzəltsin. Bütün satınalmalar, xüsusilə texniki materialların satın alınması yalnız "Az-

---

[429] ARDA: f. 1610, siy. 13, iş 121, v. 37.

neft"in əlində cəmləşməlidir, çünki mədənlərin və zavodların ehtiyacları ancaq "Azneft"ə məlumdur."[430]

Bakıdan göndərilən çoxsaylı məktubların təsiri altında, həmçinin "Azneft"in sərbəst ticarət hüququnun neft sənayesinin durumuna müsbət nəticələrini nəzərə alaraq, RSFSR cüzi güzəştlərə getməyə məcbur oldu. L.Krasin XXTK-nın xarici şöbələrində "Azneft"in nümayəndələrinin təmsil olunmasına və trestin komissarlığın ümumi nəzarəti altında ticarət əməliyyatlarını aparmasına icazə verdi.[431] "Azneft"in Almaniyada (mərkəzi – Berlin, fəaliyyət dairəsi – Almaniya, Skandinaviya ölkələri, Avstriya, Macarıstan, Çexoslovakiya, Hollandiya), Fransada (mərkəzi – Paris, fəaliyyət dairəsi – Fransa, İtaliya, İsveçrə, Belçika), İngiltərədə (mərkəzi – London, fəaliyyət dairəsi – İngiltərə və ABŞ) nümayəndəlikləri açıldı. İri sifarişlər Almaniya nümayəndəliyinə göndərilir və buradan digər iki nümayəndəlik arasında bölüşdürülürdü.[432] Bir müddət sonra Moskvadan məlumat gəldi ki, RSFSR BYİ-nin rəisi İ.Smilqa 1922-ci il sentyabrın 23-də "Azneft"in daxili ticarət, sentyabrın 25-də isə xarici ticarət sahəsində hüquqlarının genişləndirilməsi haqqında trest ilə saziş imzalamışdır. L.Krasin isə "Azneft"ə xaricdə neft məhsullarını sərbəst satmağa və xarici materiallar almağa icazə vermişdir.[433]

Doğrudur, bütün bu tədbirlər "Azneft"i Moskvanın ciddi nəzarətindən azad etmirdi. Məsələn, 1922-ci ilin dekabrında BYİ-dən "Azneft"ə daxil olan məktubda qəti şəkildə tələb olunurdu ki, trestin öz ticarət idarəsinə neft məhsullarını satmağa səlahiyyət verməsinə mərkəzdən icazənin alınıb-alınmamasına dair izahat verilsin.[434] BYİ-nin bu tələbi tamamilə əsassız

[430] ARDA: f. 411, siy. 1, iş 102, v. 85.
[431] ARDA: f. 1610, siy. 13, iş 121, v. 34.
[432] ARDA: f. 1610, siy. 13, iş 120, vv. 18-21.
[433] Бакинский рабочий, 3 октября 1922 г.
[434] ARDA: f. 1610, siy. 1, iş 75, vv. 95-96.

idi, çünki "Yanacaq sənayesinin təşkili barədə əsas müddəalar"ın 10-cu bəndində deyilirdi ki, BYİ yalnız tənzimləyici qurum idi, idarəetmə və ticarət üzrə funksiyalar isə bütövlüklə yerlərdəki təşkilatlara verilirdi.[435]

Beləliklə, "Azneft"ə edilən növbəti güzəşt yenə də müxtəlif maneələrlə müşayiət olunurdu. A.Serebrovski "Çıxılmaz vəziyyətdə" adlı məqaləsində yazırdı: "Nə İranda, nə də İstanbul vasitəsilə Qərbi Avropada "Azneft" öz məhsullarının bir funtunu da sata bilmir. "Azneft"ə ticarətlə məşğul olmağa icazə verilib, lakin ticarət üçün elə yerlər ayrılıb ki, orada demək olar, heç nə satmaq olmur. Satış üçün əlverişli olan bazarlar isə qadağa altındadır, çünki orada mərkəz özü ticarət aparacaq. Özü də mərkəz nəinki "Azneft"dən pulsuz mallar alır, "Azneft" həmçinin malların yüklənməsinə, saxlanılmasına, nəqlinə və s. görə böyük pullar ödəyir."[436] Neft satışınn mərkəz tərəfindən məhdudlaşdırılması, digər tərəfdən isə maliyyə böhranı "Azneft"i neft məhsullarını qeyri-leqal yolla satmağa, trestə məxsus zavodlarda fərdi sifarişlər yerinə yetirməyə məcbur edirdi.[437]

Bakı nefti ilə ticarəti inhisara alan Rusiya öz büdcəsini doldurmaq üçün əlavə və sabit maliyyə mənbəyini əldə etdi. Digər tərəfdən, Bakının "qara qızıl"ı Qərb ölkələri ilə ticarət-iqtisadi əlaqələrin qurulmasında da müəyyən rol oynadı. 1921-ci ilin oktyabrından 1922-ci ilin sentyabrına qədər İngiltərəyə 27536 ton, Almaniyaya 4374 ton neft və neft məhsulları ixrac olunmuşdur.[438] 1922-ci ildə "Nafteksport" (Xaricdə Neft Məhsulları ilə Ticarət üçün Dövlət Birliyi) "Vitali R. Kamxi" firması ilə Bakı neftinin Suriyada, Fələstində, Egey və Aralıq dəniz-

---

435 ARDA: f. 1610, siy. 1, iş 75, vv. 81-83.
436 Бакинский рабочий, 23 апреля 1922 г.
437 ARPİİSSA: f. 1, siy. 1, iş 18, v. 5.
438 Внешняя торговля СССР за 1918-1940 гг., с. 449, с. 520.

lərinin adalarında satışına dair müqavilə imzalamışdır.[439] Neft ixracı ildən-ilə artırdı. Əgər 1921-ci ilin dekabrından 1922-ci ilin mayınadək cəmi 43596 ton neft məhsulu ixrac olunmuşdursa, bundan sonrakı altı ay ərzində ixrac 95977,5 tonadək artmışdır. 1921/22-ci təsərrüfat ilində neft ixracından əldə olunan xalis gəlir 44269000 rubl təşkil etmişdir, bu da 1921-ci ilin doqquz ayının gəlirindən 16 dəfə çox idi.[440] İxrac artdıqca Bakı neftinin satış bazarları da genişlənirdi. Əgər 1921/22-ci təsərrüfat ilində "qara qızıl" 5 ölkəyə ixrac olunurdusa, 1922/23-cü təsərrüfat ilində ölkələrin sayı 13-ə çatmışdır.[441]

Bütün bu göstəricilər Bakı neftçilərinin gərgin, fədakar əməyi, neft yataqlarının misli görünməmiş istismarı nəticəsində əldə olunmuşdur. Hər şey bir məqsəd – Rusiyaya daha çox neft vermək üçün idi. Neftə sahib olan Rusiya bu sərvətdən Azərbaycana pay ayırmaq, ticarətdən əldə olunan gəlirləri neft sənayesinin dirçəldilməsinə yönəltmək barədə düşünmürdü. Azərbaycan hələ uzun müddət özünün neft sərvətindən qazanılan pulların cüzi hissəsi ilə kifayətlənməli olacaqdı.

---

[439] ARDA: f. 1610, siy. 13, iş 258, v. 44.

[440] Алиев А.П. Göst. əsəri, s. 24.

[441] Алиев А.П. Göst. əsəri, s. 25.

# VIII.

# BAKI NEFT SƏNAYESİNDƏ KONSESSİYA SİYASƏTİ

Artıq qeyd edildiyi kimi, sovet hakimiyyətini silahlı yolla devirməyin mümkünsüzlüyünü anlayan Qərb ölkələri Rusiya ilə iqtisadi əlaqələr qurmaq qərarına gəldilər. Sovet Rusiyası da öz növbəsində bunun marağında idi. Lakin hər iki tərəf hələ də bir-birinə qarşı ideoloji dözümsüzlük səddini aşa bilmir və aralarındakı təmasları müəyyən mənada müharibənin davamı kimi qiymətləndirirdilər. Sadəcə olaraq bu müharibə artıq başqa üsul və vasitələrlə aparılırdı.

İqtisadiyyatını tezliklə bərpa etmək üçün RSFSR hökuməti konsessiya siyasətinin işlənib hazırlanmasına başladı. Ölkənin təbii sərvətlərini, müəssisələri, təsərrüfat obyektlərini xarici sahibkarlara müəyyən müddətə istifadəyə verməklə sovet dövləti üç məqsəd güdürdü: 1) konsessiyalar vasitəsilə səna-

yeni dirçəltmək, müasir avadanlıq əldə etmək; 2) beynəlxalq səviyyədə diplomatik tanınmaya nail olmaq; 3) Qərb dövlətləri arasında mövcud olan ziddiyyətləri kəskinləşdirmək və bundan öz maraqları naminə istifadə etmək. Bununla bağlı V.Lenin deyirdi: "Konsessiyalar sülh demək deyil, bu da müharibə deməkdir, lakin başqa, bizim üçün daha sərfəli formada olan müharibə. Əvvəl müharibə tanklar, toplar vasitəsilə aparılırdı, ...indi müharibə təsərrüfat cəbhəsində gedəcək."[442]

Konsessiyalara icazənin verilməsi sovet hökumətinin siyasətində çox ciddi dönüş idi. İkitərəfli münasibətlərdə tədricən müharibədən sülhə doğru keçid baş verdiyi bir vaxtda Avropa ölkələri Rusiyanın təkliflərinə maraq göstərməyə başlamışdılar. Burada xarici iş adamlarının bolşeviklərin hakimiyyətə gəlməsindən sonra itirdikləri mülkiyyətin geri qaytarılması ümidləri də mühüm rol oynayırdı. Lakin bolşeviklər milliləşdirdikləri xarici mülkiyyətin bərpası haqqında düşünmür, onlar təsərrüfatın müəyyən sahələrinin, müəssisələrin müvəqqəti icarəyə verilməsini nəzərdə tuturdular. 1920-ci il noyabrın 20-də RSFSR XKS-in konsessiyaların iqtisadi və hüquqi şərtləri haqqında dekreti qəbul edildi. Dekretə görə, konsessioner əldə etdiyi məhsulun bir hissəsinə sahib ola və onu xaricə çıxara bilərdi; konsessionerin müəssisəyə yatırdığı əmlak milliləşdirilə və müsadirə edilə bilməzdi; sovet hökuməti konsessiya müqaviləsinin birtərəfli qaydada dəyişdirməyəcəyinə dair təminat verirdi və s.[443]

V.Lenin sovet konsessiya siyasətinin əsas müəllifi idi. Lakin o, bir sıra partiya və dövlət xadimlərinin ciddi müxalifəti ilə rastlaşdı. Onlar hesab edirdilər ki, konsessiyalar özəl mülkiyyətin, kapitalizmin bərpasına gətirib çıxaracaq. V.Lenin üçün isə məsələnin iqtisadi tərəfi ideoloji tərəfindən daha vacib idi. O,

---

442 Волков Ф.Д. Göst. əsəri, s. 184.

443 Документы внешней политики СССР: Т.3. Москва, 1959, с.338-339.

başa düşürdü ki, daxili imkanlar hesabına sənayeni dirçəltmək mümkün olmayacaq, xaricdən kömək lazım gələcək. Çıxışlarının birində V.Lenin demişdir: "Biz konsessiyalar haqqında çox danışırıq. Biz mübahisə edirdik ki, prinsipcə onlar doğrudurmu. Biz belə qənaətə gəldik ki, onlar düzgün qurulduğu təqdirdə doğrudur. Əlbəttə, biz imperialistlərə yalnız özümüzün istehsal edə bilmədiyimizi verəcəyik."[444] Başqa bir çıxışında sovet lideri bildirmişdir: "...Əlbəttə, konsessiyalar məhsulların alınması baxımından bizim üçün vacibdir. Bu, şübhəsiz, doğrudur, lakin məsələnin əsas mahiyyəti siyasi münasibətlərdədir."[445] Bununla belə, V.Lenin və onun mövqeyini dəstəkləyənlər heç də xaricilərə uzunmüddətli konsessiyaların verilməsi haqqında düşünmürdülər, söhbət təcrübənin öyrənilməsindən, avadanlığın alınmasından və konkret sahənin dirçəldilməsi üçün ilkin addımların atılmasından gedirdi. Daha sonra isə sovet hökuməti çox asanlıqla konsessiyaya xitam verirdi.

İlk vaxtlarda Bakı neft rayonunda konsessiyaların verilməsi məsələsi qəti şəkildə rədd edilirdi.[446] Buna səbəb Bakı neftinin Rusiya üçün strateji əhəmiyyət daşıması idi. Bolşeviklər işğalına bu qədər güc və vəsait sərf etdikləri Bakıya xaricilərin buraxılmasını qeyri-mümkün sayırdılar. Lakin neft sənayesinin vəziyyəti pisləşdikcə, böhran dərinləşdikcə xarici kapitalın cəlb edilməsi zərurəti daha aydın görünməyə başlamışdır. Beynəlxalq trestlərin Bakı neftinə yiyələnmək uğrunda mübarizəsi də bu məsələdə az rol oynamırdı (bu barədə IX fəsildə ətraflı bəhs ediləcək). ABŞ müəllifi Luis Fişerin qeyd etdiyi kimi, "...bolşeviklər düşünürdülər ki, dünya neft maqnatlarını konsessiyalarla yumşaltmayana qədər onların

---

[444] Ленин В.И. Неизвестные документы, с. 388.

[445] Алиев А.П. Göst. əsəri, s. 13.

[446] Шишкин В.А. Советское государство и страны Запада в1917-1923 гг. Ленинград, 1969, с. 97.

hökuməti tanınmaya nail ola bilməyəcək, sənaye və banklar isə kreditlər almayacaqlar."[447]

Bakıda konsessiyaların verilməsi məsələsi ilk dəfə RSFSR XKS-in 1 fevral 1921-ci il tarixli qərarında öz əksini tapmışdır. Qərarın ilk iki bəndi V.Leninin təklifləri əsasında tərtib olunmuşdur: "a) Qroznıda, Bakıda və işləyən başqa mədənlərdə neft konsessiyalarının verilməsi prinsipcə bəyənilsin və danışıqlar aparılmağa başlansın; danışıqlar sürətlə aparılsın; b) AXTŞ-ə tapşırılsın ki, neft hasilatının təmin edilməsi məsələsini yoxlamaq və mədənlərin hazırkı iş şəraitində ola biləcək fəlakətin səbəblərini aydınlaşdırmaq üçün Bakıya və Qroznıya neft işinin ən nüfuzlu mütəxəssislərindən ibarət çox səlahiyyətli komissiya göndərsin…"[448] Qərarda həmçinin deyilirdi: "Yoldaş Stalinə tapşırılsın ki, Bakı və Qroznı fəhlələrinə konsessiyaların təsərrüfatımızın bərpası və sovet quruluşunun möhkəmlənməsi üçün əhəmiyyətinin tam izah edildiyini və yaxud oraya xüsusi siyasi rəhbərin göndərilməsinə ehtiyac olduğunu araşdırsın."[449]

Maraqlıdır ki, bu qərar qəbul edilən zaman SSRİ hələ təşkil olunmamışdı və Azərbaycan SSR formal da olsa, müstəqil dövlət sayılırdı. Buna baxmayaraq, hüquqi reallıqla hesablaşmayan RSFSR həmin müstəqilliyi qəbul etməyərək, konsessiya məsələsini Azərbaycan hökuməti ilə razılaşdırmamış həll edirdi.

1 fevral 1921-ci il qərarına uyğun olaraq yaradılan xüsusi komissiya 10 gündən sonra öz işinin nəticələrini – mütəxəssislərin neft sənayesinin vəziyyəti barədə hesabatlarını və məruzələrini V.Leninə təqdim etdi. Bunların arasında ən mühümləri L.Krasinin məruzəsi, Z.Dosserin, eləcə də Baş Neft Komitəsinin aparıcı mütəxəssisləri İ.Qubkinin, İ.Strijovun, A.Tsevçinskinin və N.Smirnovun hesabatları idi. V.Leninin

---

[447] Фишер Л. Империализм нефти. Москва-Ленинград, 1927, с. 35.
[448] V.İ.Lenin Azərbaycan haqqında, s. 313.
[449] Серебровский А.П. Göst. əsəri, s. 10.

diqqətini daha çox İ.Qubkinin məruzəsi cəlb etmişdi. İstismar edilən quyuların sayını artırmadan və yeni quyuların qazılmasına başlamadan neft sənayesinin məhv olacağını yazan İ.Qubkin konsessiyaların əleyhinə çıxış edirdi. Bakı neft sənayesinin xaricilərsiz, daxili qüvvələr hesabına bərpa olunmasını təklif edən İ.Qubkin V.Leninə yazırdı: "...Beləliklə, mədənlərdəki işlərin iki mühüm tərəfi – qazma və buruqların istismarı xarici kapitalın müdaxiləsini tələb etmir. Fikrimcə, fəhlə inqilabının mədənlərdən qovduğu xarici kapitalı oraya buraxmaq olmaz."[450] İ.Qubkin istismar olunan buruqların sayını artırmağı, fəaliyyət göstərməyənləri minimuma endirməyi, avadanlığın alınması və xaricdən texniklərin cəlb edilməsi yolu ilə qazma işlərini genişləndirməyi təklif edirdi. V.Leninin qənaətinə görə, İ.Qubkin bu fikrə Z.Dosserin təsiri altında gəlmişdir, belə ki, Baş Neft Komitəsinin rəisi xarici şirkətlərə neft konsessiyalarının verilməsinin qəti əleyhdarı kimi çıxış edirdi.[451]

Bütün məruzələri və hesabatları təhlil edən V.Lenin RK(b)P MK-nın Siyasi Bürosunun üzvlərinə və AXTŞ-in sədri A.Rıkova aşağıdakı məzmunda məktub göndərmişdir: "Materiallar göstərir ki: a) fəlakət təhlükəsi var və *yaxındadır*; b) var-qüvvə ilə Bakıda konsessiyalar verməyə çalışmaq (yəni konsessionerləri tapmaq) lazımdır; c) Baş Neft Komitəsinin sədri həddindən artıq ağılsızdır. Bu cür yüksək vəzifəli şəxsin ağılsızlığı təhlükəlidir."[452]

Göründüyü kimi, Bakının neft mədənlərinin xarici konsessiyalara verilməsi perspektivi sovet rəhbərliyində heç də

---

[450] Искендеров М.С. С.М.Киров в Азербайджане. Баку, 1970, с. 119.

[451] Косторниченко В.Н. Концессионная политика советского руководства в нефтяной промышленности в 20-30-е гг. XX века / Нефть страны Советов. Проблемы нефтяной промышленности СССР (1917-1991 гг.) Под общей редакцией В.Ю.Алекперова. Москва, 2005, с. 276-277.

[452] Косторниченко В.Н. Концессионная политика..., с. 277.

birmənalı qarşılanmadı. Moskvada konsessiyaların ən qatı əleyhdarı BNK-nın rəisi Z.Dosser idisə, Bakıda bunun əleyhinə A.Serebrovski çıxış edirdi. Lakin V.Lenin öz mövqeyində qəti idi: "Əgər biz var qüvvəmizlə çalışıb konsessiyaçı tapa bilməsək, sınıq çıxarıq. Şərtləri hazırlamaq işini sürətləndirmək lazımdır. Fəhlələrin bir hissəsinin asanlıqla uya biləcəyi ən zərərli yanlış bir fikrə qarşı dərhal mübarizəyə başlamaq və necə olursa-olsun onun üzərində qələbə çalmaq lazımdır. Bu yanlış fikir belə bir "ideyadan" ibarətdir: "kapitalistlər üçün işləmək istəmirik", yaxud başqa bir variant: "bizimlə yanaşı işləyən fəhlələr kapitalistlər üçün işləmədikləri halda biz də kapitalistlər üçün işləmək istəmirik."[453]

V.Leninin Bakıda neft konsessiyaları haqqında ideyası RK(b)P-nin X qurultayında (mart, 1921-ci il) dəstəklənmişdir. Qurultayın qəbul etdiyi qətnamədə deyilirdi: "Qroznı və Bakı mədənlərinin bir hissəsi də konsessiya obyekti ola bilər, çünki buna Azərbaycan sovet hakimiyyətinin razılığı veriləcək."[454] Qurultayın bağlanışında çıxış edərkən V.Lenin demişdir: "... Konsessiyalar olmasa, biz yüksək dərəcədə təchiz edilmiş müasir kapitalist texnikasından yardım görəcəyimizi ümid edə bilmərik... Məhz buna görədir ki, biz Qroznı və Bakının dörrdə bir hissəsini konsessiyaya verməklə – bunu etmək mümkün olarsa – biz bundan qalan dörddə üç hissədə qabaqcıl kapitalizmin qabaqcıl texnikasına çatmaq üçün istifadə edərik. İndi bu saat biz başqa yolla bunu etmək iqtidarında deyilik..."[455] V.Leninin mövqeyinə əhəmiyyətli dərəcədə təsir edən L.Krasin öz məruzəsində neft sənayesinin kifayət qədər acınacaqlı vəziyyətini təsvir edərək bildirmişdir ki, Qroznı mədənlərində avadanlığın bərpasına 200-300 mln., Bakıda isə 250-300 mln.

---

[453] V.İ.Lenin Azərbaycan haqqında, s. 203.

[454] Документы внешней политики СССР: Т.3, с. 593-594.

[455] V.İ.Lenin Azərbaycan haqqında, s. 212.

rubl vəsait lazım olacaq. Buna görə L.Krasin neftli torpaqları "dünya bazarlarında rəqabət aparan üç və ya dörd iri sindikata, həmçinin İtaliya, ola bilsin, həm də Fransa, Belçika hökumətlərinə" icarəyə verməyi təklif edirdi.[456]

Maraqlıdır ki, konsessiyaların əsas müddəalarının hazırlanması bu işin əleyhdarlarından biri olan akademik İ.Qubkinə həvalə olunmuşdur. Həmin müddəalar 1921-ci il martın 28-də RSFSR hökumətinin radioqramı kimi Rusiyanın Böyük Britaniyadakı ticarət nümaəyəndəliyinin başçısı L.Krasinə göndərilmişdir. Konsessiyaların müddəti 25 il müəyyən edilirdi. Konsessiyalara Qroznıdakı neftli torpaqlar və Bakıdakı Bibi-Heybət neft mədənləri çıxarılırdı. Konsessiyalara görə ödəniş ümumi məhsuldarlıqdan əldə olunan gəlirin pay bölgüsü əsasında aparılır, Bibi-Heybət üçün 30 %-ə qədər, Qroznı üçün 40 %-ə qədər müəyyən edilirdi. İllik minimal hasilat müqavilədə göstərilən müddətdən başlayaraq, Bibi-Heybət üçün 1,5 mln. ton, Qroznı üçün 819000 ton müəyyən edilirdi. Konsessiyalar bəzi şərtlər əsasında verilirdi. Bibi-Heybətin konsessiyaya verilməsinin şərti pay ayırmalarından əlavə, Bakı mədənlərinin elektrikləşdirilməsi üçün lazımi avadanlığın gətirilməsi və Port-Petrovskdan Moskvaya qədər 10-düymlük neft kəmərinin çəkilməsi idi. İnşa ediləcək neft kəməri və elektrik stansiyaları RSFSR hökumətinin sərəncamına keçirdi. Əsas müddəalarda xarici konsessioneri faktiki olaraq dövlətin bürokratik aparatından asılı vəziyyətə salan bənd də nəzərdə tutulmuşdur. Həmin bəndə görə, konsessionerin xammal və köməkçi materiallarla təchizatı RSFSR hökuməti tərəfindən xüsusi razılaşma əsasında aparılmalı idi.[457] 1921-ci il martın 29-da RSFSR XKS-i konsessiya müqavilələrinin əsas prinsiplərini təsdiq etmişdir. Həmin prinsiplərdən də görmək olar ki,

---

[456] Серебровский А.П. Göst. əsəri, s. 7-8.

[457] Документы внешней политики СССР: Т.4. Москва, 1960, с.31.

bəzi məsələlərdə konsessionerlər dövlət orqanlarının nəzarəti və birbaşa asılılığı altında fəaliyyət göstərməli idilər.[458]

Qəbul edilən sənədlər sovet hökumətinə konsessiyalarla bağlı rəsmi təkliflərlə çıxış etməyə imkan verdi. 1921-ci il martın 31-də G.Çiçerinə yazdığı məktubda V.Lenin sovetlərin Bakı, Qroznı, Emba, Uxta neft rayonlarının konsessiyaya verməyə hazır olduğunu ABŞ-ın məşhur bankiri F.Vanderlipə bildirməyi tövsiyə etmişdi. Xarici dövlətlər arasında ziddiyyətləri kəskinləşdirməyin vacibliyini bir daha vurğulayan V. Lenin G.Çiçerinə yazırdı: "bununla [neft konsessiyalarını əldə etməklə – *F.C.*] Amerika İngiltərəyə üstün gələrdi."[459]

Moskvada hüquqi aktların qəbul edildiyi bir vaxtda isə Azərbaycanın özündə neft konsessiyaları əleyhdarlarının mövqeyi hələ də güclü idi. Mərkəz bundan narazı idi, V.Lenin yerli kommunistlərin mövqeyini "yalançı" "Bakı vətənpərvərliyi", "Bakı yerlipərəstliyi" adlandırırdı. 1921-ci il aprelin 2-də o, A.Serebrovskiyə məktub yazaraq, X qurultayın konsessiyalarla bağlı qərarına qarşı olanlarla mübarizədə öz köməyini təklif etmişdir.[460] Maraqlıdır ki, V.Lenin bu məktubu A.Serebrovskiyə – xarici kapitalın neft sənayesinə buraxılmasının qəti əleyhdarlarından birinə ünvanlanmışdır. Hələ İstanbuldan qayıtdıqdan sonra mədənlərin və Bakı-Batumi kəmərinin bərpasının vacibliyi haqqında danışarkən A.Serebrovski bunun üçün xaricilərin cəlb olunmasını qəti şəkildə rədd edirdi.[461] O, mətbuat səhifələrində də xarici konsessiyaların əleyhinə çıxış edirdi.[462]

Konsessiyalara dair fikir ayrılıqlarına V.Leninin Azərbaycan, Gürcüstan və Ermənistan kommunistlərinə ünvanladığı

[458] Документы внешней политики СССР: Т.4, с.36-37.
[459] V.İ.Lenin Azərbaycan haqqında, s. 216.
[460] V.İ.Lenin Azərbaycan haqqında, s. 218-220.
[461] ARDA: f. 1610, siy. 1, iş 364, v. 22.
[462] Бакинский рабочий, 2 февраля 1922 г.

məşhur 14 aprel 1921-ci il tarixli məktubunda da toxunulmuşdur. Məktubda bildirilirdi: "…iqtisadi cəhətdən Rusiya qabaqcıl kapitalist ölkələrindən ayrı salınmışdı və indi də xeyli dərəcədə ayrı salınmışdır; Qafqaz kapitalist Qərbi ilə "əlaqəyə girməyi" və əmtəə mübadiləsini daha sürətlə və daha asanlıqla qaydaya sala bilər."[463] Məktubda Cənubi Qafqaz kommunistlərinə konsessiya siyasətində və əmtəə mübadiləsində Qərbdən hərtərəfli, güclü istifadə etmək çağırışı ifadə olunurdu.

Lakin Bakıda konsessiyaların zərurətini dərk edənlər də az deyildi. Onlardan biri – N.Nərimanov Bibi-Heybət neft mədənləri ilə bağlı deyirdi: "Sənayemizin müəyyən hissəsini, məlum sahələri xaricilərə verərək, biz digər zavod və fabriklərə texniki avadanlığın alınması üçün özümüzə Avropaya yol açmış oluruq. Əsas olan budur və əgər indi Bibi-Heybəti konsessiyaya götürmək istəyən xaricilər olsaydı, bunu vermək, bununla razılaşmaq lazım idi."[464]

Xarici sahibkarların Bibi-Heybət mədənlərini konsessiyaya götürməyə maraqlı olmasına dair yalnız bir fakt mövcuddur. Belə ki, 1922-ci il yanvarın 31-də İ.Smilqa Almaniyanın "Deutsche Bank"ının nümayəndələri ilə danışıqlar barədə V. Leninə məlumat verərək yazırdı: "...Biz bütün Qroznı və Bakının Bibi-Heybət rayonu üzrə danışıqların aparılmasına prinsipial razılıq vermişik." İ.Smilqa danışıqların şərtlərinə dair göstərişlərin və müqavilə bağlanması hüququnun verilməsini xahiş edirdi[465]. V.Lenin İ.Smilqaya cavabında bildirmişdir ki, almanlarla konsessiya təkcə iqtisadi deyil, həmçinin siyasi baxımdan lazımlıdır.[466]

---

[463] V.İ.Lenin Azərbaycan haqqında, s. 230-231.

[464] Нариманов Н.Н. Избранные произведения: Т.2, с. 574.

[465] Ленин В.И. Полное собрание сочинений: Т.54. Москва, 1983, с. 602.

[466] Ленин В.И. Полное собрание сочинений: Т.54, с. 139.

1920-ci ilin aprelindən sonra Qafqazda fəaliyyəti dayandırılan Danimarkanın "Caucasian Oil Company" firması da konsessiya təklifi ilə sovet hökumətinə müraciət etmişdir. 1921-ci ildə "Azneft"in İstanbul nümayəndəliyinə göndərdiyi məktubda firma keçmiş "Petrol", "Binəqədi cəmiyyəti" və "Qafqaz-Volqa cəmiyyəti" şirkətlərinə məxsus müəssisələri icarəyə götürməyi təklif edirdi. Danimarka firması həmin müəssisələri bərpa və avadanlıqla təchiz etmək, neft hasilatını, emalını və daşınmasını artırmaq, parovozlar, vaqon-sisternlər və lazımi materiallar gətirmək niyyətində idi. "Azneft" isə öz növbəsində firmaya zavodların tam işləməsi üçün çatışmayan yüngül nefti verməli (firmanın həmin neftin dəyərini ödəməsi şərti ilə), avadanlığın quraşdırılması işləri başa çatanadək zavodlara tam rəhbərliyi firmaya həvalə etməli və firmanın ağ neft kəmərinin bir hissəsindən istifadə etməyə (yenə də ödənişli əsaslarla) icazə verməli idi.[467] Lakin naməlum səbəblərdən "Azneft" rəhbərliyi "Caucasian Oil Company"yə konsessiya verməkdən imtina etmişdir.[468]

Konsessiyalar tarixi ilə bağlı maraqlı faktlardan biri də Bakı neft sənayesinin tarixində ilk dəfə olaraq Amerika kapitalı buraya nüfuz etməsidir. XX əsrin 20-ci illərinin əvvəlində ABŞ-ın "İnternational Barnsdall Corporation" firması Bakıda konsessiya hüququ almışdır. Hələ 1921-ci ildə İstanbul səfəri zamanı A.Serebrovski ABŞ-ın neft biznesinin nümayəndələri – "İnternational Barnsdall Corporation"ın rəhbəri Meson Dey və qazma üzrə mühəndis Morris ilə görüşmüşdür. Bu görüşdən bir qədər sonra Morris Bakıya səfərə gəlmişdir. A.Serebrovski xatırlayırdı ki, Morris neft mədənlərindəki vəziyyəti görəndən sonra "dəhşətə gəlmiş-

[467] ARDA: f. 1610, siy. 13, iş 122, vv. 19-24.
[468] ARDA: f. 1610, siy. 13, iş 122, v. 19.

dir". "Azneft" rəisinin sözlərinə görə, Morris deyirdi ki, quyuları amansızcasına istismar etmək, nefti, qazı, benzini və s.-ni havaya sovurmaq olmaz. Neftin quyulardan elektrik nasoslarla deyil, xüsusi vedrələrlə – jelonkalarla çıxarılması prosesi xüsusi tənqid olunmuşdur. Morris qeyd etdi ki, neft sənayesinin inkişafı müasir qazma (rotor) cihazlarına və nasoslara keçiddən asılıdır. Amerikalı mühəndis demişdir: "Siz qızıl üstündə oturan və acından ölən kasıblarsınız; mən, necə işləmək lazım olduğunu sizə öyərədərəm!"[469] Beləliklə, ilk təmaslar quruldu. Lakin xaricdən gətirilən rotor cihazlarında və nasoslarında müstəqil işləmək cəhdləri uğursuz alındı və amerikalıların texniki yardımına ehtiyac yarandı.

"İnternational Barnsdall Corporation" ilə 1921-ci ilin mayında başlanan danışıqlar L.Krasin tərəfindən aparılırdı.[470] 1922-ci ilin yanvarında korporasiyanın ekspertləri Bakıda oldular. Bu səfər haqqında ekspertlərlə birgə Bakıya gələn ABŞ-ın Tiflisdəki konsulu Çarlz Mouzerin xatirələri qalmışdır. O, yazırdı ki, amerikalılar Bakıda dəhşətli mənzərə ilə rastlaşdılar: neft mədənləri baxımsız vəziyyətdə, hasilat aşağı düşür, fəhlələrin sayı azalır və s. Amerikalı ekspertlərin fikrincə, mədənlərin əvvəlki məhsuldarlığını bərpa etmək üçün 10 mln. dollar vəsait tələb olunur və buna görə neftli torpaqların xaricilərə konsessiyaya verilməsi qaçılmazdır.[471] A.Serebrovski xaricilərin təəssüratlarını tamamilə fərqli təsvir edirdi. Amerikalıların ağır şəraitə, ərzaq təminatının pis olmasına rəğmən fəhlələrin neft istehsalını artırmağa necə nail olduqları haqqında suala "Azneft" rəisi belə cavab vermişdir: "…belə cüzi məvacib alan və yarıac vəziyyət-

---

[469] Шпотов Б.М. Использование опыта США в реконструкции советской нефтяной промышленности в 1920-30-е гг / Российский журнал менеджмента. Том 4, №1, 2006, с. 164-165.

[470] Документы внешней политики СССР: Т.5. Москва, 1961, с. 759.

[471] Mouzer Ç. Zaqafqaziya haqqında qeydlər / "Tarix" qəz., 7 mart 1991-ci il.

də yaşayan bizim fəhləmiz hasilatı artırmaq üçün kifayət qədər proletar şücaətinə, kifayət qədər dözümə malikdir."[472]

Amerikalıların Bakı neftinə marağı hərtərəfli təşviq edilirdi. Belə ki, 1922-ci ilin avqustunda A.Serebrovski Qafqaz Ordusunun komandanı A.Yeqorova yazırdı: "Bizim neftimiz və neft məhsullarımızla maraqlanan amerikalı sənayeçilər bizimlə işgüzar danışıqlar aparırlar. Bu günlərdə Bakıya gələn neft sənayeçisi Frank Avqust Quberlə işgüzar danışıqlar aparmaq və münasibətlər saxlamaq niyyətindəyik."[473]

1922-ci ilin sentyabrında RSFSR hökuməti ABŞ-ın "Sinkler oyl" firmasına Saxalində neft konsessiyası verdi və bununla bir növ amerikalılara bildirdi ki, oxşar addım Bakıda da atıla bilər.

1922-ci il sentyabrın 20-də "İnternational Barnsdall Corporation" və "Azneft" arasında iki müqavilə imzalandı. Birinci müqaviləyə görə, firma Balaxanı və Qırməkidə neft quyularını 15 illik istismara götürürdü, birinci il ərzində 40, ikinci il ərzində isə 60 quyu üçün avadanlığın gətirilməsini və istifadəyə verilməsini təmin etməli idi. Şirkətin mənfəəti çıxarılan neftin 15 %-nə bərabər idi. Müqavilənin müddəti bitdikdən sonra, həmçinin vaxtından əvvəl xitam verildiyi, amerikalıların şərtləri yerinə yetirmədiyi təqdirdə bütün avadanlıq və materiallar əvəzi ödənilmədən "Azneft"ə keçirdi. İkinci müqaviləyə əsasən, firma Balaxanıda yeni quyuların qazılması öhdəliyini öz üzərinə götürürdü. Müqavilədə qeyd edildiyi kimi, quyuların istismarı elektrik dərin nasoslar vasitəsilə aparılmalı idi, birinci il ərzində 40 quyunun, ikinci ilin sonu üçün isə 100 quyunun istismara verilməsi nəzərdə tutulurdu. Amerikalılar hər qazılan quyunun hasil etdiyi neftin 20 %-ni əldə edirdilər.[474]

---

[472] Азизбекова П.А. Göst. əsəri, s. 118.

[473] ARDA: f. 1610, siy. 1, iş 98, v. 95.

[474] ARDA: f.1610, siy. 1, iş 240, v. 4; Документы внешней политики СССР: Т.5, с. 759; Бакинский рабочий, 8 марта 1923 г.

Alman müəllifi Karl Hofmann "Azneft"in ABŞ şirkəti ilə bağladığı müqavilələri belə səciyyələndirirdi: "Müqavilədə haqqında bəhs olunan Balaxanının həmin hissəsi inqilabaqədərki köhnə xəzinə torpaqları idi, Barnsdall Co isə Rusiyanın cənubu üçün tamamilə yeni, müharibəyə qədər ümumiyyətlə mövcud olmayan müəssisə idi. Bu cəmiyyətin arxasında Standard oyl ilə əlaqəsi olan Sinkler qrupu dayanırdı."[475]

Baş tutan saziş ABŞ və sovet mətbuatında yüksək qiymətləndirilmişdi. Amerika mətbuatı xəbər verirdi ki, ABŞ hökuməti korporasiyaya heç bir maneə törətməyəcək və onun planlarına müsbət yanaşacaq, çünki sazişdə nəzərdə tutulan neftli torpaqlar milliləşdirilmiş torpaqlar deyil, yəni əvvəllər heç bir xarici şirkətə məxsus olmayıb.[476] Amerikalı konsessionerləri nəzərdə tutan A.Serebrovski deyirdi: "Biz onları təkcə cəsur mədən pionerləri kimi deyil, həm də mümkün ola biləcək rus-amerikan sazişinin ilk qaranquşları kimi salamlamalıyıq."[477] Moskvada olarkən o, 18 amerikan fəhləsinin gələcəyi haqqında Bakıya xəbər vermiş və onların yerləşdirilməsi, işləməsi üçün şəraitin yaradılmasını xahiş etmişdir.[478]

Buna baxmayaraq, "İnternational Barnsdall Corporation"ın Bakıdakı fəaliyyətinə dair sənədlərin təhlili belə qənaətə gəlməyə əsas verir ki, bu konsessiya iqtisadi cəhətdən sonadək düşünülməmiş və planlaşdırılmamışdır. Burada da sovet hökumətinin konsessiyaya siyasi rəng vermək niyyəti müşahidə olunurdu. Məsələn, Bakı Dağ-mədən dairəsinin rəisi V.Zubkovun Balaxanıda ABŞ konsessiyası ilə əlaqədar Moskvaya yazdığı hesabatda deyilirdi: "Bizim bu məsələdə mövqeyimiz ondan ibarətdir ki, müqavilə ümumiyyətlə baş tutmasın. Hə-

[475] Гофман К. Göst. əsəri, s. 278.
[476] Бакинский рабочий, 9 марта 1923 г.
[477] Правда, 21 сентября 1922 г.
[478] ARDA: f. 1610, siy. 1, iş 24, v. 63.

min fikirlər bizim tərəfin maraqlarından irəli gəlir və sırf iqtisadi hesablamalara əsaslanır, müqavilənin bağlanması üçün bəhanələri isə yalnız siyasi məsələlərdə axtarmaq lazımdır."[479]

Amerika şirkəti ilə yerli qurumlar arasında ziddiyyətlər ilk vaxtlardan başlamışdır və həmin ziddiyyətlərdən görünür ki, tərəflər heç də həmişə üzərlərinə düşən öhdəlikləri düzgün anlamırdılar. Müqavilələrin bağlanmasından iki ay sonra A.Serebrovski Moskvaya xəbər verirdi ki, şirkətin mühəndisləri hələ də Bakıya gəlməyiblər.[480] Və yaxud başqa bir misal. 1923-cü ilin iyununda A.Serebrovskinin "İnternational Barnsdall Co"ya yazdığı məktubda bildirilirdi ki, şirkətlə bağlanan müqavilələrə aşağıdakı şərtlər əsasında icazə verib: a) şirkətin Baş Konsessiya İdarəsinə öz nizamnaməsini təqdim etməsi; b) şirkətin Rusiyada işləri aparmağa müvəkkil etdiyi şəxsi təyin etməsi; c) şirkətin fəaliyyətinin RSFSR qanunlarına tabe olması və s. Bu şərtlər ABŞ firması tərəfindən yerinə yetirilmədiyi üçün müqavilələrlə nəzərdə tutulan işlərin başlanılması mümkün deyil.[481] Göründüyü kimi, müqavilələrin imzalanmasından sonra doqquz ay keçsə də, adi bürokratik maneələr səbəbindən işlər hələ də başlamamışdır. Mərkəzin də "Azneft"in "İnternational Barnsdall Co" ilə bağladığı müqavilələrdən yetərincə xəbəri yox idi. Bunu RSFSR Xalq Xarici Ticarət Komissarlığının məktubundan görmək olar. Məktubda xahiş olunurdu ki, tərəflərin hüquq və öhdəliklərini öyrənmək üçün "Azneft" müqavilələrin surətini komissarlığa göndərsin.[482]

Bundan əlavə, Amerika şirkəti neft sənayesi üçün avadanlıqla yanaşı Bakıya ərzaq və digər istehlak malları gətirirdi, lakin bunlar müqavilələrdə nəzərdə tutulmadığından sovet

---

479 ARDA: f. 133, siy. 1, iş 33, v. 17.
480 ARDA: f. 1610, siy. 1, iş 101, v. 105.
481 ARDA: f. 1610, siy. 13, iş 6, v. 97.
482 ARDA: f. 1610, siy. 1, iş 285, v. 20.

orqanları həmin malların gətirilməsini qadağan etmişdilər.[483] Başqa bir misal. Amerikalı mütəxəssislər Balaxanıda quyuları açıq motorlarla qazırdılar, bu isə yerli yanğın əleyhinə qaydalara uyğun deyildi. "Azneft"in etirazlarına cavab olaraq, "İnternational Barnsdall Co"-nun vitse-prezidenti F.Çadborn A.Serebrovskiyə yazırdı: "...Mən xahiş edərdim ki, Siz, bizim güclü qaz çıxıntıları ilə rastlaşmamağımız üçün təqribən hansı dərinliyə qədər açıq motorlarla qazmağımızı göstərəsiniz... Mənə Balaxanı rayonunun qaz layı tamamilə məlum deyil."[484] Bütün bu faktlar sübut edir ki, həyata keçirilən konsessiya əsaslı düşünülməmişdi və bəzi hallarda pərakəndə aparılırdı.

1924-cü ilin yazında tərəflər arasındakı ziddiyyətlər daha da kəskinləşdi. A.Serebrovski Moskvaya geniş məktub göndərərək, ABŞ şirkətini onun avadanlığını təmir edən "Azneft"ə pul ödəməməkdə, lazımi sayda avadanlıq gətirməməkdə, quyuların dərin nasoslarla qazılmasına başlamamaqda və s.-də günahlandırırdı. A.Serebrovskinin gəldiyi qənaət belə idi: "Korporasiya bununla bağlı indiyədək heç bir tədbir görmədiyi üçün tərəfimizdən onun işlərinin dayandırılması qaçılmazdır."[485]

Amerika tərəfi də öz narazılıqlarını bildirirdi. "İnternational Barnsdall Co"-nun prezidenti Meyson Dey şikayətlənirdi ki, Bakıda işləyən amerikalı mühəndislərə maneələr yaradılır, mədən administrasiyası onlara mənfi münasibət bəsləyir.[486] Maraqlıdır ki, bu dövrdə A.Serebrovski də öz mövqeyini dəyişmiş və onun vaxtilə amerikalılarla imzalanan müqavilələrlə bağlı yüksək əhval-ruhiyyəsindən əsər-əlamət qalmamışdır. 1923-cü ilin aprelində o, yazırdı: "amerikalıların Bakıda olması burada

[483] ARDA: f. 1610, siy. 1, iş 287, v. 7.
[484] ARDA: f. 1610, siy. 1, iş 287, v. 2.
[485] ARDA: f. 1610, siy. 1, iş 287, vv. 11-13.
[486] ARDA: f. 1610, siy. 1, iş 288, v. 7.

heç kimin ürəyincə deyil... Mən, qatı konsessiya əleyhdarı kimi ümid etmək istərdim ki, yaxın gələcəkdə Bakı indi heç kimə lazım olmayan bu konsessionerlərdən yaxa qurtaracaq."[487]

"İnternational Barnsdall Co" 1924-cü ilin ortalarında Bakıdakı fəaliyyətini dayandırdı. Avqustun 30-da şirkət "Azneft"ə göndərdiyi məktubda Balaxanıda qazma işlərinə son qoyduğunu bildirdi. Səbəb kimi həmkarlar ittifaqlarının tələbləri və "Azneft"lə hesablaşmalarda mövcud olan çətinliklər göstərilirdi.[488] "Azneft" ilə "İnternational Barnsdall Co" arasında hesablaşmalar 1925-ci ilin əvvəlində xüsusi sazişlə nizama salındı.

Sonrakı dövrlərdə Bakı neft sənayesində konsessiya siyasətinin necə inkişaf etdiyi haqqında məlumatlar çox kasaddır. Belə ki, 1923-cü ilin aprelində RSFSR Baş Konsessiya Komitəsi ilə Fransanın "Omniem Enternasional de Petrol" firması arasında Biləcəridə, Zigilpiridə, Hökməlidə, Sulutəpədə, eləcə də Qroznıda konsessiyaların verilməsi barədə müqavilə imzalanmışdır.[489] Bununla bağlı başqa məlumatlara rast gəlmək mümkün olmamışdır. 1926-cı ilin aprelinə qədər SSRİ-də fəaliyyət göstərən firmaların siyahısında neft işi sahəsində çalışan yalnız bir şirkətin adı qeyd olunmuşdur. Bu, 1924-cü ildə qeydiyyatdan keçən və neft ticarəti ilə məşğul olan ingilis "Russian Oil" cəmiyyəti idi.[490]

Neft konsessiyaları ilə bağlı bütün məsələlər RSFSR hökumətinin ciddi nəzarəti altında idi. Bu qaydanın pozulması, Moskvanın icazəsi olmadan yerlərdə hər hansı müstəqil təşəbbüsün irəli sürülməsi və ya həyata keçirilməsi dərhal mənfi qarşılanırdı. Belə ki, 1922-ci ildə Gürcüstan SSR hökumətinin Batumidəki neft anbarlarının "Standard oyl" şirkətinə konsessi-

[487] ARDA: f. 1610, siy. 1, iş 21, v. 28.
[488] ARDA: f. 1610, siy. 1, iş 287, v. 28.
[489] ARDA: f. 1610, siy. 1, 21, v. 38.
[490] ARDA: f. 1610, siy. 1 c, iş 30, vv. 219-223.

yaya verməsi böyük rezonans doğurmudur. Bundan xəbər tutan İ.Stalin RK(b)P-nin Cənubi Qafqaz Diyar Komitəsinə sərt teleqram göndərərək bildirmişdir ki, “Batumidəki anbarlar bütün federasiyanın mülkiyyətidir və heç kimin onları icarəyə, özü də “Standard oyl” kimi neft sənayemizin düşmənlərinə icarəyə verməyə ixtiyarı yoxdur.”[491] Gürcüstan SSR XKS-in sədr müavini İ.Oraxelaşvili “Standard oyl”un Batumidə bir neçə anbarının olmasını təsdiqləyərək, Gürcüstan hökumətinin təcili olaraq razılaşmanın təfərrüatlarını öyrəndiyini bildirirdi.[492]

Araşdırılan faktlar əsasında belə bir qənaətə gəlmək mümkündür ki, Bakı neft sənayesində konsessiyalar geniş tətbiq olunmamışdır. Bunun səbəblərindən biri Bakı neftçilərinin xaricdən kömək almadan sənayenin bərpasına nail olması idi. İkinci tərəfdən isə sovet hökuməti xarici şirkətlərin Bakıya geniş nüfuz etməsinə imkan vermək niyyətində deyildi. Burada prinsipial məsələ neft sənayesinin və bütövlükdə regionun Rusiya üçün strateji əhəmiyyəti idi. RSFSR hökuməti “İnternational Barnsdall Co”-ya qazma işlərinin aparılmasına verdiyi məhdud konsessiyaya razı ola bilərdi, lakin bundan artıq və geniş konsessiya nəzərdə tutulmurdu. Partiya rəhbərliyində bu qənaətdə idilər ki, neftin əsas hasilat və emal rayonlarını xaricilərə icarəyə vermək olmaz. Lakin buna baxmayaraq, Bakıda konsessiyalar məsələsi Rusiyanın Qərb dövlətləri ilə ikitərəfli təmasları üçün böyük əhəmiyyət daşımış, həmçinin o dövrün beynəlxalq münasibətlərində mühüm rol oynamışdır. Bakıda neft konsessiyaları uğrunda mübarizə 1922-ci ildə Genuya və Haaqa konfransları zamanı özünün pik nöqtəsinə çatmışdır.

---

[491] Новейшая история Отечества. XX век, с. 439.

[492] ARDA: f. 1610, siy. 13, iş 122, v. 180.

# IX.

# GENUYA VƏ HAAQA BEYNƏLXALQ KONFRANSLARINDA BAKI NEFTİ UĞRUNDA MÜBARİZƏ

Genuya konfransı müharibədən sonrakı Avropanın maliyyə-iqtisadi problemlərini həll etmək üçün çağrılmışdır. Konfransda Rusiyanın iştirakı qitədə ümumi sülhün, ticari-iqtisadi əməkdaşlığın bərqərar edilməsi üçün geniş imkanlar açırdı. Qərb ölkələri Avropada iqtisadiyyatın dirçəldilməsi problemindən başqa daha bir mühüm məsələni həll etməli idilər. Bu, şərti olaraq "rus məsələsi" adlanan keçmiş çar və Müvəqqəti hökumətlərin xarici borclarının, həmçinin sovet hakimiyyətinin milliləşdirdiyi xarici mülkiyyətin taleyi məsələsi idi. Beynəlxalq iqtisadi forumun keçirilməsinin təşəbbüskarı RSFSR hökuməti idi. 28 oktyabr 1921-ci il tarixli notada sovet hökuməti Rusiyanın və başqa dövlətlərin qarşılıqlı iddiaları-

nı müzakirə edəcək və yekun sülh müqaviləsini hazırlayacaq konfransın çağırılmasını təklif etmişdir.[493]

Sovetlərin təklifinə ilk olaraq Böyük Britaniya hökuməti cavab vermişdir. Buna Bakı neft sənayesində öz mövqeləri-ni qaytarmağa çalışan "Royal Datç Şell" neft trestinin güclü təsiri olmuşdur. Genuya konfransından əvvəl "Şell" təkbaşı-na konsessiya almaq üçün Moskva ilə danışıqlar aparmışdır. Sonralar Böyük Britaniya hökumətinin başçısı N.Çember-len etiraf etmişdir ki, o, həmin danışıqlardan xəbərdar idi.[494] 1921-ci il oktyabrın 19-da Böyük Britaniya xarici işlər nazi-rinin köməkçisi E.Ovey L.Krasinə məktub göndərərək məlu-mat verirdi ki, "Şell" C.Boyl soyadlı bir polkovnik vasitəsilə Rusiyanın cənubunda və Qafqazda neft konsessiyasını əldə etmək arzusundadır və C.Boyl Britaniya hökumətinin razılı-ğı əsasında hərəkət edir.[495]

Böyük Britaniyanın Rusiya ilə münasibətlər qurmaqda maraqlı olması təsadüfi deyildi. Rusiya iqtisadiyyatı ilə sıx bağlı olan bu ölkə Avropadakı iqtisadi böhrandan daha çox zərər çəkmişdir. Britaniyadan fərqli olaraq, iqtisadi böhran Fransaya daha az təsir etmişdir və buna görə Paris Rusiya ilə münasibətlərin bərpa edilməsinin əleyhinə idi. Fransanı ilk növbədə keçmiş çar hökumətinin borclarının qaytarılması maraqlandırırdı. Böyük Britaniyanın və Fransanın mövqe-yində bu fərq Genuya konfransı vaxtı özünü daha qabarıq şəkildə göstərdi. Böyük Britaniyanın Bakıda konsessiya al-maqda israrlı olması həm də ingilislərin bu yolla digər dünya nəhəngi – ABŞ-ın "Standard oyl" şirkətindən gələn təhlükəni

---

[493] Лопатин В.Ф. Провал антисоветских планов США. Генуя-Гаага. 1922. Москва, 1963, с. 7.

[494] Денни Л. Борьба за нефтяную монополию. Москва-Ленинград, 1934, с. 122.

[495] Mehdizadə M. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994, s. 20.

neytrallaşdırmaq istəyi ilə bağlı idi. “Standard oyl”un idarə heyətinin ABŞ Dövlət Departamentinə göndərdiyi “Rusiyada vəziyyət” adlı arayışda qeyd olunurdu ki, ingilislər ikili oyun aparır və separat danışıqlar yolu ilə özləri üçün imtiyazlar əldə etməyə çalışırlar.[496]

“Şell” ilə “Standard oyl” arasında rəqabət Birinci Dünya müharibəsinin başa çatmasından sonra başlanan neft yataqları uğrunda mübarizənin məntiqi davamı idi. Xarici kapital ümid edirdi ki, konsessiyalar əldə etməklə sovet hökumətinin milliləşdirdiyi mülkiyyəti qismən də olsa, qaytarmaq mümkündür. Dünyadakı neft yataqları, o cümlədən, zəngin Bakı yataqları uğrunda rəqabət koalisiyaların yaranmasına və dağılmasına, keçmiş müttəfiqlərin barışmaz düşmənlərə çevrilməsinə gətirib çıxarırdı. Bir-birini qabaqlamaq istəyən ABŞ və Böyük Britaniya Rusiyanın artıq milliləşdirilmiş müəssisələrinin aksiyalarını satın almağa başladılar. Məqsəd həmin aksiyalara sahib olmaqla gələcəkdə milliləşdirmə nəticəsində dəymiş zərərin ödənilməsini tələb etmək idi. 1920-ci ilin iyulunda “Standard oyl” tresti ABŞ Dövlət Departamentinin sanksiyası ilə Bakı neft sənayesinin ən iri inhisarçılarından biri olmuş “Nobel qardaşları şirkəti”nin səhmlərini almaq qərarına gəldi. 11,5 mln. dollar dəyəri olan səhmlər paketini trest 9 mln. dollara almışdır. Nobellərin Bakıdakı bütün müəssisələrinin milliləşdirilməsi “Standard oyl”u niyyətindən döndərmədi. Sovet hakimiyyətinin uzunömürlü olmayacağına və tezliklə süqut edəcəyinə inanan amerikalılar bu baş verdiyi halda özlərinin mövqeyini möhkəmlətməyə çalışırdılar. “Standard oyl”un rəhbəri U.Tiql anlayırdı ki, Avropanı Rusiya nefti ilə təchiz etmək daha ucuz başa gələcək. O, bolşevik hakimiyyətinin süqutundan sonra açılan geniş imkanla-

[496] Фурсенко А.А. Нефтяные войны…, с. 177.

rı götür-qoy edərək, Nobellərin vaxtilə Rusiyada neft hasilatının 1/3-nə, neftayırma zavodlarının 40 %-nə və ümumrusiya bazarının 60 %-nə nəzarət etdiyini nəzərə alırdı.[497] Bundan başqa, Nobelin səhmlərini alarkən ABŞ tresti ehtiyat edirdi ki, gecikdiyi təqdirdə bunu Britaniyanın "Şell" tresti edəcək.[498] "Şell" həqiqətən də Nobellərlə razılaşmaya yaxın idi, lakin Britaniya hökumətinin mənfi mövqeyi bu razılaşmanın əldə edilməsinə mane olmuşdu. "Standard oyl"un sövdələşməsindən xəbər tutan "Şell"in başçısı H.Deterdinq dərhal bir neçə Bakı firmasının – Mantaşevin, Lianozovun, Tsaturovun, Qukasovun səhmlərini aldı. Beləliklə, Britaniya kapitalının da Bakı neftinə iddiaları üçün zəmin yaranmış oldu. Gələcək planlardan danışan H.Deterdinq 1920-ci ilin sentyabrında demişdir: "təxminən yarım ildən sonra nəinki Qafqaz, həm də bütün Rusiya bolşeviklərdən təmizlənəcək."[499]

Qərbin iri inhisarları arasındakı ziddiyyətlər onların Bakı nefti ilə bağlı maraqlarının fərqli olması ilə izah edilirdi. "Şell" ilk növbədə Rusiyada işlərini bərpa etməyə və ya ən azından əvvəlki mülkiyyəti əvəzinə yenisinin verilməsinə razı idi. Bakı neft sənayesində daha az həcmdə səhmlərə malik olan Fransa-Belçika qrupu üstünlüyü məhz həmin aksiyalara verir və buna görə keçmiş mülkiyyətin geri qaytarılmasını istəyirdi. Milliləşdirilmiş müəssisələrə görə kompensasiya rolunu oynaya biləcək yeni konsessiyalar fransızları demək olar ki, maraqlandırmırdı, onlar əvəzin ödənilməsini yox, mülkiyyətin tam qaytarılmasını tələb edirdilər. Digər ziddiyyət ondan ibarət idi ki, sovet hökuməti oktyabr çevrilişindən sonra milliləşdirilmiş neft müəssisələrini alan xarici şirkətləri

[497] Соколов А.К. Göst. əsəri, s. 121.

[498] Фурсенко А.А. Нефтяные войны…, с. 170.

[499] Фурсенко А.А. Нефть и политика: история и современность / Новая и новейшая история, 1987, №3, с. 75.

qanuni iddiaçı saymırdı.[500] Buna görə "Şell" kimi, "Standard oyl" da Rusiyada işləri bərpa etməyə çalışırdı və məntiqlə ingilis tresti ilə birləşərək fransızlara qarşı olmalı idi. Lakin "Şell" "Standard oyl"un 1920-ci ilə qədər Bakı neft sənayesində fəaliyyət göstərmədiyinə əsaslanaraq, ABŞ trestinə qarşı çıxış edirdi. Nəticədə amerikalılar fransızlarla birləşdilər və Genuya konfransında vahid blok yaratdılar.[501]

Konfrans ərəfəsində Qərb dövlətləri arasında beynəlxalq foruma iki baxış mövcud idi. Fransanın və ABŞ-ın təmsil olunduğu birinci qrup həm konfransın özünə, həm də Rusiya ilə ticarət münasibətlərinin qurulmasına qarşı çıxırdılar. Bəzi ölkələrin ticarət, sənaye və maliyyə dairələrinin təmsil olunduğu ikinci qrup isə konfransın çağırılmasında, uğurla nəticələnməsində və Rusiya ilə əlaqələrin bərpasında maraqlı idi. "Pravda" qəzetinin yazdığı kimi, "Genuyada rus məsələsinə dair iki baxış toqquşacaq – Sovet Rusiyasını tanımaqdan imtina edən Fransanın və kapitalizmin böhranına görə tanınmanı tələb edən Lloyd-Corcun baxışları."[502]

Nəhayət, uzun sürən diplomatik prosedurlardan sonra 1922-ci il yanvarın əvvəlində Kann şəhərində Antanta Ali Şurası İtaliyanın Genuya şəhərində beynəlxalq konfransın çağırılmasını qərara aldı. Kannda qəbul olunan qətnamədə RSFSR üçün çox ciddi əhəmiyyət daşıyan maddə var idi. Belə ki, həmin maddəyə görə, heç bir millətin başqasına öz prinsiplərini diktə etmək hüququ yoxdur və hər bir ölkə özünə uyğun ictimai-siyasi və iqtisadi quruluşu seçməkdə azaddır.[503] Qərb dövlətlərinin bu cür mövqe

---

500 Богдановский С. Кавказская нефть, как объект империализма / Мировое хозяйство и мировая политика, 1927, №9, с. 28.

501 Фурсенко А.А. Нефтяные войны..., с. 178.

502 Правда, 2 апреля 1922 г.

503 Системная история международных отношений 1918-1945. События и документы / Под ред. А.Д.Богатурова: Т.1, Москва, 2000 // www.obraforum.ru.

nümayiş etdirməsi onlar tərəfindən ciddi güzəşt idi və Moskva ilə danışıqların aparılması üçün zəmin yaradırdı. 1922-ci il yanvarın 7-də İtaliya hökuməti RSFSR-i rəsmən Genuya konfransına dəvət etdi. Yanvarın 8-də sovetlər dəvəti qəbul etdilər. Dəvət birbaşa Sovet Rusiyasının hökumətinə ünvanlansa da, Moskva 1920-ci illərdə işğal etdiyi respublikaları da konfransda iştirak etmək üçün cəlb etməyə başladı. 1922-ci il yanvarın 17-də RSFSR MİK-in sədri M.Kalinin və xalq xarici işlər komissarı G.Çiçerin müttəfiq respublikalara müraciət edərək, onları kapitalist ölkələri ilə diplomatik mübarizə aparmaq üçün vahid cəbhə yaratmağa çağırdılar.[504] Rusiyanın məqsədi formal olaraq müstəqil sayılan, əslində isə asılı olan respublikaları özünün bərabərhüquqlu müttəfiqləri kimi təqdim etmək idi. Beynəlxalq ictimai rəyin Sovet Rusiyasını Ukraynanı, Mərkəzi Asiya və Qafqaz ölkələrini işğal etmiş dövlət kimi qəbul etməsini nəzərə alaraq, konfransda vahid sovet nümayəndə heyətinin iştirakı Rusiyadan asılı olan respublikalarda xarici müstəqilliyin mövcudluğu və onların vahid mövqedən çıxış etməsi görüntüsünü yaratmalı idi.

Beynəlxalq konfransın çağırılması xəbəri 1920-1921-ci illərdə bolşeviklər tərəfindən devrilmiş və mühacirətdə qalmış Qafqaz respublikalarının nümayəndələrini hərəkətə gətirdi. 1922-ci il yanvarın 4-də Qafqazın müstəqil respublikalarının Paris sülh konfransında təmsilçiləri – Ə.Topçubaşov (Azərbaycan), A.Çxenkeli (Gürcüstan), A.Aqaronyan (Ermənistan), Ə.Çermoyev (Dağlılar Respublikası) Antantanın Ali Şurasının sədri A.Briana nota ünvanlayaraq, Qafqaz respublikaları ilə bağlı hər hansı konsessiyanın yalnız onların qanuni hökumətləri ilə bağlanmasının vacibliyini bildirmişlər.[505] Bunun ar-

---

[504] ARDA: f. 28, siy. 1, iş 46, v. 40.

[505] Топчибаши А.М. Парижский архив 1919-1940. В четырех книгах. Книга вторая. 1921-1923. Составители Г.Мамулиа и Р.Абуталыбов. Москва, 2016, с. 342-344.

dınca göndərilən növbəti notalarda Qafqaz respublikalarının nümayəndələri onları Rusiyadan ayrı iqtisadi vahid kimi danışıqlara cəlb etməyi, Sovet Rusiyası ilə əlaqələr qurarkən ilkin şərt kimi onun işğal etdiyi Qafqaz dövlətlərindən öz qoşunlarını çıxarması şərtini irəli sürməyi xahiş edirdilər.[506] 1922-ci il yanvarın 24-də Türkiyənin "Bosfor" qəzetində Ə.Topçubaşovun, A.Çxenkelinin, A.Aqaronyanın və Ə.Çermoyevin Antanta Ali Şurasına müraciəti dərc olundu. Müraciətdə onlar konfransa buraxılmalarını xahiş etməklə yanaşı bildirirdilər ki, "Qafqaz xalqlarının ruslarla heç bir irqi, dil əlaqəsi yoxdur və Rusiya Qafqazın sərvətlərinə heç bir hüquqa malik deyil."[507]

1922-ci il fevralın 6-da İtaliyadakı Rusiya iqtisadi missiyası bu ölkənin Xarici İşlər Nazirliyinə nota göndərərək, keçmiş Denikin, Vrangel və Qafqaz respublikaları hökumətlərinin konfransa dəvət olunmasını izah etməyi xahiş etmişdir. İtaliyanın ali diplomatiya qurumunun cavabında bildirilirdi ki, "əks-inqilabçı Rusiya hökumətlərinin dəvət olunması" müzakirə edilməmiş, Qafqaz dövlətlərinə gəldikdə isə onların Avropadan kənarda yerləşdiyini nəzərə alaraq, dəvət olunmaları məqbul sayılmamışdır.[508] Buna baxmayaraq, devrilmiş Qafqaz hökumətlərinin nümayəndələri Genuyaya gəlmiş, burada bolşevik rejiminin və Rusiyanın Qafqazdakı siyasətinin ifşa olunması istiqamətində fəaliyyət göstərmişlər.[509]

Bu zaman isə digər müttəfiq respublikalarda olduğu kimi, Azərbaycan SSR-də də Genuyaya nümayəndələrin göndərilməsinə hazırlıq işləri gedirdi. Moskva belə bir görüntü yaratmağa çalışırdı ki, guya bütün respublikalar Genuyada müstəqil təmsil olunacaqlar. 1922-ci il fevralın 11-də Azərbaycan SSR

506 Топчибаши А.М. Парижский архив. Книга вторая, с. 345-351.
507 ARDA: f. 28, siy. 1, iş 235, vv. 133-134.
508 Документы внешней политики СССР: Т.5, с. 81-82.
509 Топчибаши А.М. Парижский архив. Книга вторая, с. 364-389.

MİK-i N.Nərimanova Genuyada respublikanın maraqlarını təmsil etmək üçün mandat verdi.[510] Mandat N.Nərimanovu Azərbaycanın maraqlarını müdafiə etməyə, bəyanatlar, qərarlar verməyə, sənədlər və müqavilələr imzalamağa müvəkkil edirdi. Həmin gün Bakı Soveti N.Nərimanova belə bir tapşırıq vermişdir: "Genuya konfransında beynəlxalq burjuaziyanın sovet respublikalarının zəhmətkeş xalqlarını qarət etmək və iqtisadi asılılığa salmaq məqsədilə təzyiq göstərəcəyini nəzərə alaraq, Bakı Soveti sənə birləşmiş sovet nümayəndə heyətinin simasında sovet ölkələrinin ittifaqını imperialist dövlətlərin birləşmiş cəbhəsinə qarşı qoymağı tapşırır..."[511] Qeyd etmək lazımdır ki, həm bu, həm də sonrakı sənədlərdə həddindən artıq çox pafos var idi. Sovet rəhbərliyində bəziləri hesab edirdi ki, Qərbin Rusiyaya daha çox ehtiyacı var və buna görə Genuyada sovet nümayəndələri Avropaya öz istədiklərini diktə edəcəklər. Bu mənada N.Nərimanovun Bakı Sovetinin tapşırığına verdiyi cavab maraqlıdır: "Yoldaşlar, sizin tapşırığınızı yerinə yetirməyə təntənəli şəkildə and içirəm... İki dünya – köhnə və yeni dünya tarixi danışıqlara girir və şübhəsizdir ki, köhnə dünya arxasındakı dayağın zəif olduğunu hiss edir, əks halda bizi dəvət etməzdilər..."[512]

Tezliklə Rusiyanın əsl məqsədi bəlli oldu. Konfransda müttəfiq respublikaların adından çıxış etmək hüququna nail olmaq üçün bütün səlahiyyətlərin Rusiyaya verilməsi təşəbbüsü irəli sürüldü. Respublikaların müstəqilliyinin məhdudlaşdırılması istiqamətində atılmış bu növbəti addım belə təqdim olunurdu ki, guya təşəbbüs Moskvadan deyil, müttəfiq respublikaların özündən gəlirdi. Belə ki, 1922-ci il fevralın 22-də Azərbaycan SSR MİK sədrinin müavini Səməd Ağamalıoğlu Azərbaycan

[510] ARPİİSSA: f. 609, siy. 1, iş 15, v. 101.

[511] Бакинский рабочий, 12 февраля 1922 г.

[512] Бакинский рабочий, 13 февраля 1922 г.

SSR-in RSFSR hökuməti yanında səlahiyyətli nümayəndəsi Ə.Şirvaniyə teleqram göndərərək, MİK-in ona RSFSR-in vahid nümayəndə heyəti tərkibində protokollar imzalamaq hüququnu verdiyini bildirmişdir.[513] Həmin gün müttəfiq respublikaların nümayəndələri, o cümlədən, Ə.Şirvani öz səlahiyyətlərinin RSFSR-ə verilməsi haqqında protokol imzaladılar.[514]

Genuyada Azərbaycanı təmsil edən N.Nərimanovun fikrincə, konfrans sırf iqtisadi mənfəət gətirəcək. 1922-ci il fevralın 22-də V.Leninə və RK(b)P-nin Mərkəzi Komitəsinin bütün üzvlərinə yazdığı məktubda o, bildirirdi: "Biz konfransda iştirak etməyə təkcə ona görə razı olmadıq ki, bizi tanıyacaqlar, həm də ona görə razı olduq ki, Avropanın texnikası olmadan öz sənayemizi bərpa etmək iqtidarında deyilik. Buna görə biz iqtisadi əlaqələrin qurulması və sənayemizin inkişafı, yenilənməsi üçün Avropa kapitalına hansı güzəştlərə getməli olduğumuzu burada aydın şəkildə müəyyənləşdirməliyik. Bu istiqamətdə işi elə aparmaq lazımdır ki, bizə təbliğatçı kimi deyil, özümüzün və Avropa fəhlələrinin həyatını yaxşılaşdırmaq istəyən iş adamları kimi baxsınlar. Borcların və zərərin ödənilməsi bizi qorxutmamalı və qıcıqlandırmamalıdır. Bütün sovet respublikaları özlərini sıxar və ödəyərlər, lakin qətiyyən imkan verməк olmaz ki, Avropa kapitalı bizdə hökmranlıq etsin, biz isə sistematik olaraq, hiss etmədən simasızlaşaq... Daxili işlərimizə qarışmaq üçün ən kiçik istək olduqda biz müqavimət göstərməliyik ki, onlar bilsinlər: bizim daxili həyatımızın qurulması işində onların məsləhətlərinə deyil, maşınlarına ehtiyacımız var."[515]

Lakin bir qədər sonra N.Nərimanovun Genuya konfransı ilə bağlı nikbinliyindən əsər-əlamət qalmadı. 1922-ci il mar-

[513] ARDA: f. 28, siy. 1, iş 46, v. 29.
[514] ARDA: f. 28, siy. 1, iş 86, v. 114.
[515] TİEA: qovluq № 5326, v. 58.

tın 27-də İ.Stalinə yazdığı məktubda o, bildirirdi: "Bizim Genuya konfransında nəzərdə tutduğumuz güzəştlər göstərir ki, birincisi, biz Avropanın fəhlə sinfinin köməyinə o qədər də arxayın deyilik, ikincisi, bizim daxili vəziyyətimiz o qədər də ürəkaçan deyil. Mən şəxsən fikirləşirəm ki, Genuya konfransı bizə heç nə verməyəcək, buna görə, lazım bilsəniz, məni geri çağırtdırın və özünüzlə Tatarıstan, Başqırdıstan və Qırğızıstan səfərinə aparın."[516]

1922-ci aprelin 10-dan mayın 19-na qədər davam edən Genuya konfransında 29, ingilis dominionları ilə birgə isə 34 dövlət iştirak edirdi. Müzakirə olunan məsələlər arasında əsas yeri Avropada sülhün və iqtisadi əməkdaşlığın bərqərar edilməsi, həmçinin Rusiyanın borcu məsələləri tuturdu. Genuya konfransının tarixinə dair xeyli əsər yazılmış və sənədlər dərc olunmuşdur. Bizim üçün daha maraqlı olan məqam konfransda Bakı neftinin oynadığı roldur. Bununla belə, Bakı nefti məsələsi nəinki konfransın gündəliyinə salınmamış, hətta forumda bir dəfə də olsun müzakirə edilməmişdir. Genuyada həqiqətən də Bakıdakı konsessiyalar uğrunda gizli, pərdəarxası mübarizə gedirdi və istər xarici, istərsə də sovet müəllifləri qeyd edirdilər ki, Bakı nefti konfrans zamanı əsas mövzulardan biri idi. O dövrün qəzetlərinin əksəriyyəti bu faktı etiraf edirdi. Almaniyanın "Reyn-Vestfalişe Tsaytunq" qəzeti yazırdı: "Bəziləri fikirləşir ki, Genuya konfransının tarixi neftlə yazılacaq." Britaniyanın "Mançester Qardian" qəzeti: "Əgər Rusiya Genuya konfransında təmsil olunubsa, müzakirələrin ən vacib predmeti neft olacaqdır."[517]

---

[516] ARPİİSSA: f. 609, siy. 1, iş 32, vv. 43-46.

[517] Рубинштейн Н.Л. Советская Россия и капиталистические государства в годы перехода от войны к миру (1921-1922). Москва, 1948, с. 342.

Rusiya Genuyaya diplomatik tanınmaya nail olmaq və kredit almaq niyyəti ilə gedirdi. Bununla bağlı V.Lenin deyirdi: “Biz Genuyaya kommunistlər kimi yox, tacirlər kimi gedirik.”[518] Diplomatik tanınma və kreditlər əvəzində Moskva köhnə borcların bəzilərini ödəməyə, həmçinin xaricilərə konsessiyalar verməyə razı olduğunu bildirmişdir. Bununla belə, V.Lenin əslində Genuya konfransının pozulmasının tərəfdarı idi. Borcları və milliləşdirilmiş mülkiyyəti tam qaytarmadan qarşıya qoyulan məqsədlərə çatmağın mümkünsüzlüyünü başa düşən V.Lenin G.Çiçerinə yazırdı: “Tam məxfi. Genuyanın pozulması bizə sərf edir, lakin əlbəttə ki, bizim tərəfimizdən yox. Əgər Genuyanı biz pozmasaq, krediti Genuyasız almağımız daha yaxşı olar...”[519] Beləliklə, V.Lenin başa düşürdü ki, Rusiya Genuya konfransında Qərb ölkələrinin tələbləri qarşısında tab gətirə bilməyəcək. G.Çiçerin isə bununla razı deyildi və hesab edirdi ki, Genuyasız Rusiya Qərbdən yardım ala bilməyəcək.

Buna baxmayaraq, sovet nümayəndə heyəti öz məqsədlərinə nail olmaq niyyətində idi və bunun üçün həm də Bakı nefti amilindən istifadə edirdi. Hələ konfransdan əvvəl RSFSR hökuməti neftli torpaqların konsessiyalara verilməsi planını elan etdi. L.Krasin bildirirdi ki, bütün neftin bir şirkətə verilməsi sovet hökumətinin prinsiplərinə və maraqlarına ziddir, buna görə məqsəd Bakı neftinin ¼-ni dövlətin əlində saxlamaq, yerdə qalanını isə 3-4 zonaya bölüb müxtəlif xarici şirkətlərə vermək idi.[520]

Genuya Bakının “qara qızılı”na marağı olanların hamısını özünə cəlb etdi. Təsadüfi deyil ki, konfransda müşahidəçi qismində iştirak edən ABŞ Genuyada məhz Bakı məsələsi or-

---

518 Алиев А.П. Göst. əsəri, s. 12.

519 Ленин В.И. Неизвестные документы, с. 504.

520 Павлович М. Мировая борьба за нефть. Москва, 1923, с. 24.

taya çıxan zaman daha çox fəallıq göstərirdi. Genuyaya təcili olaraq ABŞ-ın reparasiya komissiyasında nümayəndəsi Loqan və keçmiş senator D.Hamilton Lyuis gəldilər. ABŞ Dövlət Departamenti Loqana Genuyaya iqtisadi müşahidəçi qismində getməyə və əsasən Bakı neft rayonuna aid məsələlərə nəzarət etməyə dair göstəriş vermişdir. Lyuisin missiyası isə "Standard oyl"un maraqları ilə əlaqədar idi. Lyuis öz müsahibəsində bildirmişdir ki, onun Genuyadakı olması təmsil etdiyi şirkətlərin maraqlarının müdafiəsi ilə bağlıdır və ümumiyyətlə, amerikalılar konfransda həlli gözlənilən konsessiyalarda ədalətli pay almalıdırlar.[521]

Aprelin 10-da konfransın ilk plenar iclasında sovet nümayəndə heyətinin rəhbəri G.Çiçerin öz hökumətinin proqramı ilə çıxış etdi. O, xaricilərə konsessiyaların verilməsini mümkün saysa da, konkret olaraq neft konsessiyaları haqqında heç nə demədi.[522]

Aprelin 11-də konfransın siyasi altkomissiyası RSFSR-ə öz tələblərini təqdim etdi. Bolşeviklərdən çar hökumətinin bütün borclarının tanınması, milliləşdirilmiş müəssisələrin geri qaytarılması, xarici ticarət üzərində dövlət inhisarının ləğv edilməsi və xaricilərə sahibkarlıq və ticarət fəaliyyəti ilə məşğul olmağa əlverişli şəraitin yaradılması tələb olunurdu.[523] Sadalanan tələblərlə bağlı "Standard oyl" və "Şell" trestlərinin milliləşdirilmiş müəssisələrin səhmlərini satın almasını bir daha xatırlatmaq yerinə düşər. Rusiyanın Qərbin tələbləri ilə razılaşacağı təqdirdə hər iki trest Bakıdakı neftli torpaqlara iddia edə bilərdi. Lakin sovet nümayəndə heyəti siyasi altkomissiyanın şərtlərini qəbul etməkdən imtina etdi.

[521] Лопатин В. Ф. Göst. əsəri, s. 194-195.

[522] Чичерин Г.В. Статьи и речи по вопросам международной политики. Москва, 1961, с. 209.

[523] История дипломатии: Т. 3, с. 110.

20 aprel tarixli memorandumda sovet nümayəndə heyəti bəyan etdi ki, "iri sənayenin əksər sahələrində, xüsusilə neft, daş kömür, elektrik sənayesində özəl mülkiyyətin və keçmiş mülklərin sərhədlərinin bərpası heç şübhəsiz, Rusiyada məhsuldar qüvvələrin yüksəlişinə və təsərrüfatın tezliklə dirçəlməsinə güclü maneə olacaq."[524] Doğrudur, aprelin 24-də nümayəndə heyəti yeni bəyanatla çıxış etdi və bildirdi ki, sovet hökuməti "Rusiya Respublikasının sosial-iqtisadi sistemi və əsas qanunları imkan verəcəyi vaxtda" milliləşdirilmiş müəssisələri yenidən xaricilərə qaytarmağa hazırdır.[525] Lakin təbiidir ki, bu qeyri-müəyyən vəd idi.

Müzakirələrin getdiyi bir vaxtda konfransın kuluarlarında şayiələr yayıldı ki, sovet hökuməti ilə danışıqlar nəticəsində "Royal Datç Şell" şirkəti Qafqazda neft konsessiyalarını alıb. Mayın 1-də ABŞ-ın "Nyu-York tayms" qəzeti bu barədə məlumat verdi. Şayiə böyük həyəcana səbəb oldu. Kənarda qalan amerikalılar və fransızlar dərhal etiraz bəyanatı verərək, onların da maraqlarının və iddialarının nəzərə alınmasını tələb etdilər. Sovet tərəfi və ingilislər danışıqlar haqqında şayiələri təkzib etsələr də, əslində tərəflər arasında ilkin danışıqlar baş tutmuşdur. Artıq Genuya konfransı başa çatandan sonra "Şell"in nümayəndəsi R.Koqen bildirmişdir ki, Britaniya hökuməti trestdən sovetlərlə danışıqlar zamanı digər xarici şirkətlərin maraqlarını pozmamaq haqqında öhdəlik almışdır. R.Koqenin sözlərinə görə, həmin şirkətlərin maraqları müttəfiqlərin bolşeviklərlə xüsusi razılaşmasının predmeti olmalı idi.[526] Genuyada D.Lloyd-Corc və H.Deterdinq milliləşdirilən müəssisələrin qaytarılması tələbindən imtina edib, 99 illik icarə və ya konsessiyalar prinsipi ilə

[524] Документы внешней политики СССР: Т.5, с. 241.
[525] Документы внешней политики СССР: Т.5, с. 269.
[526] Богдановский С. Кавказская нефть…, с. 81.

razılaşmağa meylli idilər.[527] Rusiya ilə "Şell" arasında danışıqların pozulmasında ABŞ hökuməti tərəfindən dəstəklənən "Standard oyl" trestinin mövqeyi az rol oynamamışdır. Ümumiyyətlə, ABŞ sovetlərlə hər hansı təmasların, xüsusilə neftə aid təmasların əleyhinə idi. Artıq mayın 2-də Dövlət Departamenti ABŞ-ın konfransdakı nümayəndəsi R.Çaylddan "Şell"in həqiqətənmi sovet nümayəndə heyəti ilə danışıqlar aparmasını yoxlamağı tələb etmişdir. R.Çayld cavabında hələlik kifayət qədər məlumatın olmadığını bildirmiş və Dövlət Departamentindən xahiş etmişdir ki, təcili tədbirlər görməyə ehtiyac olarsa, ona təlimat verilsin.[528]

1922-ci il mayın 3-də Dövlət Departamentinin iqtisadi müşaviri Milspo "Standard oyl" və onun Bakı neftinə olan maraqları haqqında məlumatların yer aldığı geniş məktubu R.Çaylda göndərmişdir. Milspo bildirirdi ki, müttəfiqlər milliləşdirməni tanısalar da, "Şell" konsessiya alsa da, hər iki trest arasında münaqişə olsa da, "Standard oyl" istənilən halda Rusiyada öz maraqlarını müdafiə edəcək.[529] Faktiki olaraq trestin maraqlarını müdafiə edən Amerika hökuməti Bakı nefti məsələsində "açıq qapı" prinsipinin tətbiqinə, yəni mülkiyyətin qaytarılmasında və ya neft konsessiyalarının verilməsində hamının bərabər iştirakının təmin olunmasına çalışırdı. Bu mövqeyi ABŞ Nobellərdən aldığı Bakı müəssisələrinin səhmləri ilə əsaslandırırdı. Lakin buna baxmayaraq, amerikalılar özləri də kənarda qalmayıb neft məsələlərinə dair sovetlərlə separat danışıqlar aparırdılar. Genuyada "Standard oyl"un təmsilçiləri L.Krasin ilə əlaqə yaratmışdılar. "Standard oyl"un İtaliyadakı filialının rəhbəri Movinkelin dəvəti ilə L.Krasin onun villasında olmuş və qeyri-rəsmi şəraitdə sovet-amerikan

[527] Денни Л. Göst. əsəri, s. 122.
[528] Лопатин В.Ф. Göst. əsəri, s. 205.
[529] Лопатин В.Ф. Göst. əsəri, s. 206-207.

danışıqlarının və razılaşmalarının mümkünlüyü haqqında müzakirələr aparmışdır. Görüş zamanı Movinkel sovet-amerikan sazişi həll edilməyənədək ingilislərlə danışıqlar aparmamağı L.Krasindən xahiş etmişdir. O, həmçinin fikir mübadiləsi aparmaq üçün L.Krasinin Nyu-Yorka səfər etməsini arzuolunan olduğunu bildirmişdir.[530] Genuyada L.Krasinlə "Standard oyl"un rəhbərlərindən biri U.Tiql da görüşmüşdür. Lakin bu danışıqların hamısı nəticəsiz qaldı, çünki ABŞ milliləşdirilmiş mülkiyyət keçmiş sahiblərinə qaytarılmayana qədər RSFSR-i tanımaqdan imtina etdi.

Bakı nefti uğrunda gedən bu pərdəarxası mübarizənin fonunda mayın 2-də Genuya konfransında Qərb dövlətlərinin RSFSR hökumətinə memorandumu elan olundu. Sənəddə birbaşa Bakı nefti xatırlanmasa da, memorandumun VII maddəsində milliləşdirilmiş mülkiyyətdən bəhs edilirdi. Burada qeyd olunurdu ki, RSFSR hökuməti müsadirə olunmuş mülkiyyəti xarici sahibkarlara qaytarmalı və yaxud bu mümkün deyilsə, müsadirə zamanı dəymiş zərərə görə kompensasiya ödəməlidir. Sovetlərin geri qaytara bilmədiyi mülkiyyət sonradan digər konsessionerlərə verilməməli idi. Əgər bolşevik hökuməti mülkiyyətin geri qaytarılmasını mümkün hesab etsə, üstünlük həmin mülkiyyətin keçmiş sahiblərinə verilməli idi.[531]

Rusiyalı tarixçi Fyodor Volkovun qeyd etdiyinə görə, 2 may memorandumunu neft inhisarlarının konfransın işinə müdaxiləsi ilə izah etmək olar.[532] Memorandum bilavasitə Böyük Britaniyanın maraqlarına cavab verirdi. VII maddə isə ingilislərin neft sənayesində mövqeyinin təmin edilməsinə yönəlmişdir. Genuyadakı Britaniya nümayəndə heyəti hər vəchlə çalışırdı ki, konsessiyaları yalnız bu ölkənin şirkətləri qazan-

.........................................................................................

530 Фурсенко А.А. Нефтяные войны…, с. 179.

531 Документы внешней политики СССР: Т.5, с. 377.

532 Волков Ф.Д. Göst. əsəri, s. 258.

sınlar və ya ən azından həmin şirkətlərin üstün mövqeyi təmin edilsin. Konsessiyaların neft sənayesinə yatırılan xarici kapitalın həcminə uyğun verilməsi təşəbbüsünü irəli sürməklə, Böyük Britaniya məhz özünün mənfəətini güdürdü. Belə ki, keçmiş Rusiya imperiyasının neft sənayesində təmsil olunan xarici kapitalın 67 %-i məhz ingilislərin payına düşürdü.[533] İngilislərin VII maddəyə daxil etdiyi paraqrafda "keçmiş sahibkar" dedikdə Rusiyada milliləşdirmə dekreti verilənədək mülkiyyətə sahib olan şəxs və ya şəxslər nəzərdə tutulurdu. Belə olduqda "Standard oyl" mülkiyyətin geri qaytarılmasından və ya mülkiyyətə görə kompensasiyanın ödənilməsindən kənarda qala bilərdi, çünki, birincisi, ABŞ tresti Nobellərin səhmlərini milliləşdirmədən sonra satın almış, ikincisi isə səhmlər Nobellərin rus müəssisəsinə məxsus idi və hüquqi cəhətdən RSFSR hökuməti öz təbəələrinin mülkiyyəti ilə bağlı istədiyi qərarı verə bilərdi. "Şell" də milliləşdirilmiş müəssisələrin səhmlərini alsa belə, ingilis kapitalı sovet hakimiyyəti qurulandan xeyli əvvəl Bakı neft sənayesində təmsil olunmuşdur. Beləliklə, sovet nümayəndə heyəti memorandumu qəbul etdiyi təqdirdə Böyük Britaniya Bakı neft sənayesində tam üstünlüyə nail olmaq imkanını əldə edəcəkdi.

Lakin ingilislərin maraqlarına cavab verən bu variant Bakı neftinə yiyələnmək istəyən digər iddiaçıları, başlıca olaraq, ABŞ-ın "Standard oyl" trestini qane etməmişdir. 1922-ci il mayın 5-də "Standard oyl"un direktorlar şurasının sədri A.Bedford ABŞ-ın dövlət katibi E.Hyuza xüsusi məktub göndərərək, trestin Bakı nefti ilə bağlı məsələlərdə mövqeyini bildirmişdir. A. Bedford müttəfiqlərin memorandumunun VII maddəsinə qarşı çıxaraq, onun Rusiyadakı əcnəbi mülkiyyətçilərin hüquqlarını və maraqlarını pozduğunu, trestin mülkiyyətin keçmiş sahiblə-

---

[533] Алиев А.П. Göst. əsəri, s. 16.

rinə qaytarılmasını birmənalı olaraq dəstəklədiyini söyləmişdir. Kompensasiya A.Bedford tərəfindən rədd edilirdi. E.Hyuzu şəxsən ziyarət edən A.Bedford ABŞ-ın Bakı neftinin istismar edilməsindən tamamilə təcrid olunacağından narahatlığını bildirmişdir. Dövlət katibi "Standard oyl"un rəsmisini sakitləşdirərək ona söz vermişdir ki, hökumət ABŞ kapitalının neft konsessiyalarına çıxışını məhdudlaşdıran heç bir sazişi qəbul etməyəcəkdir.[534] Mayın 7-də R.Çayld D.Lloyd-Corcla görüşmüş, konfransın təxirə salınmasını, Rusiyanı öyrənmək üçün komissiyanın təşkil edilməsini və RSFSR hökuməti ilə heç bir separat sazişin imzalanmamasını təklif etmişdir. Söhbət zamanı həmçinin neft məsələsinə də toxunulmuşdur. D.Lloyd-Corc "Şell"in Sovet Rusiyası ilə danışıqlar apardığını inkar etmiş, lakin, eyni zamanda, bildirmişdir ki, konfransın işinin vaxtından əvvəl dayandırılması təhlükəli nəticələrə gətirib çıxara bilər: bir çox ölkələr və şirkətlər, o cümlədən, "Şell" RSFSR ilə separat sazişlər bağlaya bilərlər.[535]

Beləliklə, Qərb ölkələri arasında fikir ayrılıqları Genuya konfransında bir daha üzə çıxdı. Britaniya mülkiyyətin geri qaytarılması əvəzində kompensasiyalara razı olduğu təqdirdə Fransa və ABŞ təkidlə müsadirə olunan mülkiyyətin geri qaytarılmanı tələb edirdilər. Fransa və ABŞ-ın fikrincə, Moskva ilə razılaşmanın vaxtı hələ yetişməyib və "gün gələcək, bolşeviklərin vəziyyəti pisləşəndə onlar ya "Standard oyl"a onun Bakı mülkiyyətini geri qaytaracaq, ya da həmin mülkiyyəti daha əlverişli şərtlər əsasında "qanuni" sahibkara icarəyə verəcəklər."[536]

Mayın 11-də sovet nümayəndə heyəti müttəfiqlərin 2 may memorandumuna cavabla çıxış edərək, bəzi müddəaların özü

---

[534] Фишер Л. Göst. əsəri, s. 50.
[535] Лопатин В.Ф. Göst. əsəri, s. 215.
[536] Фишер Л. Göst. əsəri, s. 51.

üçün qəbuledilməz olduğunu bildirdi. Müttəfiqlərin borclarla bağlı iddialarına cavab olaraq bolşeviklər hələ mayın 8-də əks-iddia irəli sürərək, Qərb ölkələrindən 39 mlrd. qızıl rubldan artıq kompensasiya tələb etmişlər. İqtisadiyyatın bütün sahələri, o cümlədən, Bakı neft sənayesi üzrə zərərin məbləği göstərilmişdir. Sovet hökuməti Bakı neft sənayesinə dəymiş ümumi (birbaşa) zərəri 71,548 mln. rubl dəyərində qiymətləndirmişdir.[537] Beləliklə, sovet nümayəndə heyəti müttəfiqlərin memorandumunu qəbul etmədi. Sovetlər və Qərb heç bir məsələdə ümumi rəyə gələ bilmədikləri üçün Genuya konfransının işi pozuldu. Buna görə borclar, özəl mülkiyyət və kreditlərə dair məsələlərin müzakirəsi üçün komissiyalar təşkil etmək və Haaqada yeni konfrans çağırmaq qərara alındı.

1922-ci il mayın 19-da Genuya konfransının sonuncu iclası keçirildi. Konfransı bağlayan Böyük Britaniyanın baş naziri D.Lloyd-Corc "rus problemi"nə toxunaraq demişdir: "Rusiyanın köməyə ehtiyacı var. Avropanın və dünyanın Rusiyanın verə biləcəyi məhsullara ehtiyacı var. Dünya Rusiyanın bərpası üçün ona öz sərvətlərini, biliklərini verə bilər və Rusiya buna ehtiyac duyur. Rusiya uzun müddət bu kömək olmadan dirçələ bilməyəcək."[538] Digər məsələlərlə yanaşı, Genuyada Cənubi Qafqazda neft konsessiyaları məsələsi də həll olunmamış qaldı. Qərb ölkələri öz aralarında razılığa gələ bilmədilər, çünki hamı Bakının "qara qızılı"na təkbaşına yiyələnməyə çalışırdı. Nəticədə İngiltərə ilə Fransa-ABŞ arasında ziddiyyətlərin daha da kəskinləşməsinə nail olan Rusiya bundan öz mənafeyi üçün istifadə etdi.

Genuya konfransının tarixi ilə bağlı Azərbaycan SSR-in təmsilçisi N.Nərimanovun fəaliyyəti üzərində dayanmaq maraqlı olardı. Yuxarıda deyildiyi kimi, o, konfransa ümidsiz

---

[537] Документы внешней политики СССР: Т.5, с. 321.

[538] История дипломатии: Т.3, с. 190.

yanaşırdı və Genuyaya getmək istəmirdi. Lakin Rusiyanın siyasəti beynəlxalq forumda müttəfiq respublikaların formal da olsa, iştirakını tələb edirdi. Buna görə N.Nərimanov 1922-ci il martın 25-də Moskvaya gələrək, buradan digər nümayəndələrlə birgə İtaliyaya yola düşdü.

N.Nərimanov vahid nümayəndə heyəti ideyasına və müttəfiq respublikaların konfransda rəmzi iştirakına müsbət yanaşırdı. O, deyirdi: "Bəlkə də bizim üçün yaxın perspektivlərin açıldığı indiki məqamda "güc birlikdədir" köhnə döyüş şüarımız hələ belə böyük əhəmiyyət daşımamışdır."[539]

Genuyadan qayıdandan sonra yazdığı xatirələrdə N.Nərimanov konfrans vaxtı etdiyi çıxışlardan və verdiyi bəyanatlardan heç nə deməmişdir. Bu fakt ona görə diqqəti cəlb edir ki, sonralar tarixi və bədii ədəbiyyatda N.Nərimanovun guya Genuyada çıxış etməsi barədə məlumatlar yer almışdı. Məsələn, 1935-ci ildə Bakıda rus dilində çıxan "S.M.Kirov neft uğrunda mübarizədə" kitabında həmin çıxış belə təsvir edilirdi: "Kirov Bakı Sovetinin 13 may 1922-ci il tarixli iclasında deyirdi: "Konfransda məlum olmuşdur ki, Rusiya çox yağlı tikədir. 2,5 milyon adamın yaşadığı Azərbaycan haqqında söhbət düşəndə, orada sovet hakimiyyəti, bolşeviklər, qadın hərəkatı haqqında danışmağa başlayanda yoldaş Nərimanov dedi: "Bizdə Azərbaycanda neft də var, onu ya hasil olunmuş halda əldə etmək, ya da xarici kapitala konsessiyaya vermək olar."[540] Əslində belə bir çıxış olmamışdır və bu, sovet tarixçiliyində yer almış növbəti miflərdən biri idi. Məqsəd N.Nərimanovun guya sovet nümayəndə heyətinin Qərb ölkələri ilə danışıqlarında hansısa rol oynadığını göstərmək idi. Reallıq isə belə idi ki, o, başqa müttəfiq respublikaların nümayəndəsi kimi konfransda çıxış etməmiş və bəyanatlar verməmişdir. Doğrudur, konfransın birinci iş gününü

[539] ARPİİSSA: f. 609, siy. 1, iş 31, v. 26.
[540] Киров С.М. в борьбе за нефть, с. 27.

təsvir edərkən N.Nərimanov xatırlayırdı: "Biz bildirdik: "Avropanı dağıntılardan xilas etmək istəyirsiniz? Buyurun. Geniş tarlalar, zəngin mədənlər, bütün Sibir Sizin ixtiyarınıza verilir, kapital yatırın və biz sizə həm kapitalınızın qorunmasına, həm də gəlirin əldə edilməsinə zəmanət veririk."[541] Lakin həmin bəyanat şəxsən N.Nərimanov tərəfindən səsləndirilməmişdir, bu, sovet nümayəndə heyətinin ümumi mövqeyi idi.

Genuya konfransı ilə bağlı daha bir fakta aydınlıq gətirmək vacibdir. Söhbət Bakı neftinə dair danışıqların pozulmasında Azərbaycan mühacirlərinin rolundan, daha doğrusu, bu rolun şişirdilməsindən gedir. Azərbaycan Cümhuriyyətinin Paris sülh konfransında təmsilçilərindən biri M.Mehdizadənin kitabında oxuyuruq: "...konfranslarda vüqu bulan [baş verən – *F.C.*] rəsmi müzakirədə bir kəlmə də neftdən söylənməyirdi. Konfransın neft bəhsindəki bu rəsmi sükunətini pozan şey yalnız Azərbaycan heyəti-mürəxxəsəsinin [nümayəndə heyətinin – *F.C.*] verdiyi etiraz notaları idi. Azərbaycanlıların bu xüsusda çıxardıqları protest sədaları ümumi ahəngi xələldar edirdi. Azərbaycan heyətinin bu məsələ ətrafında yapdığı iqdamlar [göstərdiyi fəaliyyət – *F.C.*] Lloyd Corc ilə Çiçerini əsəbiləşdirdiyi kimi, konfransın Bakı nefti üzərinə yapdığı qeyri-rəsmi bazarlıq əsanasında dəxi Azərbaycan millətpərəstlərinin qaldırdığı gürultu yoldaş Krasin ilə ser Henri Deterdinqi iz aç edir [həyəcanlandırır – *F.C.*] və məqsədlərinə qolayca nail olmalarına əngəl təşkil edirdi."[542]

Bu fikir müasir publisist Nazim Rza İsrafiloğlunun kitabında da təkrarlanır: "Azərbaycan Cümhuriyyəti nümayəndəliyinin etiraz notaları, protestləri və mətbuatdakı çıxışları öz işini gördü. Çiçerin və onun komandasına öz alçaq niyyətlərinə nail olmalarına imkan verilmədi."[543] Əslində isə yuxa-

---

[541] ARPİİSSA: f. 609, siy. 1, iş 31, v. 30.
[542] Mehdizadə M. Göst. əsəri, s. 15.
[543] İsrafiloğlu N.R. Odlu məmləkət. Bakı, 2002, s. 73.

rıda qeyd olunduğu kimi, neft barədə saziş başqa səbəblərə görə baş tutmamışdır.

Genuyada N.Nərimanov Cənubi Qafqaz mühacirətinin nümayəndələri Ə.Topçubaşova, A.Xatisova və İ.Tsereteliyə açıq məktub yazmış, onları Cənubi Qafqaz respublikalarının qanuni nümayəndələri kimi qələmə verdiklərinə görə tənqid etmiş, öz ölkələrini talan etdiklərinə, dağıtdıqlarına, xalqları bir-biri ilə vuruşdurduqlarına və s. görə ittiham etmişdir.[544]

N.Nərimanov özünün dediyi kimi, Genuyanı mayın 6-da, yəni konfransın başa çatmasına 13 gün qalmış, "ağır təəssüratla" tərk etdi.[545] Yolda o, "İzvestiya" qəzetinin müxbirinə müsahibə verərək neft konsessiyalarının hələlik həll olunmadığını bildirmişdir. Lakin N.Nərimanovun fikrincə, neft mədənlərinin bir hissəsinin konsessiyaya verilməsi Azərbaycana xeyir gətirməklə yanaşı, bütövlükdə sovet sənayesinin inkişafı üçün geniş imkanlar açardı. Öz xatirələrində N.Nərimanov Genuya konfransının yekunlarını belə səciyyələndirirdi: ""Genuya" kapitalist və imperialist Qərb üzərində sovet qələbələrindən birinin adıdır. "Genuya" burjua Qərbin sovet Şərqi qarşısında məğlubiyyətlərindən birinin adıdır. Kapitalizm üçün "Genuya" Napoleon üçün "Vaterloo"ya bərabərdir."[546] N.Nərimanov pafosla yazırdı: "Bizi Genuyaya döyüşə dəvət edəndə Avropa diplomatiyası ümid edirdi ki, sovet diplomatiyası zərbəyə tab gətirməyəcək. Lakin düşmənlərimiz səhv etdilər: qırmızı diplomatiya vaxtilə Qırmızı ordunun onlara göstərdiyi müqaviməti nümayiş etdirdi."[547] N.Nərimanovun xatirələrində Genuyada Bakı nefti uğrunda aparılan gizli və bəzən açıq mübarizə haqqında heç bir məlumat yoxdur. 1922-ci il mayın

---

544 ARPİİSSA: f. 609, siy. 1, iş 31, vv. 81-82.
545 ARPİİSSA: f. 609, siy. 1, iş 31, v. 55.
546 ARPİİSSA: f. 609, siy. 1, iş 31, v. 23.
547 ARPİİSSA: f. 609, siy. 1, iş 31, v. 24.

28-də Azərbaycan SSR XKS-in iclasında N.Nərimanov Genuya konfransı haqqında məruzə ilə çıxış etdi. Məruzə bəyənildi və N.Nərimanova XKS adından təşəkkür elan edildi.[548]

Sovet Rusiyası ilə Qərb ölkələri arasında münasibətlər məsələsi 1922-ci il mayın 15-dən iyulun 20-dək davam etmiş Haaqa (Hollandiya) konfransında da müzakirə predmeti olmuşdur. Sovet nümayəndə heyəti Qərb ölkələrinin kredit verəcəyi və çar hökumətindən qalan borclardan imtina edəcəyi təqdirdə Rusiyanın:

- hərbi müdaxilə və blokada nəticəsində dəymiş ziyanın ödənlməsi tələbindən imtina edəcəyinə;
- müharibəyəqədərki borcları tanıyacağına (faizləri ödəməmək şərtilə);
- milliləşdirilmiş müəssisələrin keçmiş xarici sahiblərinə konsessiyaya verəcəyinə dair öhdəlik götürürdü. Sovet hökuməti neft sənayesi üçün illik 10 mln. rubl kreditin verilməsini istəyirdi.[549] Sovet nümayəndə heyətinin Haaqa konfransına təqdim etdiyi siyahıda konsessiyaya çıxarılacaq sahələr arasında Bakıdakı neftli torpaqlar da var idi. Sovetlər keçmiş sahiblərin imtiyazları haqqında məsələni açıq qoyurdular və hətta Bakıda əvvəl işləməmiş şirkətlərə belə konsessiyalar verməyə razı idilər. Həmin şirkətlərin müraciətləri müzakirə olunmalı idi və ehtiyac yaransaydı, sovet hökuməti siyahıda göstərilən ərazidə onlara sahə ayıracaqdı. Əgər eyni vaxtda iki müraciət daxil olurdusa, iddiaçının təcrübəsi və xüsusi hüquqları (yəni onun Rusiya iqtisadiyyatında əvvəl təmsil olunub-olunmaması) diqqətə alınırdı. Beləliklə, sovet hökuməti yenə də müxtəlif neft inhisarları və ölkələr arasında ziddiyətlərin qızışdırılmasına üstünlük verirdi.

[548] ARDA: f. 411, siy. 1, iş 75, v. 1.
[549] Документы внешней политики СССР: Т.5, с. 470.

Qərb dövlətləri Rusiyanın təklifini qəbul etmədilər. Böyük Britaniyanın nümayəndəsi Lloyd Qrim bildirmişdir: "Əgər siyahı sovet hökumətinin qaytarılacaq mülkiyyət haqqında son sözüdürsə, onda bu qətiyyən qəbuledilməzdir."[550] Genuyadan fərqli olaraq, Haaqada Qərb dövlətləri daha mütəşəkkil çıxış etdilər və vahid mövqe ortaya qoydular – milliləşdirilmiş mülkiyyət ya qeyd-şərtsiz geri qaytarılmalı, ya da əvəzində kompensasiya ödənilməlidir. Bununla belə, Britaniya nümayəndə heyətinin rəhbəri demişdir ki, geri qaytarılmaqdan başqa heç bir real kompensasiya mümkün deyil.[551]

Beləliklə, həm Genuyada, həm də Haaqada Qərb və Rusiya ikitərəfli münasibətlərə dair yekdil fikrə gələ bilmədilər. Genuya konfransında olduğu kimi, Haaqa konfransında da Bakı nefti məsələsi mühüm rol oynayırdı. Haaqaya neft inhisarlarının və firmalarının rəhbərləri və nümayəndələri – H.Deterdinq, "Standard oyl"un, Fransa, Belçika şirkətlərinin təmsilçiləri gəlmişdilər.

Milliləşdirilmiş mülkiyyətə dair sovet hökuməti ilə uğursuz danışıqların təsiri ilə dünya neft inhisarları fəaliyyətlərini əlaqələndirmək qərarına gəldilər. 1922-ci il iyulun 18-də "Şell"in və "Standard oyl"un rəhbərləri – H.Deterdinq və U.Tiql Londonda görüşərək, birgə fəaliyyət haqqında müqavilənin imzalanmasını müzakirə etdilər.[552] Faktiki olaraq, söhbət Rusiyaya qarşı neft blokadasının elan olunmasından gedirdi. H.Deterdinqi və U.Tiqli bu addımı atmağa vadar edən amil sovet hökumətinin keçmiş mülkiyyəti geri qaytarmaqdan imtina etməsi və bu məsələyə dair Genuya və Haaqa konfranslarında nümayiş etdirdiyi qəti mövqeyi olmuşdur. Önəmli səbəblərdən biri də iri neft inhisarlarının Bakı neft sənayesinin tədricən bərpasından və bunun nəticəsi kimi Bakı neftinin ix-

[550] Документы внешней политики СССР: Т.5, с. 750-751.
[551] История дипломатии: Т.3, с. 196.
[552] Фурсенко А.А. Нефтяные войны…, с. 76.

racının artmasından narahat olması idi. Həm “Şell”, həm də “Standard oyl” anlayırdılar ki, dünya bazarına güclü rəqib – Bakı neftinə sahib olan Sovet Rusiyası çıxacaq. Azərbaycan tarixçisi Əli Əliyevin qeyd etdiyi kimi, Bakı neftinin dünya bazarlarına çıxması bir neçə amil ilə izah olunurdu. Bunların arasında Sovet Rusiyasının (daha sonra SSRİ-nin) beynəlxalq mövqeyinin nisbətən yaxşılaşması, neft sənayesində geriliyin aradan qaldırılması və sənayenin tədricən bərpa edilməsi, dünya iqtisadiyyatının neftə tələbatının artması, Bakının neft yataqlarının əlverişli coğrafi mövqeyi və nəhayət, Bakı neftinin yüksək keyfiyyəti və aşağı qiyməti əsas rol oynayırdı.[553]

1922-ci il iyulun 21-də Londonda U.Tiql, H.Deterdinq və Q.Nobelin görüşündə vahid antisovet neft cəbhəsi formalaşdırıldı. Tərəflər ümumi razılığa gəldilər ki, neft cəbhəsində Rusiyaya qarşı mübarizədə “boykot ən uyğun və hətta ən təmiz silahdır.”[554] U.Tiqlin tərtib etdiyi London memorandumunda üç şirkət Moskva ilə neft məsələlərinə dair bütün danışıqlarda keçmiş mülkiyyətin qaytarılmasını, milliləşdirmədən sonra dəymiş zərərin və ya tam kompensasiyanın ödənilməsini tələb edəcəkləri barədə razılığa gəldilər. Neft blokadasının iştirakçıları sovet hökuməti ilə heç bir separat danışıqlara başlaya bilməzdi.

1922-ci il sentyabrın 19-da Parisdə H.Deterdinqin sədrliyi ilə Rusiyadakı neft işində marağı olan ingilis, fransız, keçmiş rus və digər şirkətlərin nümayəndələrinin konfransı keçirildi. Tədbir iştirakçıları Rusiyaya qarşı vahid cəbhənin yaradıldığını bəyan etmiş və H.Deterdinqin təklifi ilə aşağıdakı məzmunda qətnamə qəbul etmişlər:

1. Maraqlı tərəflərdən heç biri sovet qanunları ilə hüquqlarından məhrum edilmiş digər mülkiyyətçilərin maraq və hüquqlarına zərər yetirməməlidir.

---

[553] Алиев А.П. Göst. əsəri, s. 25.
[554] Шишкин В.А. Göst. əsəri, s. 343.

2. Neftli torpaqların istismarı yalnız bütün maraqlı tərəflərin hüquqlarının bərpası və ya itkilərin əvəzinin ödənilməsi şərti ilə mümkündür.

3. Dövlətə məxsus neftli torpaqlar ümumi razılıq olmadan maraqlı tərəflərə fərdi konsessiyalar əsasında verilməməlidir.

4. Sovet hökuməti ilə danışıqlar yalnız birgə və yekdilliklə seçilmiş nümayəndələr vasitəsilə aparılmalıdır.[555]

Konfransda Bakı neftinə maraq göstərən tərəfləri birləşdirən "Rusiya neft sənaye cəmiyyətlərinin beynəlxalq qrupu"-nun ("Groupement İnternational des Societes Naphtife'res en Russie») yaradılması elan edildi. Qrupun icraiyyə komitəsinə H.Deterdinq, A.Bedford, Q.Nobel və digər neft maqnatları daxil olmuşdur.

1922-ci il sentyabrın 29-da Parisdə neft bloku üzvlərinin növbəti müşavirəsi keçirildi. Burada H.Deterdinq, Q.Nobel, S.Lianozov, A.Mantaşev, Ə.Çermoyev, A. və P.Qukasov qardaşları və Bakı neft müəssisələrinin digər keçmiş sahibləri iştirak edirdilər.[556] Müşavirədə 19 sentyabr qətnaməsinin ikinci bəndinin dəyişdirilməsi və itkilərin əvəzinin ödənilməsi prinsipindən imtina edərək, yalnız mülkiyyətin geri qaytarılmasının tələb olunması qərara alınmışdır.[557]

19 sentyabr qətnaməsinin birinci bəndi dolayısı ilə Rusiyadan neft məhsullarının ixracının qarşısını almağa yönəlmişdir. Həqiqətən də ilk vaxtlarda Rusiya neft məhsullarının satışında müəyyən çətinliklərlə üzləşdi. Benzinin və sürtkü yağlarının alınmasına dair "Standard oyl" ilə artıq razılaşdırılmış saziş ləğv olundu, "Şell" 100 min ton ağ neftin alınmasına dair Londonda artıq başa çatmaqda olan danışıqları dayandırdı.[558] La-

555 Шишкин В.А. Göst. əsəri, s. 344; Гофман К. Göst. əsəri, s. 276.

556 Бакинский рабочий, 25 мая 1923 г.

557 Шишкин В.А. Göst. əsəri, s. 344.

558 Шишкин В. А. Göst. əsəri, s. 345.

kin tezliklə bəlli oldu ki, ticarət maraqları neft inhisarlarının antisovet düşüncələrinə üstün gəlir. Qərb ölkələrinin Bakı neftinə tələbatı vahid cəbhənin dağılmasına səbəb oldu. Bir-birini qabaqlamaq, daha əlverişli mövqeləri tutmaq istəyən neft inhisarları sovet hökuməti ilə separat danışıqlara və sazişlərə getdi. Neft blokadasının və London memorandumunun əsas təşəbbüskarı olan ABŞ və onun simasında "Standard oyl" tresti bolşeviklərlə neft məsələsinə görə daha çox təmaslara can atırdı. Bir faktı da nəzərə almaq lazımdır ki, formal olaraq "Standard oyl" 19 sentyabr tarixli Paris qətnaməsini imzalamamışdır və beləliklə, Amerika tresti heç bir öhdəliklə özünü məhdudlaşdırmadığına görə Sovetlərlə münasibətlərin qurulmasında sərbəst idi. Əvvəlki fəsillərdə bəhs edildiyi kimi, amerikalılar Bakıda və Saxalində neft yataqlarında işləməyə buraxılmışdılar və "İnternational Barnsdall Co" şirkəti ilə bağlanan müqavilələr presedent yaratmışdır. Rusiyaya qarşı vahid neft cəbhəsini yaradan inhisarlardan heç biri blokada haqqında razılaşmaya ciddi riayət etmirdi. Bir müddət sonra "Şell" də, fransız firmaları da, eyni zamanda, başqa ölkələrin şirkətləri də Bakıdan neft məhsullarının alınması haqqında müqavilələr bağlamağa başladılar.[559]

Beləliklə, Bakının "qara qızılı"na maraq göstərən Qərb şirkətləri Rusiyanı uzunmüddətli neft blokadasında saxlamağı bacarmadılar. Bakı nefti yenidən ixrac olunmağa başladı və ildən-ilə ixracın həcmi artırdı. Beynəlxalq bazarda mövqeyini qəti şəkildə möhkəmləndirən Bakı nefti sovet neftinin oraya yolunu açdı. Azərbaycan neft sənayesinin uğurları təkcə kəmiyyət göstəriciləri ilə ölçülmürdü. Bu dövrdə ixracın strukturunda da ciddi dəyişikliklər müşahidə edilirdi. Əgər XX əsrin əvvəllərində ixrac olunan məhsullar arasında ağ neft üstünlük

---

559 Гофман К. Göst. əsəri, s. 277; Дэвенпорт Е., Сидней Р. Кук. Нефтяные тресты и англо-американские отношения. Москва, 1925, с. 129.

təşkil edir və ondan sonra benzin, xam neft və s. gəlirdisə, 20-ci illərdən etibarən ağ neftin xüsusi çəkisi azalmış, benzinin, yağların və xam neftin isə xüsusi çəkisi artmışdır. SSRİ-nin ümumi ixracatında ikinci yeri tutan neft ixracı ölkə üçün valyuta ehtiyatlarının əsas mənbəyinə çevrilmişdir.

# SÖZARDI

XX əsrin əvvəllərindən etibarən əsas yanacaq mənbəyinə çevrilən neft dünya iqtisadiyyatına, siyasətinə və beynəlxalq münasibətlərə ciddi təsir göstərməyə başlamışdır. Siyasətlə sıx bağlı olduğu üçün nefti haqlı olaraq "ən siyasi məhsul" adlandırırdılar. Xammalın bu növünün strateji əhəmiyyəti dünyanın aparıcı dövlətlərinin "qara qızıl" uğrunda kəskin mübarizəsini şərtləndirmişdir. Neftin çıxarıldığı ən böyük və zəngin bölgələrindən biri olan Bakı da bu mübarizədə mərkəzi yerlərdən birini tuturdu.

Birinci Dünya müharibəsinin nəticələri, Rusiya imperiyasının dağılması, böyük dövlətlərin Cənubi Qafqazda öz mövqelərini möhkəmləndirmək uğrunda mübarizəsi regionda vəziyyətin dəyişməsinə gətirib çıxarmışdır. Böyük dövlətlə-

rin maraqları bu və ya digər şəkildə Bakı nefti ilə bağlı idi. 1917-ci ilin oktyabrında Rusiyada bərqərar olan sovet rejimi imperiyanın süqut etməsinə baxmayaraq, Bakıya Rusiyanın mülkiyyəti kimi baxmağa davam edirdi. Bakıda bolşevik diktaturasının qurulması RSFSR-ə Cənubi Qafqazda öz siyasətini həyata keçirmək üçün əlverişli şərait yaratmışdır. Hakimiyyəti zəbt edən bolşeviklər Sovet Rusiyasını fasiləsiz olaraq neftlə təmin etmək üçün neft sənayesini milliləşdirdilər. Hazırlıqsız, tez-tələsik, repressiv üsullarla həyata keçirilən milliləşdirmə siyasəti neft sənayesində kəskin böhrana səbəb oldu. Lakin bolşeviklər əsas məqsədə – Sovet Rusiyasını neftlə təmin etməyə nail oldular. 1918-ci ilin aprelindən iyuluna qədər Bakıdan Rusiyaya 1,3 mln. ton neft və neft məhsulları daşınmışdır.

1918-ci ilin mayında Azərbaycanın müstəqilliyi elan olunandan sonra milli hökumət Bakının azad edilməsi vəzifəsini qarşısına məqsəd qoydu. Şəhəri əldə saxlamaq üçün Sovet Rusiyası Almaniya ilə sövdələşməyə getdi – bolşeviklər Bakı neftinin bir hissəsini almanlara verməli, almanlar isə Bakını Azərbaycan-Osmanlı qoşunlarından qorumalı idilər. Lakin Cənubi Qafqaz uğrunda beynəlxalq mübarizə Rusiyanın Bakını itirməsi ilə nəticələndi. Azərbaycanın müstəqilliyə qovuşması dağılmış iqtisadiyyatın dirçəlməsi üçün perspektivlər açırdı. Lakin bir sıra daxili və xarici səbəblər qarşıya qoyulan məqsədlərin həyata keçməsinə mane oldu. Bakını geri qaytarmağa çalışan Rusiya Azərbaycan Cümhuriyyətinin daxili işlərinə qarışır, ölkə daxilində sabitliyi pozurdu. Məqsəd bir idi – Bakını və onun neftini ələ keçirmək. Bakı neftinə kəskin ehtiyac duyan Rusiya bütün qüvvələrini şəhərin tezliklə alınmasına yönəltmişdi. Bolşeviklər üçün Bakının əhəmiyyəti o qədər böyük idi ki, V.Lenin Rusiya-Polşa müharibəsi getdiyi bir vaxtda cəbhədən qüvvələrin bir hissəsini geri çağırıb onları Azərbaycanın işğalına göndərmişdir.

1920-ci ilin aprelində Bakının tutulması RSFSR üçün böyük qazanc idi. Bununla belə, Moskva neft sənayesini tamamilə nəzarətə götürərək, Azərbaycanı öz təbii sərvətindən sərbəst istifadə hüququndan məhrum etmişdir. Neft məhsullarının satışından əldə olunan gəlirlər Rusiyanın dağılmış iqtisadiyyatının bərpasına, yeni müəssisələrin açılmasına, sənaye potensialının gücləndirilməsinə yönəldilirdi. Bakı nefti Rusiyada, daha sonra isə SSRİ-də sosialist iqtisadiyyatının bərqərar olmasında çox böyük rol oynamışdır. Neft nəinki ölkənin daxili tələbatlarını təmin edə bilmiş, həmçinin maliyyə resurslarının toplanması üçün mühüm mənbə rolunu oynamışdır.

Dünya bazarında yaranan əlverişli şərait XX əsrin 20-ci illərində Bakı neftinin dünya bazarlarına çıxmasına imkan yaratmışdır. Neftə olan tələbat Qərb dövlətlərinin Rusiyaya qarşı blokada və təcrid siyasətinin yumşaldılmasında mühüm rol oynamışdır. Faktlar sübut edir ki, neft 20-ci illərdə Sovet dövlətinin bəzi Avropa ölkələri tərəfindən tanınmasında mühüm stimul olmuşdur. Bakı nefti uğrunda beynəlxalq mübarizə 1922-ci ildə keçirilmiş Genuya konfransında zirvə nöqtəsinə çatmışdır. Konfrans zamanı Bakı məsələsi bir dəfə də olsun rəsmi müzakirəyə çıxarılmasa da, böyük dövlətlər və beynəlxalq inhisarlar arasında neft uğrunda pərdəarxası mübarizə gedirdi. Sovet Rusiyasının elan etdiyi konsessiyalar vasitəsilə Qərb dövlətləri Bakı neftinə yiyələnmək istəyirdilər. Lakin Bakıda konsessiyalar məsələsi Genuya konfransında öz həllini tapmadı. Sovet hökuməti ilə uğrusuz danışıqların təsiri altında dünya neft inhisarları Rusiyaya "neft boykotu" elan edərək, ondan neft məhsullarını almamaq qərarına gəldilər. 1922-ci ilin sentyabrında Parisdə Qərbin iri neft firmaları ittifaq bağlayaraq, sovet hökumətindən milliləşdirilmiş müəssisələri keçmiş sahiblərinə qaytarmağı tələb etdilər və bununla da faktiki olaraq, Rusiyaya neft blokadası elan etdilər. Ancaq tezliklə bəlli oldu ki, Qərb ölkələrinin Bakı neftinə tələbatı onların va-

hid cəbhəsinin təməlini zəiflədir. Bir-birini qabaqlamaq, daha əlverişli mövqelər əldə etmək istəyən neft inhisarları sovetlərlə separat danışıqlara və razılaşmalara getdilər. Bu işdə ABŞ daha çox fəallıq nümayiş etdirirdi. Amerikanın "İnternational Barnsdall Co" şirkəti Bakıda konsessiya almış, lakin bəzi səbəblərdən bu konsessiya uğursuz olmuşdur.

Ümumiyyətlə, qeyd olunmalıdır ki, Bakı neftinin xarici bazarlara çıxışı, Bakıda konsessiya siyasəti Sovet Rusiyasının Qərb dövlətləri ilə ikitərəfli əlaqələri üçün böyük əhəmiyyət daşıyır, həmçinin o dövrün beynəlxalq münasibətlərində mühüm rol oynayırdı. Ancaq təəssüflə söyləmək gərəkdir ki, həmin illərdə Bakı neftinin taleyini Azərbaycanın özü yox, xarici dövlətlər həll edirdilər...

# BİBLİOQRAFİYA

*Azərbaycan dilində:*

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: I cild, Bakı, 2004.

2. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar): I cild. Bakı, 1998.

3. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar): II cild. Bakı, 1998.

4. Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi: 5321, 5325 №-li qovluqlar.

5. Azərbaycan Respublikasının Dövlət Arxivi: 11, 28, 133, 411, 412, 970, 1610 №-li fondlar.

6. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi: 1, 5, 276, 456, 609 №-li fondlar, surət fondu.

7. Azərbaycan tarixi arxiv sənədlərində (1917-1920-ci illər): I cild. Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivinin sənədləri. Tərtibçi İ.Niftəliyev. Bakı, 2010.

8. Azərbaycan tarixi arxiv sənədlərində. Aprel-dekabr 1920-ci il: II cild. Tərtibçi İ.Niftəliyev. Bakı, 2012.

9. Əliyev C. Azərbaycanda neft sənayesinin inkişafı tarixindən. Bakı, 1960.

10. Əliyev İ.H. Azərbaycan nefti dünya siyasətində: II cild. Bakı, 1997.

11. Həsənli C.P. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı, 2009.

12. Həsənli C.P. Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov. Bakı, 2013.

13. İsrafiloğlu N.R. Odlu məmləkət. Bakı, 2002.

14. Qaffarov T. Azərbaycan neft sənayesi Sovet hakimiyyəti illərində / Azərbaycan neft sənayesinin tarixinə dair I Beynəlxalq konfransın materialları. Bakı, 1996.

15. Qafarov V.V. Azərbaycan Türkiyə-Rusiya münasibətlərində (1918-1922). Bakı, 2020.

16. Qasımov M.C. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər). Bakı, 1998.

17. Quliyev V. Densterfors Bakıda. General Denstervilin Bakı gündəliyi. Bakı, 2018.

18. Maksvell N. Azərbaycan demokratik hökumətinin siyasətində neft məsələsi / Azərbaycan neft sənayesinin tarixinə dair I Beynəlxalq konfransın materialları. Bakı, 1996.

19. Mehdizadə M. Beynəlmiləl siyasətdə petrol. Bakı, 1994.

20. Mouzer Ç. Zaqafqaziya haqqında qeydlər / "Tarix" qəz., 7 mart 1991-ci il.

21. Nərimanov N.N. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub). Bakı, 1992.

22. Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı, 1996.

23. V.İ.Lenin Azərbaycan haqqında. Bakı, 1970.

*Rus dilində:*

24. Агаев К.А. Особая морская экспедиция. Баку, 1967.

25. Азербайджан, 3 ноября 1918 г.

26. Азербайджан архиви, 1971, №1.

27. Азербайджанская Демократическая Республика (1918-1920). Баку, 1998.

28. Азербайджанская Демократическая Республика. Архивные документы Великобритании. Составитель Н.А.Максвелл. Баку, 2011.

29. Азербайджанская Демократическая Республика. Внешняя политика. Баку, 1998.

30. Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты. Сборник документов. Баку, 1998.

31. Азербайджанская Демократическая Республика. Парламент. Стенографические отчеты. Баку, 1998.

32. Азербайджанская нефтяная промышленность на 1-е декабря 1922 г. Доклад начальника «Азнефти» А.П.Серебровского. 1922.

33. Азербайджанская Республика. Документы и материалы / под ред. Дж.Б.Гулиева. Баку, 1998.

34. Азизбекова П.А. Руководство В.И.Ленина социалистическим строительством в Азербайджане в 1920-1923 гг. Баку, 1960.

35. Азизбекова П.А., Мнацаканян А.Н., Трускунов М.Б. Советская Россия и борьба за установление и упрочение власти Советов в Закавказье. Баку, 1969.

36. Азимов Г.С. Бакинская коммуна. Баку, 1982.

37. Алиев А.П. История борьбы против капиталистических нефтяных монополий и выхода советской нефти на мировой рынок (1920-1937) / Автореферат диссертации доктора исторических наук. Баку, 1960.

38. Алияров С.С. Нефтяные монополии в Азербайджане в период первой мировой войны. Баку, 1974.

39. Арнот П. Мировая политика нефти. Москва-Ленинград, 1925.

40. Ахундов Б.Ю. Монополистический капитал в дореволюционной нефтяной промышленности. Москва, 1959.

41. Бабаев М.З. Азревком – орган диктатуры пролетариата / Azərbaycan arxivi, 1969, №1.

42. Бакинская нефтяная промышленность за три года национализации. Баку, 1923.

43. Бакинский рабочий, 23 мая 1921 г.

44. Бакинский рабочий, 2 февраля 1922 г.

45. Бакинский рабочий, 12 февраля 1922 г.

46. Бакинский рабочий, 13 февраля 1922 г.

47. Бакинский рабочий, 23 апреля 1922 г.

48. Бакинский рабочий, 3 октября 1922 г.

49. Бакинский рабочий, 8 марта 1923 г.

50. Бакинский рабочий, 9 марта 1923 г.

51. Бакинский рабочий, 25 мая 1923 г.

52. Богдановский С. Кавказская нефть, как объект империализма / Мировое хозяйство и мировая политика, 1927, №9.

53. Большевистское руководство. Переписка. 1912-1927. Сборник документов. Составители: А.В.Квашонкин, О.В.Хлевнюк, Л.П.Кошелева, Л.А.Роговая. Москва, 1996.

54. Борьба за победу Советской власти в Азербайджане. 1918-1920. Документы и материалы (редколлегия: И.А.Гусейнов, Е.А.Токаржевский, Х.Г.Везиров и др.). Баку, 1967.

55. Братья навеки. Документы и материалы об исторической дружбе русского и азербайджанского народов: Т.1. Баку, 1987.

56. Василенко А.Б. Каспийская нефть в геополитической стратегии руководства Советской России (1917-1922 гг.) / Нефть страны Советов. Проблемы нефтяной промышленности СССР (1917-1991 гг.) Под общей редакцией В.Ю.Алекперова. Москва, 2005.

57. Великая Октябрьская социалистическая революция и победа Советской власти в Армении. Сборник документов / Под ред. А.Н.Мнацаканяна. Ереван, 1957.

58. Внешняя торговля СССР. Статистический сборник. Москва, 1967.

59. Внешняя торговля СССР за 1918-1940 гг. Статистический сборник. Москва, 1960.

60. Военные моряки в борьбе за власть Советов в Азербайджане и Прикаспии. 1918-1920: Сборник документов. Баку, 1971.

61. Волков Ф.Д. Крах английской политики интервенции идипломатической изоляции Советского государства (1917-1924). Москва, 1954.

62. Вывоз бакинских нефтепродуктов в 1920-1923 гг. / Азербайджанское нефтяное хозяйство, 1924, №3.

63. Вывоз нефти из Баку за пять лет национализации / Экономический вестник Азербайджана, 1925, №1.

64. Гассиев И.К. Братская взаимопомощь народов Закавказья и Дагестана в строительстве социализма / Азербайджан архиви, 1969, №1.

65. Гофман К. Нефтяная политика и англо-саксонский империализм. Ленинград, 1930.

66. Гулиев Г.Б. Национализация промышленности Азербайджана (октябрь 1917-весна 1922 гг.) / Автореферат диссертации кандидата исторических наук. Баку, 1990.

67. Гулиев Дж.Б. К истории образования Второй республики Азербайджана. Баку, 1997.

68. Дарабади П.Г. Военные проблемы политической истории Азербайджана начала XX века. Баку, 1991.

69. Декреты Азревкома (1920-1921). Баку, 1988.

70. Делези Ф. Нефть. Москва, 1923.

71. Денни Л. Борьба за нефтяную монополию. Москва-Ленинград, 1934.

72. Доклад А.Серебровского «Экономическое положение и хозяйственная политика АССР» / AMEA A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi: qovluq № 5327.

73. Документы внешней политики СССР: Т.1, Москва, 1957.

74. Документы внешней политики СССР: Т.2. Москва, 1958.

75. Документы внешней политики СССР: Т.3. Москва, 1959.

76. Документы внешней политики СССР: Т.4. Москва, 1960.

77. Документы внешней политики СССР: Т.5. Москва, 1961.

78. Дэвенпорт Е., Сидней Р. Кук. Нефтяные тресты и англо-американские отношения. Москва, 1925.

79. Заря Востока, 14 декабря 1922 г.

80. Ибрагимов М.Дж. Нефтяная промышленность Азербайджана в период империализма. Баку, 1984.

81. Из истории развития азербайджанской нефтяной промышленности. Обзор документов. Баку, 1963.

82. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане / Азербайджан архиви, 1988, №1-2.

83. Искендеров М.С. С.М.Киров в Азербайджане. Баку, 1970.

84. История Азербайджана: Т.3, ч.1. Баку, 1963.

85. История дипломатии: Т.3. Москва, 1965.

86. Киров С.М. в борьбе за нефть. Баку, 1935.

87. Киров С.М. Избранные статьи и речи. Москва, 1957.

88. Коммунист, 2 декабря 1920 г.

89. Коммунистическая партия Азербайджана в резолюциях и решениях съездов, конференций и пленумов ЦК: Т.1. Баку, 1986.

90. Копия рукописи книги А.Микояна «В революционном Баку. 1918-1920 годы»: Т.1 / AMEA A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi: qovluq № 5525.

91. Косторниченко В.Н. К вопросу о национализации отечественной нефтяной промышленности в 1918 г. / Экономическая история. Обозрение. Выпуск 10. Москва, 2005.

92. Косторниченко В.Н. Концессионная политика советского руководства в нефтяной промышленности в 20-30-е гг. XX века / Нефть страны Советов. Проблемы нефтяной промышленности СССР (1917-1991 гг.) Под общей редакцией В.Ю.Алекперова. Москва, 2005.

93. Ленин В.И. Неизвестные документы. Москва, 1999.

94. Ленин В.И. Полное собрание сочинений: Т.54. Москва, 1983.

95. Ллойд-Джордж Д. Военные мемуары: Т. 5. Москва, 1938.

96. Лопатин В.Ф. Провал антисоветских планов США. Генуя-Гаага. 1922. Москва, 1963.

97. Людендорф Э. Мои воспоминания о войне 1914-1918 гг.: Т.2. Москва, 1924.

98. Ментешашвили А. Из истории взаимоотношений Грузинской Демократической Республики с советской Россией и Антантой. 1918-1921 гг. // http:sisuari.tripod.com

99. Микоян А.И. Так было. Москва, 2002. // http:biblioteka.org.

100. Мурадалиева Э.Б. Кровь земная – нефть Азербайджана и история. Баку, 2005.

101. Мустафазаде Р.С. Две Республики: Азербайджано-российские отношения в 1918-1922 гг. Москва, 2006.

102. Нариманов Н.Н. Избранные произведения: Т.2. Баку, 1989.

103. Нефтяное дело, 1918, №11-12.

104. Нефтяное дело, 1918, №17-20.

105. Нефтяное дело, 1919, №3-4.

106. Нефтяное дело, 1919, №5-6.

107. Нефтяное дело, 1919, №15-16.

108. Нефтяное дело, 1919, №17-18.

109. Нефтяное дело. 1920, №4.

110. Новейшая история Отечества. XX век. Москва, 1999.

111. О концессиях в нефтяной промышленности / Экономический вестник, 1922, №3.

112. Орджоникидзе Г.К. Статьи и речи: Т.1. Москва, 1956.

113. Павлович М. Мировая борьба за нефть. Москва, 1923.

114. Пипия Г.В. Германский империализм в Закавказье в 1910-1918 гг. Москва, 1978.

115. Правда, 2 апреля 1922 г.

116. Правда, 21 сентября 1922 г.

117. Раевский А. Английская интервенция и мусаватское правительство. Баку, 1927.

118. Рубинштейн Н.Л. Советская Россия и капиталистические государства в годы перехода от войны к миру (1921-1922). Москва, 1948.

119. Рустамова Х.А. История национализации нефтяной промышленности Азербайджана (1920 г.): Автореферат диссертации кандидата исторических наук. Баку, 1965.

120. Серебровский А.П. Руководство В.И.Ленина восстановлением нефтяной промышленности. Москва, 1958.

121. Системная история международных отношений 1918-1945. События и документы / Под ред. А.Д.Богатурова. Т.1, Москва, 2000 // www. obraforum.ru.

122. Соколов А.К. Советский Нефтесиндикат на внутреннем

и международном рынках в 1920-е годы / Экономическая история. Обозрение. Вып.10. Москва, 2005.

123. Султанов Ч.А. Нефть / www.sultanov.azeriland.com.

124. Токаржевский Е.А. Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку, 1957.

125. Токаржевский Е.А. Очерки истории Советского Азербайджана в период перехода на мирную работу по восстановлению народного хозяйства. Баку, 1956.

126. Топчибаши А.М. Парижский архив 1919-1940. В четырех книгах. Книга первая 1919-1921. Составители Г.Мамулиа и Р.Абуталыбов. Москва, 2016.

127. Топчибаши А.М. Парижский архив 1919-1940. В четырех книгах. Книга вторая 1921-1923. Составители Г.Мамулиа и Р.Абуталыбов. Москва, 2016.

128. Фишер Л. Империализм нефти. Москва-Ленинград, 1927.

129. Фурсенко А.А. Нефть и политика: история и современность / Новая и новейшая история, 1987, №3.

130. Фурсенко А.А. Нефтяные войны (конец XIX-начало XX вв.). Ленинград, 1985.

131. Хармандарян С.В. В.И.Ленин и становление Закавказской федерации. 1921-1923 гг. Ереван, 1969.

132. Чичерин Г.В. Статьи и речи по вопросам международной политики. Москва, 1961.

133. Шаумян С. Бакинская коммуна. Баку, 1927.

134. Шаумян С.Г. Избранные произведения: Т.2. Москва, 1978.

135. Шаумян Ст. Статьи и речи. 1917-1918 гг. Баку, 1929.

136. Шишкин В.А. Советское государство и страны Запада в1917-1923 гг. Ленинград, 1969.

137. Шпотов Б.М. Использование опыта США в реконструкции советской нефтяной промышленности в 1920-30-е гг / Российский журнал менеджмента. Том 4, №1, 2006.

138. Юсифзаде С.З. Первая Азербайджанская Республика: история, события, факты англо-азербайджанских отношений. Баку, 1998.

# ADLAR GÖSTƏRİCİSİ

**A**
Ağamalıoğlu S. 202
Aqaronyan A. 200, 201
Arnot P. 21
Arutyunov S. 147

**B**
Barinov M. 173
Bedford A. 210, 211, 219
Boyl C. 196
Brendstrem 55
Brian A. 200

**C**
Caparidze P. 27, 30, 46
Cavanşir B. 78
Cəfərov M. 81

**Ç**
Çadborn F. 191
Çagin P. 173
Çayld R. 208, 211
Çemberlen N. 196
Çermoyev Ə. 200, 201, 219
Çxenkeli A. 200, 201
Çiçerin G. 68, 70, 100, 101, 103, 104, 108, 162, 184, 200, 205, 206, 214

**D**
De Robek C. 94

Denikin A. 87, 95, 99-101, 104, 201
Denstervil L. 69, 74
Deterdinq H. 198, 207, 214, 217-219
Dey M. 186, 191
Dosser Z. 32, 42, 48, 180-182
Dots 123
Dovlatyan İ. 149

**Ə**
Əliyev Ə. 218
Əminov A. 109
Ənvər paşa 63

**F**
Fioletov İ. 36, 48, 52
Fişer L. 179
fon Hindenburq P. 73
fon Kress 71
Frumkin M. 172, 173
Fursenko A. 15

**H**
Hacınski M. 67, 68, 80
Hagelin 71
Hamilton Lyuis D. 206
Hardinq Ç. 102
Hauşild 70
Hayatov 123
Həsənli C. 74, 102
Hofmann K. 189
Hyuz E. 210, 211

**X**
Xasməmmədov X. 63

Xatisov A. 215
Xəlil paşa 106
Xinçuk 134
Xoyski F. 80, 81, 85, 86, 99, 100, 107

**İ**

İldırım Ç. 97
İoffe A. 65, 66, 75
İsrafiloğlu N.R. 214

**J**

Jordaniya N. 62

**K**

Kalinin M. 200
Karaxan L. 109
Kerzon C. 94
Kirov S. 96-98, 103, 116, 126, 128, 172, 213
Kobozev P. 46
Kojemyako D. 96
Koqen R. 207
Kolçak A. 100
Kolomiytsev İ. 98
Kori G.N. 87
Kostorniçenko V. 45
Krasin L. 162, 163, 169, 170, 174, 180, 182, 183, 187, 196, 205, 208, 209, 214
Külman 66
Kvantaliani Y. 104
Kvyatkovski A. 57

**Q**

Qarayev Ə. 106, 107, 129, 155
Qolubyatnikov D. 124

Quber F.A. 188
Qubkin İ. 14, 124, 180, 181, 183
Qukasov A. və P. 34, 198, 219
Qukovski İ. 37, 38, 46
Quliyev C. 126

**L**

Lenin V. 26, 31-33, 35, 36, 38-40, 43-49, 52, 62, 65-69, 75, 88, 89, 95, 97, 103, 105, 106, 108, 111, 118, 126-129, 140, 151, 155, 156, 166, 168, 170, 178-182, 184, 185, 203, 205, 224
Lessner A. 34
Levandovski M. 106
Lianozov S. 34, 198, 219
Lloyd-Corc D. 159, 199, 207, 211, 212, 214
Lloyd Qrim 217
Loqan 206
Lüdendorf E. 60, 73
Lyadov M. 137
Lyuk Q. 110

**M**

Maxrovski K. 53, 54
Makdonou 74
Maksvell N. 35
Mantaşev A. 34, 198, 219
Mehdizadə M. 102, 214
Mehmandarov S. 90
Menjinski V. 172
Məhəmməd Eyni bəy 169
Məlikaslanov X. 83
Məlikov M. 109
Mikoyan A. 33, 34, 38, 39, 44, 45
Milspo 208
Mirzoyan L. 173

Moiseyev M. 82
Morris 186, 187
Mouzer Ç. 187
Movinkel 208, 209
Musabəyov Q. 139-141, 173
Myasnikov A. 149

**N**
Naneyşvili V. 103
Napoleon 215
Nərimanov N. 51, 118, 123, 126, 127, 130, 133-135, 140, 141, 145, 148, 149, 151, 157, 170, 185, 202, 203, 212-216
Nobel qardaşları (Nobellər) 17, 34, 37, 47, 71, 112, 197, 198, 208, 210, 218, 219
Nuru paşa 73
Nülans 170

**O**
Oqandjanyan A. 147, 148
Oraxelaşvili İ. 193
Orconikidze G. 104-106, 126, 128, 154-156, 168
Orlov İ.P. 81
Ovey E. 196

**P**
Pipiya G. 71
Pritula İ. 171
Pyatakov G. 138

**R**
Raskolnikov F. 105
Rəsulzadə M. 63, 67-69, 72, 80, 81, 90
Rıkov A.İ. 38, 173, 181
Ritsler K. 68

Rotşild 17
Rüfət paşa 75
Rüstəmbəyov F. 123
Ryazanski S. 132
Rzayev B. 109

**S**

Salko S. 46
Selavri S.İ. 108
Serebrovski A. 80, 106, 117-120, 123, 127, 128, 137-142, 149, 166-173, 175, 182, 184, 186-191
Səfikürdski A. 63
Sivkov 123
Smilqa İ. 105, 122, 134, 135, 169, 173, 174, 185
Smirnov N. 180
Solovyov N. 109
Sosnin D. 43
Stalin İ. 30, 31, 40, 45-48, 54, 65, 66, 104, 119, 126, 146, 150-152, 173, 180, 193, 204
Stouks 74
Strijov İ. 180
Sultanov H. 155

**Ş**

Şamonin D. 31
Şaumyan Stepan 24, 30, 31, 33, 37-40, 43, 44, 46, 49, 52, 54, 62, 65-69, 88
Şaumyan Suren 33, 46
Şeynman A. 109, 152, 153
Şibayev 34
Şirvani Ə. 203
Şlyapnikov A. 89

**T**
Tagianosov S. 34, 123
Ter-Qabrielyan S. 29, 31, 33, 37, 38, 45, 54, 55, 65
Təkinski M. 147
Tələt paşa 75
Tiql U. 197, 209, 217, 218
Titorets A. 99
Topçubaşov Ə. 102, 162, 163, 200, 201, 215
Tsaturov 198
Tsereteli İ. 215
Tsevçinski A. 180

**V**
Vanderlip F. 184
Vasilenko A.B. 82
Vəkilov R. 109
Volkov F. 209
Vrangel 121, 160, 201

**Y**
Yegiazarov 123
Yeqorov A. 188
Yeltsov 40
Yevreinov 123
Yudeniç N. 100
Yusifbəyli N. 85-87, 90-95, 99, 110, 147

**Z**
Zubkov V. 189